A Ğ A S Ə N B Ə D Ə L Z A D Ə

BU DÜNYANIN

HƏR ÜZÜNÜ

GÖRMÜŞƏM

“ELM VƏ TƏHSİL”
BAKI-2012

Redaktor: **Oqtay Rza**
Beynəlxalq R.Rza mükafatı laureatı,
əməkdar müəllim

Rəyçilər: **Məhərrəm Hüseynov**
filologiya elmləri namizədi, dosent

Kamil Bəşirov
filologiya elmləri namizədi, dosent

Ağasən Bədəlzadə. *Bu dünyanın hər üzünü görmüşəm (şeirlər). Bakı, "Elm və Təhsil", 2012, 279 səh..*

Fitri istedadlı şair, görkəmli ədəbiyyatşünas – alim A.Bədəlzadənin "Bu dünyanın hər üzünü görmüşəm" kitabı gərgin ilhamlı əməyin məhsuludur. Gerçəkliyi öz ziddiyyətləri ilə qavramaq və mənalandırmaq buradakı şeirlərdə lirik ovqatın, lirik təfəkkürün özünəməxsusluğudur. Həyat hadisənin iki əks, təzadlı təzahürünü ifadə etmək A.Bədəlzadə poeziyasının əsas poetik mənalandırma formasıdır. Şair öz təravətli, emosional, parlaq obrazlar silsiləsi, mülayisə və səmimi poetik intonasiya ilə oxucunu heyrətləndirə bilir. Romantik – lirik obrazlı təfəkkürə, fəlsəfi düşüncə tərzinə malik olan şairin qeyri – adi, müstəsna assosiasiyalar törədən fikirləri əlvan, təzadlı hisslər spektri ilə təqdim olunur. Geniş miqyaslı və əhatəli həyəcanlar mənalı və mündəricəli peotik üsullarda yaradılır.

"Elm və Təhsil", 2012

ƏZİZ OXUCULARIMA

Mənim bu kitabımın, şerlə başlayan ilk səhifəsini açan hər hansı bir oxucu həm də mənim könül evimin qapısını açan ilk həmdəmim, ilk məhrəm qonağımdır. Bu oxucu bəlkə də ilk misradan mənim könül otağım haqqında öz təəssüratını kiməsə deməyə ehtiyac hiss edəcək: məni görmədən bu şerlər haqqında öz obyektiv fikirlərini bölüşmək istəyəcək. "Misra, sözünün ərəb dilində "qapı" deməkdir. Bir qapını ilk dəfə açan qonaq ev sahibi ilə qarşılaşarkən onun üzündəki ifadələrə, gözlərindəki işartılara baxıb, onun necə adam olduğu haqqında ilk gizli, dəruni fikirlərini bildirəcək, sonra həmin evin içərisinə tərəddüdlə, könülsüz cəsarətsiz keçməyəcək, evin bütün daxili məzmununu öyrənməyə, evin forma və məzmunu, estetikası ilə ev sahibinin insana münasibəti arasındakı uyğunluğu, tənasübü, yaxud ziddiyyəti parodoksal əlamətləri özü konkretləşdirəcəkdir. Bu zaman o, birinci növbədə ev sahibinin səmimi olub-olmamasının müəyyənləşdirməyə çalışacaq.

Mən özümü belə bir sahibi hesab edirəm və təbii ki, könül evimin necə qarşılanacağı ürəyimdə bir narahatlıq ,təlatüm yaradır. Amma əziz oxucularıma bildirirəm ki, zəif şerlərimi də, bir azca bəyəniləsi misralarımı da yazarkən ürəyimdən bir "millimetr, də kənara çıxmamışam. Ancaq onun səsini ,əmrini, tələb və istəklərini eşidib, bu tələblərə cavab verməyə çalışmışam. Ümumiyyətlə, şer yazmağa başladığım ilk gündən naməlum oxucularımın xəyali obrazlarını gözlərim önünə gətirmişəm və bu oxucularımdan qorxmuşam. Yazılarım haqqında azacıq xoş söz deyən hörmətli oxucumun münasibətini sadəcə olaraq mənə hörmət kimi qəbul etmişəm, fikirləşmişəm ki, bəlkə mənim qəlbimə dəymək istəməyib. Ancaq həmişə oxucularımı razı salmaq istəmişəm, hətta öz şerlərimdən birini də olsa, "bəyənmişəmsə, iki gündən sonra bu fikrimdən daşınmışam, həmişə daha yaxşı yazmağa cəhd göstərmişəm. Bu yerdə bir antik yunan heykəltəraşı haqqında rəvayətin ideyasını özüm üçün meyar, mizan-tərəzi kimi götürmüşəm! Çox istedadlı bir heykəltəraş gözəl bir heykəl yaradır və işini qurtardıqdan sonra bu sənətkar heykəli başdan-ayağa keçirir. Ona elə gəlir ki, bu heykəlin heç bir qüsuru yoxdur, bu zaman onun ürəyində təbii bir razılıq hissi yaranır. Səhərisi günü bu heykəltəraş gəlib, bir də öz

sənət əsərinə baxır, birdən onun ürəyi sıxılır, üzünə qara buludlar çökür, hönkür-hönkür ağlamağa başlayır. Bu zaman yoldan ötənlər maraqlanıb sənətkarın yanına gəlir və ondan ağlamağının səbəbini soruşurlar. Çox qəribə cavab eşidirlər: "Mən bu heykəli dünən bitirmişəm, dünən bu əsərdə heç bir nöqsan görə bilməmişəm, bu gün də bu heykələ baxıram, yenə də bir qüsur görə bilmirəm, deməli dünəndən bəri mən axtarmamışam, təfəkkürüm inkişafdan dayanıb!"

Əlbəttə, bu sözlərdən sonra adamları qəribə bir heyrət hissi bürüyür. Amma böyük sənətkar düz deyirmiş, hər gün artmaq lazımdır. Mən şerə-sənətə bu meyarla yanaşıram!

Sözün məğlub edilməz sultanı Nizami də, poeziyanı Məcnuna döndərən sehrkar Fizuli də öz zəmanəsində söz xiridarlarının azalmasından gileylənib. Fizuli: Bir dövrdəyəm ki, nəzm olub xar, yaxud "Dövran istər ki, xar ola nəzm" Biizzətü bietibar ola nəzm, deyirdisə, indi öz bədii zövqünü, estetik meyarını itirən, hər şeyə qarın ilə gözü ilə baxan yırtıcı kapital dünyasında mənim kimi çox kiçik şairlərin yazılarına münasibətin soyuqluğu nə dərəcədə ola bilər! Mənim bircə təsəllim odur ki, ən biganə və soyuq zəmanədə belə öz bədii-estetik zövqünü itirməyən, gözəlliyə, poeziyaya olan olan qaynar, isti münasibətini itirməyən, insanlar hələ də qalır. Əgər zaman az da olsa belə insanlarla təmasdadırsa, deməli poeziya da yaşayır. Belinskinin məşhur kəlamı indi də böyük həqiqət kimi səslənir və bizə ümid verir! "Harada həyat varsa, orada poeziya da vardır!" Allaha şükür ki, hələ həyatın nəfəsi vardır, hələ sözün, əlbəttə yaxşı sözün xiridarları vardır.

Arzum budur ki, şeirlərimdən bircə dənə də olsa, onların xoşuna gəlsin.

Müəllif.

DÜNYANIN İŞİ BELƏDİR

Göyərçin içində demə ki, div var,
Göyərçin uyuyur div içində də.
İnsan xislətində gör neçə növ var,
Min bir növ gizlənib növ içində də.
Gör kimə tərifsən, kimə hərifsən,
Gül qədrini bilsən, güldən zərifsən.
Həyata yapışsan, dünyanı sevsən,
Dünya yaradarsan ev içində də.
Sevgidə qəm yoxsa, tez ögeyləşir.
Duygular korşalır, agıl keyləçir.
Sevgi sevincdən çox qəmə öyrəşir.
Lap min dərdin-qəmin sev içində də
Demə çeşmə tapıb, gölü qurutdum,
Demə beşi tapıb, biri unutdum.
Demə çox qazandım, demə çox uddum,
Uduzan uduzur nəf içində də.
Yollara havayi döşənmir çayır,
Çayir da yollara bir ətir yayır.
Baxma dəf çalinir,dəf gumbuldayır,
Bir pünhan qüssə var dəf içində də.
Haqq iş görmək gərək,haq diləmək yox.
Dərd eləmək gərək,dərd ələmək yox.
Məhv eləmək dərddir,səhv eləmək yox,
Həqiqət tapılar səhv içində də.
Sən demə həmişə bahar şən keçir,
Onun da qoynundan duman-çən keçir.
Şübhə böyüdüsə,dəmirdən keçir.
Gizlədə bilməzsən seyf içində də
Agasən, qoyma dərd dərdi böyüdə,
Bir dərddən yapış ki,dərdi üyüdə.
Xoşbəxtlər həzm edir bədbəxtliyi də,
Bədəxtbəxtlər bədbəxtdir kef içində də! *08.03.2012*

QALMADI

O boyda dərdim əridi,
Yandırdım-yaxdım qalmadı.
Qocalıq elə yeridi,
Cavanlıq taxtım qalmadı.
Əzəldən yolum dar idi,
Baxtın qulagı kar idi.
Nə qədər ümid var idi,
Daşlara çaxdım,qalmadı.
Çəkdim ömrün qubarnı,
Daddim min dərd nübarını.
Könlümün daş-divarını,
Uçurtdum,yıxdım qalmadı.
Mən öz yanğımdan koz aldım,
Əzəl dərsimı düz aldım.
Özgənin dərdinə qaldım,
Özümə vaxtım qalmadı. *08.09.2010*

MƏN TƏLƏSMİRƏM

Ölüm,tələsdirmə hələ sən məni,
Yaşim daşa dönüb,yük olub qalıb.
Kim görüb ömründə tələsən məni,
Mənim budagım da kök olub qalıb.
Hamıya müqəddəs bir din vətəndir,
Birinci,sonuncu yerin vətəndir.
Ömür mənim üçün şirin vətəndir,
İndi də şirincə mülk olub qalıb.
Kim doyub dunyanin hay-harayından,
Ömürçün əl çəkər şah sarayından.
Bənövşə küsübdür ömür payından,
Boynu kol dibində bükülüb qalıb.
Gerçəkdən ilham al,əfsanədən yox,
Dərdlidən məlhəm al biganədən yox.
Torpaqdan bərk yapış,gur xanədən yox,
Yerdə çox xanələr sökülüb qalıb.

Kim qoyar dünyaya bir də mən gələm,
Paltar deyiləm bir də geyiləm.
Mən hələ ölümə hazir deyiləm,
Hələ işim-gücüm tökülüb qalıb.
Ocaq qalayıram qorda olsa da,
Görürəm gözlərim torda olsa da.
Mənim bir ayagim gorda olsa da,
Gözlərim həyata dikilib qalıb.
Yersiz ölüm deyib biz qışqırırıq,
Qalxıb köçümüzü yığışdırırıq.
Ölümü özümüz qızışdırırıq,
Ölüm bir kənarda çəkilib qalib. *26.02.2012*

ÇATIŞMIR

Baxırsan ki, bu dağ-dərə heç nədir.
Min göz olsa bir baxmağa çatışmır.
Boz səhralar gör nə yaman təşnədir,
Leysan yağış yağa-yağa çatışmır.
Ürəkdə yox, arzu işdə səs eylər,
Yaman niyyət xoş arzumu nəs eylər.
Yaratmağa əlli il də bəs eylər,
Lap min il də kef-damağa çatışmır.
Bir gölgədə min bir ceyran yatışar,
Beş namərdsə bir-birilə atışar,
Bir düz səmtə bir zərrə od çatışar,
Səpələsən sola-sağa çatışmır.
Min bir meşə bir günəşə boylanır,
Bir gül üçün dağ yüz yerdən laylanır.
Bir dağ çayı boz səhraya paylanır,
Dağın suyu heç bir dağa çatışmır.
Qocalırıq ömür keçir yaş keçir,
Axıracan kimin ömrü xoş keçir.
Bu dünyadan milyon illər boş keçir,
Bir tam ömür yaşamağa çatışmır! *18.03.2012*

HƏYAT VƏ ÖLÜM

Bu yandan dərədir,o yandan qaya,
Ocaq tüstülənir,od sönük qalır.
Göz qabağa baxır,könül arxaya,
Yaşadığı günə üz dönük qalır.
Dolanır göyləri xəyal boş-bekar,
Ömürçün ovçuyuq,ölümçün şikar.
Cavanlıq günündən sənə yadigar,
Saçında beş-altı qara tük qalır.
Bir naxışda olmur yolu günlərin,
Var başı,ayağı,qolu günlərin.
Ağırlığı olmur yolu günlərin,
Boş günlər həmişə bizə yük qalır.
Könül,həyatındır qolun-qanadın,
Sevgin,məhəbbətin,arzun,muradın.
Varlığın həyatın,ruhun həyatın,
Ölümə tək ancaq sür-sümük qalır. *15.03.2012*

KİM DEYİR Kİ,.....

Yol yorular,bir mənzildə bitməsə,
Gah güllükdə,gah kolluqda itməsə.
Baş neyləyər ayaq durub getməsə,
Kim deyir ki,ayaq başa tabedir.
Torpaq çəkir baharı da,qışı da,
Bir yol gedir bələdçi,də naşı da.
Torpaq saxlar öz içində daşı da,
Nə bilirsən torpaq daşa tabedir.
Qar əriyir,qar artırır çeşməni,
Torpaq deyir yoğur məni,eş məni.
Bir tərəfdən bahar qışın düşməni,
Bir tərəfdən bahar qışa tabedir.
Ötən günlər hara getdi,bilinmir,
Taleyimin nişan xətti bilinmir.

Ömrün,günün axır xətti bilinmir,
Necə deyim ömür yaşa tabedir! *18.03.2012*

KƏBƏ İKİYMİŞ

Gəlmişəm gözümün ziyarətinə,
Sən demə üzündə kəbə ikiymiş.
Mən necə dözmüşəm dərd qarətinə,
Dərdimdən yığılan təpə ikiymiş.
Duru göz yaşında acı su varmış,
Üzündə baxtımın yazısı varmış.
Dilinin şirini,acısı varmış,
Püstənin içində ləpə ikiymiş.
Daş ürək axtarma daş yiyəsindən,
Pas qalar bıçağın küt tiyəsinsində.
Köbə var gözunun haşiyəsində,
Demə sevən gozdə köbə ikiymiş.
Bir ömrün harayı sığar bir simə,
Hansı gözlə baxır indi kim-kimə.
Tövbə Allahadır,bir də qəlbimə,
Günahkar olançün tövbə ikiymiş.
Dərdin yanğını var arzunun səsi,
Can gedir,yaşayır könül həvəsi.
Həyat növbəsi var,ölüm növbəsi,
Bir ömür mülkündə növbə ikiymiş.
Qundaqda gizlənir ölüm ömürdən,
Axırda göstərir özünü bir də!
Ömür zirvəsinə çatdığı yerdə,
Zirvələr qovuşur,zirvə ikiymiş! *19.03.2012*

EHTICAYI VAR

Hər qəlbi kövrəyin qəlbi yuxanın,
Günəşə üz tutan günəbaxanın.
Bütün kainatın,bütün cahanın,
Mehri-məhəbbətə ehtiyacı var.

Qayğılar içində yorulanın da,
Daşdan-daşa dəyib durulanın da.
Yol üstə qıvrılan kor ilanın da,
Mehri-məhəbbətə ehtiyacı var.
Bir günəş eşqiylə açılar sabah,
Mehirsiz bir pay da dərdə bir yamaq.
Bir yetim uşagın çörəkdən qabaq,
Mehri-məhəbbətə ehtiyacı var.
Min dərd var bir qəlbin ahu zarında.
Daş qalar mehrin də intizarında.
Qürbətdə uyuyan bir məzarın da,
Mehri-məhəbbətə ehtiyacı var.
Mehr bir işıqdır könül bağında,
Mehrə meyli vardır lap Allahın da.
Qoşunu,silahı olan şahın da.
Mehri-məhəbbətə ehtiyacı var.
Bir dərdə bir çarə qılmayanın da,
Bir dəfə gözləri dolmayanın da.
Mehri-məhəbbəti olmayanın da,
Mehri-məhəbbətə ehtiyacı var. *19.03.2012*

AY BAHAR

"GECƏLƏR" mahnısının misilsiz ifaçısı
Bahar Lətif qızına

Bir həsrət yüküdür,düşüb boynuna,
Çöküb ürəyinə çaglar,ay Bahar!
Sıgınıb gecənin sirli qoynuna,
Naməlum bir dünya ağlar,ay Bahar!
Sevgisiz dünyadan gecələr küsər,
Hər dərddən qəlbinə qara xal düşər.
Gündüzə sığmayan min-bir dərdi-sər,
Ancaq gecələrə sığar,ay Bahar!
Hər gözü olanın göz yaşı olmaz,
Sevən, səhrada da heç naşı olmaz.
Gecələr hamının sirdaşı olmaz,
Könlünü yanana bağlar,ay Bahar!

Ruhuma şirin dərd yerit,sən Allah,
Nakam sevgiləri kirit,sən Allah.
Oxu, gecələri ərit,sən Allah,
Dünyanı yandırıb-yaxar,ay Bahar!
Mənalı bir dərdi mən dahi billəm,
Dərdsizliyi ömrün gunahı billəm.
Mən sənin səsini ilahi billəm,
Nur olub göylərdən axar,ay Bahar!
Sirli gecələrin dərd qarası var,
Yanıb-tökülməmiş gör harası var?!
Yaramın altında haq yarası var,
Oxu, bu yaramı qopar,ay Bahar!
Mənasız gümanlar məni yormasın,
Sevgi gedən yola hicran varmasın .
Oxu,bu "Gecələr" qoy qurtarmasın,
Məni sonsuzlu]a apar,ay Bahar!
Səsin atəş olub qanım içində,
Ayrı can yaradıb canım içində.
Öldür,basdır məni mahnı içində,
Deyim; "nə şirinmiş məzar,ay Bahar!
Ömrümüzün sonu yol ayrıcıdır,
Bir nahaq ucudur,bir haq ucudur.
Dünya sevgi umur,sevgi acıdır,
Oxu, sevgi yarat,Bahar ay Bahar! *28.01.2010*

ONU BAĞIŞLA

Ürək dəryasında min bir sirr batıb,
Oyanan oyanıb,yatanlar yatıb.
Ən nadan bir adam səni ağladıb,
Ağlaya bilirsə,onu bağışla.
İnsan öz yolunu itirir hərdən,
Məsumdur quzudan,vəhşidi şirdən.
Nişan alan ovçu əlini birdən,
Saxlaya bilirsə,onu bağışla.
Seliylə ölüm də gətirir bahar,
Buluddan həm yagış,həm də qar yağar.

Könül dəftərini hər gün günahkar,
Yoxlaya bilirsə,onu bağışla,
Kimə məlum olub ömür mənzili,
Heç vaxt əsigəmə bu şirin dili.
Düşmən də könlünə,bir könül teli,
Bağlaya bilirsə,onu bağışla.
Ölüncə aşikar kim görüb səni,
Görünməz sürgünə kim sürüb səni.
Şər də halallıqçün yüyürüb səni,
Haxlaya bilirsə,onu bağışla.
Ağasən,dünyadan gəl olma küskün,
Canında odun var, gözünd tüstün.
Səsini kim kəsib səndən də üstün,
Çağlaya bilirsə, onu bağışla! *11.09.2011*

SƏN ÇƏKƏ BİLMƏZSƏN MƏN ÇƏKDİYİMİ

Bəlkə,qızıl güldən çoxdur qızıl gül,
Gör,nə sevgi verdi bir gülə sevgi.
Sevgi xatirinə yaşayır könül,
Can verib bir cansız könülə sevgi.
Yaralar sızlayıb,qan verə-verə,
Bir ömrə min şöhrət şan verə-verə.
Ağlaya-ağlaya can verə-verə,
Qovuşub min ildən min ilə sevgi.
Oda atılıbdır,oddan dönməyib.
Od olub gözdəki seldən sönməyib.
Qartallar da belə təriflənmıyib,
Gör nə ad gətirib bülbülə sevgi.
Çaylara saldılar su daşdı yandı,
O qurudu, yandı bu yaşdı yandı.
Zərif ürəklərdə tutaşdı yandı,
Nə kömürə döndü,nə külə sevgi.
Sevgi olan qəlbə nə sərhəd nə səd,
Bir qanadı sevinc,bir qanadı dərd.
Ürəyə od verdi,diləyə həsrət,
Amma dil vermədi bir dilə sevgi.

Günəşdir,göylərdən günəş silinsə,
Ayrıca dünyadır dünya bölünsə.
Dünyada sevginin qədri bilinsə,
Min ömrə bəs eylər bir gilə sevgi.
Yandırdın görünməz bir günəş kimi,
Sən yerdə yerimi,göydə göyümü.
Gülüm,sən çəkməzsən mən çəkən kimi,
Qəlbində yansa da lap belə sevgi. *17.03.2012*

YANIQ KƏRƏMİYƏ

Bu zərif telləri nə əvəz eylər,
Min-min ürəkləri sus etmək üçün.
Bəlkə də bir pərdə odu bəs eylər,
Bir buzlu diyarı isitmək üçün.
Bu sazın fəryadı beləmi,bəsdir,
Yandırıb gör necə Kərəmi,bəsdir.
Tellərin bir zili,bir bəmi bəsdir,
Daş qəlbi tərpədib,sinsitmək üçün.
Hər dərdsiz aləmdən mən umsunmuram.
Müqəddəs dərdlərə mən göz yummuram
Yanıq Kərəmidən dərman umuram,
Hönkürsün ruhumu incitmək üçün.
Mənə sevda dolu bir cəfa bəsdir,
Könlüm xarab olsa xaraba bəsdir.
Göylərdə qəlb olsa,bu hava bəsdir,
Göyləri taxtından düşürtmək üçün.
Demə sevinc baha,kədər havayı
Kədərdir sevginin ən şirin payı
Könül, nə taparsan dərddən savayı
Ürəyi böyüdüb şişirtmək üçün
Sevgi yanğısına bir çöl gərəkdir,
Yanıb qurtarmağa min il gərəkdir.
Qarın yox,bir zərif könül gərəkdir,
Bir sevgi dərdini nuş etmək üçün.
Kaş sevda hər duyan qəlbə düşəydi,
Gözlərə bu dərddən köbə düşəydi.

Bu hava dua tək dəbə düşəydi,
Dünyadan dünyaya köç etmək üçün.
Ağasən,tel kimi yanam gəriləm,
Yar kölgəsi olam,yerə səriləm.
Yanıq Kərəmiyə öləm,diriləm,
Bir də bu havanı eşitmək üçün. *12.02.2012*

YAZIQ SEVGIM, FAGIR SEVGIM

Cavabsızsa,quru səssən,
Harda olsan,harda gəzsən.
Yaşın ötdü,sevəmməzsən,
Yazıq sevgim,fağır sevgim.
Özu fikir,sözü fikir,
Yoxmuş demə odunda kül.
Bir gül yarpağından yüngül.
Qara daşdan ağır sevgim!
Görünməz oda bürünür,
Ayaq izində sürünür.
Gözlərimdə oda dönür,
Kipriyimdən yağır sevgim.
Qurtarmaz arzun diləyin,
Taci-taxtısan ürəyin.
Hardadır arxan,köməyin,
Qoşul mənə çağır,sevgim.
Qara baxtı uyuyanda,
Bağ-bağçanı su yuyanda.
Güvəndiyim soyuyanda,
Çox yandırıb yaxır sevgim.
Göz yaşıyla çiçəklənir,
Həmişə dərdə köklənir.
Şəriki yoxsa təklənir,
Küsür əvvəl-axır sevgim! *23.03.2011*

BIR OLDU

Arzularım qönçə idi nə vaxtdı,
Açılmaqla yumulmağı bir oldu.
Bir ağacın meyvəsinə ha baxdım,
Mən dadmamış tum olmağı bir oldu.

Ömür mənə verilibdir haqq kimi,
Mən ömrümü çəpərlədim bağ kimi.
Bir sevincdən qürrələndim dağ kimi,
Dağ olmaqla qum olmağı bir oldu.

Dedim niyə boz dumanda çaş oldum,
Dedim bir dərdi-sərdən baş oldum.
Dedim dövrün acığına daş oldum,
Daş olmaqla mum olmağım bir oldu.

Həyatımdan yaş nə aldı nə verdi,
Ömür vaxta girov olan ömürdü.
Dərd sinəmi kotan kimi çevirdi,
Tərpənməmiş şum olmağım bir oldu.

Arzu məni çox çaşdırdı,qəm oldum,
Qəm şərbəti şirin oldu,dəm oldum.
Bala döndüm,pətəyimdə cəm oldum,
Cəm olmaqla yem olmağım bir oldu! *20.03.2012*

DÜŞMƏNİN DÜŞMƏNƏ XEYRİ

Həyatda düz budur əyri budur ki,
Eyni yolla gedir düz də yalan da.
Düşmənin düşmənə xeyri budur ki,
Düşməni ucaldır məğlub olanda. *20.03.2012*

GÜNAHIM OLSAYDI

Keçdim eşq odundan mən gündüz gecə,
Alışdım tonqaldan tonqala vardım.
Günahkar olsaydı eşqim zərrəcə,
Müqəddəs odunda çoxdan yanardım. *20.03.2012*

QOCALDIQ

Ömrün qışı qəfil düşdü gələn qar,
Başımıza yağa-yağa qocaldıq.
Tale kimi yaşın da öz hökmü var,
Ha çırpındıq sola-sağa qocaldıq!

Dağdan enib sel çöllüyə çatmayıb,
Ürək bir xoş təsəlliyə çatmayıb.
Dedik hələ yaş əlliyə çatmayıb,
Amma gəlib çatdıq qırxa qocaldıq.

Fürsət kecdi dağdan daşdan utandı,
Başdan keçən fikir başdan utandı.
Vaxtsız sevgi vaxtsız yaşdan utandı,
Uyuşmadıq təzə nırxa qocaldıq!

Belə görüb yaşayan da ölən də,
Qocalacaq bilməyən də bilən də.
Qocalacaq qocalara gülən də,
Min-min nəsil min-min arxa qocaldıq!

Cavanlarla dursaq da bir cərgədə,
Bir üzümüz qaldı yenə kölgədə.
Qorxmasaydıq qocalmazdıq bəlkə də .
Qocalıqdan qorxa-qorxa qocaldıq!

Bu qocalıq dolub qalan buluddu,
Burdan yağdı,ordan günəş qurutdu.
Biz baxmadıq nə atəşdi,nə oddu,
Canımızı yaxa-yaxa qocaldıq!

Ürəyinin bir hücrəsi qaranlıq,
Ürəyinin bir xanəsi viranlıq.
Qocalığa batammadı cavanlıq,
Qocalıqla əlbəyaxa qocaldıq!

Ta sözünə baxmaz bir də qollarım,
Necə keçdik topasından kolların.
Ümidlərin,gümanların,yolların,
Axırına çıxa-çıxa qocaldıq!

Xəstə düşdün,can ki,gəldi cəzana,
Nə sözün var daha hökmü yazana.
Baharımız döndü çiskin xəzana,
Xəzəl altdan axa-axa qocaldıq!

Bu qocalıq nə soyuqmuş,ilahi,
Kara gəlmir mey dolusu sürahı.
Bir vaxt günah bilmədiyin günahı.
Başımıza çaxa-çaxa qocaldıq!
Körpə çağa dərisinə girsə də,
İnsan oğlu yüz kef-damaq görsə də.
Ölüm ömrə min il macal versə də,
Bir də gördün,uçdu arxa qocaldıq!
Dünya hələ çox boşalıb dolacaq,
Nə vecinə,nə olacaq-olacaq.
Qoca dünya bizdən nə dərs alacaq,
Cavanlarçün dərs almağa qocaldıq!
Ay Ağasən,yaş qısaltdı dilimi,
Ha tərpətdi,yıxammadı könlümü.
Bir addımda görəmmədik ölümü ,
Gözəlliyə baxa-baxa qocaldıq! *25.08.2011*

DOYMADIQ

Dövran sancdı,qohum sancdı,yad sancdı,
Bu dərdlərin sancısından doymadıq.
Hərdən illər bir sevincə yol açdı,
Bu sevincin damcısından doymadıq.
Bir sim olduq,qəm də mizrab bu simçün,
Tanrı özü qüvvə verdi dözümçün.
Bu arzular qamçı oldu bizimçün,
Arzuların qamçısından doymadıq.
Baxt gəc baxdı ancaq gözü giryana ,
Yağ tapmadıq,çırağımız gur yana.
Arzuların canlıları bir yana,
Arzuların cansızından doymadıq.
Ürəyində haray çəkir fəryadın,
Nə vecinə ha qohumun, ha yadın.
Həm məst olduq şirinindən həyatın,
Həm də onun acısından doymadıq! *20.01.2012*

ARXADA QALAN ILLƏR

Sızıb damcılar kimi bu günümə qarışır,
Ahlarımmı közərib ürəyimdə alışır.
Xəyal toranlığında ulduz kimi sayrışır,
Arxada qalan illər.

Hərdən bizi arxaya çəkir yedəyimizdən ,
Bəlkə borcunu umur,köhnə borcunu bizdən.
Yolumuzu çaşanda çəkir ətəyimizdən,
Arxada qalan illər!

Ömrün bir parçasıdır dönə bilməz yamağa,
Sabahın binasıdır dönə bilməz sabaha.
Bizi ömrümüz boyu tələsdiri qabağa,
Arxada qalan illər!

Xəyalda yaşadıqca çeşmə olub durulur,
Təzədən könlümüzdə köhnə taxtı qurulur.
Bələdçi öndə gedər,bizə bələdçi olur,
Arxada qalan illər.

Min həsrətin əlində dağılıb talansa da,
Başımıza dünyanın özütək dolansa da .
Biz qabağı görmürük,üst-üstə qalansa da ,
Arxada qalan illər. *20.01.2012*

ÖMÜRDƏ NƏ DAŞIMIŞIQ

Hanı çəkdiyimiz ömür-gün yükü,
Yoxsa bir quruca yaş daşımışıq .
Hara aparmışıq bu min-min yükü,
Yoxsa bu yollarda daş daşımışıq.

Hansı il olubdur bizimlə sirdaş,
Qaçdıq özümüzdən biz yavaş-yavaş.
Oduntək gah quru,gah yaş olub yaş,
Quru daşımışıq,yaş daşımışıq.

Nələr eşitmişik qulağımızla,
Baxt haçan dolanıb sorağımızla.
İki yorğun-arğın ayağimizla,
İçi fikir dolu baş daşımışıq.

Yükü çəkməmişik biz çiynimizdə,
Gah od,gah qar gördük öz əynimizdə.
Biz öz qəlbimizdə öz beynimizdə,
Bahar daşımışıq,qış daşımışıq.
Bizim yaşimızın kökü rəqəmdə,
Bizim ömrümüzün yükü rəqəmdə.
Məzar daşındakı iki rəqəmdə,
Hesab bu çıxır ki,boş yaşamışıq! *25.01.2012*

TORPAQ ŞİRİNLİYİ

Müqəddəs,vəfalı,əbədi torpaq,
Kəsilib min yerə paralanıbdır.
Ayaqlar altında tapdanıb hər vaxt,
Namərd güllələrlə yaralanıbdır.
Əbədi möhürdür ürəyimizdə,
Əbədi həsrətdir,gözdə,könüldə.
Sirrə bax,bir qarış torpagın üstə,
Qanqal da yetişir,sünbül də,gül də.
Min bir dərd dərmanı,min cövhəri var,
Varlıdır,yoxsuldur fərqinə varmır,
Altında bu qədər ləl-gövhəri var,
Amma gözə soxmur,üzə çıxarmır.
Gözəllik yararadır dağda,dərədə,
Lal durur,əhlini o lal eləmir,
Dosta da yem verir,düşmənlərə də.
Amma düşməninə halal eləmir.
O yox, onu satan ləkələnibdir,
Şər görüb,adına şər dərməyibdir.
Doğranıb,kəsilib,tikələnibdir,
Amma öz yerindən dəbərməyibdir.
Bu qoca dünyada qanundur bu da ,
Doğulan böyümür kiçilmək üçün.
Həmzəsi də olub,Koroğlusu da,
Namərdi mərdindən seçilmək üçün.
Hansı nanəcibin üzü dönsə də,
Saxlayır rəngini ancaq həyatda.

Üstdən lap min yerə çəpərlənsə də,
Boyunu dəyişmir,çəpərin altda.
Var olduq torpağın qənimətilə,
Yox olsaq,bizimçün var olar yenə.
Bu qara torpağın öz nemətilə,
Çox üzüqaralar çıxıb ağ günə.
Torpaq sabahkı gün yorğanımızdı,
Mehriylə lap bizi uzaqdan çəkir.
Torpaq damarlarda al qanımızdı,
Bizi torpaq çəkir,bizi qan çəkir.
Çox olub,çox olub nadanlığımız,
Qala bilməmişik öz ilkimizdə.
Torpaqdan yaranıb insanlığımız,
Torpaqdan yaranıb ilk sevgimiz də.
Torpaqdır yaradan min igidi də,
Torpaqdan yaranıb çörək də,duz da.
Torpaq barındırsa ana südü də,
Deməli torpaqdır ilk anamız da.
Torpağın qanunu sığmaz arşına,
Bizimçün tək-tənha yaşayır ancaq.
Torpaq dolanırsa Günün başına,
Günəş də torpağa baş olur ancaq.
Çoxu bu dünyaya çox qarğış deyib,
Yeyib çörəyini hey xımır-xımır.
Heç vaxt bir nəfər də torpaq yeməyib,
Torpaqdan da şirin nemət tanımır! *29.01.2012*

BİZ KEÇMİŞƏ BOYLANIRIQ

Biz həmişə,
Xatirələr dövrəsində dolanırıq.
Sərt daşlara dəyə-dəyə,
Duruluruq,bulanırıq
Sabahdan çox
Biz keçmişə boylanırıq.
Keçən gündə biz çox şeyi itirmişik,
Bəlkə bütöv bir taleyi itirmişik.

Tələsirik biz nə isə,
Bu gün nağddır,sabah nisyə,
Tələsirik,tələsəndə.
Çox şey yaddan çıxıb qalır.
Bu itkiyçün insan oglu.
Hey kecmişə baxıb qalır, *27.01.2012*

SONRAYA QALMASIN PEŞİMANÇILIQ

Yamanca uyuruq biz xəyallara,
Güman qırıq-qırıq,yol qırıq-qırıq.
Şübhə işığıyla baxaq yollara,
Sonraya qalmasın peşimançılıq da. *20.01.2012*

MƏHƏBBƏT TOXUMU

Bilmirəm,ey könül,bu nədəndi ki,
Dərd göydən çıxsa da,göynəyib çıxır
Məhəbbət toxumu elə dəndi ki,
Şaxtada,qarda da göyərib çıxır *07.02.2012*

BİR SÖZ ÜRƏYİMDƏ DUSTAQ QALIBDIR

Bir arzum özümdən uzaq qalıbdır,
Hələ də yoxuşlar çıxıram, gülüm!
Bir söz ürəyimdə dustaq qalıbdır
Azad eləməyə qorxuram,gülüm! *07.02.2012*

QIZ ƏLİNDƏDİR

Qızlar bu dünyanın ilk baharıdır,
Yağışda,qarda da yaz əlindədir.
Qızlar ürəklərin tanrılarıdır,
Ölüm də,həyat da öz əlindədir.
Əsil sevən olsan,əsilləşərsən,
Qədrini bilməsən,gözdən düşərsən.
Qızlara gözəl de,gözələşərsən,

Dindirsən,həmişə naz əlindədir.
Qızlar var,baxışı mələyə bənzər,
Qızlar var,xəyalı küləyə bənzər.
Qızların əlləri ürəyə bənzər,
Ocaq ürəyində,köz əlindədir.
Gah bir ipək,olar gah dönər daşa,
Duyar ürəkləri bircə baxışa.
Doğru sözünü də deməz birbaşa,
Nə desən bəhanə tez əlindədir.
Oğlanlar,qızlara naçar baxmayın ,
Dünyada qızlar var,siz darıxmayın!
Qızların əlindən dada çıxmayın,
Milyon-milyon tale qız əlindədir! *12.08.2001*

ÖZ YUVAM,ÖZ YURDUM OLSUN

Həmişə öz yuvam,öz yurdum olsun,
Dənim heç,suyum da bir qurtum olsun. *21.03.2012*

BİR DƏ QAYİTSAYDI ƏZƏLİM MƏNİM

Bir də qayıtsaydı əzəlim mənim,
Dəyişərdi onu öz əlim mənim. *21.03.2012*

YAŞDAN YAMAQ OLMAZ

Daşdan yamaq olar,yaş yamaq olmaz,
Yaş yamaq olsa da,yaşamaq olmaz. *21.03.2012*

DAŞDAN GÜL OLMAZ

Daş min il güllükdə qalsa, gül olmaz,
Hər gül üstə qonan quş bülbül olmaz. *21.03.2012*

ARXASI OLMASA

Bir arxa durmasa əgər güzgüyə,
Çətin düz göstərə,çətin düz deyə. *21.03.2012*

NECƏ NUR OLASAN MİLLƏT İÇİNDƏ

Millət yaşayırsa zillət içində,
Necə nur olasan zillət işində. *21.03.2012*

GÜVƏN İNSANA

Dağlara güvənmə,güvən insana,
Amma insanlığı sevən insana. *22.02.2012*

DÜNYA İLƏ OYUN OYNADIM

Dünyayla oynadım,baxtımı yozdım,
Oyuna girməmiş,ona uduzdum. *21.03.2012*

DODAĞINDA GÜLÜŞ TUMURCAQLANIR

Dodağın üstündə tər muncuqlanıb,
Dodağında gülüş tumurcuqlanıb. *21.03.2012*

QƏLBİN BİR YERİNİ BOŞ QOYMUŞAM MƏN

Qəlbin bir yerini boş qoymuşam mən,
Sən gəlincə küncə daş qoymuşam mən. *22.01.2011*

OYUB ÜRƏYİMİ DƏRD ADLI ALMAZ

Oyub ürəyimi dərd adlı almaz,
Min göz yaşı töksəm oyuğa, dolmaz. *21.03.2012*

QANSIZIN EYBİNİ VAR-DÖVLƏT ÖRTƏR

Qansızın eybini var-dövlət örtər.
Bir gün də açılar bu var örtüyü.
Məzlumların ahı şişər o qədər,
Bir tufana dönüb,açar örtüyü. *21.03.2012*

MƏN QOCALMARAM

Kim susdurar qəlbin məhəbbətini,
Qoy düşsün baxtıma yolun çətini.
Ağaran saçlarım çəksin dərdimi,
Sevgiyə dönmüşəm, mən qocalmaram.

Özüm də yoluma çətin qıyam mən,
Naməlum baxtımın yarısıyam mən.
Eşqin göylərdəki arzusuyam mən,
Göydən tək enmişəm,mən qocalmaram.

Kim bilir nə qalıb gələcəyimə,
Nə qədər ağlayıb,güləcəyimə.
Mən də inanıram öləcəyimə,
Demə şəklənmişəm mən qocalmaram.

Yalnız sevənlərdir naşı olmayan,
Qəlbində şaxtası,qışı olmayan.
Təkcə məhəbbətdir yaşı olmayan,
Eşqə köklənmişəm,mən qocalmaram.

Qaranlıq içində tapdığım itməz,
Haq yolu uzundur,haq yolu bitməz.
Adama öz yükü ağırlıq etməz,
Haqqa yüklənmişəm,mən qocalmaram. *22.02.2012*

HƏLƏ GÖZLÜ OLMAQ GÖRMƏK DEYİLDİR

Təkcə ürəyindir özünə sirdaş,
Sirdaşsız bir ömrü sürmək çətindir.
Nə var görünəni görməyə,qardaş,
Görünməyənləri görmək çətindir.

Gözün yox,ürəyin tez görsün gərək
Görən də çox çəkib ağrı,məşəqqət
Əgər bəladırsa gözü görməmək,
Görməyin özü də bir başqa dəhşət. *22.03.2012*

GÖZƏLDİR

Dağlar qoşa-qoşa,qayalar haça,
Çiçəklər hər yerdə bol-bol,gözəldir.
Dünya şirin-şirin,dünya doğmaca,
Hayana baxırsan,sağ-sol gözəldir.

Doymazsan meşənin xəyallarından,
Şır-şır bulaqların suallarından.
Şəhərin şüşətək qır yollarından,
Dağların daş yolu min yol gözəldir.

Göylərdə buludlar bir atım barıt,
Can verən güllərə sən də can yarıt.
Bu vələs,bu dən-dən,qarağac,palıd,
Söyüd budaq-budaq,qol-qol gözəldir.

Çəmənlər yumşaldır yorğan-döşəkdən,
Yorulmaz ayağın daşdan-kəsəkdən.
Dibçəkdə yetişən ögey çiçəkdən,
Çöldə özü bitən bir kol gözəldir.

Canımtək sinəmə yaxınsan-yaxın,
Bir yurd əvəzidir,bircə yarpağın.
Dumanın,yağışın,tozun,torpağın,
Var ol,doğma kəndim,var ol,gözəldir. *13.02.2012*

KƏND YOLLARI

Yollar qiblə yolum,Kəbə yolumdur,
Bu yollar boşalmaz,karvansız olmaz.
Bu dərə yolumuz,təpə yolumuz,
Gülləri davasız-dərmansız olmaz.

Yollar gizli-gizli dərədən aşır,
Kolluqdan burulub dağa dolaşır.
Yollara qoca da,gənc də yaraşır,
Bu yollar qocasız,cavansız olmaz.

Anamın qoynutək isti qucaqdır,
Yurdsuz-yuvasıza məhrəm ocaqdır.
Hə daşı mənimçün sığınacaqdır,
Kolları da mənə amansız olmaz.

Vaxt çəkir hər şeyi haq divanında,
Şirinliyi olur,boş yuvanın da.
Yaxşı da boy atır yaman yanında,
Güllü-gülüstan da yamansız olmaz.

Dağların da başı duman-çən umar,
O, gah göz yaşıdır,gah da bir tumar.
Ömür yolunun da dumanları var,
Ən gözəl çəmən də dumansız olmaz.

Bu dünya dolanır elə baxta-baxt,
Milyonların baxtı üstündə qat-qat.
İnsansız olubdur bu dünya bir vaxt,
Daha qocalıbdır,insansız olmaz.

Hər meyvə barında bir özgə dad var,
Hər dadın özündə bir ayrı ad var.
Hardan səs gəlirsə,orda həyat var,
İnsan olan oba gümansız olmaz. *22.03.2012*

GƏLİN BALAM,XAR EYLƏMƏ ADIMI

Bu "vağzalı" nələr deyir,kim bilir,
Ayaq altda daş göynəyir,kim bilir.
Öz içində kim neynəyir,kim bilir,
Gəlin balam,xar eyləmə adımı.

Mənim üçün sənsiz günlər qəribdir,
Qanadını qəm üstümə səribdir.
Gəlin sözü qız sözündən zərifdir,
Gəlin balam,xar eyləmə adımı.

İllər gəlib baş aldadıb,baş qatır,
Zaman daha torpağıma daş qatır.
Bu getdiyin yolun səmti başqadır,
Gəlin balam,xar eyləmə adımı.

Ər evinə fərəh çəkər gəlinlər,
İşıq olub evə çökər gəlinlər.
Öz evini özü tikər gəlinlər,
Gəlin balam,xar eyləmə adımı.

Evdən-evə köçmək bala asandır,
Könülsüz ev yaz vaxtı da xəzandır.
Sən getdiyin evə şöhrət qazandır,
Gəlin balam,xar eyləmə adımı.

Fikir eylə,əvvəli bil,sonu bil,
Sənə yetən libası bil,donu bil.
Sən kimlərin yerindəsən,onu bil,
Gəlin balam,xar eyləmə adımı.

Demə,atam gendən keçdi,ay qızım,
Yol dumandan,çəndən keçdi,ay qızım.
Daha bu yol məndən keçdi,ay qızım,
Gəlin balam,xar eyləmə adımı.

Daşdan-daşa dəyməyən su lil olar,
Özbaşına yanan ocaq,kül olar.
Gəlinlərin yaraşığı dil olar,
Gəlin balam,xar eyləmə adımı.

Ləl-cəvahir hər mücrüyə atılmaz,
Çeşmə suyu arx suyuna qatılmaz.
Ocağına düşən gəlin yad olmaz,
Gəlin balam,xar eyləmə adımı.

Arzun var ki,bəlkə qalıb gözündə,
Qəm sevinclə birgə qalıb gözündə.
Deməsinlər kölgə qalıb gözündə,
Gəlin balam,xar eyləmə adımı.

Bu dünyanın bir əbədi seyri yox,
Dürrü-gövhər geyinəsən xeyri yox.

Eldən başqa qiymət qoyan qeyri yox.
Gəlin balam, xar eyləmə adımı.
Bu ellərin adəti var,adı var,
Hər adətin neçə pillə qatı var.
Ev olmağın başqa cürə dadı var,
Gəlin balam,xar eyləmə adımı.
Həm dərəni,həm təpəni gözlə sən,
Həm xananı,həm gəbəni gözlə sən.
Ər evində mərtəbəni gözlə sən,
Gəlin balam,xar eyləmə adımı.
Bu yolunda qəm də vardır,sevinc də,
Təkcə elə sənin deyil yol hec də.
El- obanın hikməti var bu köçdə,
Gəlin balam,xar eyləmə adımı.
Gəlin balam,gedən yolun mübarək,
Çiçək açan əlin-qolun mübarək.
Nur çiləyir sağın-solun mübarək,
Gəlin balam,xar eyləmə adımı. *10.09.1999*

GÖRÜŞ

Bizi görüşürdürdü nəhayət illər,
Nələr çəkdik,Allah,o gün biz nələr.
Sənin dodağından qopan kəlmələr,
Dünyanın ən dərin kəlamı idi!
İki naləsiydik o gün bir simin,
Bilmədik od kimin,axan yaş kimin.
O gün neçə ildən qalan dərdimin,
Təzə dərdlərimə salamı idi.
O gün nəşəliydi dünyanın halı,
Atmışdı ayağa min cah-calalı.
Hansı duyğununsa o gün halalı,
Hansı duyğunusa,haramı idi.
Macal şərbət verdi içə bilmədim,
Rahat yol var idi,keçə bilmədim.
Dünyanın rəngini seçə bilmədim,
Ağmı,qırmızımı,qaramı idi?

Sevgimin dünyaya yox idi borcu,
Şirin xəyaldadı ov ilə ovçu.
Arzuların biri bu yolda yolçu,
Biri də yolkəsən hərami idi.
O gün neçə ilin məlhəm-əlacı,
O gün ilin-ildən ümid xəracı.
O gün bir ömrümün zirvəsi,tacı,
O gün bir günümün bayramı idi.
Gözlərin məst idi,üzün də gülgün,
Ümidin biri puç,birisə mümkün.
Görüşdük,ayrıldıq,bilmədim o gün
Gənclikdən əvvəlmi,sonramı idi. *18.07.1999*

BAKIM

Bəxtiyar Məmmədzadəyə

Əyrildik**,**sap olduq zər iynələrə.
Haqqı kimə verdik,zəri nələrə!
Aylara,illərə,qərinələrə
İmdad olan Bakım,hay olan Bakım!
Bənzərsiz bağları,nazlı Xəzəri
Yandırıb yaxıbdır çox bədnəzəri
Gözəllər şəhəri,dünya gözəli
Sevilən,seçilən,sayılan Bakım!
Gah alqışa dönən,gah qarğış olan,
Tarixlər içində bir naxış olan.
Yayın ortasında birdən qış olan
Qışın ortasında yay olan Bakım!
Sən mənim taleyim,mənim hayanım,
Bəladan doyanım,dərddən doyanım.
Özü öz payından yarımayanım,
Yadlara doyunca pay olan Bakım!
Başından ağrısı heç əksilməyən,
Günlərlə,aylarla üzü gülməyən.
Hara axdığını heç kəs bilməyən,
Qızıldan bahalı çay olan Bakım!

Vətən keşiyində yad dura bilmir,
Ürək hər sinədə şad dura bilmir.
Dərdini dünyaya çatdıra bilmir,
Şöhrəti dünyaya yayılan Bakım!
Bir sevgili kimi hey qısqanıram,
Elə bil dərdini yalnız qanıram.
Elə alışıram,elə yanıram,
Ay mənim könlümdə vay olan Bakım!
Həm güllüyü vardır,həm xəzəlliyi
Rəssam ürək çəkər bu gözəlliyi!
Nə təşbehi vardır,nə bənzərliyi,
Ancaq öz-özünə tay olan Bakım! *24.07.1999*

SƏBƏBİ BİLİNSƏ

Qəlbindən elə bir atəş qopar ki,
Dilinə çatanda dönüb buz olar.
Elə anlaşılmaz duyğu da var ki,
Səbəbi bilinsə,mənasız olar. *27.07.1999*

DAMCI-DAMCI

Bulud su olsa da,çay olub axmır,
Səpir başımıza, göy damcı-damcı.
Od vurub, bir yolluq ürəyi yaxmır,
Yandırır ürəyi ney damcı-damcı.
İtirə-itirə gedir bir ömür,
Arzu haray salır,ürək kirimir.
Mey də damarlara birdən yerimir,
Hopur damarlara mey damcı-damcı.
Dünya haq-hesabı bir əldə tutmur,
Mizan-tərəzini zaman unutmur.
Şir də bir dönəyə ovunu udmur,
Didir öz ovunu ley damcı-damcı.

Əvvəl bir arzuya yar olmuşuq biz,
Haçandan-haçana car olmuşuq biz.
Yoxdan damcı-damcı var olmuşuq biz,
Yox olub gedirik,hey damcı-damcı. *15.07.1999*

QURBANIN OLARAM

Sənincün gəldim cahana,
Çək məni min imtahana.
Yüz min dərdimi yan-yana,
Düzüb,qurbanın olaram!

Söz oldum eşqin gücündən,
Düşdüm dilinin ucundan.
Göz yaşımı dərd içindən.
Süzüb,qurbanın olaram!

Həzər eyləmə üzümdən,
Dünya düşməsin gözümdən.
İncitsən də öz-özümdən,
Küsüb,qurbanın olaram!

Yola qonaram,getmərəm,
Odda yanaram,getmərəm.
Haq evinə xam getmərəm,
Bişib qurbanın olaram!

Yolunu çəksən yaxına,
Özün gəlləm qabağına.
Öz xoşumla ayağına,
Düşüb,qurbanın olaram! *15.07.1999*

SƏNİN GÖZƏLLİYİN MƏNSİZ HEÇ İMİŞ

Sən parlaq bir ulduz,mən ayaz gecə,
Gündüz görünməzsən belə zərrəcə,
İşıq qaranlığa yaraşır necə,
Hər şeyə öz əksi,böyük güc imiş.
Sənin gözəlliyin mənsiz heç imiş.

Daha demə,gülüm,mən qənirsizəm,
Daha bir də demə,atəşəm,közəm.
Lap durub dünyanı baş-ayaq gəzəm,
Yollar bir-birinə belə gəc imiş.
Sənin gözəlliyin mənsiz heç imiş.

Palıdın yanında lalə bir aləm,
Ayın dövrəsində halə,bir aləm.
Sevincin yanında nalə bir aləm,
Kədərsiz bir ömür lap bivec imiş,
Sənin gözəlliyin mənsiz heç imiş.

Alışıb yanmasam,üzün nur olmaz,
Yanıb qovrulmasam,odun gur olmaz.
Bülbül ağlamasa,gül məşhur olmaz,
Işıq bayırdısa ocaq iç imiş.
Sənin gözəlliyin mənsiz heç imiş.

Mən ah çəkirəm ki,odun közərir,
Mənim dərdlərimlə ömrün bəzənir
Çəkişə-çəkişə dünya düzəlir.
Yoxsa hər köçən gün vecsiz köç imiş.
Sənin gözəlliyin mənsiz heç imiş.

Ocağın nə xeyri,yanan yoxdusa,
Sözün nə qiyməti qanan yoxdusa,
Eşqin girdabında sınan yoxdusa,
Eşqin sevinci bir,dərdi üç imiş,
Sənin gözəlliyin mənsiz heç imiş.

Sən bahar çiçəyi,mən duman oldu.
Sən şübhə olahda,mən güman oldum.
Haqqımı itirdim,peşiman oldum.
Peşiman olmağım daha gec imiş
Sənin gözəlliyin mənsiz heç imiş. *17.08.1999*

ACILIQDAN ŞİRİNDİR

Arzu da ölübsə,gül də solubsa,
Dərdlərin mənası dərin oludur.
Hər şey şirinlikdən şirin olubsa,
Həyat acılıqdan şirin olubdur. *01.08.1999*

AYAQ ALTDA QALAN DÜNYA

Qocalıq öydi qaməti,
Yaman görünər amədi.
Daha yoxdur kəraməti,
Necə dönüm pir başına.

Qaçan qaçır,qovan qovur,
Çətin keçər bu vurhavur.
Nə xeyri var,yüz dəfə vur,
Bir dizinə,bir başına!

Yaman azalıb tay-tuşum,
Suyum bəndə necə qoşum.
Çıxıb başdan daha huşum,
Necə deyim gir başıma.

Bildim cavanlıq köçəri,
Dərdimi saldım içəri,
Tülkünün nə dərdi-səri,
Gələn gəlir şir başına.

Zərrə dərd iri görünür,
Ötən gün şirin görünür.
Dostların yeri görünür,
Dolanır lap yer başına.

Olmasam da zamana saz,
Zaman xəyalımı yarmaz.
Baş ağarar,gün ağarmaz,
Göydən yağsa dür başına .

Bu yolu birdir cahanın
Birdir qovanın,qaçanın.
Qocalıq baxmır insanın,
Tənbəlinə, dirbaşına

Bu haq dünya,yalan dünya,
Verdiyini alan dünya.
Ayaq altda qalan dünya,
Nə gətirir gör başıma .

HƏR KƏS ÖZ YERİNİ BOŞ QOYUB GEDİR

Dünya məhəl qoymur gəlir-çıxara,
Su günəş altında dönür buxara.
Kimi payızında dönür bahara
Kimi yaz yerində qış qoyub gedir!

Hayana dolansan,yol həmin-həmin
Axırı bir olur sevincin,qəmin
Donur arasında iki rəqəmin,
İnsan bir quruca yaş qoyub gedir!

Vaxt ötür,tələsir,kim deyir:dayan!
Axırda hamıya ölümdür hayan!
Torpağı ayaqla döyüb,tapdayan,
Torpağın altına baş qoyub gedir!

Ömür ilk günündən vidadır bizə,
Fikirlər,xəyallar qidadır bizə.
Gedənin bir daşı nidadır bizə,
Gedənlər bələdçi daş qoyub gedir.

Ocaqda hər kösöv oda tutaşmır,
Ocaqda hər yanan oda su daşmır.
Ölümlər gələndə yolunu çaşmır,
Həyat yollarını boş qoyub gedir

İnsan çox dərdini içində gizlər,
Qəlbini böyüdən dərdi əzizlər.
Dünyadan doymayır,sönəndə gözlər
Dünyaya bir damcı yaş qoyub gedir!

Ölüm belə bölüb payı böləndə,
Gedir ağlayan da,gedir gülən də.
Hər kəs öz yerinə gəlir,gələndə,
Hər kəs öz yerini boş qoyub gedir. *30.12. 1996*

HAQQ TAPAMMADIM

Başımı dik tutdum,endi baş yerə,
Quru yer axtardım,düşdüm yaş yerə.
Vaxt başım üstündən ötdü boş yerə,
Mən baxta yanmağa vaxt tapammadım!

Dənizə şatmayan,çay kimi oldum,
Oxu başa çıxan yay kimi oldum.
Dərdi-sər mülkünün hakimi oldum,
Dərdə hökm etməyə,taxt tapammadım !

Vaxt sellər gətirdi,bənd-bərə yıxdı,
Bu seldən tək elə vaxt quru çıxdı.
Məni qaranlığa vaxt elə sıxdı,
Nə qədər yandımsa,baxt tapammadım!

Bu dünyanın meyi,badəsi nisyə,
Hələ kim gələsi,gedəsi nisyə.
Taleyin qisməti,vədəsi nisyə,
Nisyələr içində nağd tapammadım!

Yordum öz başımı mən vird içində,
Sınıq açar oldum,kilid içində.
Tapdığım beş-altı ümid içində,
Bir dənə ümüdi sağ tapammadım!

Daha matah olub,mehribançılıq,
Bir ülfət görərsən,min düşmançılıq.
Ömür başdan-başdan peşimançılıq,
Peşiman olmağa haq tapammadım! *01.03.1997*

ÖMRÜM

Kim deyir zamanın sərhəddi yoxdur,
Sərhəddi ömrümdür,tirəsi ömrüm.
Ömür yollarının düz xətti yoxdur,
Qayası ömrümdür,dərəsi ömrüm!

Hər fikrim, xəyalım dərd qılıncıdır,
Canımı saxlayan dərdin ovcudur.
Ölüm də pusquda duran ovçudu.
Oylağı ömrümdür,bərəsi ömrüm!

Çəkirəm ağrımı-acılarımı,
Tökürəm gözümün lal sularını.
Dərd sıxır nar kimi arzularımı,
Şirin arzuların şirəsi ömrüm!

Sular buxarlanıb duman yaradır,
Həqiqət əriyib güman yaradır.

Zamanın içində zaman yaradır,
Əbədi zamanın cirəsi ömrüm.
Tutaq ki,göylərə mən pərvaz oldum,
Bir gün payız oldum,bir gün yaz oldum.
Tutaq ki, zamana,günə saz oldum,
Dərəsi barım yox,görəsi ömrüm.
O yanda nalədir,bu yanda kefdir,
Sən nağdı nisyəyə satma heyifdir.
Dünya mənim üçün kirayə evdir,
Bu qaldığım evin kirəsi-ömrüm. *10.09.1999*

DUYULMAQ OLMUR

Əvvəli görmüşdüm,sonu da gördüm,
Qılıncı görmüşdüm,qını da gördüm.
Bunu görməmişdim bunu da gördüm,
Haramı halaldan ayırmaq olmur.
Aşkarda görürük indi yuxunu,
Bülbül budağında qarğa yığını.
Dünən ağsaqqala buyurduğumu,
Bu gün uşağa da buyurmaq olmur.
Yamanca qarışıb yaxşı yamana,
Zəhər uzadırlar şəkər umana.
Elə bihuşdarı verib zamana,
Haqqın naləsindən ayılmaq olmur.
Min üz var bir üzün altında xəlvət
Dönüb zəhər olur əlində şərbət,
Elə yoxa çıxıb mehr-məhəbbət,
Ürəyi nifrətlə doyurmaq olmur.
Gizlədə bilməzsən arzu-niyyəti,
Nacinslik qiymətdən salar ziynəti.
Sənə allah verən bir təbiəti,
Don kimi əyindən sıyırmaq olmur.
Bütövə qoşurlar indi paranı,
Kola tuşaldırlar yol axtaranı.
Tamah bir dağ kimi kəsib aranı,
Daha hay deyənə pay olmaq olmur.

Özümdən haqq umdum,Allahdan kərəm,
Haqdan ağlamasam,haqdan güllərəm.
Dəliyə tay olsam,ayıb bilmərəm,
Əbləhə,dəyyusa tay olmaq olmur.

Yalançı dualar dönür şüara,
Həqiqət avara,yalan avara.
Zaman dirəsə də səni divara,
Baxıb zay olana zay olmaq olmur.

Nə xeyri ürəyi açıq olmağın,
Günəşə,gündüzə aşiq olmağın.
İndi nə xeyri var işiq olmağın,
Dumanda nur olub yayılmaq olmur.

Zərrə qığılcımdan od alan ürək,
Döyülsün,oyulsun,duyulsun gərək.
Hər yanan ürəkdə duyğuya dönmək,
Hər yanan ürəkdə duyulmaq olmur! *10.01.1997*

GÜNƏŞƏ QALSIN

Bu dar cığırlarla dönüm,dolanım,
Bu dərə,bu qaya,bu meşə qalsın.
Ana torpağındır olub-qalanın,
Bu torpaq beləcə həmişə,qalsın.

Nazik çöl otuna baxıb nazilim,
Dərədən-təpədən aşım,əzilim.
Qoy lap bir kol dibi olsun mənzilim,
Təki bir yanımda bənövşə qalsın.

Baxam aynəbənddən tənha otaqda,
Zümzümə eyləyim hərdən dodaqda.
Bir əzgil yapışıb qalsın budaqda,
Qışacan şirin nar,gülöşə qalsın.

Yatmayım xalçanın,gəbənin üstə,
Uzanım göy otlu təpənin üstə.
Sayrışsın gül-çiçək çəmənin üstə,
Nanə o yamaca,bu döşə qalsın.

Dönüb uşaq olum,bir də kiçilim,
Boy atım,ölşülüb,bir də biçilim.

Dərim dağ keşnişi,xırda cincilim,
Onlardan çəpərdə bir rişə qalsın.
Qəlbimə şum çəkib,malalasın qəm,
Fikrimi üst-üstə qalalasın qəm.
Yonub ürəyimi cilalasın qəm,
Yerində nur saçan bir şüşə qalsın.
Kaş mümkün olaydı selə qarışmaq,
Bir az quş dilində dinib-danışmaq.
Sevgiyə tutaşıb,qəmə alışmaq,
İnsana əbədi bir peşə qalsın.
Yüz il gəzə bilək qayada,düzdə,
Həmişə gözümüz ocaqda,közdə.
Günəşin nəzəri həmişə bizdə,
Bizim də çarəmiz günəşə qalsın. *26.03.2012*

MƏHƏBBƏT

Ağıldan çox sevgi başa tac olur,
Gah alışır,gah buzlaşır məhəbbət.
Sevgi varsa o həmişə ac olur,
Onda daşır,quduzlaşır məhəbbət.
Bir tufanla öz yolundan çıxdısa,
Öz baxtına haq-hesabla baxdısa.
Sevən qəlbin göz leysanı yoxdusa,
Çiçək kimi susuzlaşır məhəbbət.
İki yoldan biri nahaq,biri haq,
Biz haqqa da,nahaqqa da düz baxaq.
Çox olanda ucuzlaşır çox matah,
Az olanda ucuzlaşır məhəbbət.
Sevgi özü həm gündüzdür,həm gecə,
İmtahandır,kim yorula,kim keçə.
Yerdə əgər yarımasa zərrəcə.
Qalxıb göydə ulduzlaşır məhəbbət .
Mümkün deyil o qocala,qarıya,
Gah qul olur,gah da dönür tanrıya.
Yarıyanda tez bölünür yarıya,
Yarımasa sonsuzlaşır məhəbbət! *14.02.2012*

MÖCÜZƏYƏ İNANDIM

Qış ömrümü eşqin bahar eylədi,
Sənə tanrı deyə-deyə inandım.
Gül üzün ki,məni zəvvar eylədi.
Mən pir deyib gül-çiçəyə inandım.

İndi gördüm dilindən bal daşanı,
Kim yetirib bu pətəyi,bu şanı.
Ayağın yer,başın da göy nişanı,
Səcdə qılıb yerə-göyə inandım.

Gözəlliyə səcdə qılan yox indi,
Gül üzündə min bir ayə oxundu.
Ayağınki,hansı daşa toxundu,
Mən pir bilib daş-kəsəyə inandım.

Qəlbimizdə bir işıqlı ev ki,var,
Ruhumuzda məhəbbətin kökü var.
Yananda nur,nur saçanda sevgi var,
İşıq saçan bir böcəyə inandım.

Sən demə ki,belimizi yaş əyər,
Təmiz sevgi daş sındırar,daş əyər.
Ulduzlar da gecələrə baş əyər,
Sevda dolu hər gecəyə inandım.

Daha sənsən övliyam da pirim də,
Eşq odudur ta ölüm də,dirim də.
Bir baxışdan dondum qaldım yerimdə,
Bundan sonra möcüzəyə inandım.

İşıq kimi sən yayıldın ömrümə,
Elə bil ki,mizrab dəydi bir simə.
Nurun yetdi görünməyən könlümə,
Könlümdəki bər-bəzəyə inandım.

Deyirlər ki,dünya sözdən yaranıb,
İşıq iki qara gözdən yaranıb.
Tanrı özü eşqimizdən yaranıb,
İndi bil ki,haqqa niyə inandım? *25.03. 2012*

DARIXACAQSAN

Dərd gəldi,yolunu durub kəsmədim,
Töküb göz yaşımı,ümid bəslədim.
Sənin şıltaqlığın,mənim həsrətim,
Yadına düşəcək,darıxacaqsan!

Məni anacaqsan xeyirdə,şərdə,
Axır yanacaqsan sən də bu dərdə.
Soyuq duyğuların xatirələrdə,
Qaynayıb bişəcək,darıxacaqsan!

Bitdim yollarında ot-əncər kimi,
Bəzədi ömrümü dərdin zər kimi.
Xəlvəti ahların bir xəncər kimi,
Sinəni deşəcək,darıxacaqsan !

Bir həmdəm olmadım,qatmadın qılıq,
Bu nə dostluq oldu,nə düşmançılıq.
Sənin öz qəlbini peşimançılıq,
Yoğurub-eşəcək darıxacaqsan!

Fikrin dağılacaq hey yollarına,
Bu yer yollarına,göy yolllarına.
Sap kimi dəyişən xəyalallarına,
Adım ilişəcək,darıxacaqsan !

Düşəcək boynuna ömür qayğısı,
Necə ovudacaq səni ayrısı ?!
Bir gün səninlə də ömrün payızı,
Gəlib görüşəcək,darıxacaqsan !

Dərdi-sər pozacaq sirin yuxunu,
Fikrin aparacaq ömrün çoxunu.
Kimə deyəcəksən darıxdığını,
Ürəyin şişəcək,darıxacaqsan ! *21.03.2012*

GEN QAÇIR

Soyuqlaşır salamları dostların,
Qohum-qardaş,bir-birindən gen qaçır.
O sünbülün,o çörəyin,o barın,
Dadı-tamı günü-gündən gen qaçır.

Öz ətrini itiribdir çəmənlər,
Bizi cənnət havasına gömənlər.
Əllərinə pul dəydimi,sevənlər,
Sevdiyinin əllərindən gen qaçır.
Gör damcılar nə qədər daş oyubdur,
Bülbül gülə,gül bülbülə qıyıbdır.
Dolanmaqdan bəlkə dünya doyubdur,
Yer də daha öz yerindən gen qaçır.
Ağsaqqallar öz adını itirib,
Ocaq sönüb,köz adını itirib.
Ağız daha öz dadını itirib,
Gah acıdan,gah şirindən gen qaçır.
Kor qanunlar öz şərtini unudur,
Elə bilki,ta dünyanın sonudur.
Çiçəkləri sərt küləklər qurudur,
Çöl bürküdən,dağ sərindən gen qaçır.
Dünən niyə şirin olur bu gündən?
Dünya daha bezikib öz yükündən,
Hər şey,hər şey öz əvvəlki kökündən,
Hər şey,hər şey məhvərindən gen qaçır . *23.02.2012*

ÖMÜR PAYI KƏSİLİR

İnsan gəlir dünyaya səs-səmirlə,
Sonra daha hay-harayı kəsilir.
İnsan oğlu sirdaş olur ömürlə,
İllər ötür,ömrün hayı kəsilir.
Arzulardır ömrün-günün çoxusu,
Gələn ömür,gedən ömrün yuxusu.
Uşaqlığın,cavanlığın duyğusu,
Ya birbaşa,ya dolayı kəsilir.
Dağ üstünə örtük salır gur duman,
Nə qorxusu,meşə haman,dağ haman.
Boz arana yetişməmiş Girdiman,
Coşub-daşan bu dağ çayı kəsilir.
Keçir bahar,keçir payız,keçir yay,
Hər birində ömrümüzçün haqqı-say.

Ömür, ölüm-çiynimizdə iki tay,
Sonra yükün ta bir tayı kəsilir.
Zəhərlə bal ha bir küpdə verilir,
Bir beh kimi sevinc siftə verilir.
Deyirlər ki,həyat müftə verilir,
Həyat yolu bəs havayı kəsilir ?
Nə fərqi var mükafatla cəzanın,
Yarpağı da torpaq olur xəzanın?
Bir ömürlə dünya quran insanın,
Gör nə qədər ömür payı kəsilir!! *14.02.2012*

DÜNYADA BİR YETİM TORPAQ AĞLAYIR

Dünyada bir yetim torpaq ağrıyır,
Dərdi başdan açır,heç halı yoxdur.
Fələklər baxtını elə bağlayıb,
Baxtını açmağa açarı yoxdur.
Torpağı gör qandan necə doyub ki,
Düşmən,sinəsini necə oyub ki,
Gör namərd gülləsi necə qıyıb ki,
Bir oba uşaqlı-qocalı yoxdur.
Dünyanın,taleyin qanunu düzmü?
Dərdimiz de onmu,əllimi,yüzmü?
Günahsız qırılmaq qismətimizmi?
Allahın bir başqa əcəli yoxdur?
Dağlarda nə maral,nə dağ kəli var,
Yaralı könüldə dərd məşəli var.
Burda qan heykəli,can heykəli var ,
Qardaş,daha burda Xocalı yoxdur !
Koroğlu acizlə güləşməyibdir,
Yaraqsız düşmənə dirəşməyibdir.
Bu xalq namərdliyə öyrəşməyibdir,
Onun namərdlikdə heç əli yoxdur !
Ölsə biganəlik dərdi,qubarı,
Qızıla tutardıq daşı-divarı.
Dünyada heç kimin bu qədər varı,
Heç yerdə bizimtək naçarı yoxdur!

Yamanca sərt olur haqqin cəzası,
Hay deyər cavanı,qalxar qocası.
Qoymaz qiyamətə qalsın qisası,
Hələ Babəklərin macalı yoxdur ! *22.03.1999*

BU DÜNYA DAŞ-TƏRƏZİDİR

Yaxşı ki,bizimdir,şükür bu dünya,
Bu dünya tək gözlü daş-tərəzidir.
Ağırı,yüngülü çəkir bu dünya,
İllər tərəzidir,yaş tərəzidir.
Çəkilən bir aləm,çəkən bir aləm,
Bir yanda aşikar,bir yanda məhrəm.
Ürək çəki daşı,çəkilən də qəm,
Haq-hesabı çəkən baş-tərəzidir.
Bir gün beş çəkəndə,bir gün yüz çəkib,
Pərsəngiylə çəkib,pərcəngsiz çəkib.
Haqqı-ədaləti haçan düz çəkib,
Əyri tərəzidir,çaş tərəzidir.
Bir qəm süfrəsinə necə qab çəkir,
Vaxtın nə vecinə kim əzab çəkir.
Hamıyçun axırda haq-hesab çəkir,
Bircə buna görə xoş tərəzidir.
Bizsiz bu dünyanın mərəzi heçdir,
Özünün özünə qərəzi heçdir.
Ağırlıq olmasa,tərəzi heçdir,
Bu dünya insansız boş tərəzidir!! *14.02.2012*

ZƏİFLƏRİN GÜCÜ

Zəiflərin gücü özünə yükdür,
Bu tanrı gücüdür düzünü bilsə.
Zəiflərin gücü daha böyükdür,
Zəiflər özünün gücünü bilsə! *14.02.2012*

KÜSMÜŞƏM

Bir yad,bir soyuq baxışdan.
Alışmağından küsmüşəm.
Boş tərifdən,bol alqışdan,
Danışmağından küsmüşəm.
Hər daşı vurma dişinə,
Yaşa düşünə-düşünə.
Məchul taleyin işinə
Qarışmağından küsmüşəm.

Min dərdimi görə-görə,
Göz yumdum bu qüssələrə.
Nağdı qoyub nisyələrə,
Sarışmağından qorxuram.

Dərdi-sər gəldi axınla,
Yanmadın bircə ahınla.
Bir insafsız günahınla,
Barışmağından küsmüşəm. *30.01.2012*

İNSAN GƏLİR DÜNYAYA

Doqquz aylıq yol ilə,
İnsan gəlir dünyaya.
Bahar gəlir,qış gəlir,
Xəzan gəlir dünyaya.

Od gəlir qəlpə ilə,
Dərd gəlir zərbə ilə.
Adsız bir körpə ilə,
Ad-san gəlir dünyaya.

Dərd ağacı əkməyə,
Gözdən qan-yaş tökməyə.
Cahan dərdin çəkməyə,
Bir can gəlir dünyaya.

Keçir min imtahandan,
Keçir yaxşı-yamandan.
İnsan dərdi insandan,
Asan gəlir dünyaya! *30.01.2012*

VƏTƏNDİR

Qürbət eldə qərib həsrət çəkirsə,
Həsrət dolu ömrü-günü Vətəndir.
Vətənsizin qəlbinə dərd çökürsə,
Qibləgahı,andı,dini Vətəndir.

Elə bilmə bədənçündür can elə,
Vətən üçün vətən boyda yan elə.
Yurd eşqini damarında qan elə,
Harda olsa fikrin yönü vətəndir.

Vətən deyən bir ağızdan od daşır,
El deyəndə su da oda tutaşır.
Qürbət elə gəlib düşsə yurd daşı,
Onun üzü,tozu,tini vətəndir.

Dünya yanar bir qəribin ahında,
Binəsində olur gücü dağın da.
Ən qüdrətli hökmü olan şahın da,
Adı,sanı,hökmü,çini Vətəndir.

Bir yad əli lap başımda tac olsa,
Tikəsinə əl açmaram ac olsam.
Torpağımda min-min çiçək açılsa,
Bu güllənin yüzü,mini Vətəndir.

Vətən əgər yaşayırsa qanında,
Bir daşı da Vətən olar yanında.
Vətənində şirin olar canın da,
Şirinlərin ən şirini Vətəndir! *28.01.2012*

AĞLAYIM

Qoy bircə yol izin düşsün yoluma,
Mən diz çöküb dizin üstə ağlayım.
Bir gözucu bax sağıma,soluma,
Bircə şirin sozün üstə ağlayım.

Həsrətimə bir nadanın sözü nə ?
Bir ümidim bəsdir dərdin yüzünə.
Bircə dəfə mən görünüm gözünə,
Kiprik olum gözün üstə,ağlayım.

Yanan üçün atəşindən kül betər,
Əgər yansa ürəkdən də dil betər.
Göz yaşımdan həsrət adlı gül betər,
Dağın üstə,düzün üstə ağlayım.
Bulud olub iki gözüm,ha yağa,
Tufan olsa,çəkmə məni qırağa.
Dizin üstdən lap düşsəm də ayağa,
Başım qoyub dizin üstə,ağlayım. *28.01.2012*

BİLSƏYDİM Kİ, QOCALACAM

İllər qoşdum il ucuna,
Demə özüm uc olacam.
Düşdüm taleyin ovcuna,
Bilmədim ki,puç olacam.
Gül üstə bülbül sozalır,
Səsinin gücü azalır.
Qalxan enməkçün ucalır,
Dedim ki,hey ucalacam.
Arzu cavan,dünya qədim,
Nə istəyirdim,nə dedim.
Kiminsə borcun ödədim,
Kimlərəsə borc olacam.
Bilsəydim susub dinməzdim,
Sevməsəydim,sevinməzdim.
Cavanlığa güvənməzdim,
Bilsəydim ki,qocalacam! *30.01.2012*

ŞİR NƏRƏLİ GİRDİMANIM

Bir uca zirvədən gəlir,
Soyuq qar-qüvvədən gəlir.
İlahi qüvvədən gəlir,
Şir nərəli Girdimanım.
Yoluna meşələr çıxır,
Yolundan nəşələr çıxır.

Min gizli guşələr çıxır,
Bağ-bərəli Girdimanım.
Nə çaşır,nə də karıxır,
Bəlkə Kür üçün darıxir.
Gedib boz çöllərə çıxır,
Dağ-dərəli Girdimanım.
Sirri var min-min keçmişdən,
Dağlar ona baxır döşdən.
Min cənnətdən,min behiştdən,
Mənzərəli Girdimanım.
İpə-sapa yata bilmir,
Kor baxtına bata bilmir.
Hayıf,Kürə çata bilmir,
Coşqun,dəli Girdimanım.
Uzun yolu çeşmə-çeşmə,
Gəl indi eşqində bişmə.
Susmayıb min qanlı düşmən,
Yad görəli Girdimanım !
Ağasən coşar selincə,
Qoymazsan könlünü dincə.
Sənə tərəfdir ölüncə,
Ha bir əli Girdimanım ! *30.01.2012*

ÖMÜR KEÇİR

Acı-şirin xatirələr,
Xəyalımdan bir-bir keçir.
Nələr gördüm,nələr,nələr,
Sular kimi ömür keçir.
Könlüm şaxtada,sazaqda,
Odum kül olur ocaqda.
İllər var,yanır uzaqda,
İllər var ki,sönür keçir.
Bir yanda çiskinli duman,
Bir yanda işıqlı güman.
Coşur qəlbimdə Girdiman,

Xan Araz,dəli Kür keçir.
Kəsilir nə qədər dillər,
Qapanır min-min könüllər.
Az-az günlər,az-az illər,
Xatirəyə dönür keçir.
Gizlədir əsil üzünü,
Gecəsini,gündüzünü.
Hayıf,ömür son sözünü,
Sahibinə demir,keçir! *30.01.2012*

ELƏ DEYƏCƏYƏM Kİ,..

Sevgisiz kiməm ki,gülüm,nəyəm ki,
Sən niyə yanımda məndən uzaqsan,
Mən səni lap elə sevəcəyəm ki,
Kimisə sevməyi unudacaqsan.
Mən gərək sözümü elə deyəm ki,
Məni kiçiltməsin,məni böyütsün.
Elə sevgi ilə sevəcəyəm ki,
Böyük nifrətin də üstünü örtsün.
Heç yanma,tüstülən,yanım tüstünə.
Odlu duyğuların selləri daşsın.
Elə düşəcək ki,odum üstünə,
Sənə baxanların gözü qalmasın.
Bu sevginin dəmi bir elə dəm ki,
Qara daşa dönsən dil açacaqsan.
Mən səni o qədər sevəcəyəm ki,
Quru budaq olsan,gül açacaqsan.
Mənim könlümdəki qəm elə qəm ki,
Ona sevincdən çox ərk edəcəksən.
Mən səni o qədər sevəcəyəm ki,
Dünyanı təzədən dərk edəcəksən.
Bu sevgi dediyin bir elə şam ki,
Oduyla ömürlük əylənəcəksən.
Mən səni o qədər ucaldacam ki,
Özünü təzədən öyrənəcəksən.

Mən elə sevgiylə qocalacam ki,
Köhnə duyğuları ayıldacaqan.
Xatirənə elə yol salacam ki,
Bu yolla sevginə qayıdacaqsan. *31.01.2012*

TANRININ DƏYİŞƏ BİLMƏDİYİNİ

Sən demə tələsib qovar gün-günü,
Ürəklər,ürəklər de ki,dəyişir.
Tanrının dəyişə bilmədiyini,
Məhəbbət dəyişir,sevgi dəyişir. *31.01.2012*

SEVƏ BİLSƏ İDİ

Ram edər qolunu vəhşi şirlərin,
Sevgiylə insafsız qəlb olmaz idi,
Eşqi olsa idi Cahangirlərin,
Dünyada bir dənə hərb olmaz idi.
Sevgi özü aşkar,cilvəsi sirli,
Gizli duyğusu var hey dürlü-dürlü.
Sevgiylə diləklər qara fikirli,
Ürəklər heç zaman qəlp olmaz idi. *31.01.2012*

EL DƏ SƏNİ YAD EYLƏYƏR

Yan tüstülən el dərdinə,
El tüstünü od eyləyər.
Sənə qalan eldir yenə,
Sənə yoxdan yurd eyləyər.
Ha çalxanma,ha bulanma,
Nahaq coşub dalğalanma.
Eldən qaçıb tək dolanma,
Təklik səni qurd eyləyər.

Ağlın vaxtı qabaqlasa,
Bir dərd yolumu bağlasa.
İki göz el üçün ağlasa,
El gözünü dörd eyləyər.
Mala,pula satılmasan.
Namərdlərə qatılmasan.
Sən bir elə yad olmasan,
El də səni yad eyləyər.
Ellər verən muradı da,
Möhkəm qolu-qanadı da.
El mənasız bir adı da,
Bir çərəfli ad eyləyər! *30.01.2012*

SAZIN ÜSTÜNDƏ

Gözəl saz ifaçılarına

Mən heç belə şirin qəm görməmişdim,
Ömür payızının,yazının üstdə.
Mən belə ağlayıb,hönkürməmişdim,
Ata-anamın da yasının üstdə.
Min dərd ürəyimdə gəlib yurd tutub,
Könlümün mülkünü çən,bulud tutub.
Nə Məcnun Leyliçün belə od tutub,
Nə bülbül gülünün nazının üstdə.
Bir tarix səsidir bu haray-həşir,
Bir daş ürəyi də bu səslər deşir.
Gör tellər çırpınıb necə mələşir,
Bir sevda dolusu arzunun üstdə.
Gör cansız bir teldə nələr var,nələr.
Canı,qəlbi olsa daş da dərd elər.
Qədim bir yazıdır bəlkə pərdələr,
Tarixim bu qədim yazının üstdə.
Çal,mizrab qəlbimdə telə toxunsun,
Mələklər də enib,tellərə qonsun.
Öləndə istərəm duam oxunsun,
Köklənsin bu sənin sazının üstdə.

Savabdır,mizrabı qəlbimə vursan,
İnciməz könlümün telini qırsan.
Pərdələr üstünə dərdmi yazırsan?
Mənim də dərdimi yaz onun üstə! *30.01.2012*

TƏZADLAR

Dağların başından ötür dumanlar,
Leysanı dağları döyə bilməyir.
Min illik palıdı yıxan tufanlar,
Bir xırda çiçəyi əyə bilməyir.
Ha qaçsaq,düşürük axırda bəndə,
Köçür ləng gedən də,bərk yeriyən də.
Halal qazanan da, haram yeyən də,
Qismətdən kənarı yeyə bilməyib.
Verdiyi tikəni başa çaxanlar,
Nə ara vuranlar,nə ev yıxanlar.
Yiyəsiz malına yiyə çıxanlar,
Tanrını özünə yiyə bilməyib.
İnsan var,görən yox əzablarını,
Günaha şıxıblar səvablarını.
"Niyə,, sualı var,cavablarını.
Heç kim axiracan deyə bilməyib.
Biz gec anlayırıq kim uduzubdur,
Yalan addım-addım haqqı pusubdur.
Fağır haqqı bilib,qorxub susubdur,
Şahsa haqq köynəyi geyə bilməyib. *01.02.2012*

SƏHV EYLƏYƏRSƏN

Düşmən var ki,əvf eyləyərsən,
Bütöv bir milləti məhv eyləyəsən.
Namərd var,vecinə almasan onu,
Zərbini sındırıb,dəf eyləyərsən.

Versən qazancını uman kəslərə,
Qazancından artıq nəf eyləyərsən.
Haqdan yaranana əl gəzdirməsən,
Dağıdıb tökərsən,heyf eyləyərsən.
İnsan sevindirmək özü də kefdir,
Sonra yaxşılıqdan kef eyləyərsən.
Səhvsiz yol gedən yol açа bilməz,
Bu dünya belə ki,dönür tərsinə,
Sən lap düz getsən də səhv eyləyərsən. *12.09.2011*

UTANDIRDI MƏNİ

Arı uçdu sağa-sola,
Gah sünbülə,gah qanqala.
Qondu mən qaçdığım kola,
Arı məni utandırdı.
Bağa baxdım dönə-dönə,
Xəzan ağır gəldi mənə.
Yandım payızın dərdinə,
Barı məni utandırdı.
Dağlara obasız dedim,
Dərmansız,davasız dedim.
Dağlara vəfasız dedim,
Qarı məni utandırdı.
Yamanca dərdimənd oldum,
Suda əriyən qənd oldum.
Ala, yaşıla bənd oldum,
Sarı məni utandırdı.
Bir yanğı keçdi sinəmə,
Yetmədim bircədənəmə.
Bülbülə dedim qəm yemə,
Yarı məni utandırdı.
Könlümün qəm otağından,
Dünyaya baxdım yaxından.
Küsdüm dünyanın yoxundan,
Varı məni utandırdı. *13.03.2011*

PUL

"Tanrı hər yedə pulu bir ürəyi səxtə verir.
Mərifət müftədi çün kasibi-bədbəxtə verir.,,
M.Ə.Sabir

Bir parça kağızdır, nə günahı var,
Pulda hər ürəyin bir pənahı var.
Görən bu pulları kim şahlaşdırıb,
Kimlər səcdə qılıb,Allahlaşdırıb.
Kimlər kimin üçün silahlaşdırıb,
Bir parça kağızı günahlaşdırıb.
Pul gör hardan-hara dolanıb gəlir,
Ciblərdən-ciblərə qalanıb gəlir.
Evlərdən-evlərə talanıb gəlir,
Kimlərin qanına bulanıb gəlir.
Döyülür,kiminsə belindən çıxır,
Hansı gözəlinsə telindən çıxır.
Hansı yaltağınsa dilindən çıxır,
Hansı yananınsa külündən çıxır.
Pul əl çirki deyil,əməl çirkidir,
Ya qızıl çirkidir,ya ləl çirkidir.
Bütün bəlalara təməl çirkidir,
Pul ölüm çirkidir,əcəl çirkidir,
Kimlərin,kimlərin əlindən çıxır!
Təmiz ələ keçir qatil əlindən,
Qəddar ələ keçir adil əlindən.
Fahişə əlindən toya yol tapır,
Kimlərsə kimlərin əlindən qapır.
Dərd olub,kiminsə qanına hopur,
Günahsız körpəyə hədiyyə olur.
Çox pul ucbatından kimlər pozulur,
Təkcə halal əldə o halallaşır,
Təkcə halal əldə susur,lallaşır.
Bu boyda dünyanı pul dolandırır,
Pulsuz haqq nahaqqı qandıra bilmir.
Bir kağız bəşəri yaxıb yandırır,
Bəşər bir kağızı yandıra bilmir. *13.01.2011*

SÖZ QABAGINDA

Şaxta da,sazaq da qopar fikirdən,
Ocaq qabağında,köz qabağında.
Gözün də gördüyü düz çıxmır hərdən,
Gördüyüm dursa da göz qabağında .
Hər adın yanında hər ad dayanmaz,
Qanad hey çırpınar,qanad dayanmaz.
Dəmir,daş dayanmaz,polad dayanmaz,
Təkcə söz dayanar söz qabağında .
Suya dönmüsənsə,axmaq gərəkdir,
Şimşək olmusansa,çaxmaq gərəkdir.
Özgə gözüylə də baxmaq gərəkdir,
Həqiqət dursa da öz qabağında. *30.03.2012*

ŞİRİNLƏŞƏR

Bir şirin söz eşidənə,
Bütün yer,göy şirinləşər.
Bir dərd səni üşüdəndə,
Dərdin də hey şirinləşər.
Acı söz pisdir yaradan,
Ayırmaz ağı qaradan.
Şirin söz keçsə aradan,
Doğma-ögey şirinləşər.
Çəkilər dağların çəni,
Şirin dil yaşadar səni.
Xoş sözlə qaldır badəni,
Qədəhdə mey şirinləşər.
Ötərsən,dərdin min olsa,
Qorxulu yuxun çin olsa.
Ağızda dil şirin olsa,
Dodaqda ney şirinləşər.
Keç şirin dil duasından,
İlanı çək yuvasından.
Zərrə günəş şüasından,
Qarlı quzey şirinləşər.

Qorxma,suyu lilli görsən,
Ocağını küllü görsən.
Hər gün şirin dilli görsən,
Hər şey,hər şey şirinləşər.
Ağasən,əzsə də səni,
Gözəl bil könül sevəni.
Həyat eşqiylə kəfəni,
Əyninə gey,şirinləşər! *30.03.2011*

ÖZ OCAĞIMDA

Gülü çox sevirəm,dərməyəm ancaq,
Gül ətirli olur,öz budağında.
Yad evdə,hər küncdə yansa bir ocaq,
Yenə canın qızar öz ocağında.
Evində işıqlı olur çıraq da,
Balıq sudan çıxdı,ölür qıraqda.
Döşəyi daş ola,yorğanı taxta,
Adam rahat yatar öz yatağında.
Ürək odsuz yanar,ocaqsız yanar,
Dünya öz oxuyla dönər,fırlanar.
Ürək,ürək deyil köksündən kənar,
Ürək ürək olur can otağında.
Yaşa ürəyincə,qal ürəyincə,
Xoşbəxt ol,öz arzun,öz diləyincə.
Büllur saraylarda kef eləyincə,
Ac qalam evimin bir bucağında.
Hər işıq dalınca kölgə sürünür,
Piltə şam işində nura bürünür.
Analar ilahə kimi görünür,
Körpə uyuduqca öz qucağında.
Mənim öz ürəyim hər şeydən duyuq,
Biz öz arzumuzla yol yolşusuyuq.
Arzunu özgə dil desə-çox soyuq,
Arzu oda dönür öz dodağında.
Ağasən,ürəyin hey intizarda,

Vətəndə şirindir giley-güzar da.
Sür-sümük olarsan qərib məzarda,
Dönərsən torpağa öz torpağında!! *15.04.2012.*

ÖLÜM DƏ HƏYATA XİDMƏT EDƏRMİŞ

Bir ana qaranquş balalarına
Tutub cücülərdən hey yem daşıyır.
Cücülər yem kimi gedir qarına,
Bir həyat sönürsə,biri yaşayır
Sadə həqiqətdə min möcüzə var!
Bəzən tərsə dönür qanun-qaydalar.
Dünyanın hikməti gör nə qədərmiş,
Ölüm də həyata xidmət edərmiş!! *15.04.2012*

DOYDURA BİLMƏZ

Ürəyin öz dərdi, ağrıları var,
Yalandan dərdi-sər uydura bilməz.
Dərin dəryaları sular doydurar,
Göz yaşı ürəyi doydura bilməz. *15.04.2012*

ZOĞAL TALEYİ

Zoğal çiçək açır hamıdan qabaq,
Bəhrə verməyisə nə qədər çəkir.
Sən yazıq ağacın taleyinə bax,
Gör harda tələsir,harda gecikir.
Həyatın qəribə qanunları var,
Kimlərin böyründən baxt ötüşərmiş,
Arzuda hamıdan qabaq olanlar.
Bar üşün hamıdan geri düşərmiş. *15.04.2012*

FİLİN ÖLÜMÜ

Əcəl ki,yetişir,vaxt tamam olur,
Fillər bu ölümə özü ram olur.
Daha fil olmağı yadına düşmür,
Ölümlə əcəllə fil pəncələşmir.
Dayanıb gözləyir ölümünü o,
Yaman ucuz satır ömrü-günü o,
Amma qarışqanın həyatı başqa.
Ölümdən,əcəldən qaçır qarışqa.
Ölüm duyğusuyla yaşamaq heçdir,
Həyat eşqi üçün qəm də sevincdir,
Doğulan həyatla eşq doğulursa.
Bu eşq qüvvət olur damarda,qanda
Ölümə könüllü təslim olursa,
Fillər aciz imiş qarışqadan da. *15.04.2012*

İŞIQ VƏ GÖLGƏ

Qaralan ocağı közərtmək üçün,
Zəif bir telin də öz qüdrəti var.
Namərddən işığı gizlətmək üçün,
Qara gölgənin də öz qiyməti var.
Təkcə işıq verən ocaq köz deyil,
Bir kibrit zülmətə zor da eyləyər.
İşığa bir gözlə baxmaq düz deyil,
İşıq nur da verər, kor da eyləyər.
Ömrün işığı az,kölgələri bol,
Ömür ümidlərə bürünər ancaq.
Günəş işığıyla görünməyən yol,
Sevgi işığıyla görünər ancaq. *14.04.2012*

QOCALIQ LƏNGİYİR

Dərələrə sığmır dağların seli,
Dərələr donunu gen geyir bir az.
Arzular,duyğular aşır sahili,
Çöllərin yanğısı səngiyir bir az.
Şimşək odu yanır bulud içində,
Qumluq da, şumluq da umud içində.
Göyərmək istəyir daş ot içində,
Göyərə bilməyir inciyir bir az.
Bir gülün xətrinə daş qırır həyat,
Daşın da içindən fışqırır həyat.
"Yaşa ,, "yaşa,, deyib qışqırır həyat,
Tələsir, nəfəsi təngiyir bir az.
Qış da bezir bahar gec gələn zaman,
Yollar da gül açır köç gələn zaman.
Yaşamaq həvəsi güc gələn zaman,
Sanki,qocalıq da ləngiyir bir az. *01.04.2012*

KEÇƏRƏM

Bir aləmdir mənzərəsi qəlbinin,
Dağam,dərdin tişəsindən keçərəm.
Açılmasa pəncərəsi qəlbinin,
Şüa olub şüşəsindən keçərəm! *30.03.2012*

TƏNHALIQ OLUR

Hər çölün çəmənin obalığı yox,
Amma hər qayada kahalıq olur.
Adam var evində urvalığı yox,
Di gəl ki,könlündə koxalıq olur.
Bir anlıq yağışdan nə qalacaq ki?
Kağız gül nə açıb,nə solacaq ki?
Kiçik gölməçədə nə olacaq ki?
Onda nə mirvari,nə balıq olur.

Gül nədir,güllüyü istəməyənçün,
Dost nədir,dost yolu gözləməyənçün.
El içində elə söz deməyənçün,
Elin-içində də tənhalıq olur.
El qalıb halallıq intizarında,
Haq ölür haqsızın daş hasarında,
Ucuzluq ki,olur can bazarında,
Alver bazarında bahalıq olur. *30.03.2012*

DÜNYA,YOXSA Kİ,İNSAN?

İnsan bu dünyaya təkcə yük deyil,
Həm də bu dünyanın qarışığıdır.
Bu dünya insana heç dönük deyil,
O,bunun,bu onun yaraşığıdır.
Dünyanın günəştək bir şamı yandı,
İnsan ağlı şama gücünü verdi.
Dünya torpağından insan yarandı,
İnsan torpaq olub,borcunu verdi.
Dünyanı sökməyə dadanmışıq biz,
Hər insan məzarı ona dağ olur.
Dünyanı qurmaqçün yaranmışıq biz,
Bizim əlimizdə dünya dağılır.
Göyü fəth etsək də,yerə enirik,
Sən demə ki,gedir güc özümüzdən.
Dünya,dünya deyib,gileylənirik,
Xəbərimiz yoxdur heç özümüzdən.
İnsanın həm ilki,həm sonu dünya,
Arzu bu dünyada qaynayıb daşar,
Ayağımız altdan qaçsa bu dünya
Sonra hansı dünya bizdən yapışar.
İnsanın öz ağlı özünə zindan,
İnsan öz ağlından yaralanıbdır.
İnsan idrakının oyunlarından,
Dünya məhvərindən aralanıbdır.

İnsanmı özünün gözündən düşüb,
Dünyamı dərd olub,yayılıb belə?
İnsanmı dünyadan belə gen düşüb,
Dünyamı insandan ayrılıb görən?
Dünyaya baxıram,ürək köyrəlir,
Sinəmdə çağlayan arzu səsidir.
İnsanlar artdıqca ağıl seyrəlir,
Buda ki,dünyanın faciəsidir.
Ağıl yox,başda da duyğu yığıla,
Onda yükümüzə ağır demərəm.
Dünyanı viranə qoyan ağıla,
Dara çəkilsəm də ağıl demərəm. *07.04.2012*

İTİRİRİK

Yel tək ötən ömrümüzü,
Verib yelə,itiririk.
Bərkiməyən yerimizi,
Gülə-gülə itiririk.
Tanımırıq özümüzü,
Əyrimizi,düzümüzü.
Əlimizlə izimizi,
Silə-silə itiririk.
Tez tutaşıb,gec yanırıq,
Hamar yoldan usanırıq.
Damcı-damcı qazanırıq,
Lülə-lülə itiririk.
Baxtımıza yollar çıxıb,
Biri yorub,biri yıxıb.
Xalvar-xalvar ümid yığıb,
Gilə-gilə itiririk.
Getməlini ötürmürük,
Bitməlini bitirmirik,
Çaşa-çaşa itirmirik,
Bilə-bilə itiririk.

Qarışırıq dumanlara,
Öyrəşirik yamanlara.
Həyatı boş gümanlara,
Bölə-bölə itirik.
Ömrümün min bir əzabı,
İynədən ayrılıb sapı.
Sonda bilinər hesabı,
Hələ,hələ itiririk! *08.04.2012*

KÖLGƏ OLMAYIM

Üzünün odundan yansın gözlərim,
Soyuq baxışınla birgə olmayım.
Sevgi işığında yanım,közərim,
Sevgi işığında kölgə olmayım. *14.04.2012*

NEYNİR

Qəlbinin oduna yanan,
Özgə hərarəti neynir.
Könlündə sevgi dolanan,
Üzdə məlahəti neynir?
Gedir gedən,gəlir gələn
Ya tərs getsin,ya köndələn.
Eşqin qiymətini bilən,
Başqa şərafəti neynir?
Dost üçün xiffəti varsa,
El üçün möhnəti varsa.
Düşmənə nifrəti varsa,
Ürək cəsarəti neynir.
Kim kolluqdan yol açırsa,
Əkdiyi kol gül açırsa.
Kim sözlə könül aşırsa,
Gücü məharəti neynir.

Kim haqqa,düzə baxırsa,
Ağıllı sözə baxırsa.
Kim nurlu üzə baxırsa,
Pirə ziyarəti neynir! *14.04.2012.*

GÖR NƏLƏR KEÇİR

Səhralar çatdayıb su istəyəndə,
Gəlib xəyalımdan dəhnələr keçir.
Dərdimi özgəyə sənsiz deyəndə,
Gözümdən çox sənli səhnələr keçir.

Ha keçib-ketsək də dərəylə-düzlə,
Hamımız bağlıyıq keçmişimizlə.
Görünmür dünən də,sabah da gözlə,
Keçəndə gah ağlar,gah mələr keçir.

Həmişə keçmişə dönür suallar,
Burulub,dolanır keçmişə yollar.
Kötüyün üstündən qalxır şumallar,
Kötüyün çiynindən pöhrələr keçir.

Daha yun-yumaq yox,daha cəhrə yox,
Daha odunçu yox,balta-dəhrə yox.
Xəstənin könlündən təzə bəhrə yox.
Çoxdan solub-gedən bəhrələr keçir.

Təzə də köhnədir,bir başqa donda,
Köhnəni bərk saxla sən ovucunda.
Təzə tərifl ənir dilin ucunda,
Amma ki, ürəkdən köhnələr keçir.

Nə umaq quşların köçərisindən,
Ha müqəvva quraq quş dərisindən.
Acı xatirənin içərisindən,
Gəlib şirin-şirin nəğmələr keçir.

Yapışır gələcək öz qolumuzdan,
Dönə də bilmirik öz yolumuzdan.
Keçmişə boylanan xəyalımızdan,
Fərəhlər saçılır,tənələr keçir.

Bu gündən dünənə kaş ki,yol düşə,
Dünənin odunda həsrətin bişə.
Özüm də dönürəm daha keçmişə,
Keçmişdən sabaha bəs nələr keçir? *14.04.2012*

MƏRD DÜNYASI,DƏRD DÜNYASI.

Min adam içində bir mərd görəndə,
Deyirik bu dünya mərd dünyasıdır.
Beşinin üzündə bir dərd görəndə,
Deyirik bu dünya dərd dünyasıdır.
Bu dünya həm namərd,həm mərd dünyası,
Bu dünya həm nəşə,həm dərd dünyası. *08.02.2012.*

GEC ELƏMİŞƏM

İş var uşaqlıqada eləməliydim,
Cavanlıq da ötüb,gec eləmişəm.
Arzu var,gənclikdə diləmiydim,
Qocalığa qalıb,heç eyləmişəm.
Hamar yollar olub qarşımda yönsüz,
Vaxt olub,elə bil yoxuş da dümdüz.
Yollar var,getmişəm gecəbəgündüz,
Yollar var,yarıda gecə gəlmişəm.
Kim dünyanı gəzib,kim dünya görmüş,
Kim dünya sehrinin içinə girmiş.
Demə,ən mənalı kitab ömürmüş,
Çox vecsiz kitablar höccələmişəm .
Mən hər çöl daşını qaldırmamışam,
Sakit yol getmişəm,yol yormamışam.
Güc gərək olana əl vurmamışam,
Gücsüz yol gedənə güc eləmişəm.
Fürsətlər,fürsətlər vermişəm bada,
Səpilib yoluma min-bir,qan-qada.

Bir ömür verilib mənə dünyada,
Mən ömürdən ömrə köç eləmişəm! *09.02.2012*

KÜBAR DEYİRİK.

Min saxta məlhəmdən əl ziyilləşir,
Buna işdən doğan qabar deyirik.
Qanmaz qapaz vurur,başımız şişir,
Biz də bu qapaza tumar deyirik.
İndi nə haq vardır,nə dəlil-sübut,
Hətta dost da olur bir qoyunla qurd.
Zəhmətkeş əlinə niyə kor-kobud,
Avara əlinə hamar deyirik!
Durub baş əyirik harınlara biz,
Quluq belimizi qıranlara biz.
Bizim qanımızı soranlara biz,
Sonra pəhə-pəhlə kübar deyirik.
Iş adamı harda,iş görən harda,
Birisi bardadır,birisi darda.
Ən böyük dərdi-sər qalır kənarda,
Ən vecsiz arzuya qubar deyirik. *08.02.2012*

GÖZƏLLİK

Gözəllik nə rəngdir, nə yaraşıqdır,
Gah məni yandırdı, gah da üşütdü.
Gözəllik ilahi bir sarmaşıqdır,
Sənə sarıldısa, qurtardı getdi!
Çağır gözəlliyin yozanlarını,
Gözəllik dünyada payızdı,yazdı.
Gözəllərin bütün nişanlarını,
Sevənlər Allahın adına yazdı.
Gözəllik hakimdir könül mülkünə,
Ürəkdə yurd salır,lap içəridə.

Məlahət gözəlin baxışındadır.
Gözələ döndərər eybəcəri də!
Gözəllik hakimdir könül mülkünə,
Qəlbin hökmü ilə sevilər,könül.
Bir anın içində gözəl çirkinə,
Çirkin də gözələ çevrilər,könül!
Sevdiyin bir yağış həmişə yağmaz,
Gözdə susuz gülə su saxlayarsan.
Elə çiçək var ki,qucağa sığmaz,
Elə qaya var ki, qucalayarsan.
Sözüm var bir haqqı unudanlara,
Sevgisiz ölümdə məqsəd nədir nə?
Gözəllik önündə od tutanlara,
Yanıb kül olmaqdan başqa nə çarə?
Özümə borc bildim təmiz eşqimi,
Eşqim yerə hopar axır gündə də.
Yaşamaqda məqsəd olduğu kimi,
Məqsəd olmalıdır ölməyində də! *09.03.2012.*

KİTAB

Ağlın bəzəyidir,bəşərin gözü,
Demə nə qazandı,nə tapdı kitab?
Mənalı bir ömrün parlaq güzgüsü,
Min-min suallara cavabdır kitab .
Demə bu kitablar bizə neynədi,
Könlüm bu sualdan yandı,göynədi.
Kitab bir dövranın əsil qiyməti,
Allahın dililə xitabdır kitab.
Var-dövlət bir yana,kitab bir yana,
Odur qiymət qoyan yaxşı-yamana.
Yolunu itirib,azan dövrana,
Ən karlı dərmandır,savabdır kitab.
“ Quran ,, kitabdırsa,o haqdır sənə,
Səni sənə verən kitabdır yenə.
Ağıllılar üçün böyük dəfinə,

Ağılsızlar üçün əzabdır kitab.
Kitab ev-eşikdə,kitab od-ocaq,
Bağlı qapıları kitab açacaq.
Kitaba üz tutun,kitaba ancaq,
Haqqa yol gostərən mehrabdır kitab.
Ağı al eylədim,qaranı pozdum.
Dünyanın işini min yerə yozdum.
Gördüm ki,ən əziz,ağıllı dostum,
Dünyada yenə də kitabdır kitab! *17. 06.2012*

UÇURUM

Baxanda ürəkdən qorxular keçir,
Dəhşətlə baxmışıq uçurumlara.
Demişik:uçurum yollara zəncir,
Eh, gözəllik hara,uçurum hara?
Düşür könül quşu hey pərən-pərən,
Uçulub-dağılan dağlar şərdimi?
Bu dünya düppədüz olsaydı görən,
Dünya yenə gözəl görünərdimi?
Bir rəngdə görmə sən dağı-düzü də,
Təki üzməyəsən ayağa yerdən !
Könül verdiyimiz dağlar özü də,
Yaranmış dəhşətli zəlzələlərdən .
Hər qorxulu olan bəd ola bilməz.
Vədəsi gələndə gün batmadımı?
Gözəllər gözəli Göygölü də bəs,
Təbiətin hökmü yaratmadımı?
Bir qaya dağılıb,döndü qumlara,
Qayanın dərdinə sınmadıq ancaq.
Biz dəhşətlə baxdıq uçurumlara,
Uçurum dərdinə yanmadıq ancaq.
Qorxu var hər günün sağı solunda,
İşıqla bir yerdə yol getdi kölgə.
Uçurum olmasaydı ömür yolunda,
Ömür belə şirin olmazdı bəlkə. *10.06.2012.*

KÖNÜLSÜZ

Ürək istəməsə,gözlər də gülməz,
Qaralar,alışmaz ocaq könülsüz.
Ürək yapışmasa,qan çəkə bilməz,
Bağlanar,açılmaz qucaq könülsüz,
Düşür dərələrə çaylar da bəndə,
Gül solur,sevgisiz gozə dəyəndə,
Çiçək açmayanda,bar verməyəndə.
Tərpənir,yellənir budaq könülsüz.

Elə bil fikrin də yolu daralır,
Könülsüz ürəyə dərd də yol salır.
Söz gəlib boğazda tıxanıb qalır,
Ancaq qımıldanır dodaq könülsüz.

Könülsüz dostluğun körpüsü sınsın,
Kəpənək sevdiyi çiçəyə qonsun.
Otaqda könülsüz lap toy çalınsın,
Qapılar könülsüz,otaq könülsüz.

Meyvə dərmanla yox,özü yetişsin,
Bağlardan nəğməli quşlar ötüşsün.
O dağdan bu dağa nə kölgə düşsün,
O dağ könülsüzdür,bu dağ könülsüz.

Ocaq saf odundan diri köz verər,
Xəsis borcunu da könülsüz verər.
Darda da dindirər,ya boş söz verər.
Yaxın uzaq durar,uzaq könülsüz.

Arı adi qurddur,o bal çəkməsə,
Başda ağıl olmaz,baş qal çəkməsə.
Ana körpəsinə sığal çəkməsə,
Döşə də yapışmaz,uşaq könülsüz.

Ağasən,hər sözə biz baş qatmırıq,
Könülsüz tikəyə əl uzatmırıq.
Hər yolu könülsüz başa çatmırıq,
Yaşaya bilirik ancaq könülsüz. *13.06.2012*

MİLLƏT CIRLAŞIR

" Artıqca həyasızlıq,olur el mütəhəmmil"
M.Ə. SABİR.

Aciz əl uzatdı,əl üzdü dövran,
Kimə nə,əyridi,ya düzdü dövran!
El güclü olanda acizdi dövran,
Dövran quduranda el fağırlaşır.
Dərddən dərd bilənə bir elçi yoxdur,
Güldən zövq alana bir gülçü yoxdur.
Ağlın çəkisinə bir ölçü yoxdur,
Ağıl yüngülləşir,dərd ağırlaşır.
Elə aldanırıq ömrümüz boyu,
Həmişə su üçün qazılmır quyu.
Azır bulaqların,çayların suyu,
Yağışdan yağışa sular gurlaşır.
Od sənə yapışmır daha ocaqda,
Silinib lüğətdən ta qanacaq da.
Nə qədər bekar var küncdə-bucaqda,
Küncə ki,atıldı qab paxırlaşır.
Gedək haqq yoluyla,yolumuz haqsa,
Gözlər də düz görər,düz yola baxsa.
Cığırlar yol olar,yolçusu çoxsa,
Yolçu ki,olmadı yol cığırlaşır. *20.05.2012*

BIR DAMCI GÖZ YAŞI SAXLA MƏNİMÇÜN

Ölüncə saxlaram bağrım başında,
Sən bir qəm çələngi bağla mənimçün.
Dərdimi duruldum gözüm yaşında,
Vallah,mən demərəm ağla mənimçün.
Xoşbəxtəm dərdindən sevinc qoparsam,
Lap bir sevincindən dərd də taparam.
Ümidsiz,gümansız heçliyə varsam,
Var da bərabərdir yoxla mənimçün.

Gəl qışda mənimçün yaz nəfəsi ol,
Sal məni qəlbinə dərd qəfəsi ol.
Razıyam mənimçün dərd nəğməsi ol.
Amma elə təkcə çağla mənimçün.
Qəmli xatirəmi dindirmək üçün,
Ruhumu göylərdən endirmək üçün.
Odlu məzarımı söndürmək üçün,
Bir damcı göz yaşı saxla mənimçün! *20.05.2012*

ÖLÜM-AYRILIQ

Həm ölüm zülümdür,həm hicran zülüm,
Ölümə nə var ki,sakit yuxudur.
Yoxluq olduğuyçün qorxutmur ölüm,
Ayrılıq dərdiylə ölüm qorxudur! *20.05.2012.*

ÖZÜMÜN ÖZÜMƏ YAZIĞIM GƏLİR.

Min dəfə getdiyim yolu azanda,
Özümün özümdən acığım gəlir.
Kimsə dediyimi tərsə yozanda,
Özümün özümə yazığım gəlir.
Ha dedim əyləşim adam yanında,
Əyləşdim haqqını satan yanında.
Sözün kəsilibsə nadan yanında,
Özümün özümə yazığım gəlir.
Uçmadım özgənin qol-qanadıyla,
Yol getdim baxtımın amanatıyla.
Adım qoşa düşsə cahil adıyla,
Özümün özümə yazığım gəlir.
Borcum yox,özgədə haqqım çox qalır,
Dağa söykənirəm,dağ uçuq qalır.
Elə ki, bir sözüm yarımçıq qalır,
Özümün özümə yazığım gəlir.

Hamar yol istədim,batdım zığa mən,
Uymadım mənasız yaraşığa mən.
Çarə tapmayanda bir yazığa mən,
Özümün özümə yazığım gəlir.
Görən yox yalançı bir şuxlumu,
Görən var ürəyi açıqlığımı.
Özüm dərk edəndə yazıqlığımı,
Özümün özümdən acığım gəlir. *14.06.2012*

MÜQƏDDƏS TORPAQ

Mənə həm Allahdır,həm də anadır,
Müqəddəs torpaqdı qarşımdakı da.
Bu torpaq sehirli bir karxanadır,
Sirdir qazandığım yaşımdakı da.
Torpaqda payı var yazın,xəzanın,
Torpaqda payı var selin,leysanın.
Əriyən canıdır min-min insanın,
Torpağımdakı da,daşımdakı da.
Hikmətdir torpaqda boşalan,dolan,
İbrətdir torpaqda açılan,solan.
Yaşamaq eşqidir burda şum salan,
Bir cür möcüzədir bu şumdakı da!
Babam torpaq olub,burda yatırsa,
Ayağım dəyənə əlim çatırsa.
Nə qədər ayağım torpaqdadırsa,
Torpaqla bağlıdır başımdakı da. *05.06.2012.*

MƏN DƏ QƏMƏ KÖKLƏNMİŞƏM.

Bu dünyaya düşən gündən,
Dərd yüküylə yüklənmişəm.
Dərdi-sərdə bişən gündən,
Mən yoxuşa diklənmişəm.

Getdikcə yolum uzanıb,
Mən yox,yolları uzanıb.
Dünya haqsıza inanıb,
Mən haq deyib,təklənmişəm.
Düz yol dönüb,qaya olub,
Gerçəyim də röya olub.
Günahkar bu dünya olub,
Mən özümdən şəklənmişəm.
Qəm sevginin nemətidir,
Qəm həyatın qiymətidir.
Qəm dünyada əbədidir,
Mən də qəmə köklənmişəm. *05.06.2012.*

BEYT

Əllər kobudlaşıb,dəyənəkləşib,
Ölşülər-biçilər döyənəkləşib.

DÜNƏN, BU GÜN,SABAH.

Günəş asta-asta gedir sabaha,
Sabahın dünənə sualları var.
Dünən çəkir bizi bir imtahana,
Dünənin bu günə sualları var.
Gün keçir,sabaha lap yaxınıq biz,
Hər günün günahı,savabı ayrı.
Dünənin, bugünün,sabahınıq biz,
Hər günün sualı,cavabı ayrı.
Bir ömür əzablar yolu olsa da,
Zirvədən gizlicə enib baxırıq.
Dünənin günahla dolu olsa da,
Yol boyu dünənə dönüb baxırıq.
Daha dünən yoxdur,keçib qorxular,
Xəyalda günahlar oyanıb baxır.
Dünənin bu günə min sualı var,

Bu gün aciz-aciz dayanıb baxır.
Min təzadla ötür elə ömür-gün,
Həmişə narhat qalır qəlbimiz.
“Keçən,, cəzalana bilmədiyüçün,
Həsəd aparırıq keçənlərə biz.
Gedirik qoşulub günaha biz də,
Suallar daha da dərinləşəcək.
Bu gün əzab verən günlərimiz də,
Sabah bizim üçün şirinləşəcək. *10.06.2012.*

RUHUNA HOPPUMUŞAM DEMƏ.

Keçmişəm gözüm görməyib,
Gözümü qırpmışam demə.
Öz əlimlə öz baxtımı,
Daşlara çırpmışam demə.
Nabələb yolçular kimi,
Çaşdım yolumu,yönümü.
İtirib ömür-günümü,
Mən səni tapmışam demə.
Niyə göylərdən enmirəm,
Hər sevincə sevinmirəm.
Göz yaşım yağır,sönmürəm,
Günəşdən qopmuşam demə.
Neynim əzaba bilmirəm,
Can dönüb sapa bilmirəm.
Özümü tapa bilmirəm,
Ruhuna hopmuşam demə. *20.05.2012.*

DEMƏ Kİ, ÖLDÜM QURTARDIM.

Dünyaya gələndən sonradı dərd-qəm,
Kim deyir dünyaya gəldim,qurtardı.
Bir aləm içində vardır min aləm,
Demə ki,ağladım,güldüm qurtardım.

Bir qəm sərgisidir bağrımın başı,
Naşıyıq,dünyada, həmişə naşı.
Ürəyin içindən axır göz yaşı,
Demə göz yaşımı sildim,qurtardım.
Əgər iynə varsa,o,sap istəyir,
Dünyada hər günah savab isəyir.
Nə qədər sual var,cavab istəyir,
Demərəm oxudum,bildim qurtardım.
Qaya daşı var ki,içində ləl var.
Hər şeyin sirri var,sirrə təməl var.
Bir rəqəm üstündə min bir əməl var,
Demə ki,topladım,böldüm,qurtardı.
Durur çayır-çəmən,dərə-dağ hələ,
Gül-çiçək yetirir bağça-bağ hələ.
Öləndən sonradır yaşamaq hələ,
Ağasən,demə ki,öldüm qurtardı. *23.06.2012.*

YERİ GÖRÜNÜR

Adam var, dövləti heç azalmayıb,
Dövləti özündən diri görünür.
Adam var həyatda yeri olmayıb,
Amma ölən kimi yeri görünür. *23.06.2012.*

HƏYATIN ÖZÜNƏ OXŞAYIR İNSAN

Səhərdən-axşama hey əlləş-vuruş,
Tələsir,axtarır,daşıyır insan.
Həyatın hökmündən yoxdur qurtuluş,
Yaşamaq eşqiylə yaşayır insan.
Dağlarçün Gün özgə,duman-çən özgə,
Bülbülçün gül özgə,amma dən özgə,
Hər şey yaddan çıxar ruzidən özgə,
Həyatın hökmünə baş əyir insan.
İnsan hey axtarır,dörd göz olsa da.
Təzə yol axtarır,yol düz olsa da.

Ən böyük tamahkar,acgöz olsa da,
Sağlığı hər şeydən baş sayır insan.
Yayda da,qışda da elə od-ocaq,
Fikri hey dağ-təpə,hey bayır-bacaq.
Heç nəyə oxşamır,bu ruhla ancaq,
Həyatın özünə oxşayır insan! *23.06.2012.*

QAZANIR

İnsan var,ölüncə bilik qazanır,
Axtarır,elm adlı bir yük qazanır.
İnsan var, ölüncə zülüm içində,
Sonra ömür dolu zülüm qazanır,
Axırda bu qədər axtaranların,
Hamısı bir yerdə ölüm qazanır,
Məzar var,ucadır,gendir görünmür,
Məzar var-torpaqla təndir-görünür. *23.06.2012.*

NƏDƏN BİLİRSƏN?

Dedin: Kağız ağdır,nədən bilirsən?
Dedin: bu söz haqdır nədən bilirsən?
Dedin:göylər mavi,ay işıqlıdır,
Dedin: çiçək otdan yaraşıqlıdır.
Dedin: iki düz xətt kəsişə bilməz.
Odla su bir yrdə gəzişə bilməz,
Təbiətin hökmü səhv düşə bilməz.
Nədən bilirsən?
Bir az da şübhəylə bax qanunlara,
Kim verib, kim verib adı onlara,
Ad da, rəng də,səs də şərtidir hələ,
Suallar dünyanın dərdidir hələ,
Bəlkə səhv görürəm gözüm görəni,
Özgə yaxşı görür özüm görəni.

Təzədən çevrədən çıxmaq gərəkdir.
Dünyaya təzədən baxmaq gərəkdir.
Dünyaya bəlkə düz baxmamışıq biz ,
Qanun var,bəlkə də pozulacaqdır.
Bizim dünya haqda bildiklərimiz,
Təzədən başqa cür yozulacaqdır.
Bu dünya boşalıb,dolacaq yenə,
Hər şeydən təzədən söz düşəcəkdir.
Bəlkə köhnə adlar qalacaq yenə,
Mənalar təzədən dəyişəcəkdir. *23.06.2012.*

MÜƏLLİM ADIMLA FƏXR EDİRƏM MƏN

Məmurlar özünə şanlı ad gəzir,
Tək məmur adıyla,narahat gəzir,
Müəllim adını nişantək taxır,
Amma müəllimə hündürdən baxır.
Müəllim deyilir ən alçağa da,
Müəllimin özü-ən aşağıda!
Heç vaxt bu sözlərdən sınmamışam mən.
Bundan acıq çəkib yanmamışam mən .
Çünki,bu ad mənim halal adımdır.
Bu adım halalca mükafatımdır.
Allaha şükür ki, gözüm hələ tox.
İnsanlar ada da tamah salarmış,
Mal, pul oğurlayan oğrular nə çox,
Adı oğurlayan oğru da varmış.
Bəşər öz yolunu çaşıb büsbütün,
Cavanları haqdan çəkindirirlər.
Cahillər işinin keçməsi üçün,
Müəllim adını rüşvət verirlər.
Suallar qıfıldır,müəllim açar.
Şərəfli adı var,yəni dünyada.
Mənim dərs dediyim milyonlar ki, var,
Milyonçu eyləyib məni dünyada.
Hansı yeyilənin dadı yaşayır,

Dənizdən ayrılmaz çayın suları.
Xətib Təbrizinin adı yaşayır,
Bəs hanı o dövrün milyonçuları?!
Qoruya bilibmi şahlar varların,
Biliyi kim alar mənim əlimdən .
Hanı pul kisəsi hökmdarların,
Xəzinələr qalıb ancaq elmdən.
Mal-dövlət dalında daldananlar.
Pulu zireh bilib,pula bürünüb.
Müəllim adını yerə salanlar.
Özləri ayaqlar altda sürünüb.
Müəllim bir ömür veribdir bada,
Elə bilməyin ki,mən az yanmışam.
Dünyada ən uca fəxri ada da,
Müəllim adını mən qısqanmışam! *23.06.2012.*

DAHA GEC QANDIRMAQ OLUR.

Adam var,sal buzdur ömrü uzunu,
Adam var,bir sözlə yandırmaq olur.
İndi elə cahil alim var,onu,
Uşaqdan daha gec qandırmaq olur. *23.06.2012.*

ÖLÜMLƏR

Dağların nəyi var, heç nəyi itmir,
İtəni də sellər düzə çıxardır.
Ölümlər çox şeyi ört-basdır etmir,
Ölümlər çox şeyi üzə çıxardır! *20.06.2012.*

DOST-DÜŞMƏN

Hər çəp baxan kəsə sən düşman demə.
O, dost ayağının izindən çıxar.
Hər üzə gülənə durub can demə,
Ocağın külü də közündən çıxar.
Beş günlük nəşədir kef də,damaq da,
Çiçək də dağdadır,tufan da dağda.
Paltar da, paltara düşən yamaq da,
İkisi də bir donun bezindən çıxır.
Dili də çaşdırır bəzən dodaqlar,
Tər şamama verir əyricə tağlar,
Bir də görürsən ki, əyri budaqlar,
Kökün hamarından,düzündən çıxır.
Halal da puldadır,haram da pulda,
Ömür də yoldadır,ölüm də yolda.
Boyunda boğazda yanan qızıl da,
Aşınmış dağların tozundan şıxır.
Ağasən,gəl çıxart fikrini tordan,
Ayıra biləsən şirini şordan.
Söz sənin dilinə gəlmir kənardan,
Yaxşı-pis,özünün sözündən çıxır! *20.06.2012.*

MÜSİQİ

Musiqi bəşərin qəm-qüssəsidir,
Kimini yandırar,kimə nur saçar.
Musiqi dünyanın möcüzəsidir,
Dilimə qıfıldır,dərdimə açar. *28.06.2012.*

XATİRƏLƏRLƏ

Ömür bir kitabdır qoca dünyada,
Xatirə yazılır kitaba zərlə.
Bəlkə salar məni təsadüf yada,

Anarsan bu günü xatirələrlə!
Hissimiz,duyğumuz bağlı bir pətək,
Bu hissi qəlbində yaşadan bilər.
Qəlbini açsan da min yol süfrətək,
Deyilə bilməyir deyilməlilər.
Üstümüzdə olur haqqın bir əli,
Boş qalır hər itən ümidin yeri.
İllər arzularla qaçır irəli,
Amma xatirəylə qayıdır geri.
Gecənin rəngi var səhər içindən,
Yollar gah hamardır,gah qırıq-qırıq.
Min il yaşasan da lap zər içində,
Həyatın bir başı peşimançılıq.
Ürək boş xanədir düşüncələrsiz,
Ömrü öz boyuna biçənlər də var
Ürəkdən xəbərsiz,gözdən xəbərsiz,
Yanar ürəklərə köşənlər də var.
Bizi cilalayır vaxt xırda-xırda,
İnsan min arzunun pərvanəsidir.
Peşiman olursa insan axırda,
Günahkar o deyil,zəmanəsidir.
Külündə qor qalır ocaq sönəndə,
Bu gündən keçmişə iz görür insan.
Xatirə yoluyla geri dönəndə,
İtirdiklərini tez görür insan.
Xatirə donudur qəmin,sevincin,
Bir ömrün şamıdır xatirələr də.
Ömürdən doymayan bir insan üçün,
Ömrün davamıdır xatirələr də.
Daşa da toxunur yolu tələsən,
Dağı da vaxt əzib quma döndərər ,
Təki xatirəyə dönə biləsən,
Xatirə daşı da muma döndərir.
Heç vaxt özümüzə oxşamırıq biz,
Alov bir özgədir,ömür bir özgə.
Ömrü ömür kimi yaşamırıq biz,
Yaşamaq bir özgə,ömür bir özgə.
Ot bitər həmişə kökünün üstə,

Böyüyüb ot kökü yıxdısa,heç nə!
Dağ boyda bir ömrün yükünün üstə.
Zərrə sevgi yükü yoxdusa, heç nə!
Xatirə bir ömür işıqlandırır,
Lap daşa dönsən də sındırır səni.
Elə xatirə var səni yandırır,
Elə xatirə var dondurur səni.
İtirə bilmirik izimizi biz,
Hərdən xatirəyə tox olur nəşə.
Yaxşı görmək üçün özümüzü biz,
Hərdən özümüzdən ayrılmalıyıq.
Hərdən özümüzçün güzgüləşirik,
Çırpınır qəlbimiz hey pərdə-pərdə.
Ömür yollarında özgələşirik,
Əslimiz yaşayır xatirələrdə.
Ömrün şirinliyi hər vaxt duyulmur,
İllər var atxanca düşüb mələşir.
Daşınan bir ömür xatirə olmur,
Yaşanan bir ömür xatirələşir.
Nə nağıla sığar,nə əsatirirə,
Xatirə sevgiylə tox olur nəşə.
Süzgəcdən keçirir ömrü xatirə,
Nifrətdən məhəbbət çox olur nəsə.
Keçdiyin yollara bir dön bax hərdən,
Görmədiklərinlə görüşəcəksən.
Nə qədər qaçsan da xatirələrdən,
Bir gün xatirəyə ilişəcəksən. *23.06.2012*

YAŞA

Ömür-arzuların can qiymətidir,
Dünyanın ən baha qənimətidir.
Havayı verilən haq nemətidir,
Nə qədər yaşasan,bəs deyil yaşa.
Bir manat boş yerə gedəndə yandıq,
Bir qaşıq itəndə min yer dolandıq.
Itən ömrə haçan hayıfsılandıq,

Hər günün qədrini yaxşı bil,yaşa!
Sən demə dərdimə qalan ki,yoxdur,
Dost-ürək! Ürəkdə qalan ki,yoxdur.
Sevgini əlindən alan ki, yoxdur,
Sənindir dağ,dərə,çəmən,çöl yaşa!
Tapır qiymətini hər şey dəmində,
Bir ayrı qiyməti vardır qəmin də.
Ölmək-yaşamaqdır eşq aləmində,
Eşqin alovunda alış,öl, yaşa!
Ağasən,de kimin işi tarazdır,
Dərdsiz o kəsdir ki,dövrana sazdır.
Həyat eşqi varsa,min il də azdır,
Könülsüz nə xeyri,lap min il yaşa! *28.06.2012*

XOŞBƏXTLİK

Əziz bacımın fədakar balalarına

Hamının payına səadət düşüb,
Göz yumub,hardasa biz itirmişik.
Ya göydə gəzmişik,göydən sürüşüb,
Ya yerdə kəm baxıb tez itirmişik.
Xoşbəxtlik dəyişir donunu tez-tez,
Həmişə yolunu salır dəyişik.
Nəyisə xoşbəxtlik uydurmuşuq biz,
Əsil xoşbəxtliyi görənməmişik.
Arzular illəri qovur ilbəil,
Güney axtarırsan,duman çən gəlir,
Xoşbəxtlik umduğun tərəfdən deyil,
Sənin baxmadığın tərəfdən gəlir.
Gecəylə də gəlir,tək gündüzlə yox,
Tale belə bölüb baxtı böləndə.
Xoşbəxtlik tək elə gülən üzdə yox,
Gözləri yaşlı da gəlir gələndə.
Xoşbəxtlik sındısa daha dikəlmir,
Qədrini bilməsən ölür səadət.
Xoşbəxtlik həmişə ağ donda gəlmir.

Hər rəngdə don geyib gəlir səadət.
Sən insan ağlının yolunu gör ki,
Hər şeyi axtarır donun içində.
İnsan elə şeyə köks ötürür ki,
Bədbəxtlik gizlənib onun içində.
Görürsən,kəsilir birdən bənd-bərə,
Deyirsən,çıxaydım keşkə qapıya.
Xoşbəxtlik qapını döyür bir kərə,
Açmadın,gedəcək özgə qapıya.
Baxma xoşbəxtliyə pay kimi ancaq,
Onun ozünə də yarımaq gərək.
Hələ xoşbəxtliyi ummaqdan qabaq,
Xoşbəxtliyi duyub,tanımaq gərək.
Yaşamaz,sənincün o doğulmasa,
Xoşbəxtlik bir-işıq,bir od-ocaqdır.
Xoşbəxtlik özünün payın olmasa,
Sənin də əlindən alınacaqdır .
Bəs eylər min dərdə qüdrətin,gücün,
Tara dərd dedirdən kövrək sim olur.
Nədənsə həmişə xoşbəxtlik üçün,
Ağır gün,yaman gün müəllim olur.
Xoşbəxtliyi olmaz yanmayanların,
Bir qaranlıq görər yeri,göyü də.
Xoşbəxtlik dadını qanmayanların,
Bədbəxtliyə dönür xoşbəxtliyi də.
Xoş günün də yükü olur çiyində,
Hər ürək bu yükü daşıya bilməz.
Baxtı olmalıdır xoşbəxtliyin də,
Xoşbəxtlik hər evdə yaşaya bilməz.
Qaçır, bizdən qaçır vaxt yeyin-yeyin,
Qədri bilinməyən səadət hədər.
Səni də ucaltmaz öz xoşbəxtliyin,
Özgəyə verdiyin xoşbəxtlik qədər. *12.05.2012.*

AY TUT AĞACI.

Sənincün burnumun ucu göynəyir,
Gəl qucum boynunu,ay tut ağacı .
Köksümdə bir yetim quzu göynəyir,
Mənim həsrətimdir,ay yurd ağacı!
Bir lal tarix yatır hər budağında,
Mənim xatirəmdir dil-dodağın da.
Surətin-könlümün can otağında,
Yandırdın sən məni ay,od ağacı!
Məni dar günümdə sən tutdun yenə,
Eşq olsun adına o "Tut " deyənə.
Nə şirin adın var,deməzdim sənə,
Brilyant ağacı,yaqut ağacı!
Uşaqlıq ömrümün taxtı-tacısan,
Atasan,anasan,qardaş-bacısan.
Sən bir el-obaya tut ağacısan,
Kiməsə barama,ya qurd ağacı.
Sən mənim yurd yerim,nişan yerimsən,
Sən mənim övliyam,mənim pirimsən.
Sən mənim varlığım,ölüm,dirimsən.
Ay Dədə ağacı,Qorqud ağacı.
Qızıldan bahasan-desələr,dəyər,
Sənin yarpağından el atlas geyər.
Səndən bir xatirə bilsə,baş əyər,
Sənə dünyanın ən kobud ağacı.
Şah olsam,dibində mən əksilmərəm!
Səndən dərman tapan olsa ölmərəm.
Mən səni məzara qıya bilmərəm.
Deyərdim "Ölməyə tabut ağacı,, ! *24.06.2012.*

ATƏŞ VAR.

Suyun da odu var,atəşdir cahan,
Daşa bax,zor ilə qəlpələnəndə,
Çaxmaq daşında da atəş var,inan,
Odunu göstərir yeri gələndə! *25.06.2012*

HƏQİQƏT İŞIĞI.

İşıq qəlbin nuru,göz yaraşığı,
Haqqa,nahaqqa da zor eləyərmiş.
Bəzən həqiqətin parlaq işığı,
Gözü qamaşdırıb,kor eyləyərmiş. *25.06.2012*

BAXT

Ümidin işığı elə sönüb ki,
Təəsüf adına çox yanıram mən.
Vaxt elə dəyişib,elə dönüb ki,
Indi daha baxta inanıram mən.

Elə daş daşlığa yağar sözü də,
Mənim gümanıma yaman tən gəlir.
Zəmanə kimidir baxtın özü də,
Harda güclü varsa, ona yön gəlir.

Yanmayaq baxt bizdən üz döndərəndə,
Yaxşı olanları seyrəltmişik biz.
Bizik zəmanəyə təlim verən də,
Baxtı da riyakar öyrətmişik biz. *25.06.2012*

SƏNSƏN

Səni görəydilər dil yarananda,
Sənsiz min duyğumun lüğəti yoxdur.
Gəl dayan bir dahi rəssam yanında,
Səni rəsm etməyə qüdrəti yoxdur.

Dərdin nə gündüzü,nə gecəsi var,
Gözlərin yaş dolu bir kuzəsi var.
Ağlın min hikməti,möcüzəsi var,
Ağlın sənin kimi neməti yoxdur.

İlahi gözlərin dəryadan dərin,
Ruhuma hopmusan,bilinmir yerin,
Dünyadaki bütün gözəlliklərin,
Vallah, sənin kimi zinəti yoxdur !

Sən ilahi nurun gizli şüası,
Saçların canımın gizli yuvası.
Bəndənin sənintək şükür-duası,
Allahın sənintək minnəti yoxdur.
Sinəmə yanar od basılıb qalıb,
Həsrət bir ümidə qısılıb qalıb.
Dünya bir telindən asılıb qalıb,
Sənsiz bu dünyanın qiyməti yoxdur.
Yoxdur gözəllərin qəlbinin gözü,
Görsə,öz hüsnünə vurular özü.
Gözəlin sevən qəlb olsa güzgüsü,
Bilər neçin onun heyrəti yoxdur.
Bilsə ki, sevgidə nələr var, nələr,
Səhralar dil açar, dəryalar mələr
Daş zinətə dönər, daşı sevsələr,
Sevgisiz, gülün də şöhrəti yoxdur.
Vurulmaq asandır, yar olmaq çətin,
Sevgidir açarı hər həqiqətin.
Hələ heç bir dinim, bir təriqətin,
Sevgi tək müqəddəs məbədi yoxdur. *26.06.2012*

VAXT VƏ İNSAN

Vaxta çox uyuruq, çox uyuruq biz,
Vaxt çox şirin olur övladımızdan.
Vaxtla əlləşirik biz gecə-gündüz,
Özümüz çıxırıq öz yadımızdan. *30.04.2012.*

BİRCƏ DƏQİQƏ

Dərya tək coşuruq, dalğalanırıq,
Sonra səsimizi kəsir həqiqət.
Aylara, illərə arxalanırıq,
Bizi bizdən alır bircə dəqiqə. *22.06.2012*

AZADLIQ

Dünyanin ürəyi elə dolub ki,
Üstünü çən tutub, qəhərlənibdir.
Min-min dərd içində necə olub ki,
Hələ bu vaxtacan yer hərlənibdir?!
Bəşər görə bilmir, gözlü qalsa da,
Boçslnlr ürəyi,sözlü qalsa da.
Arzular nə qədər gizli qalsa da,
Qəfil zəhər tapıb zəhərlənibdir.
Niyə haqq görünmür,haqq yaxındısa,
Yaşama,yaşamaq günahındısa.
Əgər qoca dünya Allahındısa,
Bəs niyə min yerdən çəpərlınibdir.
Astar bir təhərdir,üz bir təhərdir,
Bu necə gecədir,necə səhərdi?
Deyilən sözlərin içi zəhərdir,
Üstündən bir azca şəkərlənibdir.
Yolların damarı qırılıb daha,
Axmaqdan göz yaşı durulub daha.
Yaxşının köhləni yorulub daha,
Yamanın kəhəri yəhərlənibdir.
Yenə o bazardır,o maldır hələ,
Haqqı dindirməyin,o laldır hələ.
Azadlığın özü xəyaldır hələ,
Azadlığın sözü əzbərlənibdir. *27.06.2012.*

QAYIDAR

Yanma könül,eldən köçən durnalar,
Bir də dönüb,bu məkana qayıdar.
Tutar səni peşimanlıq sonralar,
Ağıl yenə düz ərkana qayıdar.
Budaqlarda dost qumrular dil açar,
Açılmayan yol-irizi sel açar.
Yaz gələndə tikanlar da gül açır,
Bülbül yenə kol-tikana qayıdar.

Demə,könül,dərd çəkəndir bu dünya,
Yenə bizə göz dikəndir bu dünya.
Bir əbədi pilləkəndir bu dünya,
Dövran dönər pilləkana qayıdar.
Ölüm yoxdur,bir düşünsən dərindən,
Həyat rəngi fərqlidir bir-birindən.
Bir təkanla dünya qopar yerindən,
Sonra yenə bir təkana qayıdar! *06.05.2012.*

İNSANLAR QALIB

Yanır, tüstüsündən hələ od-ocaq,
Hələ öz oduna qızanlar qalıb.
Yaxşını axtarır gözlərim ancaq,
Hələ çox əhdini pozanlar qalıb.
Hələ gül-çiçəyi iyləyən də var,
Bir az başqasıyçün göynəyən də var.
Təmiz xeyir-dua söyləyən də var,
Baxtı yaxşılığa yozanlar qalıb.
Zəmanə bir tufan, ümidsə oddur,
Odla su yarışır,kim kimi uddu.
Demə bu buludlar vecsiz buluddur,
İçində yağışlar,leysanlar qalıb.
Hələ var dost üçün yol gözləyən də,
Vardır kimsəsizi əzizləyən də.
Qalıb yaxşılara tərif deyən də,
Hələ Qorqud kimi ozanlar qalıb.
Hələ zəmanəyə uymayan da var,
Hələ yaxşılara qıymayan da var.
Hələ insanlıqdan doymayan da var,
Hələ insan oğlu insanlar qalıb! *25.06.2012.*

QADIN

Qadın bu dünyaya bir yaraşıqdır,
Onun sevgisiylə bir dövran dönər.
Qadın qaranlığa çökən işıqdır,
İşıq qaranlıqda gözəl görünər.
İşıq qaranlıqla olur qarışıq,
Işıqlar zülmətdə daha gur yanar.
Qadın bir işıqdır,gündüz bir işıq,
İşıqlar toqquşsa kölgə yaranar. *25.06.2012.*

MƏNİM QOCALIQDAN DAHA NƏ QORXUM.

Baharda sel-sular aşıb-daşırsa,
Çaylar sevincindən səmti çaşırsa.
Quru kol təzədən yaşıllaşırsa,
Mənim qocalıqdan daha nə qorxum?
Hər səhər yenidən günəş doğursa,
Mehrini torpağa salıb baxırsa.
Buluddan işıqlı şimşək çaxırsa,
Mənim qocalıqdan daha nə qorxum.
Getdiyin yolları mən dəyişmirəm,
Sevgidə bişirəm, odda bişmirəm.
Ölümün yadına hələ düşmürəm,
Mənim qocalıqdan daha nə qorxum.
Bir güllə könlümə qüvvət gəlirsə,
Bir şirin baxışdan ülfət gəlirsə.
Ölüm aşikar yox, xəlvət gəlirsə,
Mənim qocalıqdan daha qorxum?
Ruhumda cavanlıq daşıyıramsa,
Mən təkcə özümə oxşayıramsa.
Əzəlki sevgimlə yaşayıramsa,
Mənim qocalıqdan daha nə qorxum?
Sevgisi tükənən canda güc olmaz,
Sevgi dərdə düşər, amma puç olmaz.
Torpaq oğluyamsa, torpaq qocalmaz,

Mənim qocalıqdan daha nə qorxum?
Hələ ömrün-günün düz xətti yoxdur,
Yaşla yaş arası çin səddi yoxdur.
Hələ qocalığın sərhəddi yoxdur,
Mənim qocalıqdan daha nə qorxum? *06.06.2012.*

GÜZGÜ

Köhnədən bir güzgü var evimizdə,
O bir işıq olub dar evimizdə.
Uşaqkən nə qədər baxmışam ona,
Ev bir yana olub, o da bir yana.
Elə bil bu güzgü böyüdüb məni,
Sonra cilalayıb, üyüdüb məni.
Sonralar o qədər dərd yetib mənə,
Güzgü öyrətməyib mənə ölməyi,
Bu köhnə güzgümüz öyrədib mənə,
Dünyanı güzgüsüz görə bilməyi.
Həmişə saf qalıb tozlanmayaydım,
Arzu naxışı ila cizgiləsəydim.
Dərddən qubarlanıb paslanmayaydım.
Dərddən cilalanıb güzgüləşdim ! *06.05.2011.*

YARIMÇIQ

Bülbül ancaq qızılgülə üz tutub,
Qoyub gedib gülüstanı yarımçıq.
Bağban neçə pöhrəliyi unudub,
Sulanıbdır bağ-bostanı yarımçıq.
Bir ağacın koğuşunda uyudum,
Bahar, payız yağışında uyudum.
Bir təpənin yoxuşunda uyudum,
Seyr elədim bir yastanı yarımçıq.
Kimdir ömrün hikmətindən baş açan,
Çırpınırıq ilk bahardan qışacan,
Bitsə ömrün lap dastanı başacan,
Könüllərin min dastanı yarımçıq

Biri gəldi,qovub yorsun dünyanı,
Biri gəldi, qoy uçursun dünyanı.
Çox ustalar gəldi qursun dünyanı,
Dünya qovdu min ustanı yarımçıq! *01.05.2012.*

OLA-OLA

Yaşamaq eşqi möcüzə,
Min qeyri-qal ola-ola.
Durduq ölümlə üz-üzə,
Ölüm zaval ola-ola.
Arı min yerə yol çəkir,
Min kolda başı qal çəkir.
Arı ölüncə bal çəkir,
Pətəkdə bal ola-ola,
Dil yarpağa xəzəl deyir,
Xəzələ də gözəl deyir.
Ağac var ki,gəl gəl deyir,
Bəhrəsi kal ola-ola.
Kölgə ol,yollara səril,
Budaqda meyvə ol,dəril.
Ağac bar gətirir hər il,
Özgəyə mal ola-ola.
Göy min yerdən qıfıllanır,
Günəş içindən nurlanır.
Dünya cavabsız fırlanır,
Min bir sual ola-ola.
Niyə nağda göz yumuruq,
Durub nisyədən umuruq.
Niyə harama cumuruq?
Həyat halal ola-ola. *01.05.2012*

NƏ BİLƏR?

Oddan qorxmaz yandıranlar,yaxanlar,
Yerə baxar,zirvəyə də çıxanlar.
Sevdiyinə yuxarıdan baxanlar,
Sevgi qədrin lap şah olsun,nə bilər?
Könül dərdi gah nur olar,gah narın,
Üzdən baxma,dağ dərdi var dağların.
Yanan bilər mənasını ahların,
Nadan üşün min ah olsun, nə bilər.
Gül ətriylə gülşən olar şəmənlər,
Sevgi əmmir hər döşdən süd əmənlər.
Sevdiyilə dil tapanda sevənlər,
Min atılan silah olsun nə bilər.
Hər taleyin yazısı bir səpgidə,
Vay onda ki,bu yazılar tərs gedə.
Günahlar da savab olar sevgi də,
Lap sevəndə günah olsun, nə bilər?
Sevgi dindir,qəbul etməz hər dini,
Göy dini var,bir də könül yer dini.
Alışmasa,sevənlərin dərdini,
Sevilən lap Allah olsun,nə bilər? *01.06.2012.*

GÜLÜŞLƏRİNİ

Mən o gülüşlərin həsrətindəyəm,
Pay vermə heç kimə gülüşlərini.
Bir insafın olsun,gör nə gündəyəm,
Gəl döndər məlhəmə gülüşlərini.
Acam,gülüşünə,min il ölməsəm,
Daşam, gülüşünü dərman bilməsəm.
Öldür,sonra da gül,mən dirilməsəm,
Mənə dərman demə gülüşlərini.
Dərdimin içindən dərd pıçıldayır,
Hər gül gülüşündən can işıldayır.
Könlümdə yaralı bir sim sızlayır,
Toxundur bu simə gülüşlərini.

Aləmdir kirpiyə nəm qarışanda,
Yanıb çəm qabına çəm qarışanda.
Aləmdir, gülüşə qəm qatışanda,
Qatışdır bu qəmə gülüşlərini.
Baxt kimə daş atıb, sinəmdən dəyib,
Qəlbi olan varsa kim qəm yeməyib,
Tale dərdi məndən əsirgəməyib.
Sən də əsirgəmə gülüşlərini.
Yeriş utancaqdır, gülüş utancaq,
Can versəm, can səni canlı tutacaq.
Bu gülüş yaraşır bəxtimə ancaq,
Salma yad görkəmə gülüşlərini. *22.06.2012.*

ƏLİN LOĞMAN İDİ,DİLİN TƏSƏLLİ.

İstedadlı cərrah, bacarıqlı alım
Zahır Müslümovun əziz xatirəsinə

Məhrəm xitab idi : "Ay zahir həkim,,
Mən yaxşı bilirəm sən kim olmusan.
Sən əvvəl özünün hissinə hakim,
Sonra da bir həssas həkim olmusan.
Ağıl artıb durar bir dağ yerində,
Hiss amma həmişə bələkdə olur.
Ən dahi,ən mudrik fikirlərin də,
Kökü beyində yox,ürəkdə olur.
Qəlbin var güllüyü,var çöllüyü də,
Ağıl çox vaxt qəlbin düşməni olub.
İnsanın ən böyük cahilliyi də,
Ürəkdən uzağa düşməyi olub.
Əlinin qüdrəti hamiya bəlli,
Sınıq ürəkdə də sağ qalır güman.
Əlin loğman idi,dilin təsəlli,
Özün təsəllisiz qaldın çox zaman.
Könül tənhalığı-ən ağır zəhər,
Səni qanmadısa,heçdir bəşər də!
Sən idin ümidim yerdə,göydə də,

Nə göydə tapıram səni,nə yerdə.
Qəlbini bir gizli qəm buxovladı,
Gün varsa,nə qoxu,duman-çən olsa.
Min il də yaşayar insan övladı,
Quruyan ümidi göyərdən olsa!
Evdə qiymət tapar qəlbin sözü də,
Həmdəm qiymətilə söz naxışlanır.
Göylərə ucalan şöhrət özü də,
Ürəkdən,sonra da evdən başlanır.
Taleyin tərsinə döndü sənin də ,
Bu dərdə nə çarə "Ay Zahir həkim?,,
Sağalmaz dərdi var xatirənin də,
Qəmli xatirənin qoy dərdin çəkim! *03.07.2012.*

PEŞİMANÇILIQ

Şair dostum Taleh Həmidə

Çox can atmışam ki,bir zilə qalxım,
Amma sarı simdə ötürəm yenə.
Daha şoranlaşıb yerim,torpağım,
Şoran işində də bitirəm yenə.
Yetmədi dadıma qurban-sadağa,
Baxtım geri getdi,dərdim qabağa.
Yosdur könlüm üçün qanun-qadağa,
Könlüm istəyini güdürəm yenə.
Ayrılıq köhləni durub qapımda,
Keçməz hər iynədən könül sapım da.
Özümü tapıram etirafımda,
Min səhvin içində itirəm yenə.
Bağladım illəri hey uca-uca mən,
Qaldım düyünləri aça-aça mən.
Peşimançılıqdan qaça-qaça mən,
Peşimanşılığa gedirəm yenə! *02.07.2012*

NƏ GUNAHI VAR

Haqlının dalınca haqsız geyinər,
Ürək haray çəkər,ürək döyünər.
Yazda bahar qızı tül də geyinər,
Bəs qışda qar qızın nə günahı var?

Haqqa böhtan ilə qəbir qazıblar,
Nadan bələdçilər yolu azıblar.
Bir parça kağıza haqqı yazıblar,
Bir parça kağızın nə günahı var?

Yalan söz həmişə əlvan don geyib,
Pələngin payını tülkülər yüyib.
Ürək hökm eyləyib,dil ağız deyib,
Onda dil ağızın nə günahı var?

Cahillər kağızın çıxardır şumun,
Buğda əvəzinə səpir kol tumun.
Haqqını qoruyub min-min məzlumun,
Bu yazıq Marksın nə günahı var?

Ata abırlanır oğlu yerinə,
Qoyun xınalanır toğlu yerinə.
Doğrular asılır dögru yerinə,
Döğrunun, siz yozun, nə günahı var? *02.07.2012.*

SÖZÜM KƏSİLƏNDƏ

Sözümü yerində deyə bilməsəm,
Yaşaya-yaşaya ölü oluram.
Ömrümü başabaş kəssələr, nə qəm,
Sözüm kəsiləndə dəli oluram.

Söz fikrin çəmini elə tutur ki,
Fikrin bahasını ödəyə bilsin.
Dünyada ən xoşbəxt adam odur ki,
Sözü axıracan o deyə bilsin! *02.07.2012.*

HAMININ MAYASI TORPAQ

Dünyada hamın mayası torpaq,
Dünya xislətini dəyişmir heç vaxt.
İnsanı özündən ayırıb ancaq,
Qanun bir tərəfdən,din bir tərəfdən.
İqlim bir tərəfdən,gün bir tərəfdən,
Qurtara bilməyib min-bir düyündən.
İnsan dəyişibdir min-min tərəfdən,
İnsana nə qalıb ilkinliyindən.
İnsan gah qarlı qış, gah da yaz olur,
Min dağdan toz düşür könül mülkünə.
İnsan bu həyatda tanınmaz olur,
Torpağa dönəndə dönür ilkinə! *02.07.2012.*

ANA DİLİM

Gün kimi aydındır, gül kimi sadə,
Sözlər inci kimi düzülür səfə.
Sevgi sözləri var həddən ziyadə,
Nifrət sözləri var, yeddi mərtəbə!
Bu dil-gecələrin ayı, ulduzu,
Bu dillə dağları devirmək olar.
Bu dillə ən məğrur,ən şıltaq qızı,
İnsafa gətirib,sevdirmək olar.
Sözü aşıb-keçib söz sərhədini,
Ürəkdə tüstüsüz yanıb, tutaşıb.
Bu dildə Fizulim deyib dərdini,
Bu dildə Sabirim kükrəyib daşıb.
Söz var ki,içində minbir dağ-dərə,
Söz var ki,içində təzə-tər çiçək.
Bu dildə soz var ki,daş beyinlərə,
Yeriyər Quranın ayələritək.
Bu dildə nigaran bülbül nəvası,
Bir turac,torağay qaqqıltısı var.
Bu dildə ətirli bahar havası,
Bu dildə ildırım şaqqıltısı var.

Qılıncın gücüdür-qələmin gücü,
Hər sözün öz yeri,mərəsi vardır.
Sözlərdə Babəkin parlaq,qılıncı.
Sözlərdə Koroğlu nərəsi vardır.
Demə sözdən sözə nə ziyan gələr,
Söz gərək toxunsun ilmələr kimi.
Dilimə soxulan özgə kəlmələr,
Bəladır bu yurda gəlmələr kimi.
Bir sözdən soyuyan küskün könüllər,
Yanar Günəşi də soyutmaq olar.
Vəhşilər dil bilsə əgər,bu dillər,
Qızmış pələngi də ovutmaq olar.
Könüldən bir an da gen düşə bilməz,
Doğru sözümüzü yalan etməsək.
Özgələr bu dilə girişə bilməz,
Özümüz bu dili talan etməsək!
Bu dildə tapmışam səadətimi,
Ürəksiz sözlərim dona dilimdə.
Öləndə kəlmeyi-şəhadətimi,
Kaş deyə biləydim ana dilimdə.
Bu dilin yolları uzaq olsa da,
Keçə bilmədiyi yol olmayıbdı.
Bu dil özgələrə dustaq olsa da,
Bu dil özgələrə qul olmayıbdır.
Bir eli yarıdan bu dilə alqış!
Bu dili yaradan bir elə alqış! *14.02.2012.*

TANRININ PAYI

Tanrıdan baxt payı alanda bəndə,
Şairlik özü də bir baxt olurmuş.
Bir dövran yorulub,mürgüləyəndə,
Yaxşı ki,şairlər sərvaxt olurmuş.
Sözdə ağırdısa haqqın çəkisi,
Vaxtın dəyirmanı üyüdüb bizi.
Bir ana qayğısı,sirdaş sevgisi,

Bir də ki,dərdi-sər böyüdüb bizi.
Biz allah vəhyidir,şairin təbi,
Nadanlar yanında suçlu olurmuş.
Şair ittihamı,şair qəzəbi,
Allah qəzəbindən güclü olurmuş.
Qəlbində əbədi min sir olanın,
Çəkdiyi ahlar da yandırar göyü.
İki taleyi var şair olanın,
İnsan taleyilə,şair taleyi.
Şairin xeyri də gəlir şər kimi,
Saçı ağ, günləri qara yaşayır.
Şair var,yaşayır ölülər kimi,
Şair var,öləndən sonra yaşayır.
İşıqdan yaranıb kölgə dünyada,
Bülbülsüz çəmənlər gülsüz qalardı.
Şair olmasaydı bəlkə dünyada,
Bəşər dərd əlində dilsiz qalardı.
Allahın özü də şairi danmaz,
Şairə vəhy ilə gələr gözəllik.
Gözəllik olmasa şair yaranmaz,
Şairlər olmasa ölər gözəllik.
O, döndərə bilər dövranı tərsə,
Üzünə bağlanır qapılar ancaq.
Bütöv bir dünyadan sevgi itərsə,
Şairin sözündə tapılar ancaq.
Şairin öz dili özünə qalsa,
Dağı danışdırar,daşı dindirər.
Şairin istinad nöqtəsi olsa,
Ulduzlu göyü də yerə endirər.
Sevinci ölübsə, bir də dirilmir,
Girib dərd içinə gülür şairlər.
Ürək dayananda şairlər ölmür.
Ürək boş olanda ölür şairlər.
Şairi məhşərə çəkər bu dünya,
Sən demə hamar yol düz deyənindir.
Sözdən yaranıbsa,əgər bu dünya,
Onda bu dünya da söz deyənindir. *19.09.2010.*

AĞILLI-AXMAQ

Ürək bir dəryadır, görünməz dibi,
Üzdən nə bilərsən, hamar üzü var.
Hər qəlbin özünün ayrı qalibi,
Hər qəlbin özünün tərəzisi var.
Sual dəryasıdır insan sinəsi,
Bəzən bir sualın min cavabı var.
Kiminin qəlbində söz xəzinəsi,
Kiminin qəlbində zibil qabı var.
Lap sirli göylərin yeddi qatında,
Hərə öz tayıyla düşər,tapışar.
Axmaq,axmaq sözü saxlar yadında,
Ağıllı-ağıllı sözdən yapışar. *19.09.2010.*

MÜMKÜN OLUBDUR.

Günəş də elə bil həvəssiz yanır,
Günlər də həvəssiz bir gün olubdur.
Şirin xəyallar da vecsiz dolanır,
Könül,boz dumanın,bürkün olubdur.
Hərə bir cür baxır sadə zinətə,
Qızıl da,dəmir də bir xəzinədə.
Çirkin dediklərin minib qiymətə,
Gözəl dediklərin çirkin olubdur.
Qoyun şir,şir də ki,həriflşibdir,
Doğmalar elə bil qəribləşibdir.
Beyinlər büsbütün qəlibləşibdir,
Ağıl beyinlərdən sürgün olubdur.
Beş-on ağıllı var,hələ şükürlər,
Onlar da dəliyə boyun bükürlər.
Bir vaxt sənə işıq verən fikirlər,
İndi yuxu verən mürgün olubdur.
Düz gedən yolların bəndi qırılıb,
Yolları boş görüb,yolçu yorulub.
Mümkün olanlara düyün vurulub,
Mümkün olmayanlar mümkün olubdur. *22.04.2012.*

ETİRAF

Dostum Ağaquluya

Dərdim mənimlədir,nə qədər varam,
Bəlkə bu dərdə də ehtiyacım var.
Mən öz dərdlərimə ögey baxmaram,
Doğma dərdlərim var,ağrım-acım var.
Dünyaya gəlmişəm halal bətndən,
Keçdim imtahandan,keçdim çətindən.
Halal zəhmətimin bərəkətindən,
Halal ocağım var,halal sacım var.
Arzular,xəyallar könlümə sakin,
Qəlbin qanunları ayrıdır lakin.
Hissim müttəhimdir,ağlım da hakim,
Qəlbimdə özümçün dar ağacım var.
Qocalıq ömürçün axır səddimi?
Arzular dəyişir mənim səmtimi.
Saçımla ölçmürəm yaş sərhəddimi,
Nə olsun başımda bir ağ saçım var.
Xoşbəxtəm,taleyim mənə yardısa,
Haqq açar yolumu,yolum dardısa.
Nə qədər qeyrətli qadın vardısa,
Dünyada o qədər anam-bacım var.
Narazı deyiləm ömür payından,
Çıxmışam ömrümün haqqı-sayından.
Könlüm şahanədir şah sarayından,
Əgər ağlım varsa,başda tacım var.
Həyatdan savayı ömrün-günüm yox,
Həyatdan qırağa səmtim,yönüm yox.
Ən ağır dərdlə də çarəm ölüm yox,
Yenə həyat adlı bir əlacım var. *22.07.2011.*

ÖZÜNÜ TAPIR.

Min bir tapmacadır insana dünya,
Axtarır,cavabın düzünü tapmır.
Yalanla həqiqət durur boy-boya,
Haq,yanan ocağın gözünü tapmır.

Qayalar eşilir,dağlar laylanır,
Dağdan da,daşdan da haq haraylanır.
İnsan ömrü boyu haqqa boylanır,
Astarını tapır,üzünü tapmır.
Söz dildə can alır,fikir dərində,
İnsan çaşır bəzən fikirlərində.
Əsl məqamında,əsl yerində,
Demək istədiyi sözünü tapmır.
Qəribə varlıqdır dünyada insan,
Bir gözü işıqdır,bir gözü zindan,
Min il axıb gedən çeşmə suyundan,
İçənlər çeşmənin gözünü tapmır.
Fikir şaxələnir hey pərən-pərən,
İmdad istəyənə kimdir hay verən.
Ovub bir qayanı toza döndərən,
Sonra bu qayanın tozunu tapmır.
Min sual yaradır ömrün bir günü,
Çağırır göyləri,çağırır dini.
Tapsa da dünyanın min-bir sirrini,
Gəzir insan oğlu,özünü tapmır! *27.04.2012.*

OLÜM QƏFİL GƏLMİR

Ölüm uzun bir proses, lakin ani bir aktdır. (Fridrix Engels)

Ölüm qəfil gəlmir,uzun yol gəlir.
Min bir dərdi-sərlə qolbaqol gəlir.
Bir az uşaqlığın öz xamlığından,
Bir az özümüzün avamlığından,
Bir az da gəncliyin nakamlığından.
Gəncliyə söykənən biganəlikdən,
Sevgiyə söykənən divanəlikdən.
Sızıb damcı-damcı ölüm yetişir.
Yanıb xırda-xırda dərdlər bitişir.
Qəddar ehtiyacın zərbələrindən,

Amansız dövranın hərbələrindən.
Qırılan dövranın qəlpələrindən,
Yığılıb gizlində ölüm yaranır.
Yanırıq,yanırıq tüstülənirik,
Çır -çırpı oduna istilənirik.

Deyilməli sözü deyə bilməyib,
Halal ruzusunu yeyə bilməyib.
Namərdin birini əyə bilməyib,
Bətndə bir ölüm böyüdürük biz.
Dərd əkib,dərd biçib,üyüdürük biz.
Ölüm o qədər də qəfil deyildir,
Ölüm o qədər də səfil deyildir.
Vallah dərdi-sərdir bizi çaşdıran,
Ölümü bizimçün yaxınlaşdıran.
Bizimlə doğulur ölüm özü də,
Aldadıb aparan ömrümüzü də .
İnsan bu dünyaya təzə gələndə,
Ölüm gizli-gizli cana sığınır.
İnsan ayaq üstə ölür öləndə,
Yatağa öləndən sonra yıxılır! *27.04.2012.*

ADLAR

Adlar var,yanmamış,sönür qüdrəti,
Adlar var,tarixi yenə titrədir.
Adlar var,yaşayır ad xatirinə.
Qohum xatirinə,yad xatirinə.
Adlar var,məhəbbət yaşadır onu,
Adlar var,bir nifrət yaşadır onu,
Qəzəb, kin-küdurət yaşadır onu.
Adam var,adıyla dövran bağlıdır,
Adam var adıyla dövrü ağladır.
Hər gurultu salan tərifə dəyməz,
Hər vaxtsız istidən güllər açılmaz.
Hər hökmü olana dövran baş əyməz,
Hər dövranı olan hökmdar olmaz! *23.05.2012.*

BƏLKƏ DƏ.....

Arzular gör neçə yerdən səs eylər,
Hansı nəğməninsə bəndi çatışmır.
Bəlkə də insana ömür bəs eylər,
Ömrü sərf eləmək fəndi çatışmır. *29.06.2012.*

YAŞAMAQ BORCUMUZ

Gündüzümüz fikir,gecəmiz fikir.
Fikirdən qəlbimiz həmişə dılgir.
Qəm də bir həmdəmdir,əgər biriksə,
Sevinc də qəm ilə birgə yol gedir.
Qazandığımızı gizlədiriksə,
Qazandığımız da elə itgidir.
Vaxt gedir,biz niyə durduq,dayandıq,
Günahımız nədi,suçumuz nədi.
Gedənə ağladıq,ölənə yandıq,
Bəs onda qalana borcumuz nədi?
Sular da torpaqdan sızar durular,
Əbədi yolçudur,yorulmur həyat.
Ömür bir örkəndir,dartsan,qırılar,
Dayanmır,kəsilmir,qırılmır həyat.
Qayğımız uzundur,ömrümüz qısa,
Qoy həyat dayansın dərd qabağında.
Ölənçün ağlamaq əgər borcdusa,
Borcdur qalan üçün yaşamağın da! *29.04.2012.*

SƏNƏ GÜVƏNDİYİM DAĞLAR

Baxanda başım ucalar,
Başına döndüyüm,dağlar.
Sən cavansan,vaxt qocalır,
Baxıb,sevindiyim dağlar.
Həsrətinlə bişən gündən,
Dərd sinəmi eşən gündən.

Səndən ayrı düşən gündən,
Alışıb-söndüyüm dağlar.
Xoşdur-möhnət daşıdığım,
Göz yaşıyla daş yuduğum.
Sevgisiylə yaşadığım,
Danışıb-dindiyim dağlar.
Ziyarətin savab olar,
Min suala cavab olar.
Dağlar boyda kitab olar,
Səndən öyrəndiyim dağlar.
Kaş mən susam,sən dinəsən,
Xeyrim ola,sevinəsən.
Bir şerimə güvənəsən,
Sənə güvəndiyim dağlar! *29.04.2012.*

ÇİÇƏK GÖRÜNÜR

Gülşən həm gecəmdə, həm gündüzümdə,
Çiçək boz çöldə də qəşəng görünür .
Qara qəm buludu mənim gözümdə,
Sənin gözlərində şimşək görünür.
Min çiçək yığılıb gül bağlarından,
Təzədən açılır yanaqlarında.
Gülüş elə qopar dodaqlarından,
Elə bil qönçədən çiçək görünür.
Ahımdan üzünün laləsi pörtür,
Gül gəlib üzünü üzünə sürtür.
Elə bil ki,gülü yarpaqlar örtür,
Hərdən ki,başında ləçək görünür.
Gözsüz də görərəm səni toranda,
Könlümdə bir sevinc baş qaldıranda,
Bəzək vurma,gülüm,bəzək vuranda,
Gül üzün görünmür,bəzək görünür.
Yolu uzun olur yol gözləyənin,
Hayına dərd gəlir dost səsləyənin.
Niyə ürəyində gül bəsləyənin,
Yolunda daş,bitir,kəsək görünür.

Ağasən zəvvardır,sən ona pirsən,
Şirin xəyalımdan gəlib-keçirsən.
Bir möcüzə yarat,yuxuma gir sən,
Yuxular aşkardan gerçək görünür. *29.04.2012.*

SEVGİYƏ GÜCÜ ÇATMAYIR

Dövranın hər şeyə dişi batmayır,
Paxıllıq eləyir dərd bilənlərə.
Dövranın sevgiyə gücü çatmayır,
Zülm edir sevənə, sevilənlərə! *29.04.2012.*

QOCALDIQ

Dünya gözəlləşdi mən qocalanda
(O.Sarıvəlli)

Bu ömür-gün haçan getdi,bilmədik.
Duran durdu,qaçan getdi,bilmədik.
Polad kimi bir can getdi,bilmədik,
Dərdi-sərlə əlbəyaxa qocaldıq.
Bir ömürdən quruca yaş-payımız,
Övlad üçün qorxu,təlaş-payımız.
Dərdə döndü yavaş-yavaş payımız,
Şükr eylədik vara-yoxa,qocaldıq.
Dost-tanışlar bizdən uzaq düşdülər,
Dərdi görüb,tamam qaçaq düşdülər.
Gec gələnlər bizdən qabaq düşdülər,
Biz çəkildik bir qirağa,qocaldıq.
Hər bir yaşın öz qayğışı,dərdi var,
Yaş ki,ötdü,daha nə qış,nə bahar.
Bizim üçün hər fəsildə gələn qar,
Başımıza yağa-yağa qocaldıq.
Bahar keçdi, güman qaldı xəzana,
Ası düşdük hərdən baxtı yazana.

Gözümüzdə min dərd döndü leysana,
Gözümüzdən axa-axa qocaldıq
Ürcah olub xeyrə-şərə,bölündük,
Min gecəyə,min səhərə bölündük.
Bir dərd üçün neçə yerə bölündük,
Ha çırpındıq sola-sağa,qocaldıq.
Dağdan enib,sel çöllüyə çatmamış,
Könül bir xoş təsəlliyə çatmamış.
Dedik:hələ yaş əlliyə çatmamış,
Amma gəlib çatdıq qırxa qocaldıq.
Belə görüb yaşayan da,ölən də,
Qocalacaq bilməyən də,bilən də.
Qocalacaq qocalığa gülən də,
Dədə-baba,yeddi arxa qocaldıq.
Cavanlarla dursaq da bir cərgərdə,
Bir üzümüz qaldı yenə kölgədə.
Qorxmasaydıq,qocalmazdıq bəlkə də,
Qocalıqdan qorxa-qorxa qocaldıq.
Qəlbimizin bir hücrəsi qaranlıq,
Qəlbimizin bir hücrəsi,viranlıq.
Qocalığa batammadı cavanlıq,
Canımızı yaxa-yaxa qocaldıq.
Harayına bir də çatmaz qolların,
Necə keçdik topasından kolların?
Ümidlərin,gümanların,yolların,
Axırına çıxa-çıxa qocaldıq.
Qəlbimizdə gizli həsrət yaşadıb,
Gizli sevgi,gizli nifrət yaşadıb.
Yar-yoldaşdan gizli bir dərd yaşadıb,
Bağrımıza sıxa-sıxa qocaldıq.
Ocaq söndü, yığıldı kül arxaya,
Həsrət bizi çəkdi min il arxaya.
Göz qabağa baxdı,könül arxaya,
Biz piyada,illər yorğa,qocaldıq.
Körpə ceyran dərisinə girsə də,
İnsan min-bir dərdə sinə gərsə də.
Qocalacaq,dünya dönsə tərsə də,
Bir də dönməz o su arxa,qocaldıq.

Bu qocalıq nə soyuqmuş,ilahi,
Kara gəlməz yüz mey dolu surahi.
Bir vaxt günah bilmədiyim günahı,
Başımıza çaxa-çaxa qocaldıq.
Ay Ağasən,yaş qısaltdı dilimi,
Ha zor gəldi,yıxammadı könlümü.
Beş addımda görəmmədik ölümü,
Gözəlliyə baxa-baxa qocaldıq. *10.06.2011*

TƏSƏLLİ BİR BUDUR Kİ...

Gecə-gündüz arzu dua,
Düşmür bizim dilimizdən.
Nə pay düşür bir arzuya,
Ayımızdan ilimizdən.
Gizli ümid saxlayarıq,
Günlər, aylar haxlayırıq.
Dünyaya bel bağlayırıq,
Dünya basır belimizdən.
Yaxşı gedir, yaman qalır,
Gedənə min güman qalır.
Gözümüzdə duman qalır,
Günəş keçir könlümüzdən.
Gedəri biz, köçəri biz,
Gözləyirik əcəli biz.
Oddan yanır içərimiz,
Pay umurlar çölümüzdən.
Canımız odla doludu,
Kül olunca yanmalıdı.
Külümüzdən qalan odu,
Kim tapacaq külümüzdən.
Arzu elə yuxudur ki,
Ölüm elə qorxudur ki,
Təsəllimiz bir budur ki,
Heç nə gəlmir əlimizdən! *25.03.2011*

GƏNCLİK ÖMRÜN İÇİNDƏYDİ

Bahar ömrün üzü döndü,
Saçlarımda sazaq oldu.
Arzuların odu söndü,
Dərdim təzə ocaq oldu.
Nəfəsimi necə dərim,
Qəm evidir indi yerim.
Suya dönən ümidlərim,
Gözlərimdə sucaq oldu.
Ha dərdimi boşaltdıqca,
Bir xoş ümid yaşatdıqca.
Ömür keçib yaş artdıqca,
Könlüm körpə uşaq oldu.
Gözlər yaman göz görəndə,
Yollarda şər iz görəndə.
Soyuq-soyuq üz görəndə,
Xəyal isti bucaq oldu.
Sevincin dağ gücündəydi,
Bəs aramız neçin dəydi?
Gənclik ömrün içindəydi,
Məndən necə uzaq oldu.
Öz haqqımı gec göstərdim,
Beş tapdımsa,üç göstərdim.
Mən baxtıma güc göstərdim,
Baxtım məndən qoçaq oldu.
Alışan can,danışan göz,
Min dərdimə qarışan söz.
Bir vaxt mənə yaraşan söz,
İndi mənə yasaq oldu. *26.06.2012*

İLLƏR

Məni mənə verə-verə,
Məni məndən alır illər.
(M.Behbudzadə)

Tüstü havalanıb,göydə əriyir,
Ocaq səkisində kül düşüb qalır.
Durna qatarıtək vaxt köç eləyir,
Durna qatarından tel düşüb qalır.

İllərdən süzülüb söz təmizlənir,
Təmiz göz yaşından göz təmizlənir.
İl var,xəcalətdən qaçıb gizlənir,
İl var ki,üzünə irişib qalır.

İl ötür,qovuşur o yol bu yola,
Yaş gedir qabağa, il gedir dala.
İlin başımızda dönür xəyala,
Sonra alnımızda bürüşüb qalır.

Hər ilin qoynunda bir mətləb yatır,
Min bir sir açılır,min bir sir batır.
İllər topalanıb tarix yaradır,
Tarix də söz ilə hey şişib qalır.

Dünya nə dəmdədir,könül nə dəmdə,
Fikrn başı göydə, ayağı qəmdə.
İl var çöküb qalır quru rəqəmdə.
İl var xatirəyə ilişib qalır. *06.02.2011*

EŞQİN GÜNAHINI HƏLƏ BİLƏN YOX

Xəyalın yolları daşlı-kəsəkli,
Hələ o yolları gedib-gələn yox.
Ümidlər,gümanlar bərli-bəzəkli,
Payını bərabər tapıb,bölən yox.

Qəlbə qəmdən özgə yoxdur bir hayan,
Hər çiçək altinda bir ilan-çayan.
İstədiyi kimi çoxdur yaşayan,
İstədiyi kimi ancaq ölən yox!

Kədərsiz qayğısız ömür istəmə,
Ürəkdə sevinc var,qarışıb qəmə.
İnsan möcüzədir,heç vaxt sən demə,
Sevincdən ağlayan,dərddən gülən yox.
Sevginin yolları min yol qırılıb,
Sevənlər qınaqdan daha yorulub.
Sevgiyə bu qədər divan qurulub,
Onun günahını hələ bilən yox! *21.02.2010*

QIZLARIN TALEYİ

Bu qədər nəvaziş,bu qədər tərif,
Gül üçün daha nə sübut olurmuş.
Qızların özləri çiçəkdən zərif,
Baxtları daşdan da kobud olurmuş! *21.02.2010*

EHTİYACI VAR

Bağrımın başını bir həsrət sarır,
Yaramın üstünü bir tikan yarır.
Ömrün nə vücinə saçın ağarır,
Amma sevdiyinin qara saçı var.
Baxma ki,sevgidə dərd aşır-daşır,
Dərd gəlib özü də dərdə yaraşır.
Sevənin ayağı dərdə dolaşır,
Başında görünməz sevgi tacı var.
Dərdin bir dili zil,bir dili bəmdir,
Əzəldən sevincin taleyi kəmdir.
Sevincin özü də bir cürə qəmdir,
Sevinc bağında da qəm ağacı var.
Ömür-gün qocalıq dərdi duyanda,
Dolanır bir qışın şaxtası qanda.
Sevgi bir alovdur,can soyuyanda,
Atəşə daha çox ehtiyacı var. *22.07.2011.*

YAŞAMAQ HAQQINDA ÇOX DÜŞÜNƏNDƏ

Min bir sual salır xəyalı bəndə,
Fikir sualları daşıya bilmir.
Yaşamaq haqqında çox düşünəndə,
İnsan dediyi tək yaşaya bilmir! *22.07.2012.*

MEHRİMİ SALMIŞAM DAHA MƏN SƏNƏ.

Küsüb taleyimin sərt rəftarından,
Könlümə uymayan əzablarından.
Mehrimi salmışam daha mən sənə,
Çaylara sığınan gur sular kimi.
Anasız dolanan quzular kimi,
Mehrimi salmışam daha mən sənə!
Axtarıb tapmışam qibləmi mən də,
Sən mənə Allahsan,mən sənə bəndə,
Qəbul eyləsən də,eyləməsən də,
Mehrimi salmışam daha mən sənə!
Əzəldən könlümü mən xar bilərdim,
Əzəldən yolumu mən dar bilərdim.
Mən kimi özümə simsar bilərdim,
Mehrimi salmışam daha mən sənə.
Sözünün odundan köz tutub dilim,
Yanmaq bir zülümdür,sınmaq bir zülüm.
Allahdan,bəndədən əl çəkib,gülüm
Mehrimi salmışam daha mən sənə!
Kəsməz özü verən ömürdən allah,
Salmaz bu sevgimə duman,çən allah.
Məni nəzərindən salma sən allah,
Mehrimi salmışam daha mən sənə!
Sevib ağlayanın göz yaşı meydir,
Ömrün yarı quzey,yarı güneydir.
Dünya nə qanır ki, mehr nə şeydir,
Mehrimi salmışam daha mən sənə.
Dərdi-sər qoy mənə yalvarsın indi,
Məni yarpaq kimi qoparsın indi.

Ölüm qoy aparır aparsın indi,
Mehrimi salmışam daha mən sənə! *22.04.2010*

AYRI GÖRƏNDƏ

Yaşıl budaqlara öyrəşib gözüm,
Fikrim haçalanır sarı görəndə.
Yarpaqlar üstündə xal düzüm-düzüm,
Çaşıram budaqda barı görəndə.
Gəl indi alışma,yanma,qaynama,
Düşübdür payızın dərdi boynuma.
Dolur ilk baharın ətri qoynuma,
Gül-çiçək axtaran arı görəndə.
Dərdi-sər uzanır,ömür gödəlir,
Axıb yavaş-yavaş damla daş dəlir.
Payız güllərinə yazığım gəlir,
Dağların başında qarı görəndə.
Qurtarıb zəmidən əkin-biçin də,
Göyərmək dəb düşüb ömür üçün də.
Yarıcan oluram qəmlər içində,
Balamın ömrünü yarı görəndə.
Ancaq bu dünyanı dünya bilərəm,
Dönüb torpaq olub,bir də gələrəm.
Yıxılıb arzumla mən də ölərəm,
Arzumu dünyadan ayrı görəndə. *08.06.2011.*

HAYIFSILANIR

Pozur qanunları qanun güdənlər,
Dağlar viran olur, sular bulanır.
Dərdə bax, dünyadan köçüb gedənlər,
Dünyada qalana hayıfsılanır. *06.02.2011.*

TƏRCÜMAN OLMUR

Payız dumanı var, yaz dumanı var.
Hər fəslin üzündə bir duman olmur.
Hər coşan dəryanın öz tufanı var,
Hər dağdan gələn sel Girdiman olmur.
Ömür yollarında gəlib-gedən çox,
Yollarda dərd görüb,dərd eşidən çox.
Dildə dostu üçün qurban gedən çox,
Amma dost dərdindən dərd uman olmur.
Dövrün cahilliyi elə qubar ki,
Vaxt haqqın gözünü elə yumar ki,
Hər kəsin ayrıca öz dərdi var ki,
Heç bir dil bu dərdə tərcüman olmur.
Fələkdən pay umma, dövrandan qılıq,
Həyatda heç nədən qəlbimiz qırıq.
Dövrandan gözləmə peşimançılıq,
Dövran peşman edir, peşiman olmur. *08.03.2011.*

SƏNİN KİMİN VAR?

Səni yaxşı duyan, ay ürək hanı?
Məhəbbət adlanan bir tilsimin var.
Nəğməli fəryadın tutub dünyanı,
Sevinc, kədər adlı iki simin var.
Bağlıyıq ikimiz bir kövrək telə,
Xəyal salır bizi belədən-belə.
Mənim də dərdimi alırsan hələ,
Mənimki birdisə,səninki min var.
Sən oldun göylərə məni qaldıran,
Sənə tapılmadı bir hayan duran.
“ Mənim ürəyim var,, dedim hər zaman,
Bəs yazıq ürəyim,sənin kimin var? *12.11.1968.*

YOLLAR

İz qaldı,göz aldı ayaqlarımdan,
Arxanca düşməkdən yoruldu yollar.
Nalə eşidəndə dodaqlarımdan,
Təzədən yol oldu,quruldu yollar.
Özünü əritdi,məni əritdi.
Vüsalda başlandı,hicranda itdi.
Torpaqda düzəldi,birbaşa getdi,
Kəsilib xəyalda buruldu yollar.
Şikayət eyləyir yollar haçandan,
İlqardan qaçandan,sözdən qaçandan.
Eşqimlə dünyaya mən göz açandan,
Məni yolda qoydu,kor oldu yollar.
Ömrümdən-günümdən düşdüm didərgin,
Mən idim əzəlin,mən idim ilkin.
Dərdimi-sərimi daşıyıb hər gün,
Yükümdən əyildi,buruldu yollar.
Ana torpaq üstdə tapdıq bir bucaq,
Alışdıq,danışdıq,yollardan uzaq.
İlk görüş yerimiz nöqtəydi ancaq,
Nöqtədən ayrıldı,yol oldu ancaq.
Gah sevincə batıb,gah da bir yasa,
Dolaşıb ayağa günah olubsa.
Sevib ayrılana bir çah olubsa,
Sevib-qovuşana qul oldu yollar. *12.09.2011*

DURNALAR KÖÇÜR

Daha budaqlarda yuva görünmür,
Quşların ardınca yuvalar köçür.
Boğanaq içində sıxılır ömür,
Könüllər oxşayan havalar köçür.
Ağlamağım tezdir,sevinməyim gec,
Bahar da oxşamır əvvəlkinə heç.
Yaman qaça-qaçdır,yaman köçə-köç,
Gör necə atalar,analar köçür.

Gülün budağında bülbül sozalıb,
Daha baş-beyində fikir qocalıb.
Dillərdə təsəlli, şükür azalıb,
Ürəkdən dualar-sanalar köçür.
O daşa sığınan otmu, çiçəkmi?
Dönüb bu dünyadan biz də köçəkmi.
Görən dönəcəkmi, dönməyəcəkmi,
Qatara düzülüb, durnalar köçür.
Saraya yetənlər haraya baxmır,
Ağgünlü bir baxtı qaraya baxmır.
Vaxt növbəyə baxmır, sıraya baxmır,
Növbəli, növbəsiz sıralar köçür. *30.05.1999.*

DÜNYANIN GƏRDİŞİ.

Dünyanın öz hökmü, öz qaydası var.
Nə deyək dünyanın işinə, qardaş.
Mən min yol düşündüm, nə faydası var,
Gərək baxt özü də düşünə, qardaş.
Haq durub nahaqla min il güləşdi,
Tamahın qılıncı hey itiləşdi.
Güclülər əlində bu dünya leşdi,
Quzğunlar qonubdur leşinə,qardaş!
Haq darda özünü gərək danmasın,
Ürək hədər yerə alovlanmasın.
Can gərək həmişə elə yanmasın,
Can gərək bir az da üşünə,qardaş!
Nə deyək dünyanın bu gərdişinə,
Nə deyək dünyanın bu vərdişinə.
Dünyada miyonlar döyüb döşünə,
Kim çıxıb dünyanın dözünə, qardaş! *17.07.2003*

ORDAN ƏLİN ÇATAR MƏNƏ

Baxt yolumu sərt eyləyib,
Gözlərimi dörd eyləyib,
Sevincimi dərd eyləyib,
Can təzədən satar mənə.
Gördüm nakam köçənləri,
Duydum həsrət içənləri.
Eşib olub-keçənləri,
Dərd yoğurub qatar mənə!
Könlümə qan-qada salsan,
Məni min yol oda salsan.
Hardan məni yada salsan,
Ordan əlin çatar mənə,
Hər damlada bir ümman var,
Hər ümmana min güman var.
Canım altında da can var,
Ölüm çətin batar mənə! *09.07.2003.*

DÜŞÜBDÜR.

Ürəyimdə yenə həsrət göyərdi,
Xəyalıma bir göy meşə düşübdür.
Uca dağlar bir dünyaya dəyərdi,
Hayıf, yolum indi qışa düşübdür.
Şirin sular yenə dəyər dilimə,
Sal qayalar ömür verə ömrümə.
Xəstə kimi elə bil ki, könlümə,
Bir göy çəmən, bir bənövşə düşübdür.
Daşqın çaylar pələng kimi nərildər,
Şimşək çaxar, göy üzündə guruldar.
Gümüş sular gün altında parıldar.
Gün altına sanki şüşə düşübdür.
Axar sular ürəyimdə durulur,
Fikrim dəyir dağa-daşa,qırılır.
Ömrüm daha yol üstündə yorulur,
Könlüm isə dağa-döşə düşübdür.

Göy üzündə yağış dolu bulud var,
Hər talada min xalçalıq göy ot var.
Kəndə gedən xəyalımda bir od var,
Elə bil ki, ağ küləşə düşübdür.
Öz elimlə bir ağlayam,bir güləm.
Duman kimi dərələrə səriləm.
Harda ölsəm,öz yurdumda diriləm,
Ürəyimə belə nəşə düşübdür.

BİR DƏ CAVAN OLMAQ İSTƏMİRƏM MƏN

Bir də cavan olmaq istəmərəm mən,
Sonra başqa gözəl yandırar məni.
Sonra başqa arzu keçər könüldən,
Başqa səmtə üzər könül yelkəni.
Bir də cavan olmaq istəmirəm mən,
Bəlkə bir də belə sevə bilmərəm.
Onda bezikərəm bəlkə ömürdən,
Bəlkə bir də daha belə gülmərəm.
Bir də cavan olmaq istəmirəm mən,
Mən tapa bilmərəm itirdiyimi.
Qoruya bilmərəm mən onda birdən,
Bu qoca dünyaya gətirdiyimi.
Yox, qoca dünyaya pis demərəm mən,
Razıyam taleyin verdiyi paya.
Bir də cavan olmaq istəmərəm mən,
Güclə isnişmişəm mən bu dünyaya.
Çox da ki, arzusu çoxdur insanın,
Enməyi də olur, ucalığı da.
Bir yol gözəl olar qoca dünyanın,
Elə gəncliyi də, qocalığı da.
Yatan arzuları bir də oyatsam,
Həmin arzularla uyuşmaz zaman.
Bir də gəncliyimə dönüb qayıtsam,
Nə həmin mən ollam, nə həmin cahan.
Yox, daha yelkənim gedir sahilə,
Hər günün ardınca qayğı sürünür.

Ötən günlərimiz bir yolluq elə,
Ötüb getdiyiçün şirin görünür. *1995.*

ÇATMIR

Boğuluram, qurban olum,
Daha mənə hava çatmır.
Durum necə tufan olum,
Bülbüllərə yuva çatmır.
Xoş üz görməmiş üz salır,
Dərə gül açır,düz solur.
Çiçəklər sevgisiz solur,
Dərdə dərman-dəva çatmır.
Fikir zamanından qorxur,
Yaxşı yamanından qorxur.
Xəstə loğmanından qorxur,
Yarasına şəfa çatmır.
Söz sorulmur söz biləndən,
Göz yaşı umduq güləndən.
İnsaf qaçır seviləndən,
Sevənlər insafa çatmır.
Gələn acdır, gedən doyub,
Könül acdır, bədən doyub.
Allah da sevgidən doyub,
Allahıma dua çatmır.
Ömrün-günün cəfası var,
Qəlbin qəm kəhrabası var.
Ağasənin vəfası var,
Taleyimdə vəfa çatmır. *24.05.2003.*

AYRILIQ

Düşər aralığa qarlı dağ kimi,
Ürəyə kök atıb bitər ayrılıq.
Çırpınar arada dərd ortaq kimi,
O başdan bu başa yetər ayrılıq.

Axar damarından qara qan kimi,
Canında yurd salar ayrı can kimi.
Gah zərif yel kimi, gah tufan kimi,
Başının üstündən ötər ayrılıq.
Dünyada dərd var ki, çarəsi dərddir,
Ayrılıq dərdinə kim nabələddir.
Qəfəsi amansız, nəfəsi sərtdir,
Pərişan ayrılıq, kədər ayrılıq.
Yolu var həsrətdən göz yaşınacan,
Dərddən körpü salar sirdaşınacan.
Bu başdan dünyanın o başınacan,
Arxanca sürünüb gedər ayrılıq.
Sevginin əbədi qəlbi qırıqdır,
Sən demə ölüm də, bir ayrılıqdır.
Ölmün dərd çəkməyə ürəyi yoxdur,
Ölümdən-itimdən betər ayrılıq.
Gah səhra kimidir,gah gülşən kimi,
Böyüyür qoynuna od düşən kimi.
Sevənlər göz-gözə görüşən kimi,
Gözdən ilim-ilim itər ayrılıq. *18.08.2003.*

NƏSƏ ƏKSİLƏR.

Dünyada bir zərrə torpaq kimiyəm,
Bir torpaq dənəsi itsə kim bilər.
Mən bu dünya üçün yarpaq kimiyəm,
Getsəm,elə bil ki,nəsə əksilər. *17.04.2003.*

DARIXDIM

Saçlarının ətri gəlir elə bil,
Saçlarının ətri üçün darıxdım.
Xəyalımda hey sarmaşdı gülə-gül,
Gül-çiçəyin çətri üçün darıxdım.
Gördüm zaman üzü gülməz zamandır,
Mehri yoxdur,kara gəlməz zamandır.

Gördüm zaman qədir bilməz zamandır,
Keçən günün qədri üçün darıxdım.
Daha gülüm, kar eləmir dərd-aman,
Bir də dönüb gəlməyinə yox güman.
Bir məktub da göndərmişdin bir zaman,
Onun bircə sətri üçün darıxdım.
Mən gözümü bir dərdinə yummadım,
Bülbül olub hər budağa qonmadım.
O günlərin gəncliyini ummadım.
O günlərin xətri üçün darıxdım. *25.07.2003.*

SÖZÜMDƏ QALDI

Yığılmır yollardan hələ gözlərim,
Dönüb nağıl oldu çox əzizlərim.
Neçə dağ-dərədə ayaq izlərim,
Neçə xatirələr izimdə qaldı.
Sən demə sevgilər başımı qatdı,
Sevgi sərməstliyi məni ayıltdı.
Başımdan keçənlər getdi, qayıtdı.
Suala çevrilib üzümdə qaldı.
Başıma bir təmiz sevgi tac oldu,
Tək elə sevgiyə könlüm ac oldu.
Min-min düyünlərin sirri açıldı,
Bircə sevgi düşüb tilsimdə qaldı.
Könülsüz addımdan könül sarsılar,
Özü öz odundan ürək qarşılar.
Neçə şirin-şirin kövrək arzular,
Könlümdə doğuldu, gözümdə qaldı.
Gəncliyin ruhu var hələ bədəndə,
Odur ki, azmıram dumanda, çəndə.
Gənclik rəhm elədi mənə gedəndə,
Gücündən bir azca dizimdə qaldı.
Alnıma qırışlar düşdü, qabardı,
Cavanlıq şəklimi mindin qopardı.
Həyat nə vermişdi, illər apardı,
Tək odlu ürəyim özümdə qaldı.

Bir kövrək ürəklə necə bərkmişəm,
Səbrdə, dözümdə demə təkmişəm.
Nələr düşünmüşəm,nələr çəkmişəm,
Hamsı yuva salıb sözümdə qaldı. *24.03.2003*

QARANLIQ

Doqquz ay qalmışıq qaranlıqda biz,
Doqquz ay böyüdüb, qaranlıq bizi.
Qaranlıqdan keçib qəlib ömrümüz,
Yoxsa qəhr edərdi giryanlıq bizi!
Gecələrdə ötüb yarı ömür-gün,
Gecələr əriyib,gündüz var olub.
Qaranlıq gecədə göründüyüçün,
Ulduzlar gecəyə minnətdar olub!
Ilkimiz qaranlıq yola düşdü ki,
Qaranlığa qaçdıq ömrün sonunda.
Elə qaranlıqda böyümüşdü ki,
Atı Qırat oldu Koroğlunun da!
Gecələr pərişan,yorğun pərimiz,
Pərinin əynində qara dona bax.
Gecə rəngindədir bəbəklərimiz,
Sən qara bəbəyin işığına bax!
Gecələr alışır diləyimiz də,
Gecələr çırağa oxşadır bizi.
Qaranlıqda yanır ürəyimiz də!
Di gəl ki,yüz ildə yaşadır bizi!
Gecənin ürəyi dərdi-sərlə tox,
Demə ki, gecənin üzü qaradır.
İnsanın nifrəti qaranlığa yox,
Qaranlıqda gedən pis yollardır.
Çıxmışıq məzarda gedən yola biz,
Bir tərəf tüstüdür, bir tərəf ocaq.
Gündüzlər düşsək də haldan-hala biz,
Gecələr özümüz oluruq ancaq.
Qaranlıq çox üzüb, göynədib bizi,
Var onun bir dözüm bərkitməyi də.

Bəlkə də gecələr öyrədib bizi,
Qaranlıq baxt ilə yol getməyi də!
Demə zülmət gəlir işıq yerinə,
Demə gecə gəlir, gün əzab çəkir.
İşıqlı gündüzün əməllərinə,
Qaranlıq gecələr haq-hesab çəkir.
Şirin xəyallara gecə binədir,
Keçir sinəsindən fikir qatarı.
Qaranlıq gecələr bir xəzinədir.
Sevənlər,yananlar xəzinadarı!
Gündüzlərin elə nisgili var ki,
Belə nisgillərə gecə ac olur.
Gündüzlərin elə müşkülü var ki,
Dolaşıq düyünü güclə açılar. *03.08.2003.*

UTANSIN

Çıxaq gülşənə, çəmənə,
Dünya bir də baxsın sənə.
Yanağına baxıb yenə,
Qızarıb güllər utansın.
Başın üstdən keçsin duman,
Qoy çin olsun arzu, güman.
Baxışından dərman uman,
Dərmanlı çöllər utansın.
Göy enib baxsın yaxından,
Dur tökülsün dodağından.
Xəlvət öpsün ayağından,
Həsrətli yollar utansın.
Ağasəndir, dərdə dözən,
Dözəcəyəm hər nə desən.
Başın üstdən ötüb-keçən,
Tələsən illər utansın! *13.02.2010.*

ÖMÜR DEDİYİN

Daşqın sularını dağlardan yığır,
O Araz dediyin, o Kür dediyin.
Neçə qat torpağın altından çıxır.
O qızıl dediyin, dür dediyin.
Külə nə deyirsən,atəşmi,külmü?
Sözə nə deyirsən dodaqmı,dilmi?
Əzilən,döyülən buğda deyilimi?
Yoğrulan,eşilən xəmir dediyin!
Neçə qarışığın şəklidi rənglər,
Neçə haldan-hala düşür küləklər.
Torpaq üstündəki toplar,tüfənglər,
Torpaq altındakı dəmir deyilmi?
Arzular çağlayan,ağlayan sudur,
Alışan duyğudur,sönən duyğudur.
Ruhun min bir fikrin yorğunluğudur,
Kirpiyində mürgü,çimir dediyin!
Fikrin, xəyalın da cövhəri vardır,
Ürəkdə arzunun meydanı dardır.
Azadlıq istəyən lal duyğulardır,
Dildə səs dediyin,səmir dediyin.
Hərdən gileylənib,hərdən susarıq.
Nədir ömürdəki belə qısalıq?
Uşaqlıq,cavanlıq,bir də qocalıq,
Üç ömrün cəmidir,ömür dediyin!
Göylərdə yağış da,qar da buluddur,
Ürək sevincə də,qəə də yurddu.
Bozaran,közərən,qızaran oddur,
Ocaq səkisində kömür dediyin. *13.02.2010*

HƏRƏYƏ BİR BƏHANƏ VAR.

Bir dünya sığışar dar sinəmizdə,
Yatır atəş ilə qar sinəmizdə.
Bircə can otağı var sinəmizdə,
Orda həm meyxanə, həm qəmxanə var .

Könül pərvazlanır qəm bağçasında,
Bahar günəşində, qış şaxtasında.
İyirmi dörd xanə var nərd taxtasında.
Əbədi boş qalan hansı xanə var?
Meyvənin ilk donu çiçəkdir ancaq,
Çiçəyin bəzəyi ləşəkdir ancaq.
Əfsanə-bəzənmiş gerçəkdir ancaq,
Könül,həqiqətsiz nə əfsanə var
Ürəyi sevinclə dolanların da,
Məskəni gülşənlər olanların da.
Baxtından çox razı qalanların da,
Könül dünyasında bir viranə var!
Sən demə dünyada həmxanə yoxdur,
Qəmə öyrənçün qəmxanə yoxdur.
Dünyaya gələnçün bəhanə yoxdur,
Gedənçün hərəyə bir bəhanə var. *25.01.2010.*

XUMARLANIR

Mənim ömür yaşım elə xəzan ki,
Yarpaq tökülsə də, dağ xumarlanır.
Elə bir gözəllik taxtındasan ki,
Bənövşə ətrindən taxt xumarlanır.
Nə deyə bilərəm olub keçənə,
Mənimçün baxt yazıb,tale seçənə.
Vaxt elə uyub ki, şirin ləhcənə,
Ləngiyə-ləngiyə vaxt xumarlanır.
Həm gecənə lalam, həm gündüzünə,
Daha üzüm də yox,baxam üzünə.
Baxt elə vurulub xumar gözünə,
Mənə baxa bilmir,baxt xumarlanır.
Nə qədər deyirsən,yanım,sönüm mən,
Dolanım başına min yol dönüm mən.
İndi haqqa necə gileylənim mən,
Göydən baxıb sənə haq xumarlanır. *25.01.2010.*

LƏYAQƏT

Adam var ən adi sözdən utanır,
Hər şeydə özünü günahkar bilir.
Adam var, tanınmaz üzdən utanır,
Nöqsan tutmağı da durub ar bilir.
Adam var,təzə söz deməyə qorxur,
Guya söz deməyə heç haqqı yoxmuş.
Kiminsə qəlbinə dəyməyə qorxur,
Guya öz sözündə günahı çoxmuş.
Adam var, təzə don geyir, çəkinir.
Özüyçün hər şeydə bir nöqsan tapır.
Adam var, saatda bircə yol dinir,
Axtarıb özünə min günah yapır.
Adam var,hamıya inanır, susur,
Özünə ar bilir inanmamağı.
Adam var,fürsətdən qaçır,uduzur.
Bu gündən əl çəkib,güdür sabahı.
Həmişə tapılmır könül sazlığı,
Çox zaman təsadüf səadət olub.
Bəzən bir insanın çatışmazlığı,
Onunçün ən böyük ləyaqət olub. *25.01.2010*

NƏ DƏRDİ

Soyuq baxış yollarımı bərkidib,
Xəyalımın karvanını ürküdüb.
Yar bilsə ki, daş altında gül bitib,
Yar ürəyi daşdan bərksə,nə dərdi?
Sevilən də yansa sevgi oduna,
Könül qalxar göyün yeddi qatına.
Sevən düşsə sevilənin yadına,
Ömrü boyu sevən təksə, nə dərdi.
Fikrim uçub göydən kədər endirər,
Sevgi dinməz, lal daşı da dindirər.
Sevən bilsə, göz yaşı od söndürər,
Gecə-gündüz qan-yaş töksə, nə dərdi.

Dərdi-səri kim yaradır, kim çəkir,
Sevən gözlər öz-özündən nəm çəkir.
Sevən bilsə,sevilən də qəm çəkir,
Ayrılığı yüz il çəksə,nə dərdi!
Xəyal gedib,pərdə-pərdə dönəcək,
Ümid yoxsa,sevinc dərdə dönəcək.
İnsan bilsə,ömür bir də dönəcək,
Min il sonra dönəcəksə,nə dərdi. *22.01.2010.*

ƏN ŞÖHRƏTLİ ŞƏHİD OLDU BƏXTİYAR

Ölməz şairimiz Bəxtiyar Vahabzadəyə.

Bircə günün yağışından göl olmaz,
El başqadır, hər yığnaqdan el olmaz.
Yanan qəlbin odunda haqq kül olmaz,
Bu haq sözə şahid oldu Bəxtiyar.
Bir ağac ki,seldən-sudan yıxılar,
Hər baltaçı cumar,ağac yox olar.
Dinclik vaxtı qəhrəmanlar çox olar,
Tufan vaxtı igid oldu Bəxtiyar.
Bir od oldu,yad oduna girmədi,
Nahaq sözə,nahaq sinə gərmədi.
Vaiz olub,bizə öyüd vermədi,
Elə özü öyüd oldu Bəxtiyar.
O elə yox,el dərdinə qarışdı,
Bir millətin dili oldu danışdı.
Soyuq gündə tonqal kimi alışdı,
Qızmar gündə söyüd oldu Bəxtiyar!
Pələng varmış demə cılız bu canda,
Güclü olur qartal göydə uçanda.
O susmadı,bütöv millət susanda.
Ürəklərdə ümid oldu Bəxtiyar!
Şair eldə,el şairdə yaşayır,
Haq elçisi peyğəmbərə oxşayır.
Gözümüzdə hikmət dolu bir şair,

Könlümüzdə bir büt oldu Bəxtiyar!
Cansızların bədənində can idi,
O yanırdı yanmayandan yan idi.
Şəhidlərin damarında qan idi,
Ən şöhrətli şəhid oldu Bəxtiyar. *20.01.2010.*

HAYIF

Bu dünya bir qəmxanədir,
Bilməz ucuz baha nədir.
Günəş də bir bəhanədir,
Öz başına dönür,hayıf.
Ay yetəmmir gün yerinə,
Həsrət qalır bir-birinə.
Bir gündüzün xatirinə,
Milyon ulduz sönür,hayıf.
Su həm sudur,həm buluddur,
Bu hikməti kim unutdu.
Salamatsa,hələ oddur,
Külə dönsə,kömür,hayıf.
Ömür əbədi soraqdır,
Ümid,güman bir çıraqdır.
Əldən gedən ömür haqdır,
Eldən gedən ömür,hayıf! *16.01.2010.*

HƏYAT ÖLÜMÜ GİZLƏYİR.

Dolaşırıq dağı, düzü,
Xərcləyirik ömrümüzü.
Məlum yollarda da bizi,
Məchul kölgələr izləyir.
Baxta-baxt olur ruzumuz,
Min yerdə ayaq tozumuz.
Bizdən qabaqda arzumuz,

Əyri yolları düzləyir.
Çətin yollara varırıq,
Nəhəng dağları yarırıq.
Biz cavablar axtarırıq,
Bizi suallar gözləyir.
Fikir içində itirik,
Yatanda da yol gedirik.
Biz ürəyə zülm edirik,
Ürək bizi əzizləyir.
Aylar-illər öz köçündə,
İnsan əkində-biçində.
Şirin həyat öz içində,
Namərd ölümü gizləyir. *16.12.2009.*

QƏMLİ GÜLÜŞLƏR

Elə bil gün doğur gülüşlərindən,
Elə bil təzədən açılır səhər.
Çəkilməz gözümdən xəzan, duman, çən.
Mənə bahar olur qəmli gülüşlər.
Qorxuram gözünün suallarından,
Boğur cavabları bir kövrək qəhər.
Dünyada ən ağır,çətin imtahan,
Qəmli gülüşlərdir,qəmli gülüşlər.
Gülüş qəmdən doğub,qəmmi gülüşdən,
Eşqin hikmətində nələr var,nələr.
Elə bil təzədən doğuluram mən,
Mənə ana olur qəmli gülüşlər.
Dünya gözəlliklə doydurulubdur,
İlahi sualın cavabı yerdə!
Gözəllərə baxıb uydurulubdur,
Göylərdə xəyali ilahələr də.
Məndən ala bilməz bu haqqı heç kim,
Demə keçib gedər ömrüm bir təhər.
Əbədi məktəbdir mənimçün eşqim,
Mənim ustadımdır qəmli gülüşlər. *12.12.2009.*

NAĞD VƏ NİSYƏ.

Allah bu dünyaya min zinət verib,
Əfsanə bir Cənnət dəyməz minnətə.
Allah insanlara nağd cənnət verib,
İnsanlar tələsir nisyə cənnətə.

Dünya yaranmayıb satılmaq üçün,
Insanlar dünyanı bazarlaşdırıb.
Tamah oyununa qatılmaq üçün,
İnsanlar dünyanı bezarlaşdırıb. *12.12.2009.*

DEYƏNLƏR

Harınlar neştərlə sorar qanını,
Sonra bir fağıra zəli deyərlər.
Qanunu yazanlar pozar qanunu,
Dinsən,səni döyüb,dəli deyərlər.

Dovşana şir deyib,çəkərlər dağa,
Dananı keşikçi qoyarlar bağa.
Gücsüz haqqı desə,qoyarlar lağa,
Nadan gic,danışsa bəli deyərlər.

Dünya belə gəlib başdan-binadan,
Dar gündə " mən,, deyən çıxar aradan.
Üfürüb şişirdər nadanı nadan,
Sözünə xəzinə ləli deyərlər.

Başdan əyri gələn, hara düz durar,
Haqsız pul gücünə haqqı susdurar.
Şeytan sifətlilər ara qızdırar.
Var burda şeytanım əli deyərlər.

Dünyanın belində əjdahalar var,
Əjdaha olan yer necə pak olar.
Çox çəkməz, çox çəkməz, dünyadakılar,
Qırılıb dünyanı beli deyərlər. *11.09.2009.*

GƏRƏK OLARMIŞ

Sevgidir həyatın, ömrün qanadı,
Dünya bir yanadır, o bir yanadır.
Fikrimdən qabağa ürək can atır,
Ürək fikirdən də zirək olarmış.

Sular lilli gələr, gur sel olanda,
Durular yığılıb bir göl olanda.
Dillinin çəkdiyi ah yel olanda,
Dilsizin ahları külək olarmış.

Ürək öz dərdini dildən çox deyər,
Ac elə durar ki, baxan tox deyər.
Dilin "hə,, deyəndə gözün yox deyər,
Ürəkdə ayrı bir dilək olarmış.

Dil tapsan,sənlə daş da dərdləşər,
Mərdi çox qovarsan,mərd namərdləşər.
Nifrət qocalanda yaman sərtləşər,
Sevgi qocalanda kövrək olarmış.

Əl əsməz hər şeyin tini tapılsa,
Qismətin sən deyən günü tapılsa.
Yeri,gərəkliyi,yönü tapılsa,
Bir çöp də bir dama dirək olarmış!

İnsan bir-birini yandırdı-yaxdı
Yanan " aman,, deyib göylərə baxdı.
İnsan kor qoyarmış dövranı,vaxtı.
Günahkar axırda fələk olarmış.

İnsan nəfsi üçün xeyir güdəndə,
Qaçar qapısından gəlib-gedən də.
Ara qarışanda mənsəb itəndə,
Şeytan üzə çıxıb mələk olarmış!

Daş gərək,dəni də üyütmək üçün,
Zəhər var, ağrını keyitmək üçün.
Sevgini qoruyub böyütmək üçün,
Ağasən,nifrət də gərək olurmuş! *07.09.2010.*

BEH VERİLİBDİR

Yamanca ağırmış taleyin daşı,
Ömürlük nabələd,ömürlük naşı.
Yanıb ağlamaqçün bizə göz yaşı,
Güllərin gözünə şeh verilibdir.

Bizimçün sınaqdır qaya da,düz də,
Keçilib hər dərdin sınağı biz də.
Bizi tovlamaqçün gözümüz üstə,
Sevincdən bir zərrə zeh verilibdir.

Həyat haldan-hala salacaq bizi,
Solğun güllər kimi yolacaq bizi.
Torpaq əvvəl-axır alacaq bizi,
Bu qısa ömür də beh verilibdir. *29.08.2010.*

KÖNÜL

Çöldə yaman darıxıram,
Bir dağlara çıxım, könül.
Sevinc satıb,qəm yığıram,
Sevgi dərdi yığım,könül!

Fikrim bir az havalıdır,
Dərdim bir az qapalıdır.
Dünya məndən vəfalıdır,
Qoy sinəmə sıxım,könül!

İllər gəlib baş olduqca,
Qazandığım yaş olduqca.
Yolum,izim çaş olduqca,
Gerçək olur yuxum,könül!

Kim dünyadan yarıyıb ki,
Yaşamaqdan kim doyub ki,
Ora həddi kim qoyub ki,
O sərhəddən qorxum,könül!

DƏLİYƏM SEVDALI BİR DƏRDDƏN ÖTRÜ.

Hələ bir nadana baş əyməmişəm,
Üzə gülməmişəm minnətdən ötrü.
Kim deyə bilər ki, mən can demişəm,
Bir quru tərifdən,qiymətdən ötrü.
Nə qədər sevgi var,hələ mən varam,
Yalnız sevgi ilə soyuyar yaram.
Sevdasız kədəri yaxın qoymaram,
Dəliyəm sevdalı bir dərddən ötrü. *15.11.2010*

OCAQ GÖRÜNƏR

Bu tilsim dünyadan de kim, doyub ki?
Çox da ki, dağlarda sazaq görünür.
Gözümüz həyata elə uyub ki,
Ölüm yaxınsa da, uzaq görünür.
Könül,kənar səsi hələ eşitmə,
Tərlan xəyalını göydən düşürtmə.
Canımda tufanlı,qarlı üşütmə,
Xəyalda bir isti bucaq görünür.
Dil susur söz-sözə qovuşmayanda,
Qüdrəti bilinmir sel coşmayanda.
İnsan bu həyata yovuşmayanda,
Elə bil özündən qaçaq görünür.
İşıq ol,işığın kor tüstüsü yox,
Qaçırma özündən odu,közü yox!
Zülmətdə ən uca dağın özü yox,
Dağın başındakı ocaq görünür! *30.01.2011*

BU BOYDA DÜNYANI GÖRƏN GÖZLƏRİM

Bax,bu gecələrim,bu gündüzlərim,
Gözsüz ömrə günə qara daş dəyir.
Bu boyda dünyanı görən gözlərim,
Hayıf,bir-birini görə bilməyir. *30.01.2011.*

TƏLƏSMİR

Xəstə həkim üçün tələsir hər vaxt,
Xəstənin yanına həkim tələsmir.
Hamı ölənlərçün darıxır,ancaq,
Ölən gedən yerə heş kim tələsmir. *04.02.2011*

SEVİNC

Sevincin yolları çətindi, bərkdi,
Ümidi, gümanı zor-güc göynəyir.
Sevinc dağ başında bitən çiçəkdir,
Soyuq üz görəndə o gec göyərir.
Sevinc görünməyən bir mənzərədir,
Tufanlı dənizdə üzən bərədir.
Sevinc bir qaranlıq,dərin dərədir.
Gah bayır göyərir,gah iç göyərir.
Gümanı yoxdusa,ölüdür sevinc,
Neçə lal duyğunun dilidir sevinc.
Yanan bir küdrünün çölüdür sevinc,
Çölün bir başında bir künc göyərir.
Ağasən,yaş gəlir yaşın üstünə,
Dərdi-sər yığılıb başın üstünə.
Bir ümid dəni at,daşın üstünə,
Daşın üstündə də sevinc göyərir. *09.09.2010.*

YAĞIŞLI GÜNDƏ

Sis-duman bürüyə qarşı dağları,
Baxam pəncərədən yağışlı gündə.
Axa yovşan ətri hərdən bir barı,
Yağa dağ-dərədən yağışlı gündə.
Narahat olmayam gün-güzarandan,
Könlümdən ötüşən qardan-borandan.
Dolana xəyalım dağdan-arandan,
Keçə bənd-bərədən yağışılı gündə.

Görəndə dünyanın soyuq üzünü,
Zülmət gecəsini,al gündüzünü.
İsti ocaq bilən mən dost sözünü,
Od alam hərədən yağışlı gündə.
Aranda bişəndə,dağda qar tapaq,
Girək dərələrə,gizli bar tapaq.
Təbiətlə birgə mənalar tapaq,
Bu xoş mənzərədən,yağışlı gündə. *22.08.2010*

RAHATLIQ

Bir yaşıl çəməndə qərar tutmuşam,
Mənim dörd yanımda əlvan gül-çiçək.
Mən qolu-qanadı sınan bir quşam,
Elə bil canımdan tufan ötəcək.
Yaşıl budaqların quşları kefdə,
Narahat duyğudur məni tərpədən.
Badə bir tərəfdə, dost bir tərəfdə,
Çırpınır ürəyim bilmirəm nədən?
Ürəyin qayğısı heç vaxt kəm deyil,
Səhər açılmamış günün axırdır.
Səbəbi bilinsə, qəm bir qəm deyil,
Səbəbsiz qayğının fikri ağırdır.
Ötür budaqlarda quşlar da dil-dil,
Fikir mənim üçün dərd hazırlayır.
Tikan üstündəyəm burda elə bil,
Donub daş-kəsəyə sanki çöl-çayır.
Sənin könül evin abad olanda,
Cavansan,lap doxsan yaş üstündə də.
Insanın ürəyi azad olanda,
Yeri rahat olur daş üstündə də!
Heç yerdə könülsüz söz deyilməsin,
Qəm var ki,heç açıb-ağartmasınlar.
Ürəksiz-könülsüz heç kim gülməsin,
Heç kimi ürəksiz ağlatmasınlar. *02.08.2012.*

XƏFƏ- XƏFƏ ÖLÜR GEDİR

İllər yaş üstə yaş atır,
Baxmır nəfə, ölüb gedir.
İllər yaşanır, yaşadır,
Durur səfə, ölüb gedir.

Solur gül-çiçək bağçada,
Ömür su olmur axsa da.
Günəbaxan ha baxsa da
Gün tərəfə, ölüb gedir.

Vaxt hamını gömür yerə,
Qiymətini verə-verə.
Namərd gündə əlli kərə,
Mərd bir dəfə ölüb-gedir.

Bilir Ağasəni görən,
Onu bir dərddir öldürən.
Xəfə-xəfə ömür sürən,
Xəfə-xəfə ölüb gedir. *02.08.2012*

KİM MƏNDƏN AŞAĞI

Qalıram haq ilə nəfəs-nəfəsə,
Baxmaram ellərə uca barıdan.
Fikrim göylərdədir, amma heç kəsə,
Baxmaq istəmirəm mən yuxarıdan.

Təmiz ürəklərdir gözüm işığı,
Necə baxım məni sevənə gendən.
Özünü kim tutsa məndən aşağı,
Demək, yuxarıdır on qat o, məndən! *02.08.2012.*

İDRAK OLUNMAYAN BİR QANUN DA VAR

İdraka sığmayan bir qanun da var,
Günəşi,ulduzu,yeri yaradıb.
Min-min möcüzəni qanun-hökmdar,
Kim bilir nə vaxtdan bəri yaradıb.

Ömürdün ən baha şah qəniməti,
Sevgidir ən gözəl ömür zinəti.

Torpağın üstündə min-min neməti
Torpağın altında zəri yaradıb.
Sevinci yaşadır dərdlə yanaşı,
Daşı həm ev daşı,həm məzar daşı.
Tərkibi neçə cür olan göz yaşı,
Zəhmət,stöhmət,əcəl təri yaradıb.
Ürək gah mum olur,gah da ki,bir şum,
Min illik palıdın özülü bir tum.
Torpaq yaradanı ölümə məhkum,
Torpağı əbədi diri yaradıb.
İnsan öz yolunu salıb çiskinə,
Yaxşı gününü də çəkib pis günə.
Hər şəri dünyanın atdıq üstünə,
Amma insan özü şəri yaradıb. *02.08.2012.*

BU DOĞMA KƏNDDƏ.

Qoyub ayağımı dünyanın üstə,
Dünyaya baxıram bu doğma kənddə.
Durub bir sıldırım qayanı üstə,
Keçmişi çağırım bu doğma kənddə.
Burdadır dan yerim,Ay işığım da,
Burdadır düzüm də,naşılığım da.
Nadan addımım da,yaxşılığım da,
Yüngülüm,ağırım bu doğma kənddə.
Dən gəlib düşsə də bərkə,böyüyər,
Günəş işığından kölgə böyüyər.
Sözüm özgə yerdə bəlkə böyüyər,
İdrakım,ağılım bu döğma kənddə.
Vətənsiz bir insan özündən qaçaq,
Vətənsiz,mənimçün dərd qucaq-qucaq.
Yollarım Aya da ayrılar,ancaq,
Var gizli cığırım bu döğma kənddə.
Səhralar gül açıb,çiçəyə dönsə,
Gecələr bənzərsiz gecəyə dönsə.
Bütün əfsanələr gerçəyə dönsə,
Əfsanəm,nağılım bu doğma kənddə.

Kök atıb təzədən heç bitməsəm,də
Tufanlar əlində hey titrəsəm də.
Ömür yollarında mən büdrəsəm də,
Yıxılsam,yıxılım bu doğma kəndə.
Ağasən,gün görən haqqı-sayımca,
Canımda güc ola hay-harayımca.
Ölüm tuş gələndə,məzar payımca,
Bir küncə sığınım bu doğma kənddə! *23.08.2010.*

YAĞ, EY YAĞIŞ

Yağ,bəlkə atəşim səngiyər bir az,
Sinəmə od-alov yağır,ey yağış!
Nə könlüm rahatdı,nə bəxtim taraz,
Sevgim könlümdən də fağır,ey yağış.
Göylərin şimşəyi göy qamçıları,
Döysün,tələsdirsin qoy damcıları.
Elə bil göylərdən leysan suları,
Hopub damarıma,axır ey yağış.
Günüm bulud kimi qaradır nədən,
Sinəm dərd meydanı, can zədən-zədən.
Dərdimlə həsrətim toqquşur hərdən,
Başımdan ildırım çaxır, ey yağış.
Al qara buluddan ağ don gey yenə,
Yerin qubarını sən çırp,döy yenə.
Yağırsan,təsəlli tapır göy yenə,
Boşalır ürəyi mağıl,ey yağış!
Əslim də torpaqdır,köküm də torpaq,
Baxtım torpaq kimi göyərmir ancaq.
Məhəbbət yaranıb ağıldan qabaq,
Ona kar eyləməz ağıl,ey yağış.
Bir soyuq baxışdan alışıb ürək,
O da zərrə qədər od tutsun gərək.
Söndürə bilməzsən odumu sən tək,
O insafsızı da çağır,ey yağış.
Ağasən, dərd doğub eşqin kökünü,
Sevən çəkə bilər min dərd yükünü.
Bir yüngül dərd ilə böyük sevgini,

Yaşatmaq ağırdır, ağır,ey külək. *27.08.2010.*

DİVANƏSİYƏM

Nə mələk deyirəm,nə də ki,huri.
Bir ala gözlünün divanəsiyəm.
Şair xəyalımın qanadı,nuri,
Onsuz söz mülkünün viranəsiyəm.
Dərd mahir ovçudur,mən yazıq şikar,
Sinəmə nə qədər dərd yığsan sığar.
Haçan qəm eyləsə,mənəm günahkar,
Bütün dərdlərinin bəhanəsiyəm.
Eşqə yananların külü kəm olub,
Sevda dağı görən göz məhrəm olub.
Harda qəm itibsə,məndə cəm olub,
Mən ki, min bir dərdin nişanəsiyəm.
Nə bir dilim yetir,nə əlim çatır,
Məni görməyi də can alıncadır.
Fikrim səyyah olub qəm dalıncadır,
Bu qəm yollarının qəm xanəsiyəm.
Dəryalar odumu söndürərdimi?
Daş da bu həsrətə tab edərdimi?
Zamana üz tutub, dedim dərdimi,
Dedi: mən zalımın zəmanəsiyəm.
Ağasən, həyatla ölüm qoşadır,
Eşqə nə ayrılıq, nə ölüm batır.
Məni dərd qoruyur, həsrət yaşadır,
Bu dərdlə dünyanın yeganəsiyəm! *05.09.2010*

BASQALIM

Havalandı tərlan şair xəyalım,
Könlüm gəzdi Əmrəkini, Niyalı.
Yollar keçdim burda daşlı, qayalı,
Bu dünyada yoxmuş tayın, Basqalım!
Daşa dönmüş bir tarixi çapalar,
Bu yurdumun gəncliyini tapalar

Gör yer üstə nə yaradıb babalar,
Bir tarixmiş ömür payın, Basqalım!
Haq yolunda böyüyən el kiçilməz,
Bu gözəllik hər torpağa biçilməz.
Kalağayda qoca,cavan seçilməz,
Bir sehrdir kalağayın,Basqalım!
Bir ah çəkdim düşdü dağa, arana,
Mən nə deyim səni məndən sorana?
Üfüqlərin niyə düşdü torana?
Niyə susdu hay-harayın, Basqalım!
Solan güllər çöl-çəmənə qayıdar,
Səndən gedən yenə sənə qayıdar.
Şan-şöhrətin dönər yenə qayıdar,
Unudulmaz haqqı-sayın, Basqalım! *15.07.2012*

CAVABDEHƏM MƏN

Şübhə yox haçansa yox olmağıma,
Çəməndə gedəri damla şehəm mən.
Cavabdeh deyiləm doğulmağıma,
Amma ölməyimə cavabdehəm mən. *13.07.2012.*

HƏYAT QƏBUL ETMİR BİZ DEYƏNLƏRİ

Həyata min cürə üz göstərmişik,
Həyat az görübdür düz deyənləri.
Həyata biz yalan tərif vermişik,
Həyat qəbul etmir biz deyənləri.
Hey vardan deyirik,yoxdan deyirik,
Bizdən üz döndərir düzü,həyat da.
Həyata o qədər böhtan deyirik,
Tezbazar eyləyir bizi həyat da! *13.07.2010.*

BİR SEVİNC GÖSTƏR Kİ,

Bir yol göstərin ki,hələ çaşmayıb,
Tale göstərin ki,heç tərsliyi yox.
Bir sevinc göstər ki,qəm qarışmayıb,
Bir qəmdən danış ki,sərməstliyi yox.
İlk dəfə torpağa göz yaşı endi,
Yandı qandıran da,yandı qanan da.
Həvva yarananda Adəm sevindi,
Ağladı o,Həvva cəzalananda.
Suları bir olmur quzey qarının,
Yaraya min otdan məlhəm qoymuşuq.
Min bir sirri vardır göz yaşlarının,
Uydurub adını biz qəm qoymuşuq. *13.07.2010*

GECƏLƏR OD TUTUB ƏRİMİR NƏDƏN.

Qəlbi milyon-milyon duyğu içində,
Azı aşkardadır, çoxu içində,
Dünyanın yarısı yuxu içində,
Gecələr üstündə göy ulduzu var,
Bulaqların həzin pıçıltısı var.
Gecələrin qanlı sızıltısı var,
Dünya ayaq tutub yerimir niyə?
Qanmazlar içində qananlar ki,var,
Ürəyi min yerdən sınanlar ki,var.
Gecələr bu qədər yananlar ki,var,
Gecələr od tutub, ərimir niyə?
Gecələr gündüzü anmaq üçünsə,
Suallar içində donmaq üçünsə.
Gecə də gündüz tək yanmaq üçünsə,
İkiyə bölünüb bir ömür niyə. *07.08.2010*

YANMAYANIN YAN YERİNƏ

Sən canımın əmirisən,
Apar şöhrət-şan yerinə.
Sən ömrümün dan yerisən,
Əlim çatmır dan yerinə.
Təmiz eşqin yollarında,
Öz dərdi var baharın da.
Sevənlərin damarında,
Atəş axar qan yerinə.
Tanıyıram örüşümü,
Sınamışam hər işimi.
Dəyişmərəm yerişimi,
Qoysalar da xan yerinə.
Dərdimə özüm göynərəm,
Demə alışsam neynərəm?
Mən daşı da can eylərəm,
Daş qoysalar can yerinə.
Demə ki,sevgi əzabdır,
Min bir suala cavabdır.
Ağasən, bu,da savabdır,
Yanmayanın yan yerinə. *27.01.2010.*

EHTİYACI VAR.

Bağrımın başını bir həsrət sarır,
Yaramın üstünü bir tikan yarır.
Ömrün nə vecinə, saçım ağarır,
Amma sevdiyinin qara saçı var.
Baxma ki, sevgidə dərd aşıb-daşır,
Dərd gəlib özü də dərdə yaraşır.
Sevənin ayağı dərdə dolaşır,
Başında görünməz sevgi tacı var.
Ömür-gün qocalır dərdi duyanda,
Dolanır bir qışın şaxtası qanda.
Sevgi bir atəşdir, can soyuyanda,
Atəşə daha çox ehtiyacı var. *03.03.2010.*

DƏRDİN KİMƏ DESİN ŞIR-ŞIR BULAQLAR

Hara qoyum gedim bu oylaqları,
Sevgi, könül umur şır-şır bulaqlar.
Hara qoyum gedim buz bulaqlar,
Dolub nəğmə ilə daşır bulaqlar.
Bir yanı qayadır, bir yanı dağdır,
Boynunda min illik daşı da sağdır.
Elə ki, könüldən, gözdən uzaqdır,
Bulanır, dolanır, çaşır bulaqlar.
Su bir cənnət imiş, laləzar imiş,
Susuz bir el-oba bir məzar imiş.
Sularda nə boyda sevgi var imiş,
Kolluğu güllüyə qoşur bulaqlar.
Ömür bu yandadır, ölüm o yanda,
Ölüm yada düşmür su çağlayanda.
Dərdim ürəyimdə köz bağlayanda,
Sinəmin üstündən aşır bulaqlar.
Xoş gündən güc ala, pis gündən keçə,
Dumandan, yağışdan, çisgindən keçə.
Bir gün də qəbrimin üstündən keçə,
Bu şirin bulaqlar, bu şor bulaqlar. *15.09.2008.*

YAŞADAN OLMAZ

Daşı divar üçün qəpələyərlər,
Tərlanı tor ilə cəlb eləyərlər.
Barlı ağacları səlbəyərlər,
Barsız ağaclara daş atan olmaz.
Kimdir yük götürən çiyninə görə,
Xana xan deyirlər əyninə görə.
İnsanı saymazlar beyninə görə,
Lütdüsə alimə oxşadan olmaz.
Nemət nemət deyil umulmayırsa,
Torpaq çörək verməz şum olmayırsa.
Ovda gözün biri yumulmayırsa,
Gülləni hədəfə tuş atan olmaz.
Ağasən dərsini alıb cahandan,

Kimi üzdən sevər,kimi də candan.
Kimin həyat eşqi yoxdusa,ondan,
Heç vaxt başqasını yaşadan olmaz! *28.12.2009.*

DE QAŞ HARA,DE GÖZ HARA

Mənə iki söz söylədin,
O söz hara,bu söz hara.
Tutaq dağı düz eylədin,
O dağ hara,bu düz hara.
Demə gündüz gur işıqdır,
Gecə dərdə qarışıqdır.
Gecə fikrə yaraşıqdır,
Gecə hara,gündüz hara.
Eşqin yolları haçadır,
Tale də bir tapmacadır.
Çox da qaş gözdən ucadır,
O qaş hara,bu göz hara.
Arzu ili ilə satdı,
Gəlib hardan hara çatdı.
Demə ki, həyat həyatdı,
Sənli hara,sənsiz hara. *28.12.2009.*

YAŞAMAQ YAŞATMAQ

Tərpənə bilmirəm, vallah yerimdən,
Eşqin damarıma axır qan kimi.
Baxışın yapışıb qədəmlərimdən,
Gözlər tutub məni qan tutan kimi!
Qəlbimdə çöl yanıb, çəmən yanıbdır,
Baxtımın oylağı, gülzarı səndə.
Haçandır dilim də qıfıllanıbdır,
O vaxtdan qalıbdır açarı səndə.
Bilmədim dadını ömür barımın,
Könül gülşənimin yiyəsi sənsən.
Qəlbimdə çağlayan suallarımın,
Gülüm, cavabı sən, niyəsi sənsən.

Əyləndin gözümdən axan yağışla,
Sevgidə buludsuz yağmaq olarmış.
Sən demə bir sürgün, sərməst baxışla,
Dünyanı yandırıb, yaxmaq olarmış.
Yollardan soyuyub əlim-ayağım,
Dərdimdən tanıyır bir mahal məni.
Gözlərə çarəsiz nə qədər baxım,
Ya baxma,ya da ki, yola sal məni.
Titrədin, qəlbimdə qırıldı bir sim,
Şam sönüb, qurtarıb yağ ipliyilə.
Daş ilə vursaydın, sınmazdı qəlbim,
Sındırdın qəlbimi zərifliyinlə.
Məhəbbət ömrümə min zinət verib,
Xoşbəxt eləməyə gücü yox əlbət.
Mənə yaşamağı təbiət verib,
Yaşada bilməyib sevgi, məhəbbət. *14.02.2010.*

ÖLSƏM DƏ ÖZGƏSİ OLA BİLMƏRƏM

Dəryada dolanan bir yelkən ollam,
Çevrilsəm bir çarə qıla bilmərəm.
Torpaqda sürünən duman-çən ollam,
Göydə bulud kimi dola bilmərəm.
Taleyin oxuna mən tuş durmuşam,
Qismətdən gözümü yığışdırmışam.
Dünyanı qəlbimə sığışdırmışam,
Dünyanı gözümdən sala bilmərəm.
Hələ giley-güzar çıxmır dilimdən,
Hələ xəbərsizəm son mənzilimdən.
Bütöv bir ömrümü alsa əlimdən,
Bir günlük möhlət də ala bilmərəm.
Payızlı qalmışam,yazlı qalmışam,
Ölən arzum üçün yaslı qalmışam.
Yarın bir telindən aslı qalmışam,
Yoxsa bu dünyada qala bilmərəm.
Daşlıdır, hamardır, yolum bu yoldur,
Getdiyin bu yollar qəlbimə quldur.

Yaxşım da, pisim də mənə qəbuldur,
Ölsəm də başqası ola bilmərəm! *21.02.2010.*

İNSAN MÖCÜZƏDİR

İnsanı nə ilə tanıyacaqsan,
Danışan dilidir, ürəyi laldır.
Yaxşı tanıdığın ən yaxşı insan,
Sabah sənin üçün təzə sualdır.
Gör insan oğlunun gücü nədir ki,
Fikir-xəyalının hasarı yoxdur.
İnsan yeganə bir xəzinədir ki,
Əbədi bağlıdır, açarı yoxdur.
Qışın sərt sazağı, yayın bürküsü,
Dünyanın payızı, baharı insan.
Bütün kainatın yığcam ülgüsü,
Bütün qanunların meyarı insan.
Çox sirri açmağın vaxtı gələcək,
İnsan sirr qalacaq dünyada ancaq.
Ən uzaq ulduz da öyrəniləcək,
Ən yaxın sirdaşsa sirli qalacaq.
İnsan haq eyləyib qəlbin səsini,
Fikrində qovuşub ağ da, qara da.
İnsan öz gücünü, möcüzəsini,
Ərmağan eyləyib allahlara da.
Milyon-milyon illər yol gələn insan,
Tanınmaz heç zaman, tanınmaz asan!
Mən gah bir dənizəm, gah da insanam,
Duyğular könlümü daşdırır bir az.
Nifrət gözümüzü bağlayır tamam,
Sevgi ağlımızı çaşdırır bir az. *22.02.2010.*

İSMAYILLIDIR

Zirvələr allaha bəndədən yaxın,
Çölləri zərnişan İsamayıllıdır.
Buludları yorğun, göyləri dalğın,
Dumanı pərişan İsmayıllıdır.
Dağlarında çiçək naxış-naxışdır,
Yer var ki, əl-ayaq toxunmamışdır.
Gah xəzanı bahar, baharı qışdır,
Gah da yayı xəzan İsmayıllıdır.
Nədənsə danışır şır-şır bulaqlar,
Başına dolanır yaşıl budaqlar.
Sevgisi çəmənlər, vüqarı dağlar,
Göz yaşları leysan İsmayıllıdır.
Min dərdin içində yandı, tutaşdı,
Min bir tarix ilə bağrı badaşdı.
Xatirəsi daşdır, tarixi daşdır,
Bəli bu daş ozan İsmayıllıdır.
Dərdi bizdən alır, qəhəri bizdən,
Əsirgəmir barı, bəhəri bizdən.
Qələmi bizdəndir, dəftəri bizdən,
Ancaq şeir yazan İsmayıllıdr.
Burda dünya ilə həsbi-halım var,
Göydə ulduz olan min xəyalım var.
Burda ölüm yoxdur, burda qalım var,
Şah qanunu pozan İsmayıllıdır.
Burdan verib əmri, fərmanı allah,
Burda bölüb dərdi, dərmanı allah.
Al-əlvan güllərin bağbanı allah,
Gül içində susan İsmayıllıdır.
Kəbəmdir, üstündə yalan demərəm,
Ölümə aparsa, aman demərəm.
Daha çaşıb canı qurban demərəm,
Çünki, elə bu can İsmayıllıdır! *22.02.2010*

UŞAQLIQ YARAŞIR

Suları quruyan bulaq gözünə,
Sucaqlıq yaraşır, sucaqlıq ancaq.
Küdrünün düzünə, çölün düzünə,
Bir dağlıq yaraşır, bir dağlıq ancaq.
Namərd mərdi vurur, özgə əliylə,
Tutmaz yer gözəli göy gözəliylə.
Dovşana yazıqlıq, tülküyə hiylə,
Pələngə qoçaqlıq yaraşır ancaq.
Həmişə xoş olmur hələ yaxınlıq,
Odun adətidir külə yaxınlıq.
Çəmənə yaxınlıq, gülə yaxınlıq,
Ulduza uzaqlıq yaraşır ancaq.
Özümüz bir ümid quraşdırırıq,
Ancaq düz yolları dolaşdırırıq.
Sağlığı gəncliyə yaraşdırırıq,
Hamıya yaraşır bu sağlıq ancaq.
Qoca var cavantək şux paltar geyir,
Cavantək yeriyir, cavantək yeyir.
Amma qocalığa qocalıq deyil,
Uşaqlıq yaraşır, uşaqlıq ancaq! *15.02.2010*

YARIMÇIQ QALIB

Mənim göz yaşımı hələ silməyin,
Ağlaram yanımdan siz çəkilməyin.
Uşaqlıq eyləsəm mənə gülməyin,
Mənim uşaqlığım yarımçıq qalıb.
Ovutmur könlümü daha çöl-çəmən,
Ürək həmən-həmən, dərd həmən-həmən.
Hansı xoşbaxtlığı görmüşəm ki, mən,
Deyim xoşbaxtlığım yarımçıq qalıb.
Varlığa nə deyim,yoxluğa varma,
Ürəyə nə deyim,coşub qabarma.
Ölümə mən necə deyim,aparma,
Varlığım,sağlığım yarımçıq qalıb.
Mən üzüyumşağam lap əvvəlimdən,

İllər,nə tapdımsa alıb əlimdən.
Bir şikayət sözü çıxmır dilimdən,
Şuxluğum,şaxlığım yarımçıq qalıb.
Dərd ilə aramda can parası var,
Canın dərd görməyən gör harası var?
Üzümdə o qədər dərd qarası var,
O üzü ağlığım yarımçıq qalıb. *17.02.2010*

QORXULUDUR

Qızıl itər toz içində,
Söz gizlənər söz içində.
Əl donduran buz içində,
Bir od olmaq qorxuludur.
İki rəng var bir budaqda,
Baxt arxada,qəm qabaqda.
Qanadını qıran baxta,
Umud olmaq qorxuludur.
Fikir dərya, könül yelkən,
Qabaqlayır səni kölgən.
Vaxt-vədəsiz dolu tökən,
Bulud olmaq qorxuludur.
Torpaq ömür-gün əmridir,
Ömrü arzular əridir.
Ölüm ki,var,haq əmridir,
Unudulmaq qorxuludur. *16.01.2010*

XIRDA YARPAQLAR

Dünyanı alçaqlar veriblər bada,
Hər yerdə qaralan ocaq görünür.
Alçaqlar zirvədə dayananda da,
Kiçilir-kişilir alçaq görünür.
Namərdlər yollara salır düyünü,
Sözü zəhərlidir,özü bədgüman.
Namərdlər zirvəyə dırmaşan zaman,

Zirvə də itirir zirvəliyini.
Təzə yol axtarır suda balıq da,
Düyünlü yollar da tək-tək açılır.
Heç nə olmasa da xarabalıqda,
Payızda,baharda çiçək açılır.
Bizi ötür keçir istəklərimiz,
Sevinc də axırda dönürmüş qəmə.
Həmişə zirvəyə tələsmişik biz,
Bir ömrün zirvəsi ölürmüş demə. *18.09.2011.*

AĞLAMAZ

Od-alov insanın yanır qanında,
Kişilik qeyrəti varsa canında.
Gözündən yaş gələr yanmayanın da,
Amma gözlərinin yaşı ağlamaz.
Doğru deyən hanı,çoxu laf deyir,
Dövran çürüyə də daha saf deyir.
Dərdi-sər görəndə çoxu of deyir,
Biri ağlayanda,beşi ağlamaz.
Vüsala kim çatar,kim həsrət çəkər,
Mərdin yollarında dövran bənd çəkər.
Yolu tanıyanlar yenə dərd çəkər,
Yolları azsa da,naşı ağlamaz.
Dərdə sərraf olan dərdə ağlayar,
Gözündən yaş düşsə,yer də ağlayar.
Düşəndə pələng də, şir də ağlayar,
Sən elə bilmə ki,vəhşi ağlamaz.
Könlümün şüşəsi çilik-çilikdir,
Dərmansız dərdi-sər ürəyə yükdür.
Qanıb ağlamaq da bir kişilikdir,
Sən demə hönkürüb kişi ağlamaz! *28.06.2008.*

QARA KİPRİKLƏRİN SIX KÖLGƏSİNDƏ

Ayrılma ömrümün bu vədəsində,
Ruhumda nalələr gizlənib,gülüm.
Ətirli tellərin əhatəsində,
Nərgizlər,lalələr gizlənib,gülüm.
Məhəbbət ən böyük bir qorxu imiş,
İlki də, sonu da, bir yuxu imiş.
Demə ki,göz yaşın elə bu imiş,
Gözdə şəlalələr gizlənib,gülüm.
Bir çeşmə yanında hey susuzam mən,
Sənsiz nə qiymətsiz,nə ucuzam mən.
Səndən işıq alan bir ulduzam mən,
Dövrəmdə halələr gizlənib,gülüm.
Min arzum dustaqdır qəfəs gözündə,
Bir qəsd xəyalında,bir qəsd gözündə.
Dərdimdən mey içən sərməst gözündə,
Dolu piyalələr gizlənib,gülüm!
Bir gözüm Kür olub,bir gözüm Araz,
Nə günüm gün olub,nə baxtım taraz.
Qara kipriklәri asta çal biraz,
Altında talelər gizlənib,gülüm! *18.09.2010.*

ZƏRİFLİK

Zəriflik bir yandan bir az sınıqdır,
Yüksə-bir elin şələsi qədər.
Yüz quzey qarının qüdrəti yoxdur,
Günəşin bir zərif şöləsi qədər!
Min illik palıd da bir tumdan bitər,
Zəriflik içində nə var,gör indi.
Hamı zərifliyə sığınmaq istər,
Gör onda zəriflik nə çəkir indi.
Bir ümid işığı düşsə meşəyə,
Yolçular yolunu çaşmaz bəlkə də.
Bu dünya söykənsə bir bənövşəyə,
Bu dünya yıxılmaz,aşmaz bəlkə də!
Çiçəklər yazbaşı çıxar yollara,

Bu yollar bəs necə dərmansız olar.
Zərif kipriklərin vurduğu yara,
Xəncər yarasından amansız olar.
Kəpənək çöllərin yar-yaraşığı,
Hər gülün rəngindən bir cür don biçər.
Bir kibrit çöpünün zərif işığı,
Bir qətran gecəni doğrayıb keçər.
Yazın narın-narın yağışlarında,
Yarımcan bir otun ömrü uzanar.
Bir zərif məhəbbət baxışlarında,
Dağlar da əriyər,alışar yanar.
Bir ümid çırpınsa dər aləmində,
El-oba min il də ömür-gün sürər.
Tarın inildəyən sarı simində,
Gizli dünyaların dərdi hönkürər.
Zərif nəğməsiylə bir bülbülün də,
Bir ömrü ləngidib gizlətmək olar.
Payız dumanının zərif tülündə,
Ən uca dağı da gizlətmək olar.
Gəlin paltarının xışıltısında,
Ölən ümidlər də dirilik tapar.
Bir zərif məhəbbət pıçıltısında,
Qadir ilahinin adil hökmü var.
Zəriflik ruhudur yerin,göyün də,
Onsuz günəşi də soyutmaq olar.
Bir qız xəyalının zərifliyində,
Bütün kainatı uyutmaq olar.
Illər qatarlanıb gedir ömürdən,
Aya alışmırıq,günə yanmırıq.
Dayaq axtarırıq daşdan-dəmirdən,
Zərif gözəlliyi dayaq sanmırıq.
Daha kara gəlməz top-tüfəng gücü,
Şam sönüb qurtarıb,üzülüb iplik.
Dünyanın salamat qalması üçün,
Zəriflik çatışmır,ancaq zəriflik.
Zərifliyi ilə məşhurdur bahar,
Bir nəğmə min eldən obadan keçər.
Bir dağa söykənsən,bəlkə yıxarlar,

Bir gülə söykənsən,ölüm yan keçər. *22.09.2008.*

SEVİMLİ ŞAİRİM, ZƏRİF ŞAİRİM

Sevimli şairimiz Nəriman Həsənzadəyə

Allahın sirrini sözdən götürdüm,
Hansı şahlıq çatar söz şahlığına.
Sözün ki,gücünü mən belə gördüm,
İnanıram sözün allahlığına.

Söz bişir,qaynayır bir köz içində,
Dünya sözdən keçib təmizlənərmiş.
Hamının bildiyi bir söz içində,
Nə qədər naməlum söz gizlənərmiş.

Zirvələr üstündə sözdən dam qurur,
Şair buz üstə də oda qalanır.
Yaşayır,sözüylə bir ehram qurur,
Ölür,öz sözündə mumiyalanır.

Söz ki,ürək olur,ürək kiriyir,
Haq söz unudulmur din-iman kimi.
Kim ki, söz üstündə,yanır,əriyir,
Dönüb şair olur Nəriman kimi!

Söz özü dünyada ən ülvi nəşə,
Dağ durar bir sözün binəsi üstə.
Quran ayəsi tək gəzib həmişə,
Sözlərin qızların sinəsi üstə.

Sözün tilsim kimi döndərir bizi,
Əyrini yontayıb,düz eyləyirsən.
Kiminsə ağzında ölən bir sözü,
Təzədən dirildib söz eyləyirsən.

Sözün qanadında uçurt gəl məni,
Min cür tale çıxır sözün baxtına.
Çoxdan dəbdən düşən adi kəlməni,
Qaldırıb qoyursan şahlıq taxtına.

Bu dünya belədir,dərd dərddən betər,
Daha öyrəşmişik biz bu adətə.
Süzülür gözündən nurlu bir kədər,
Onu dəyişmərəm min səadətə.

Ayağını hara qoysan,qəm-qubar,
Dərdini dərd ilə unutdun,şair!
Sevinclə təsəlli verməyə nə var,
Sən bizi kədərlə ovutdun,şair!

Yanır kipriyində qəm düzüm-düzüm,
Söz yanır dilində bərkdən desən də.
Bu qədər ucalıq,bu qədər dözüm,
Bu qədər zəriflik hardandır səndə?

Dönüb şeir olur çəkdiyin bir ah,
Təmiz kədər olsa,kimdir kef güdən.
Hamını torpaqdan yaradıb allah,
Amma şairləri qəmdən,sevgidən.

Zəriflik azalıb bəlkə də sözdə,
Çətindir bir sirri bilmək də vallah.
Sənin zərif-zərif sözünün üstdə,
Yaşamaq da xoşdur,ölmək də vallah.

Nadanlar dünyanı tabutlaşdırıb,
Görən bu dünyanı kim qarğayıbdır,
Kobudlar dünyanı kobudlaşdırıb,
Dünya zəriflikdən yadırğayıbdır.

Sevgisiz bir dünya bir can yığımı,
Hayıf, günəşinə zülmət qatılıb.
Dünya unudubsa dünyalığını,
Onun mayasına nifrət qatılıb.

SƏN DÜNYANIN İŞİNƏ BAX

Yol üstündə bir pöhrəsiz kötük var,
Pöhrələri qulac-qulac istəyir.
Göyərməyə vədə verib bu bahar,
Yarımcandır,başında tac istəyir.

Bülbül üçün sino gedir bağça-bağ,
Şamamalar üzə çıxıb tağbatağ.
Sən dünyanın gərdişinə,işə bax,
Əlacsızdan dərdli əlac istəyir.

Qayalarda daş da umur kəsəkdən,
Yeri düşər qartal umar böcəkdən.

Biz arıdan,o da umar çiçəkdən,
Kollar kəklik,yollar turac istəyir!
Yer dolanır,hey dayanmaq istəmir,
Beyin dönür,ürək donmaq istəmir.
Boş-boşuna ocaq yanmaq istəmir,
Ya bir qazan, ya isti sac istəyir.
Gör nə qədər illər udur ömrümüz,
Min il yaşa,yenə budur ömrümüz.
Arzulardan yüküm tutur ömrümüz,
Namərd ölüm ömrü tarac istəyir.
Bu dünyanın günəş kimi yarı var,
Bağda barı,dağlarında qarı var.
Bu dünyanın özü boyda varı var,
Az ömürdən yenə xərac istəyir. *19.06.2012*

SƏBR

Böyük Sabirə

Asta gedəndə də çaşır yerişlər,
Bəzən dar ayaqla yollar düz olur.
Bəzən tələsəndə düz gedir işlər,
İnsan səbr edəndə səbirsiz olur. *19.06.2012*

NECƏ QALSIN

Yollar getməmişəm güllü-çiçəkli,
Paltar geyməmişəm bərli-bəzəkli.
Keçib ömür yolum daşlı-kəsəkli,
Daş-kəsək üstündə iz necə qalsın.
Küsdüm,axıracan küsüm qalmadı,
Mən dözdüm, baxtımda dözüm qalmadı.
Haqqa üz tutmağa üzüm qalmadı,
Arxı üzülündə üz necə qalsın?
Namərdin hər sözü bir ov tələsi,
Hamımız bir məchul vaxtın köləsi.

Belimdə bu qədər ömür şələsi,
Bəs boyum,qamətim düz necə qalsın.
Gərəksiz bir çöldə od qalanırsa,
Nə xeyri od vuran lovğalanırsa.
Söz sözün altında boğmalanırsa,
Ağzında dip-diri söz necə qalsın?
Qalansa, ocaqdır mənim də zərrəm,
Bir təmiz sevgiyə canımı verrəm.
Bəlkə kömür olsam,bir də közərrəm,
Yanan kül altında köz necə qalsın?
Göydə yox,yerdədir günüm-gündüzüm,
Çöksə,bu dünyada çökəcək dizim!
Getsəm,bu dünyada qalacaq gözüm,
Görünməz dünyada göz necə qalsın? *16.05.2012.*

DARIXIRAM

Dəli könül,qoşul mənə,gəzək bir az,
Yerli-yersiz,axır zaman darıxıram.
Deyirsən ki,səbr eləyək,dözək bir az,
Səbr edəndə daha yaman darıxıram.
Sazım susub,mizrab simdən ayrı düşüb,
Öz təsəllim öz dərdimdən ayrı düşüb.
Heç bilmirəm,könlüm kimdən ayrı düşüb,
Könlüm olub dəli-divan,darıxıram.
Yaşamaqçün gör nə qədər şərt olarmış,
Kövrələndə,möhnət yaman şərt olarmış.
Mən bilməzdim,səbəbsiz də dərd olarmış,
Yan-yörəmdə qoca,cavan darıxıram.
Duman çöküb,uzaqlara baxmaq olmur,
Yol uzanır,axırına çıxmaq olmur.
Xəyal göydə, göylərə də qalxmaq olmur,
Yox ümiddən bir nərdivan,darıxıram.
Açılacaq hansı qapı məlum deyil,
Nə günahı,nə savabı məlum deyil.
Nə sualı,nə cavabı məlum deyil,

Kimdir qaçan,kimdir qovan,darıxıram.
Ürəkdən də gülə bilmir daha gülən,
Dərdi görüb,uzaq qaçır dərman bilən.
İndi daha nə sevən var,sevilən,
Yoxdur daha sevgi uman,darıxıram. *17.05.2012*

GECƏ HA UZANSA

Hər adi olanın bir möcüzəsi,
Hər əyri bir yolun düz üzü vardır.
Gündüz ha uzansa mütləq gecəsi,
Gecə ha uzansa gündüzü vardır. *15.05.2012.*

NƏĞMƏLƏR

Nəğmələr bir ömrə şirinlik qatır,
Nəğmələr döndərir vara yoxları.
Dövran ruhumuzda boşluq yaradır,
Nəğmələr doldurur bu boşluqları.
Görmürəm həyatdan başqa heç şeyi,
Dünyadan kənar səs məni çaşdırır.
Sanki dünyadakı əyər-əksiyi,
Mənalı nəğmələr tarazlaşdırır.
Nəğmələr su alar şəlalərdən,
Söndürər səhrada o,susuzluğu.
Nəğmələr ümidi döndərir hərdən,
Həyatda ən böyük uğursuzluğu.
Bir yandan sevinər,bir yandan mələr,
Kimiyçün payızdır,kimiyçün bahar.
Hamının sevdiyi məlum nəğmələr,
Hər qəlbin gizlicə nəğmələri var.
Həyat bu dünyada qənirsiz nigar,
Ölümün öz dili,öz səsi olmur.
Həyatın nəğməsi açıq-aşikar
Ölümün qorxudan nəğməsi olmur.
Həyat var nəğmənin olduğu yerdə,

Öz rəngi də vardır, öz işığı da.
Nəğmədir dünyada elə ömür də,
Bütövü də olur,yarımçığı da! *14.05.2012.*

GÖZƏLLİK

Bir şəbnəmdir,büllur çeşmə suyudur,
Dözməz dövrün çirkabına gözəllik.
Məst eləyib,könülləri uyudur,
Düşüb haqqın kitabına gözəllik.
Sevgi doğub,ömür-gün də yaradıb,
Sevincini dərd içində yaradıb.
Tanrı olub,özü özü din də yaradıb,
Bir bəşərin xitabına gözəllik.
Gah zəifdir bir iynənin sapından,
Gəlsə,keçər Günəş kimi qapından.
Bir nur kimi çıxar büllur qabından,
Bir də sığmaz öz qabına gözəllik.
Həm allahla,həm bəndəylə görüşər,
Tilsim olub,ürəklərə ilişər.
Bu qüdrəti allah ilə bölüşər,
Bir həsrətin savabına gözəllik.
Min gülzara o bağbanlıq eylər,
Gecələri çırağbanlıq eləyər.
Həm dərd verər,həm loğmanlıq eləyər,
Sevənlərin əzabına gözəllik.
Könül,haqqı heç nahaqqa o qoşmaz,
Dünya varsa,o dünyadan yığışmaz.
O,möcüzdür,o tilsimdir,sığışmaz,
Min sualın cavabına gözəllik. *14.05.2012.*

ÖZGƏ AĞLI İLƏ DOLANMAMIŞAM.

Özüm tüstülənib közərmişəm mən,
Özgənin oduna qalanmamışam.
Görmüşəm hər dərdə dözərmişəm mən,

Əbəs viran olub,talanmamışam.
Kim şahiddi mənim qul olmağıma,
Özgə kəhərində çul olmağıma?
Şükür eyləmişəm kol olmağıma,
Bir barlı ağaca calanmamışam.
Öz evim olubdur fəxri yerim də,
Öz yurdum üçündür,ölüm-dirim də.
Çeşməni tapmışam həndəvərimdə,
Mən yad arxı ilə sulanmamışam.
Mən bel bağlamışam insan oğluna,
Dost mənə inanıb basıb bağrına.
Çox qiymət vermişəm özgə ağlına,
Özgə ağlı ilə dolanmamışam.
Nimdaş paltarımla tanınmışam mən,
Gözümdən düşənə göz yummuşam mən.
Öz boyuma görə pay ummuşam mən,
Boyumdan yuxarı boylanmamışam. *13.05.2012*

ÇOX XƏFƏ GƏZMƏ

Sən eldən uzaqda fəlsəfə gəzmə,
Boş sözün yerinə daş söz qoyarlar.
Gözdən uzaq olma,çox xəfə gəzmə,
Gözdən uzaqlara çox göz qoyarlar. *13.05.2012*

MƏN QIŞIN DƏRDİNİ YAZDA ÇƏKMİŞƏM

Mən yolu dərd ilə izləməmişəm,
Ömrümün yükünü asta çəkmişəm.
Dərd üçün mən qışı gözləməmişəm,
Mən qışın dərdini yazda çəkmişəm. *12.05.2012*

QIFIL- AÇAR

Biganə,biganə gəlib gün keçər,
Hər donu bədənə görə biçərlər.
Qıfılı açara görə kim seçər,
Açarı qıfıla görə seçərlər. *12.05.2012*

YARPAQ TÖKÜLSƏ DƏ AĞAC YAŞAYIR.

Xəyal məni tutub,min yerə dartır,
Baxıb vüqarına dağ ac yaşayır.
Sevincim yoxsa da,ömrüm ki,vardır,
Yarpaq tökülsə də, ağac yaşayır. *12.05.2012*

ADAM VAR

Çalış ki,tutmasın gözünü pərdə,
Bir cüt göz yaşayır gözümüzdə də.
Adam var,görünür yatdığı yerdə,
Adam var görünməz ayaq üstə də. *12.05.2012*

El haqqı həkk elə yaddaşına da,
Üzdə hər qaranı o xal sanmayıb.
Qarğa çox qonubdur dağ başına da,
Amma heç kəs onu qartal sanmayıb. *12.05.2012.*

YAXŞIDIR

Qarışqa da cığır salır bir qulac,
Cığır varsa,qara kol da yaxşıdır.
Gen yola sən lap bir əyri cığır aç,
Yolsuzluqdan,əyri yol da yaxşıdır. *13.05.2012*

QALMIR

Eşitmirlər səsimizi,
Cığırmağa nəfəs qalmır.
Lap öldürək özümüzü,
Can yerinə əvəz qalmır.
Eşitmirəm bu nə səsdir,
Eşitdiyim daha bəsdir.
Hər bir ürək bir qəfəsdir,
Bülbüllərə qəfəs qalmır.
Mən od tutub alışanda,
Dərdim dərdi tutub aşanda.
Ölümdən çox danışanda,
Yaşamağa həvəs olmur. *13.05.2012*

MƏHƏBBƏT HƏMİŞƏ DİLSİZ DANIŞAR

Səhraların dərdi dərdə qarışır,
Cadar-cadar olur sel tapanacan.
Məhəbbət həmişə dilsiz danışır,
Ürək ölüb-gedir dil tapanacan.
Yaz gəldi,kollar da yaşıllaşacaq,
Qış gəldi,dərdi-sər başdan aşacaq.
Gur çaylar hayqırıb,aşıb-daşacaq,
Hardasa bir sakit göl tapanacan.
Sevgisiz el demək asan deyildir.
Hər yarpaq tokümü xəzan deyildir
Əsir şah özü də insan deyildir,
Vətən tapanacan,el tapanacan. *13.05.2012.*

YOX İMİŞ

Əgər bir ürəkdə sevgi yoxdusa,
Onda bu ürəkdə nifrət də yoxdur
Sevgi duygusunun kökü yoxdusa,
Arada bir təmiz ülfət də yoxdur.

Yol kimə gərəkdir,gedən olmasa,
Can necə yaşayar bədən olmasa.
Əgər torpaq yoxsa,vətən yoxdusa,
Qürbətdə sən deyən sərvət də yoxdur.
Vaxtında qarıyıb-qocalmırıqsa,
Vədəsində artıb-azalmırıqsa.
Min-bir dərdi-sərdən dərs almırıqsa,
Onda heç bu dünyada ibrət də yoxdur. *13.05.2012.*

AĞASƏN OLMAZ

Əlim həsrətdədir,əllərimi tut,
Tut kimi tökülsün yerə dərdi-sər.
Dərdi sər yoluma,dərd ver,dərd yarıt,
Ey,yar,ud havadan dərdi,dərd küsər.
Küsər nalələrim,düşər dərbədər,
Tərpədər könlümün dərdini,vallah!
Dərd səsi,dərd ünü dəryalar qədər,
Bu bir dərd dinidir,dərd dini vallah!
Gəl ki,sən gələndə qış da yaz olur,
Di gəl ki,vaxt ötür mən deyən olmur.
Yön olmayan yollar tanınmaz olur,
Hər şux sünbül üstə dolu dən olmur.
Göz harda görmüşdü belə ahu göz,
Göz qoydum, gördüm ki,göz ilahidir.
İlahidir,gülüm gözdən yağan söz,
Sözü gözdən salan söz günahıdır.
Ayrılıq dediyin keçilməz barı,
Barı qoy gözünə barıdan baxım.
Baxım qoy silinsin könlüm qubarı,
Qubarım çox qalsa,ayrıdan baxım.
Mənim könlüm quşu sevginə ovdur,
Ovdur ürəyimi dərd əlləriylə.
Dərd əlləri üçün könlüm girovdur,
Girovlar döyülməz mərd əllərіylə.
Dərd yüz illik yoldur,ömür bir qarış,
Qarış taleyimə,ömrüm uzansın.

Uzansın,qalmasın dua,yalvarış,
Ömrün yalvarışsız savab qazansın.
Baxıram,üzündə gül-gülüstana,
Qoyma gül islana,tökmə göz yaşın.
Hələ nə yaşın var,gülün yaş yana,
Sevgiyə dönməzsən,sevgidən yaşın.
Sinən bir müqəddəs kitabdır hələ,
Hələ görməmişdim belə sinə mən.
Bütpərəst olacam ta indən belə,
Səcdə qılacağam beləsinə mən.
Hər yandım deyənə köks ötürmə sən,
Yaradan qopmayan ah asan olmaz.
Hər ağa olana könül vermə sən,
Hər sevən ağadan Ağasən olmaz. *11.03.2012.*

FƏRHADIM MƏNİM-HƏYATIM MƏNİM

Nəvəmə

Həsrət dağı vardı sinəmdə,çarpdın,
Ay qəm dağı çapan Fərhadım mənim.
Biz səni axtardıq,sən bizi tapdın,
Ay göylərdən gələn muradım mənim.
Taqətsiz könlümün sənsən təpəri,
Qaranlıq gecənin parlaq səhəri.
Sən dost ümidgahı,düşmən çəpəri,
Sən həm şöhrətimsən,həm adım mənim.
Bu dünya qəm evi,arzu sərgisi,
Gəl qoşul ömrümə,ömrün bərkisin.
Sən könül neməti,allah vergisi,
Tez böyü,ay qolum,qanadım mənim.
İməklə,torpağa dəysin dizlərin,
Ayaq aç dünyaya düşsün izlərin.
Başa düşmədiyim sirli sozlərin,
Bir allahdan gələn baratım mənim.
Bir yandan sevincəm,bir yandan qəməm,
Bir yandan xoşbəxtəm,bir yandan kəməm.
Dünyada ən şirin,fərəhli nəğməm,

Dünyada ən həzin bayatım mənim.
Şirin gülüşünə könül bəzədim,
Şirin bəhrəm oldu,acı həsrətim.
Mənim havam,suyum,ağız ləzzətim,
Dilimin ucunda son dadım mənim.
İki nəvəm vardır bir canım kimi,
Axın damarımdan al qanın kimi.
Sən də böyü mənim Pünhanım kimi,
Sevinsin qoy iki övladım mənim.
Qoymuşam mən daha könlümü dincə,
Sənin gül baxışın güldən də incə.
Səninlə dərdim də dönür sevincə,
Sənsizlik ən böyük fəryadım mənim.
Min kərə başına dolanım,dönüm,
Başqadır səfərim,başqadır yönüm.
Sən mənim ümidim,sən ömrüm-günüm,
Həyatdan sonrakı həyatım mənim! *12.07.2008.*

ÖYRƏDİR

Öyrənmək gərəkdir qəm də yeməyi,
Yaman gün kitabdan yaxşı öyrədir.
Qışdan sonra gələn yazı sevməyi,
Bizə bu dünyanın qışı öyrədir.
Təbiət hikmətdir əzəldən bəri,
Dağların torpaqdan yaranır zəri.
Dağın altındakı xəzinələri,
İnsana bu dağın başı öyrədir.
Bir qəfil təsadüf açır düyünü,
Min hikmət dalınca qovur gün-günü.
Yüz alimin deyə bilmədiyini,
Qayanın bir çopur daşı öyrədir.
Bir küsgün baxışdan dərdi bilməyi,
Küskünün gözündən yaşı silməyi.
Necə sevinməyi,necə gülməyi,
Mənə gözlərimin yaşı öyrədir.
Sən tarın mizrabı,mən tarın simi,

Dinib dindirəcək görək kim kimi!
Çox hayıf,can qoyub öyrəndiyimi,
Bir də durub mənə naşı öyrədir! *11.05.2012*

ÖLÜMÜ DÜŞÜNƏNLƏRƏ

Həyatla doludur,çəmən,dağ,dərə,
Sevgisiz arzu da solurmuş demə.
Ölümü daha çox vird edənlərə,
Ölüm daha yaxın olurmuş demə! *11.05.2012*

İNANDIQ

Şirin olsun deyə yalan istədik,
Düzə ağız büzüb,küyə inandıq.
Nökər haqqı dedi,yalandır dedik,
Bəy yalan danışdı,bəyə inandıq.
Əzəldən axıra belədir insan,
Könlü gah bahardır,gah da bir xəzan.
Torpaq taxıl verdi,göy dolu,leysan,
Torpağı tapdayıb,göyə inandıq.
Kiçilmək yerində biz kiçilmədik,
Biçilmək yerində biz biçilmədik.
Vallah,özümüz də yaxşı bilmədik,
Nədən şübhələndik,nəyə inandıq.
Əgər yalanımız ağla batırsa,
Yalan sözümüzə şəkər qatırsa,
Əgər təsəllimiz uydurmadırsa,
Biz niyə uydurduq,niyə inandıq?! *11.05.2012*

İNSAN İSTƏR GÜLSÜN, İSTƏR AĞLASIN.

İnsan ha can atır haqqı haqlasın,
Hər ürək,hər dərdə aşıyan deyil.
İnsan istər gülsün,istər ağlasın,
Bir ömürdən artıq yaşayan deyil! *11.05.2012.*

Insan qamarlayır yeri,gah göyü,
Özünü əridib qatır illərə.
Yaman qəribədir insan taleyi
Doğulur bir kərə,ölür min kərə. *11.05.2012*

YAŞAYA BİLƏRDİ İNSAN MİN İL DƏ

Özümüz yaratdıq kağız təqvimi,
Kağız çərçivəyə saldıq illəri.
Sonra bu çərçivə hökmdar kimi,
Aldı caynağına çox nəsilləri.
Aya, həftələrə bölündü illər,
Özü bilən kimi axdı il amma.
Köhnə arxiv kimi silindi illər,
Vecinə almadı vaxtı il amma.
Günlər nə çoxaldı,nə də azaldı,
Hansı il üz tutdu yazı yazana.
Aylar şəpərləndi,günlər ad aldı,
Ötdü başımızdan vaxt saymazyana.
İllərə kim dedi: sıralan,düzül?
Ayların,illərin yaddaşı varmı?
Biz yaş da uydururuq :əlli il,yüz il,
İllərin həqiqi öz yaşı varmı?
Yalançı çərçivə qurduq neçin biz?!
Milyon- milyon ili bir-bir kim sayıb.
Yaş da uydurmuşuq bəşər üçün biz,
Dünyanın yaşını kim hesablayıb?
Ruhu yalanlarla biz doydurmuşuq,
Gözümüz dolusu yaşayaq deyə.
Ömrün qədəriyçün həd uydurmuşuq,
Sonra da durmuşuq gileylənməyə!
Insan çərçivədə əyilməsəydi,
Bəlkə ölüm də çox uzaqlaşardı.
Yazı bilməsəydi,say bilməsəydi,
İnsan beş qat bundan artıq yaşardı.

Bu əbədi dünya ölmədiyiçün,
Onun yaş barədə əzabı yoxdur.
Dünya öz yaşını bilmədiyiçün,
Aşdığı illərin hesabı yoxdur.
Biz boş rəqəmləri əzbərləyirik,
Fikir başımızdan dolaşıb keçir.
Vaxtı ayla, günlə çəpərləyirik,
Çəpərin üstündən vaxt aşıb keçir.
İl gərək yaşanmış ili dirildə,
İnsan ömrə özü ölçü kəsəydi.
Yaşaya bilərdi insan min il də,
Əgər yaş haqqında düşünməsəydi. *19.06.2012*

İNSANIN TALEYİ ÜZ DÖNDƏRƏNDƏ.

Bir damcı sevincdə göz yaşın da var,
Insanın taleyi üzü dönəndə.
Getdiyi bulağın suyu quruyar,
İnsanın taleyi üz döndərəndə.
Başına dağların qarı tökülər,
Yoluna kolların xarı tökülər.
Dəyməmiş,bağçanın barı tökülər,
Insanın taleyi üz döndərəndə.
Dönər ağ yalana dilində gerçək,
Salar öz toruna səni hörümçək.
Qışda qar tapılmaz,yazda gül-çiçək,
İnsanın taleyi üz döndərəndə.
Çıxar can dediyin canına düşman,
Baxtın ki,yan keçdi,baxda qarışma.
Dilindən çıxanın axırı peşman,
İnsanın taleyi üz döndərəndə.
Arzu qabağında min bir şərt durar,
Yolunun başında gəlib dərd durar.
Sağında-solunda min namərd durar,
İnsanın taleyi üz döndərəndə.
Kim desə keçmədi,sözünü döndər,
Baxma o nadana,gözünü döndər.

Sən də taleyindən üzünü döndər,
Bir gün tale səndən üz döndərəndə. *12.05.2012.*

TƏLƏSMƏ.

Dəbərmə,düz otur öz taxtında sən,
Baxma ötüb-keçən yaşa, tələsmə.
Baharını yaşa öz vaxtında sən,
Qış özü gələcək,qışa tələsmə.
Səni dost gözləyir,sirdaş gözləyir,
Səni sevinc dolu təlaş gözləyir.
Səni görünməyən bir daş gözləyir,
İndiki,görünmür,daşa tələsmə.
Yanırsa,qəlbini pərdələmə sən,
Dərdin nuru yoxsa,dərd eləmə sən.
Dilində ölümü vird eləmə sən,
Ömrü ömür kimi yaşa,tələsmə.
Gec gələn təklifdən tez qaçmadınsa,
Zülmətə bir zərrə nur saçmadınsa.
Məclisin başından baş açmadınsa,
Sən ayaqda otur,başa tələsmə.
Ağasən,hər yuxu gerçək olmayır,
Hər yarpaq böyüyüb,ləçək olmayır.
Hər arzunun sonu çiçək olmayır,
Aldanma arzuya,haşa tələsmə! *19.05.2012.*

MƏN HƏYATIN XƏTRİNƏ

Mən dünyadan küsəmmərəm,
Saf qohumun,müdrik yadın xətrinə.
Ölümə də hazır ollam,
Bir qeyrətli,ana-qadın xətrinə.
Bir orduya bərabərdir,
Bir qadının qeyrəti!
Əsl kişi qüdrətidir,
Bir gözəllik qarşısında,

Bir kişinin heyrəti.
Əlli ili dəyişərəm,
Çox mənalı bir saatın xətrinə.
Bu dünyada yaşayan çox,
Kim ölümün,kim həyatın xətrinə!
Gəl, ey cahil,gəl yaşayaq,
Sən göydə nisyə cənnətin,
Mən isə nağd xərabatın xətrinə! *23.03.2012*

XOŞBƏXTLİYƏ LAYİQ OLSAM.

Məni sevər dənizdəki dalğalar da,
Bir dənizdə bir balaca qayıq olsam.
Baxtım yatmaz,bu dünyada,
Mən baxtımdan ayıq olsam.
Xoşbəxtliyə sahib ollam,
Xoşbəxtliyə layiq olsam! *23.03.2012*

PAY KİMİDİR

Arzuların çoxu,könül,
Bir cavabsız hay kimidir.
Min bir duyğu qəlbimizdə,
Qalaqlanan yay kimidir.
Ölüm,omür bu dünyada,
Zaman atlı at üstündə,
Ağır-yüngül tay kimidir.
Bir su üstdə köpüklənir,
Çayda üzən budaqlarıq.
Kötüklərik.
Zaman isə sakit axan,
Çay kimidir.
Dolanırıq orda-burda,
Bu qovğada,vurhavurda.
Az ömrümüz.
Uşaq başı aldatmaqçun,

Bircə zərrə pay kimidir,
Darıxmayaq.
Uşaqlar da böyüyəcək,
Hay-haray da böyüyəcək,
Uşaqlarçun gələn pay da,
Böyüyəcək. *23.03.2012*

AXTARACAQ

Bir insanı var-dövlətə lap qərq elə,
Pis keçsə də ötən günü axtaracaq.
Keçmişindən bir də geri dönməyəcək,
Neçə doğma səsi-ünü axtaracaq,
Səsi hələ qulağından çəkilməyən,
Yaxın-uzaq toy düyünü axtaracaq,
Qalan ömrü xoşbəxtliyə yetişsə də,
Xatirəyə gedən yönü axtaracaq,
Ötən günlər,itənləri dərk üçündür,
İtən illər şirin olur,həsrəti də dərin olur.
Itirən kəs itiyini axtaracaq,
İtən günlər qalan ömrün kötüyüdür,
İnsan,ömrün kötüyünü axtaracaq. *27.03.2012*

ƏGƏR İNSAN

Əgər insan tox qarına,
Ac qonşunu düşünmürsə,
Odun-ocaq tapmayanın,
Əvəzinə üşümürsə,
Insan deyil!
Əgər insan sevincini yarı kəsib,
Başqasına pay vermirsə,
Gizli-gizli dərdi-sərə.
Aşkar-aşkar hay vermirsə,
İnsan deyil!
Əgər insan bir yanıqlı ah çəkənin,

Ürəyini görəmmirsə.
Can deyənə öz canını,
Verəmmirsə,
İnsan deyil!
Əgər insan,
Dərd dalınca qaçammırsa,
Açılmayan qapıları açа bilib,
Bir uşağın ürəyini açammırsa,
İnsan deyil! *27.03.2012*

DAĞLAR

Hər güldə,çiçəkdə şair xəyalı,
Ətəyi mübarək,başı sayalı.
Bir yanı xilqətdən çılpaq qayalı,
Bir yanı yam-yaşıl meşəli dağlar.
Könül oylağıdır burda hər tala,
Sağında, solunda daşdan bir qala.
Həm marala oylaq,həm də qartala,
Külüngsüz,tişəsiz tişəli dağlar.
Başı dumanlanır yerdən aralı,
Bircə ay məclisli,qonaq-qaralı.
Zəvvar həsrətilə bir az yaralı,
Dumandan-çisgindən nəşəli dağlar.
Gəl gör bir necədir yay gecələri,
Boylanır yuvadan quş beçələri.
Göyləri əks edir gölməçələri,
Belədir güzgülü,şüşəli dağlar.
Fikrim gah bir səhra şoranlığında,
Gah da bir gülüstan heyranlığında.
Şirin xatirələr toranlığında,
Tutaşır könlümün məşəli dağlar.
Yanmaqdan bir ağır peşə bilmirəm,
Yanıram,yanıram bişə bilmərəm.
Həsrət zirvəsindən düşə bilmirəm,
Bu yaşda yadıma düşəli dağlar! *29.03.2012.*

QARANQUŞ YUVASI

Yarısı samandır,yarısı palçıq,
Tavandan asılıb,ha çək əyilməz.
Vallah möcüzədir bu açıq-aşkar,
Bunu heç usta da bacara bilməz.
Ağılmı quşlara bir yol göstərən,
Yoxsa haq işidir,Adəmdən qalıb,
Quşlarmı insandan öyrənib görən,
Insanmı quşlara baxıb dərs alıb.
Ötür quş ömrünün sakit günləri,
Birgə yaşayırıq öz ağrımızla.
Ağılsız bir quşun busa hünəri,
Biz necə fəxr edək öz ağlımızla?
Ağılla fərqlisə quşlardan insan,
Bəs niyə çıxıbdır ağlımız yoxa?
Ağlımız karsızsa quş duyğusundan,
Bəs niyə gülürük ağılsızlığa?
Ömrümdə-günümdə yenə qəm qala,
Axır yola bənzər bir xətt cızam mən.
Hissimlə,duyğumla nişanəm qala
Sonr lap biləm ki,ağılsızam mən.
Duyğu ömrümüzə şirinlik qatır,
Ağılla bağlıdır min-min günahlar.
Duyğu qəlb oxşayan nəğmə yaradıb,
Ağıl bu dünyanı yıxan silahlar! *23.02.2012.*

ÖMRÜ XƏRCLƏMİŞİK.

Düz görmədik yollarını dağın,düzün,
Biz bilmədik heç qədrini ömrümüzün.
Daşımışıq ömür yükün bir qul kimi,
Xərcləmişik ömrümüzü bir pul kimi.
Cavanlıqda xərcləmişik xalvar-xalvar,
Qocalıqda xərcləmişik yalvar-yaxar.

NAŞÜKÜR OLMUŞUQ

Naşükür olmuşuq,vallah əzəldən.
Hansı çeşmələri qurutmamışıq.
Ömrümüz bəlkə də getməzdi əldən,
Ömrü əlimizdə bərk tutmamışıq.
Yanıb üzərik tək,tüstüləsəydik,
Azar-bezarımız çıxardı bizdən.
Əzəldən ölümü üstələsəydik,
Ölüm də əbədi qorxardı bizdən. *24.03.2012*

BAĞIŞLA,ÜRƏYİM.

Mən sənə yox yerdən dərd gətirmişəm,
Sənin həsrətini mələr görmüşəm.
Sənin hesabına ömür sürmüşəm,
Bağışla ürəyim,məni bağışla.
Bu necə dostluqdur,bu necə birlik,
Dustaq eyləmişəm səni ömürlük,
Kürlük eyləyirəm,mən yenə kürlük,
Bağışla ürəyim,bağışla məni.
Nə görsəm,nə çəksəm,mən sənə şərik,
Elə dərdimiz var,başa düşmərik.
Hayıf ki,ölüncə biz görüşmərik,
Bağışla, ürəyim,məni bağışla. *26.04.2012.*

MƏN HAQ-ƏDALƏTİN ÖLƏM YERİNƏ.

Mənim alacağım dünyada qəmdir,
Nə pay alacaqdım dərd-qəm yerinə.
Demirəm könlümün ümidi kəmdir,
Mən qəmi seçmişəm həmdəm yerinə.
Bir gözüm arana,bir gözüm dağa,
Zamanın hökmündən qurtarmaz yaxa.
Qələm axtarıram dərdi yazmağa,
Əlimə dərd gəlir qələm yerinə.

Ucuz-bahasına hər şey satılır,
Hər gün ovqatına zəhər qatılır.
Sevgi çiçəkləri yerə atılır,
Daha kim yanacaq Kərəm yerinə.
Günahkar günahın bircə yol yusa,
Ağlar gözün yaşı bir gün qurusa.
Əgər mənliyini aləm qorusa,
Mən vəkil duraram aləm yerinə.
Nə sözdə güc qalıb,nə canda halət,
Ölə ömürbillah nahaq,səfalət.
Ağasən,ölməyə bir haq,ədalət,
Mən haq-ədalətin öləm yerinə! *20.04.2010*

ZƏMANƏ QƏLİBDİR

Ha səmtə dolansan,ha yerdə qalsan,
Sənin yox,zamanın xeyri çıxacaq.
Zəmanə qəlibdir,hər kimi salsan,
Əsli düz olsa da,əyri çıxacaq. *20.07.2010*

YALANA ÖYRƏŞDİK

Çox yalan eşitdik lap körpəlikdən,
Daha yalanlara öyrəşmişik biz.
İnsan usanmazmış çəkdiyi yükdən,
Doğru görməyə də keyləşmişik biz. *20.09.2010*

HƏLƏ BİZƏ NABƏLƏDDİR BU DÜNYA.

Bəndəsinin nifrəti çox,mehri az,
Kimə sevinc,kimə dərddir bu dünya.
Görə-görə göz bağlayan sehirbaz,
Min bir oyun,min bir fənddir bu dünya.
O,insandan ülfət umur,yeyilir,
Yeyənlərə o,göz yumur,yeyilir.

Gecə-gündüz xımır-xımır yeyilir,
Özü boyda,çəkər-qənddir bu dünya.
Bu dünyanın özü cənnət bağıdır,
Bar-bəhrəsi özü üçün yağıdır,
Hərə gəlib bir böyründən dağıdır,
Dağıdana daha səmtdi bu dünya.
İçindədir öz bəlası,qorxusu,
Qananların ərşə çıxıb yuxusu,
Bu dünyaya namərd deyib çoxusu,
Bəs bilmirəm kimə,mərddi bu dünya.
Ömrü boyu dərdə batan bezibdir,
Ömrü boyu yeyib-yatan bezibdir.
Allah özü bu dünyadan bezibdir,
Heç bilmirəm kimə bənddir bu dünya.
Yaşamaqçün ağır şərtdir,şərti də,
Min təriflə yüngülləşməz dərdi də.
Mərddən umar,umsuq eylər mərdi də,
Yananlara yaman sərtdi bu dünya!
Min bir rəngi öz əynində gəzdirir,
Bilmir insan nə beynində gəzdirir.
Milyonları öz çiynində gəzdirir,
Milyonlara nabələddir bu dünya! *10.09.2010.*

SEVİNC VƏ KƏDƏR

Kədər dönməz çıxıb yüz imtahandan,
Sevinc tez aldanar,tez uyar gedər.
Kədər yapışdısa,qopmaz yaxandan,
Sevinc bir baxışdan söz duyar gedər.
İllər qatarlanıb,keçər baş üstən,
Göyərməz düşsə də quru yaş üstən.
Sevinc çay suyudur aşar daş üstən,
Qəm bulaq suyudur,daş oyar gedər.
Dərdi-sər kədərin sərt qamçısıdır,
Bir gülüş min qəlbin ilhamçısıdır.
Sevinc yarpaq üstə şeh damcısıdır,
Bir quru nəfəslə quru yar gedər.

Güman var,aslıdır bir incə sapdan,
Güman var,keçibdir min haq-hesabdan.
Kədər can çıxınca doymaz əzabdan,
Sevinc bir gülüşdən tez doyar gedər.
Ağasən,tale də bu fələk kimi,
Gah iblis kimidir,gah mələk kimi.
Sevincin izi yox kəpənək kimi,
Kədər ac qurd kimi iz qoyar gedər. *09.09.2010.*

GECƏLƏR

Qara gözün çadra kimi göy örtər,
Sinəsini hey bağlayar,hey örtər.
Həm dərdini zəmi kimi göyərdər,
Həm dərd üstdən çəkər şumu gecələr.
Ulduz olur gecələrin duyğusu,
Gah yarımçıq,gah bütövdür yuxusu.
Ümidlərin ən nurlusu,doğrusu,
Şübhələrin ən məsumu gecələr.
Dərd üst-üstə qabaqlanır,dərd qalın,
Deyən yoxdur,dərdt satılır,dərd alın.
Qaranlığı yarıb keçən xəyalın,
Həm hakimi,həm məhkumu gecələr.
Narahatdır gözlərimdə qəhərim,
Ürəyimdə həsrət adlı gövhərim.
Arxa üzdə keşik çəkir şəhərim,
Gələ bilməz dərd hucumu gecələr.
Dərd yerdədir,ayağıma ilişmir,
Ümid göydə yuva salıb,o,düşmür.
Min illərdir səhər ilə görüşmür,
Gecələrin dərdi bumu,gecələr!? *07.09.2010.*

BƏNÖVŞƏ

Hamıdan gizlicə,hamıdan qabaq,
Müjdə paltarını geyir bənövşə.
O, bahar gətirir ellərə ancaq,

Həmişə xəbəri xeyir bənövşə.
Bənövşə gəlindir,kollar şahduvar,
Baharçün mübarək,bahrçün nübar,
Dünyada gülün də öz gül dərdi var,
Kim bilir ki,nə qəm yeyir bənövşə.
Böyründə-başında ot qucaq-qucaq,
Tikanlar başının üstündə sancaq.
Başını aşağı əyib utancaq,
Otlara nə isə deyir bənövşə.
Ayrıca aləmdir üstündə yarpaq,
Yurdu kol dibidir,əzizdir ancaq.
Bir barmaq ucaldıb boyunu torpaq,
Torpağa necə baş əyir bənövşə.
Ağasən,dindirmə lal bənövşəni,
Qışda da yadına sal bənövşəni.
Ələ misra-misra al bənövşəni,
Dünyada ən zərif şeir bənövşə! *04.09.2010*

İNSAN DÜNYASINI DƏYİŞMİR HEÇ VAXT

İnsan bədbəxt olsun,ya da ki,xoşbaxt,
Yaşamaq uğrunda döyüşür ancaq.
İnsan dünyasını dəyişmir heç vaxt,
Dünyada yerini dəyişir ancaq! *02.09.2010*

PAYIZIN NƏFƏSİ GƏLİR DEYƏSƏN

Daha öz köçünü yay yığışdırır,
Xəzanın nəfəsi gəlir deyəsən.
Payız budaqlara bar sığışdırır,
Dərdinin əvəzi gəlir deyəsən.
Əl vursan budağın çılpaq yerinə,
Sənə şax görünər budaq yerinə.
Yarpaqlar tökülür,yarpaq yerinə,
Leyləyin qəfəsi gəlir deyəsən.

Dünya hazır durub fikir çəkməyə,
Kaş quşlar inciyib,boyun bükməyə,
Buludlar səf çəkib leysan tökməyə,
Otların həvəsi gəlir deyəsən.
Uyub nadanların şər niyyətinə,
Gəc baxma payızın hər niyyətinə.
Yayın isti,qızmar şeriyyətinə,
Payız fəlsəfəsi gəlir deyəsən.
Hər şey sığınarkən qış mənzilinə,
Arzular ürəyin çıxır çölünə.
Qələmi almamış,şair dilinə,
Payızın nəğməsi gəlir deyəsən. *03.09.2010*

CANAVAR QAÇMAYA QUZU DALINCA

Arzu başqa-başqa,dərd başqa-başqa,
Kül düşür ocağın közü dalınca.
Bir buğda dənindən doyan qarışqa,
Qaçır gecə-gündüz ruzi dalınca.
Bir yurd dərdi varsa əgər yurdsuzun,
Varlının həsrəti ondan çox füzun.
İnsan yollar gedir ömründən uzun,
Tələsir çörəyi,duzu dalınca.
Gör hara ucalıb,enir bu dünya,
Min kərə od tutub, sönür bu dünya.
Həm günəş dalınca dönür bu dünya,
Həm də gecə-gündüz özü dalınca.
İnsan ömrü boyu tapır,itirir,
Düşünmür yolunu harda bitirir.
Dünya insanları bir-bir ötürür,
Həm də qalır elə gözü dalınca.
Hərə bir yol tapıb yolunca getsin,
Ürəyi sevinclə dolunca getsin.
Quzu anasının dalınca getsin,
Düşməsin canavar quzu dalınca. *03.09.2010*

QARANLIQ İŞIĞIN YARAŞIĞIDIR

Ayrıca xeyir yox,ayrıca şər yox,
Xeyir-şər min hissin qarışıdır.
Ümidsiz gecə yox,dərdsiz səhər yox,
Onlar iki rəngin barışığıdır.

Zəhərdə dərman var,tikanda nəşə,
Kolların içində bitir bənövşə.
Günəş yerə bənddir,yer də günəşə,
Biri gün, biri də yer aşiqidir.

Qaranlıq gecədə şirin yuxu var,
Yoxun varı olur,varın yoxu var.
Baharda süd kimi Ay işığı var,
Qışın yaraşığı qar işığıdır.

Hər yanan ürəkdə dərd kəhkaşanı.
Görmüşəm işıqda yolu çaşanı.
Əyri xətt ürəkçün həyat nişanı,
Düz xətt varla yoxun dolaşığıdır.

Doqquz ay zülmətdə qalıb,can olduq,
Qaranlıq pərdədə biz insan olduq.
Doğulduq,işıqda biz əyan olduq,
Gördük dünya haqqın var işığıdır.

Ağasən, heç demə gecə qaradır,
Xeyrin min adı var,şərin bir adı.
İşıq-qaranlığın cavahiratı,
Qaranlıq-işığın yaraşığıdır. *01.09.2010*

NƏLƏR ÇƏKİRƏM

Bu nə dərd yüküdür düşüb çiynimə,
Mən axşam çəkirəm,səhər çəkirəm.
Min bir fikir,xəyal düşür beynimə,
Elə bil havadan zəhər çəkirəm.

Ömür kimə zindan,kimə ziyafət,
Dərdə nə boy-buxun,dərdə nə qamət.
Hələ nə məşhərdir,nə də qiyamət,
Dünyada sağ ikən məşhər çəkirəm.

Ağasən,dostun qəm,düşmənin zaman,
Dərdlərin dərs olub,ömrün imtahan.
Nə ümid verələr,nə də ki,dərman,
Bircə bilərlər ki,nələr çəkirəm! *01.09.2010*

MƏN ÖLÜM HAQQINDA FİKİRLƏŞMİRƏM.

Nə qədər sağ əlim çatır dadıma,
Sol əlim haqqında düşünməmişəm.
Bu qədər yaxınkən nağd həyatıma,
Mən ölüm haqqında fikirləşmirəm. *01.09.2010*

ADAM VAR...

Adam var,ölüncə çalır-çarpaşır,
Ömrü beşcə gün də qopartmaq üçün.
Adam var dünyadan bərk-bərk yapışır,
Dünyadan daha çox qoparmaq üçün. *01.09.2010*

DÜNYA NEYNƏSİN

Ömrün əvvəli var,ömrünsonu var,
Bahar libası var,payız donu var.
Dünyanın öz yolu,öz qanunu var,
Kor qanun yazana dünya neynəsin?
Kim candan ağlayır,kim candan gülər,
Ürəkdən ağlayıb,gülənlər bilər.
Mizan-tərəzini əydi əyrilər,
Bu əyri mizana dünya neynəsin?!
İki üzü olur hər xeyrin,şərin,
Sehri var başına dolanan yerin.
Dünyanın hikməti dərindən dərin,
Onu tərs yozana dünya neynəsin.
Dinara satılıb din də pozuldu,
Gör haqqın dediyi hara yozuldu.

Atalar düz deyib:susmaq qızıldı,
Bəs yersiz susana dünya neynəsin?!
Ömrün bazarında vaxt satır bizi,
Toysuz-tamaşasız oynadır bizi.
Dövran qazan kimi qaynadır bizi,
Bu qaynar qazana dünya neynəsin?!
Dünya dərdi-sərin əhatəsində,
Yeyilir acgözün qurd mədəsində.
Dünyanın bu ağır,puç vədəsində,
Qudurub qızana dünya neynəsin.
Nəfsi dünya boyda şişib insanın,
Tamah düz yolunu eşib insanın.
Dünya ayağına düşüb insanın,
Naşükür insana dünya neynəsin?!
Ağasən,köksünə təzə dərd sızıb,
Yananlar soyuyub,donanlar qızıb.
İnsan vaxtı satıb,baxtı uduzub,
Baxtı uduzana dünya neynəsin?! *29.08.2010*

QALMAYIB

Könül,nə qalıb ki, daha bu bağda,
Şirin badam, püstə,iydə qalmayıb.
Meyin hərarəti qalır dodaqda,
Dodağın nəşəsi meydə qalmayıb.
Sazsız bir məclisin nə ləzzəti var,
Duyğusuz ürəklər başqa bir qubar.
Yaman qəribsəyib vallah,kaman,tar,
Neyin də sədası neydə qalmayıb.
Həsrət dəbdən düşüb,üzlər bozarıb,
Bülbül kol üstündə susub,sozalıb.
Yerlərin arzusu yerdən azalıb,
Göylərin ovsunu göydə qalmayıb.
Əyri dəbə düşüb,düz qurtarıbdır,
Güllü çəmənlikdən iz qurtarıbdır.
Elə bil ürəkdən söz qurtarıbdır,
Bişmişi bir yana çiy də qalmayıb.

Göz tamarzı qalıb güldə şuxluğa,
Dövran necə dözür bu soyuqluğa.
Nifrət etmək üçün belə yoxluğa,
Ağasən,ürəkdə hey də qalmayıb. *29.08.2010*

SƏN ZALIM, MƏN MƏZLUM.

Dünyanı zərrəcə dərk edəmmərəm,
Əbədi sualım olmasın,gülüm.
Sevgimin kökünü bərkidəmmərəm,
Mən məzlum,sən zalım olmasan gülüm. *26.08.2010*

ÜRƏYİMDƏ SEVGİ YARADAN KƏSİ

Sevgisiz bir ürəkdərd-qəm məhbəsi,
Sevgiylə ömrünü başa vur,könül.
Ürəyimdə sevgi yaradan kəsi,
Ürəyim sevməyə hazırdır,könül. *27.08.2010*

ÖMRÜN PAYIZINDA

Payızda dolsa da göylərin gözü,
Göylərin arzusu yerdə göyərir.
Ömrün payızında könül sevgisi,
Payız otu kimi bir də göyərir. *27.08.2010*

XATİRƏ

Xatirə elə bir xoş duyğudur ki,
Sevinci kədəri gərək tən olsun.
Qəlbimdə çırpınan arzum budur ki,
Bu şəkil ən şirin xatirən olsun. *26.08.2010*

EPİTAFİYA

Dünyada nə qoyduq,nəyi apardıq,
Verdik ömrümüzü havayı dərdə.
Bəsdir bu dünyada yaşadıq artıq,
Bir az da yaşayaq xatirələrdə. *26.08.2010*

ARZULAR

Dövran xoş gələndə kükrəyir-daşır,
Üzündə,gözündə gülür arzular.
Dövran pis keçəndə yol-iriz çaşır,
Hələ doğulmamış ölür arzular. *28.08.2010*

GÜLLƏR VƏ SEVGİLƏR

İşığı zülmətə gəlib çatmasa,
Ən uca dağlarda məşəl görünməz.
Hansısa sevgini xatırlamasa,
Ən gözəl çiçək gözəl görünməz. *28.08.2010*

SƏN ÖLDÜNSƏ

Allah sənin özündədir,ey insan,
Yerdən yapış,öz xalqına yaxın ol.
Sən öldünsə,Allahdan çox uzaqsan,
Sağlığında Allahına yaxın ol! *26.08.2010*

FƏRQİ VAR

Sən demə ki,bahar kimi gözəlsən,
Yenə mənim can evimi bəzərsən.
Mənə belə baxmaz idin əzəlsən,
Bu baxışın o baxışdan fərqi var.

Sən gözümə tale kimi baxardın,
Ürəyimdən çeşmə kimi axardın.
Sən yanğıma yağış kimi yağaqdın,
Bu yağışın o yağışdan fərqi var.
Gör nə qədər dərd başıma yığışdı,
Gəl bu dərdi ürəyimə sığışdır.
Taleyimdə bu da bir cür naxışdır,
Bu baxışın o naxışdan fərqi var.
Sən ötüşdün,mən də qaldım nagüman,
Yanılmışam bəlkə elə, ay aman?
Bir də belə yanılmışdım bir zaman,
Bu yalnışın o yalnışdan fərqi var. *30.08.2010*

ANA

Nadanlar bəlkə də məni qınayar,
Analar olmayayan ev bərbad qalıb.
Yad qızı deyiblər gəlin anaya,
Sonra doğmalara yenə yad qalıb.
Bir körpə quzunu bir qurd alanda,
Yağı düşmən gəlib biz yurd alanda.
Dünyanın başını bulud alanda,
Birinci analar narahat qalıb.
Quran vərəqidir açılan sinə,
O varkən ehtiyac varmı bir dinə?
Min nemət yesə də, ağzımız,yenə,
Anamın südündən ondan dad qalıb.
Ana ilahəni xatırladarmış,
Ölümün başını ana qatarmış.
Ananın canına gücü çatarmış,
Sevgisi önündə ölüm mat qalıb.
Ana bir günəşdir,sevgi haləsi,
Köksündə çağlayar dərd şələləsi.
Yeddi qat göylərə çatıb naləsi,
O gündən göylər də yeddi qat qalıb.
Dünyaya minlərlə qoç igid verib,
Analar dünyaya çox ümid verib.

“Bütöv bir bəşərə ana süd verib,,
Onunçün bu dünya salamat qalıb.
Bir göz qırpımıdır,ömür sürməsi,
Bir can məlhəmədir könül görməsi.
Günəşin cahana işıq verməsi,
Hansı anadansa amanat qalıb. *30.08.2010*

YOLUN YOLÇUSU OLMUŞAM

Bir zaman qurdlar içində,
Mən körpə quzu olmuşam.
Viranə yurdlar içində,
Dərdin ucuzu olmuşam.
Haçan ki,könlüm açılıb,
Bircə sevincə ac olub.
Ahım göylərə sancılıb,
Göyün ulduzu olmuşam.
Arzum,diləyim haq olub,
Bircə ümidim sağ olub.
Ömrüm dağ kimi dağılıb,
Mən ömrün tozu olmuşam.
Könlüm dedi,ötür yaşın,
Sevgiyə qarışıb başın.
Mən neçə dostun,sirdaşın,
Sözünün düzü olmuşam.
Bir elə vaxt gələcəkmi?
Xatirələr güləcəkmi?
Gedən yollar biləcəkmi?
Mən də yolçusu olmuşam. *01.09.2010*

SANİYƏNİ YAŞAYAYDIM GƏRƏK MƏN

Yaman peşimanam,peşimanam çox,
Könül,eşitmədim sən deyəni də.
Mən təkcə saatı,dəqiqəmi yox,
Gərək yaşayaydım saniyəni də! *01.09.2010*

NƏ ŞİRİN YUXUYA GETMİŞƏM GÜLÜM

Nə şirin yuxuya getmisən belə,
Oyan bu dünya da oyansın,gülüm!
Günəş də üfüqdə ləngiyir hələ,
Görsün camalını o yansın gülüm.
Sənsiz dilim üstə söz xırdalanır,
Arzum suya dönüb,yerə calanır.
Günəşin başına dünya dolanır,
O da baxıb sənə dayansın,gülüm.
Dərdinə-sərinə bir çəpərəm mən,
Həsrətin qoymur ki,bir dəbərəm mən.
Dünya inanmır ki,bəxtəvərəm mən.
Bir dön üzümə bax,dünya inansın! *30.09.2010*

YOXSUL NƏDƏN DOYUB?

Əlləşdi,vuruşdu,o,nə qazandı,
Ağrıdan-acıdan əsəbdən özgə.
Soyuqda üşüdü,istidə yandı,
Nə gördü acıqdan qəzəbdən özgə.
Nə çəkdi yağışdan,qardan,küləkdən,
Həmişə zərbəni aldı kürəkdən.
Yoxsulun nəyi var,təmiz ürəkdən,
Səbrdən, əsildən-nəsəbdən özgə.
Fikri göydə oldu,yerdə süründü,
Xeyir iş olanda başda göründü.
Əridi fikirdən bir sapa döndü,
Dayağı nə oldu bu sapdan özgə.
Yoxsul dövran üçün oyun-oyuncaq,
Ancaq balasını öpdü doyunca.
Yoxsul nədən doydu ömrü boyunca,
Fikirdən,xəyaldan, əzabdan özgə?! *21.09.2010*

ALDANIR

Dünya qovhaqovdu,dünya qaça-qaç,
Qaçan tələssə də qovan aldanır.
Meşədə yarışır palıd,qarağac,
Qoca şax dayanır,cavan aldanır.

Min yalan qurulur bir sübut üçün,
Doğma yurd satılır təzə yurd üçün.
Çoban tələ qurur çöldə qurd üçün,
Qurd aşır tələni,çoban aldanar.

Demə ki,nəfəsdir odu közərdən,
Odun öz həvəsi qaçır nəzərdən.
Bu dünya beləcə gəlib əzəldən,
Biclik işlədənlər asan aldanır.

İştah qamarlayıb,qapır dünyanı,
Çoxları nəfsində tapır dünyanı.
İnsan qazanc üçün çapır dünyanı,
Dünya yenə durur,insan aldanır.

İnsanı yaşadan oddur,ocaqdır,
Od yoxsa,o, kimi yandıracaqdır.
Bəlkə o dünyada şeytan qoçaqdır,
Amma bu dünyada şeytan aldanır.

Nadan özünə tay nadan axtarır,
Kimsəsiz,əlindən tutan axtarır.
Çoxları döyüşçün meydan axtarır,
Darda qaçıb gedir,meydan aldanır.

Din pula satılıb,and kiçilində,
Gərək həqiqətə and içə bəndə.
Hər dəfə vicdana and içiləndə,
Yalan ayaq tutur,vicdan aldanır! *28.08.2010*

YERDƏ GEDƏNDƏN İZ QALAR

Düz ozü haqdır,bilsələr,
Bilib,insafa gəlsələr.
Düzü yüz yerə bölsələr,
Kəsikləri də düz qalar.

Qəm güc gələndə gülməyək,
Əyilənə əyilməyək.
Külü gəzərsiz bilməyək,
Külün altında köz qalar.
Çaylar daşdısa durulmaz,
Hər şeydən bəndi qırılmaz.
Gözlər hər gözə vurulmaz,
Ağıllı gözdə göz qalar.
Qoca dünyaya gələli,
Görmüşəm,yuyub əl-əli.
Ağıllı olsun,ya dəli,
Hər ağızdan bir söz qalar.
Sevə bilmirəm dənizi,
Yoxdur iz üçün bir üzü.
Göydə gedənin nə izi,
Yerlə gedəndən iz qalar.
Hələ dilimdən ün gələr,
Dünya yoluma yön gələr.
Zərrəyəm,ancaq gün gələr,
Dünya bu zərrəsiz qalar! *21.08.2010*

NƏ TƏLƏSDİRİR?

Dağların leysanı dağlarda qalmır,
Çaylara selləri nə tələsdirir?
Aranın canından yanğı azalmır,
Yaylağa yelləri nə tələsdirir?
Çölün ki,bir könül yıxanı yoxdur,
Dərə var,bir girib-çıxanı yoxdur.
Kolluğda güllər var,baxanı yoxdur,
Baxımsız gülləri nə tələsdirir?
Bir sirdaş axtarır düşgün könüllər,
Sıxılır dumanlı,çiskin könüllər.
Sevgiyə can atır küsgün könüllər,
Küsgün könülləri nə tələsdirir?
Əldə donub qalır şair qələmi,
Hər duyan ürəyin dərdi beləmi?

Hönkürüb ağlayır“ Yanıq Kərəmi,,
Bəmləri,zilləri nə tələsdirir.
Bu çən bahardakı duman-çən deyil,
Saz dərdə dil verir,dərd kəsən deyil.
Dərman ki,dərd üçün tələsən deyil,
Sazdakı telləri nə tələsdirir?
Ağasən, çox gördün gəli-gedəni,
De haçan görmüsən dərdə yetəni.
İllər tələsdirir bu qədər səni,
Bəs görən illəri nə tələsdirir?! *03.09.2010*

KİMDƏN SORUŞUM

Doğma kəndə getdim dərə-təpədən,
O köhnə yolları kimdən soruşum.
Yovşan ətri oldu məni tərpədən,
Yovşanlı kolları kimdən soruşum,
Hər təsəlli ilə yara sağalmır,
Heç kəs fikrə gedib,xəyala dalmır.
Ahıllar cahilin yadında qalmır,
Gedən ahılları kimdən soruşum.
Bu yurd dərlər görüb,dərdə qatlaşıb,
Bağlara uzanan yol bərbadlaşıb.
Oğullar torpağa,yurda yaddaşıb,
Doğma oğulları kimdən soruşum?
Yerdən dərd göyərir,göydən şər yağır,
Hər əsən küləkdən bir xətər yağır.
Təzə nağıllardan dərdi-sər yağır,
Köhnə nağılları kimdən soruşum? *03.09.2010.*

YADIMDA QALMIR

Mənasız günləri salma yadıma,
Mənasız sorğular yadımda qalmır.
Daha qorxu salma xatiratıma,
Sevgisiz qorxular yadımda qalmır.

Ayrıca dərdi var tarda simin də,
Düşər-düşməzi var gələn qəmin də.
Min cür vurğusu var ürəyimin də,
Ahəstə vurğusu yadımda qalmır.
Könlümü aldadıb,yola gətirmə,
Suallar içində məni itirmə.
Məni dilə tutub yuxuma girmə,
Yalançı yuxular yadımda qalmır. *03.09.2010*

BİLƏN YOX

Kölgəli söyüdə sən barsız demə,
Qiyməti insafla hələ bölən yox.
Hər bərkdən gülənə gəl arsız demə,
Sən hardan bilirsən dərddən gülən yox.
Dünyadan doymayan xülya uydurub,
Gözə görünməyən dünya uydurub.
Kimi nağd acıdıb,nisyə doydurub,
Axı o dünyaya gedib-gələn yox.
İnsanda həm arzu,həm iştaha çox,
Əcəl canımızı almaz baha çox.
Ölüm istəyənin eşqi daha çox,
Candan öz canını verib ölən yox.
Udmuşam nə qədər qəm-kədər desən,
Dəyibdir könlümə nə xətər desən.
Göz yaşımı görən nə qədər desən,
Gözümün yaşını candan silən yox!
Biz gedən yolların sonu görünmür,
Qəlbin axıracan işığı sönmür.
Ağasən,bir ağır kitabdır ömür,
Neçə səhifədir hələ bilən yox!! *05.09.2010*

OLMAZ

Dağlarda yaz-payız duman,çən olsa,
Başda çiskin olar,daşda çat olmaz.
Bir evin binası mehrdən olsa,
Samandan tikilsə,ev bərbad olmaz.
Gün sönər,yaxşılar tezbazar olsa,
Yamanlar çaş qalar dərd-azar olsa.
Arada dağ boyda daş hasar olsa,
Mehr daşdan sızar qohum yad olmaz.
Ucaya əl atan ucalır yenə,
Yolu hara dartsan qısalır yenə.
Özün qazandığın ad qalır yenə,
Beşikdə qoyulan addan ad olmaz.
Dərd sözə kar etməz dərdiməndbilən,
Əridər,inanıb daşı qənd bilən.
Şahmat meydandır dünya,fənd bilən,
Bir qurban verməklə udar,mat olmaz.
Qəlbə sevmə demək zülüm deməkdir,
Yanmayan ocağım külüm deməkdir.
Ürəyin susmağı ölüm deməkdir,
Ürək ömür boyu farağat olmaz.
Ağasən,inanma nadan pir olsa,
Cahilin göz yaşı dönüb Kür olsa.
Hamıda dil ilə ürək bir olsa,
Dünya da fırlanıb,narahat olmaz! *05.09.2010*

BU DÜNYA DÜZƏLSƏ...

Böyük şairimiz Hüseyn Arifə.

Düzəltdik bulağın yan-yörəsini,
Yenə su bulandı gözü tərəfdən.
Tutduq daşan çayın bənd-bərəsini,
Su basdı dərənin üzü tərəfdən.
Xəstə dad eylədi,aman eylədi,
Hərə bir çarəni düman eylədi.
Həkim ayağına dərman eylədi,
Xəstə gileyləndi dizi tərəfdən.

Görmədik dövranın etibarını,
Tökdü canımıza qəm-qubarını.
Usta üç qat çəkdi öz divarını,
Divarı deşildi özü tərəfdən.
Cahilik,əmrimiz göydən düşsə də,
Oğru əyri yoldan qaçmaz,ölsə də.
Bu dünya düzəlməz,lap düzəlsə də,
"Əyrisi,, qalacaq bizi tərəfdən! *05.09.2010*

ƏLİ BOŞ

Payız paltarını soyunar tamam,
Çılpaq bədənindən gəlib qış köçər.
Qışın sərt üzündən bağlanar yaxam,
Bahar gülə-gülə üzü xoş köçər.
Güllükdən,kolluğa qovşan bülbülü,
Yenə kol üstündə açılar dili.
Torpağa tökülər ocağın külü,
Tüstüsü dolanıb,göyə tuş köçər.
Quş var,ömrü boyu uçur nigaran,
Quş var ki,onunçun birdir dağ,aran.
"Quşlar köçüb gedir,, demə heç zaman,
Düşün hansı qalar,hansı quş köçər.
Ağasən,son sözüm,qərarım budur,
İnsan haq axtarıb,haqqı unudur,
Yurddan yurda köçən ağır yük tutur,
Dünyadan dünyaya insan boş köçər. *07.09.2010*

ÖMÜR YÜZ YAŞDA DA YARIMÇIQ OLUR.

Fikrin,xəyalın da öz yolları var,
Gah tikanlı olur,gah açıq olur.
Duman da gətirir bəzən ilk bahar,
Payızın dumanı daha sıx olur.

Günlər var mənalı,günlər var hədər,
Dərdi-sər gətirir il ildən betər.
Nə təmiz sevinc var,nə təmiz kədər,
Sevinc də,kədər də qarışıq olur.
Dövran zəhər dadır,arzu ballanır,
Hər kiprik ucundan bir dərd sallanır.
İpək gendə qalır,daş sığallanır,
Arsızın taleyi daha şux olur.
Haqqın nisyəsi var,ta nağdı olmur,
Yoxsula baxmağa heç vaxtı olmur.
Kasıbın heç dürüst bir baxtı olmur,
Qapı düz olanda,dam uçuq olur.
Varın da bir cürə məlaməti var,
Gözə görünməyən əlaməti var.
Yoxun da özünün kəraməti var,
Baxma ki,varlının varı çox olur.
Adam var,ömürlük yuxu içində,
Azı üzündədir,çoxu içində.
Varlının sevinci qorxu içində,
Yoxsulun sevinci gur işıq olur.
Bahara könül ver,öyrəş xəzana,
İnanma hər qəliz yuxu yozana.
Ruzidir,həyatdır sünbül insana,
Onun da üstündə yüz qılçıq olur.
Ömür yollarında bitən çayıram,
Ayı yola salıb günü sayıram.
Sənə bütöv sevinc arzulayıram,
Ömür yüz yaşda da yarımçıq. *21.07.2008*

CAN AĞRIYANDA

Bəzənib dörd yandan çöl-çəmən baxır,
Qızıl gül alışır,yasəmən baxır.
İnsan baxdığına təzədən baxır,
Can ağrıyanda!

Dilindən çıxan söz kəsərli olmur,
Göydən sual yağır,yol bəlli olmur.
Gözəllik də sənə təsəlli olmur,
Can ağrıyanda!
Sənə əl tutanın minnəti artır,
Dərd üstün gəldikcə şöhrəti artır.
Elə bil canın da qiyməti artır,
Can ağrıyanda!
Buludlar ardından gah gün görünür,
Yuxular gah yalnış,gah çin görünür.
Təkcə sevgi candan şirin görünür,
Can ağrıyanda! *14.06.2010*

HEYRƏT,EY BÜT

Heyrət,ey büt : dedi qoca Fizuli,
Bir bütə əyildi uca Fizuli.
Mayası eşqdir bəlkə dinin də,
Çəkdi insanları bərkə dünyada.
Heyrət olmasaydı gözəl önündə,
Din də yaranmazdı bəlkə dünyada.
Sevgi bir dövrantək başa vurulsa,
Torpaq da alışar,su da alışar.
Sevgi bir od olub daşa vurulsa,
Daş da dilə gələr,daş da danışar.
Sevgisiz ağırdır bir ömrün yükü,
İnsan sevgi ilə düşündü,qandı .
İnsan gözəlliyə heyrətləndi ki,
Dünyada müqəddəs din də yarandı.
Allah hər sevgiyə gözəllik qatır,
Bu eşqin ucundan mən belə məstəm.
Sən bütsən! Səni də allah yaradıb,
Günahım nədir ki, mən büdpərəstəm!? *03.06.2010*

TALEYİN OYUNLARI

Mənə şox deyirlər,yaxşı gəl tanı,
Ayaqdan çəkəni,əldən tutanı.
Neynim ki,sinəmdə dərdin kotanı,
Bir də dərd əkməkçün təzə şum eylər.
Yarımçıq sevincin sonu dərd olar,
Şaxtada-sazaqda gül də sərt olar.
Baxt tərsə gələndə çoxu mərd olar,
Bir anda bir dağı söküb qum eylər.
Çəməndə çiçək var,daşdan güclüdür,
Bahar, nəfəsilə qışdan güclüdür.
Ürəyin ağlı var,başdan güclüdür,
Naməlum olanı o məlum eylər.
Daşın da üstündə çiçək bitirər,
Yoxu var eyləyər,varı itirər.
Bir tumdan bir nəhəng palıd yetirər,
Palıdı endirib bir tum eyləyər.
Düşsə də zəhərə də şirin dad verər,
Bir gülün rənginə min bir ad verər.
Tale sənə bir pay istedad verər,
Sonra neçə paydan məhrum eyləyər! *19.06.2010*

HƏR İNSAN ÖMRÜNÜN BİR ƏFSANƏSİ

Nə illər bənzəyir biri-birinə,
Nə aylar,nə günlər,nə də saatlar.
Heç nə də heç nəyin gəlmir yerinə,
Oxşarın oxşardan min cür fərqi var.
Çəkdiyim hər ahın öz hərarəti,
Hər bir göz yaşının öz tərkibi var.
Hər sözün öz hüsnü,öz məlahəti,
Hər quru budağın öz çör-çöpü var.
Olub-keçənlərin yoxdur çarəsi,
Olacağın da öz bəhanəsi var.
Hər insan ömrünün bir macərası,
Hər qəlbin ayrıca əfsanəsi var.

Həyatdan küsməyək hər addım başı,
Demə həyat üzü qara gəlibdir.
Ölümdən uzundur həyatın yaşı,
Ölümlər həyatdan sonra gəlibdir. *24.06.2010*

ÇATMIR

Daha ocaqların odu itibdir,
Ellərin sən görən obası çatmır.
Bülbülün vətəni,yurdu itibdir,
Kol üstündə qalıb,yuvası çatmır.
Viranə damlarda bayquş çütləşib,
Kobud daşa dəyib,söz də kütləşib.
Fikir kasadlaşıb,fikir lütləşib,
Əzəlki al-əlvan libası çatmır.
Bal üçün gül-çiçək tapmır arılar,
Baxsam bağ-baxçaya bağrın yarılar.
O tayda,bu tayda uca barılar,
Arada qızıl gül topası çatmır.
Gəl,de bu dövranın nəyi tarazdır,
Kimlərin kefi kök,əhvalı sazdır.
Nə payız o payız,nə yaz o yazdır,
Qışın xumar verən sobası çatmır.
Elə bil dəyişib əhdini göylər,
Ağacsız qalıbdır indi quzeylər.
Dünənki Allahsız mollalıq eylər,
Bircə əmmaməsi,əbası çatmır.
Sən demə dəyişib,yamandı dünya,
Yenə könüllər də gümana dünya.
Vallah yenə haman-hamandı dünya,
Təkcə insanların vəfası yoxdur.
Ədalət,məni də yadına sal bir,
Sazı bas sinəmə könlümü al bir.
Gəl " Yanıq Kərəmi,,havası çal bir,
İnsan lap boğulur,havası çatmır. *06.06.2010*

DÜŞMÜŞƏM

Bu dağ çayı,bu göy meşə,bu dərə,
Dərə boyu boz dumana düşmüşəm.
Girdimanda bir ilahi mənzərə,
Torpaq çəkib,Girdimana düşmüşəm!
Burda dərdi dərd də bilmək günahdır,
Burda gözdən yaşı silmək günahdır.
Vallah qardaş,burda ölmək günahdır,
Onun üçün and-amana düşmüşəm.
Bulaq suyu çay suyuna calanır,
Burda güllər öz-özünə sulanır.
Heç bilmirəm könlüm harda dolanır,
O bir yana,mən bir yana düşmüşəm.
Dağlar durub öz taxtına xan kimi,
Can nə gərək,güllər özü can kimi.
Yaşıl dağlar tutur məni qan kimi,
Heç bilmirəm haçan qana düşmüşəm.
Bu yerlərin gözəllikdən gözü tox,
Kim deyir ki, gözəlliyin dərdi yox.
Gözəlliyin sevincindən dərdi çox,
Bu xəyala yana-yana düşmüşəm!
Gözəlliyi duyan ürək gen gərək,
Fizulinin ürəyinə tən gərək.
Kaş o vaxtlar doğulaydım mən gərək,
Hayıf gəlib bu zamana düşmüşəm! *22.09.2011*

NƏ XEYRİ ?

Sevinmə ki,qar-sazaqlı qış keçib,
Neçə ilin,neçə günün boş keçib.
Saç ağarıb,ömür keçib,yaş keçib,
Saçındakı teli qoru,nə xeyri.
Boş arzudan,qardaş,haçan kar aşıb?
Sən qaçdığın gündər sənə yaraşıb.
Sarmaşıqlar gül boynuna sarmaşıb,
Bundan sonra gülü qoru,nə xeyri?
Haçan sənə gözlədiyin pay düşüb?
Hələ yazı yaşamamış yay düşüb.

İçərində tufan qopub,vay düşüb,
Haray salıb, çölü qoru,nə xeyri?
Bir niyyəti hey vird eylə dilində,
Qaragünsən para yoxsa əlində.
Bir dövranın şələsi var belində,
Yastıq qoyub beli qoru,nə xeyri?
Haqqımızı görməmişik yaxından,
Damla olub,ayrılmışıq axından.
Ah çəkmisən,ocaq sönüb ahından,
Ocaqdakı gülü qoru,nə xeyri! *2011*

DOST AĞACLARIM

Yaxşı şahidsiniz,dost ağaclarım,
Gör necə ağardı qara saçlarım?!
Əzəldən mehrimi salmışam sizə,
Bir yol deməmişəm mən sizə cansız.
Məmimlə duranda dərdim göz-gözə,
Həmsöhbət olmuşuq dilsiz-filansız.
Bayırda bir güclü tufan əsəndə,
Çəkib dərdinizi,lap donmuşam mən.
Hərdən açıqlanıb,evdən küsəndə,
Doğma gövdənizə sığınmışam mən.
İnsan saç ağardır yaşa dolanda,
Sizinsə həmişə saçınız yaşıl,
Saçımız ağarır biz qocalanda,
Sizəsə ömürlük yaşıl yaraşır.
Budağınız ilə mən ucalıram,
Boydan qalsam belə mən həmən-həmən.
Ağaca ki,belə mehr salıram,
Mehr salmamışam bir insana mən.
Qəlbimə bir həsrət,qəm yeriyir ki,
Dolanıb tərsinə dəyişir zaman.
Hərdən dəli inam mənə deyir ki,
Haçansa ağacdan yaranıb insan.
Ötüşür qəlbimdə min arzu dil-dil,
Beşdimi,ondumu qəlbin sualı?

Çiynimə düşəndə yarpaq,elə bil,
Çəkilir başıma ana sığalı.
Nə dərdiniz olsa,mən ortağınız,
Hələ gözünüzdə duran haqq mənəm.
Bir can torpağıdır,hər yarpağınız,
Sabah da sizinçün bir yarpaq mənəm! *10.09.2011*

HƏR GECƏNİN SƏHƏRİ VAR

Hər gecənin bir səhəri var,gülüm,
Hər qəlbin də öz səhəri ayrıca!
Hansı səhər şad gələcək,nə bilim,
Öz sevinci,öz qəhəri ayrıca.
Söyüdlə nar dayanıb bir cərgədə,
Söyüd bizə mehr salır kölgədə.
Biz söyüdə kəm baxırıq,bəlkə də,
Söyüdün bar-bəhəri var ayrıca.
Can nə gündə,arzuları nə gündə,
Çaşan çaşır ha düz yolda,ha tində.
Ən dözümsüz ürəyin də çətində,
Dərdə dözən təpəri var ayrıca.
Seyr edən çox dağı-daşı,qayanı,
Az görmüşəm gördüyünü dünyanı.
Gözsüz qalıb,görməsən də dünyanı,
Duyğuların xəbəri var ayrıca.
Könül yoxdur nə qohumda,nə yadda .
Bir dad verir tər çörək də,boyat da.
Bir naxışda tale yoxdur həyatda,
Hər taleyin qədəri var ayrıca! *10.09.2011*

QUŞLAR ÖZ VAXTINDA OXUMALIDIR.

Bahara az qalıb,bayırda şaxta,
Quşlar haray salıb quru budaqda.
Bahar gəlir deyə quşlar oxuyur,
Şaxtanın içində nəğməli quşlar.

Baharın ətrini bəs hardan duyur?
Hardasa gizlənən bahardan duyur.
Yazın nəfəsini şaxtada duymaq,
Şaxtanın içində baharda uymaq.
Təkcə bu quşlara vergidir bəlkə?
Bu dil ünsiyyətin ilkidi bəlkə?
Kainatın əzəl dərkidi,bəlkə,
Dünyada hər şeyin öz dili vardır,
Sevinci,həsrəti,nisgili vardır.
Həyatda yerini bərkitmək üçün,
Bir sevgi,bir ürək,könül bəs etmir.
Həyatı,dünyanı dərk etmək üçün,
Bir cüt göz bəs etmir,bir dil bəs etmir.
Bir fikri çəkməyə çatışmır gücün,
Bir qəlbi duymağa bir el bəs etməz.
Bir toz zərrəsindən baş açmaq üçün,
Bir insan oğluna min il bəs etməz.
Bir insan ömründə nə qədər təzad,
Hissimiz kasaddır,hissimiz kasad! *13.03.2012*

ÖMÜR-GÜN

Daha yarpaq tez saralır,
Adamsız yollar daralır.
Saç ağarır,gün qaralır,
Baxt üzünə bozaranda.
Dərdi kim kimlə bölüşsün,
Dağda qalan necə düşsün.
Sevənlər necə görüşsün,
Oğlan dağda,qız aranda.
Gözlərin işığı sönüb,
Şax budaqlar yerə enib.
Bu dünya tərsinə dönüb,
Bahar dağda,buz aranda.
Bax yerində düz durana,
Sənə ürək qızdırana.
Nə veriblər tez durana,

Qalxsan da gün qızaranda.
Hər sözə baş qoşmayanlar,
Dünyaya sığışmayanlar.
Boz dumanda çaşmayanlar,
Çaşır yaman güzaranda.
Ağasən,həm gül,həm ağla,
Sevənə könlünü bağla.
Həmişə həddini saxla,
Ürəyinlə öz aranda! *13.03.2012*

YAXŞIDIR

Palaz üstdə salınıbdır yatağım,
Deməmişəm xalı-xalça yaxşıdır.
Alça üçün tamsınırsa dodağım,
Şirin baldan bir turş alça yaxşıdır.
Hər xəyalı yığammıram beynimə,
Hər şələni alammıram çiynimə.
Gen gəlsə də,tən gəlsə də əynimə,
Baha maldan bir bez parça yaxşıdır.
Yad yerdə də yaddaşında qalırsa,
Xatirə tək ürəyinə dolursa.
El yoluna əgər kölgə salırsa,
Vecsiz bağdan bir mındarça yaxşıdır. *26.02.2012*

BİRCƏ-BİRCƏ

Bir gün yolunu çaş,gir ürəyimə,
Özün dərdlərimi gör bircə-bircə.
Gör nə tufan gəlib pir ürəyimə,
Dərdin cavabını ver bircə-bircə.
Bu dərdlər içində bir gün tab elə,
Keçir ömür adlı karvan,qafilə.
Susuram,sən özün bir insaf elə,
Dərdin qanadını gər bircə-bircə.

Dərd açıb ağzını zanbaqlar kimi,
Dözürəm bu dərdə mən dağlar kimi.
Arzum həşəm olub yarpaqlar kimi,
Çək sinəm üstünə sən bircə-bircə.

Saçından üzünə yaraşıq düşüb,
Elə bil gül üstə sarmaşıq düşüb.
Dərdlər ürəyimdə çalpaşıq düşüb,
Gəl tap hərəsiyçün yer bircə-bircə.

Sevgidən aldığım ilham ömürdür,
Al gündüz ömürdür,axşam ömürdür.
Mənim hər bir arzum bir tam ömürdür,
Al bu ömürləri sür bircə-bircə.

Sən mənim ümidim,sən könül yarım,
Sən mənim əbədi ömrüm-güzarım.
Qoy bah-bəhrə versin gül arzularım,
Ozün meyvəsinin dər bircə-bircə. *12.03.2012*

TALEDƏN QORXURAM

Baxt mənə soyuqdur,min il var olsam,
Bəlkə tale üçün soyuq buzam mən.
Qanundan qorxardım,günahkar olsam,
Taledən qorxuram,günahsızam mən. *24.02.2012*

SEVƏNLƏRİN DİLİ

Eşqi məktublara yazan az olmaz,
Sevgi odda olur,sal buzda olmur.
Kağıza yazılan qəlbə yazılmaz,
Sevgi ürəkdədir,kağızda olmur.

Şehli bənövşənin əzizdi xətri,
Hər əldə bilinməz qiyməti,qədri.
Torpağın ətridir yarpızın ətri,
Bu məstanə ətir yarpızda olmur.

Kim sevər baxışı küt olanları,
Özü də gözündə büt olanları.

Tək adam düşünsə cüt olanları,
O,tənha da olmaz,yalqız da olmaz.
Ağasən,qəm yemə qocaldım deyə,
Budaqlar həmişə ucalmaz göyə.
Ömrün payızı var bəhrə verməyə,
Yaz,yay ötüşməsə payız da olmaz! *26.02.2012*

DÜNYA YA YALANDIR,YA DA Kİ, QORXU.

Bu dünya ya yalan,ya da qorxudur,
Həqiqət onların arasındadır.
Ömür gah gerçəkdir,gah da yuxudur,
Bir ömrün ağı da qarasındadır.
Ümid yol açandır,dərd də yol kəsən,
Təkcə şad günündə bilməzsən nəsən.
İllər sıralanır,hardan biləsən,
Xoşbəxtlik hansının sırasındadır.
Çox vaxtım var deyə,güvənmə vaxta,
Baxt səndən daldadır,ya da qabaqda.
Sevinc də,kədər də,ümid də,baxt da,
Qəfil təsadüfün qırasındadır!
Təzə arzularla könül süslənir,
Min dərd içində də can əzizlənir.
Baxt ya ölüb gedir,ya da gizlənir,
Bilməzsən ömrünün harasındadır.
Daha qalmasa da canında taqət,
Elə bil adətdir sabaha həsrət.
"Sonra,, "sonra ,, dedik,guya səadət,
Günlərin,ayların sonrasındadır. *11.02.2012*

GÖZƏL GÖRÜNÜR

Ətirli saçına qonanda könlüm,
Söz gəlir ilhama,gözəl görünür.
Bənövşəni sənə oxşadıb,gülüm,
Taxanda yaxama,gözəl görünür.

Yazın nəfəsidir tər bənövşələr,
Yenə bir dən atsan,biri beş elər.
Gündüzlərə günəş,dağlar,meşələr,
Ulduzlar axşama gözəl görünür.
Könül gah şad olur,gah düyün-düyün,
Bir gün başqa rəngdir,dünən gördüyün.
Yazda da,yayda da gah günəşli gün,
Gah buludlu səma gözəl görünür.
Qalxasan yuxudan gün qızaranda,
Gör bir nə aləm var dağda-aranda.
Yer,göy yaşamağa çağıran anda,
Ölüm də adama gözəl görünür. *11.02.2012*

MÖCÜZƏYƏ İNANDIM

Qış ömrümü eşqin bahar eylədi,
Sənə tanrı deyə-deyə inandım.
Gül üzün ki,məni zəvvar eylədi,
Mən pir deyib gül-çiçəyə inandım.
İndi gördüm dilindən bal daşanı,
Kim yetirib bu pətəyi,bu şanı.
Ayağın yer,başın da göy nişanı,
Səcdə qılıb yerə-göyə inandım.
Gözəlliyə səcdə qılan yox indi,
Gül üzündə min bir ayə oxundu.
Ayağın ki,hansı daşa toxundu,
Mən pir bilib daş-kəsəyə inandım.
Qəlbimizdə bir işıqlı ev ki,var,
Ruhumuzda məhəbbətin kökü var.
Yananda nur,nur saçanda sevgi var,
İşıq saçan bir böcəyə inanadım.
Sən demə ki,belimizi yaş əyər,
Təmiz sevgi daş sındırar,daş əyər.
Ulduzlar ki,gecələrə baş əyər,
Sevda dolu hər gecəyə inandım.
Daha sənsən övliyam da,pirim də,

Eşq odudur ta ölüm də,dirim də.
Bir baxışdan dondum qaldım yerimdə,
Bundan sonra möcüzəyə inandım.
İşıq kimi sən yayıldın ömrümə,
Elə bil ki,mizrab dəydi bir simə.
Nurun yetdi görünməyən könlümə,
Könlümdəki bər-bəzəyə inandım.
Deyirlər ki,dünya sözdən yaranıb,
İşıq iki qara gözdən yaranıb.
Tanrı özü eşqimizdən yaranıb,
İndi bil ki,haqqa niyə inandım. *25.03.2012*

GÖRƏN NEÇƏ ARZU QALIB.

Axşam qubar,səhər qubar,
Qəmdən hörülüb daş-divar.
Göz yaşından özgə nə var,
Dərdimi faş eyləməyə?
Yanmaq xata,sönmək xata,
Nə qazansan gedir bada.
Nə var bu qəmli dünyada,
Qəmi sirdaş eyləməyə.
Gəl soruşma ömrün hanı?
Ömür sürməyə yön hanı?
Dar gün çoxdur,ağ gün hanı?
Ömrü şabaş eyləməyə.
Dərdi kimə deyim,kimə?
Kimə desəm,batır qəmə.
Söz yığılır ürəyimə,
Qəlbimi daş eyləməyə.
Dənim qurtarıb,şum qalıb,
Dəniz çəkilib qum qalıb.
Görən neçə arzum qalıb,
Ömrümü baş eyləməyə! *08.02.2012*

HEÇ BİLMİRƏM CƏZAM NƏDİR?

Kölgələr düşür qəlbimə,
Yoxsa oyanan şam nədir.
Elə dərddəyəm,bilmirəm,
Gündüz nədir,axşam nədir.
Hərə eşqi bir cür sayıb,
Sevgisindən yarımayıb.
Sevgi hələ tanınmayıb,
Ağıllı nədir xam nədir.
Sevməyə Leylin yoxdusa,
Yanmaqda xeyrin yoxdusa,
Şəraba meylin yoxdusa,
Əldə tutduğun şam nədir.
Bir aşınmış dağ olmuşam,
Bir gülə müştaq olmuşam.
Ölümə dustaq olmuşam,
Bilmirəm heç cəzam nədir? *08.02.2012*

QOCA AĞACIN DA KÖZÜ YANDIRAR

Demə dal budaqda bülbül sozalır,
Ürək öz odunu özü yandırır.
Demə qocalmışam,odum azalır,
Qoca ağacından közü yandırır.
Gah bahar,gah payız keçirir bədən,
Dərdi-sər əlində can zədən-zədən.
Yayın qızmarında Günəş zirvədən,
Dərəni yandırar,düzü yandırar.
Yollar dolanırıq dağlı,qayalı,
Çiçəklər görürük rəngli,boyalı.
Ürəkdə, sevdiyin qızın xəyalı,
Yolda ayağının izi görünür.
Demə qığılcımdan düşən nə oddur,
Od çöldə yanırsa,o yenə oddur.
Demə bu təzə od,bu köhnə oddur,
Köhnə də,təzə də bizi yandırır! *09.02.2012.*

FİKİR VAR

Fikir var,hər günə bir qiymət verir,
Fikir var ömürlük qınaq,ithiham.
Fikir var,ürəyə zər-ziynət verir,
Fikir var ürəyi boşaldır tamam.
Haray can odundan peyda olsa da,
Hər bağırtı səsi nida olmayıb.
Hər mədəyə gedən qida olsa da,
Hər ürəyə gedən qida olmayıb? *09.02.2012*

AY ANA

Bir gül idin şeh üstdə sən,ay ana,
Uçub getdin meh üstdə sən,ay ana.
İndi çoxdan behiştsən,ay ana,
Mənim ora gəlməyimə izin yox!
Qəbrin yanar,necə qıyım,ağlayım?
Mən yanmaqdan necə doyum,ağlayım?
Mən başımı hara qoyum ağlayım?
Baş qoymağa o qucağın,dizin yox.
Ötən günə sözüm çoxdur,dayanmır,
Baxt özü də heç vaxtında oyanmır.
Könlüm acdır,xatirəndən doyanmır,
Surətin var,xatirən var,özün yox!
Tüstüləndin,yandın özün içində,
Ömür sürdün odun,közün içində.
Eşitdiyim min-min sözün içində,
Axtarıram,bircə sənin sözün yox!
Dolub qalıb hələ gözüm dünyada,
Deyilməyib hələ sözüm dünyada.
Yaman üzlər görür üzüm dünyada.
Bu dünyada təkcə sənin izin yox.
Düşdüm dövrün dumanına,ay ana.
Gəlləm haqqın divanına,ay ana.
Necə gəlim mən yanına,ay ana,
Görüşməyə hələ haqdan izin yox.

Mən zər olub,qızıl qumdan çıxıram,
Dən bağlayıb,daha şumdan çıxıram.
Vaxt yetişir,öz yolumdan çıxıram.
Heç üstümdə nəzarətin,gözün yox! *21.06.99*

İNSAN QƏRİBƏDİR

Dünya bir yanadır,insan bir yana,
Min-min yol dolaşır,ömrü bitincə.
Dünyanın,həyatın qanunlarına,
İnsan müxalifdir qəbrə gedincə!
Bu dünya bir ömür imtahanıdır,
İnsan girov qoyur,canı dünyada.
Əzəldən bilir ki,dünya fanidir,
Gör nələr yaradır fani dünyada.
Başa-baş ibrətdir dünya nədirsə,
Hər kiçik zərrənin yüz mənası var.
Dünyanın hökmünə biganədirsə,
Demək hər insanın öz dünyası var!
Bir arzu yolunda alışır,yanır,
Amma bəs deyincə alışa bilmir.
Dünyadan güclüdür insanın hökmü,
Qışdan bahar umur,bahardan da qış.
Gedir təəssüflə bir ömür bada,
Yenə min arzuya sorağım deyir.
Həyatı dünyada,qəbri dünyada,
İnsan,bu dünyada qonağam deyir.
Bir arzu naminə dözür zülümə,
Dağdan uca tutur öz əməlini.
Əlini uzatsa,çatar ölümə,
Çiçəyə uzadır amma əlini!
Gah onu fikrində tutur,gah bunu,
Elə bil keçən gün heç gün deyilmiş .
Dünyanın bu boyda hökmü,qanunu,
Elə bil heç insan üçün deyilmiş.
Hər addım başında bir arzu köşkü,
İnsan sabaş edir könül varını.

Həyat məhəbbəti,yaşamaq eşqi,
Çaşdırır dünyanın qanunlarını. *26.07.2003*

TƏNHALAR

Gah tüstüyə,gah alova atılır.
Gah dumana,gah gümana qatılır.
Bir də gördün öz-özünə yad olur,
Hər nə gəldi fikirləşir tənhalar.
Göz önündə neçə nişan,toy durur,
Özü üçün bir tay-tuş da uydurur.
Ürəyini min gümanla doydurur,
Sonra bir az yüngülləşir tənhalar.
Bircə sözdən od-alovsuz alışır,
Gecə-gündüz ürəyilə danışır.
Kiminləsə gah küsür,gah barışır,
Gah ayrılır,gah birləşir tənhalar.
Bir də gördüm güzgüdən də yaşınır,
Gah qızıllı bir dağ kimi aşınır.
O,gah dağa,gah arana daşınır,
Öz taxtına süst yerləşir tənhalar.
Ahu kimi ürkək olur həmişə,
Vaxt-vədəsiz saçlar dönür gümüşə.
Tənhalığı dönüb olur bir peşə,
Lap sirr olur,lap sirləşir tənhalar.
Təsəllidən doymaz,əgər eşitsə,
Sərməst olar,axşam-səhər eşitsə.
Yalan-gerçək bir xoş xəbər eşitsə,
Elə bil ki,ikiləşir tənhalar. *26.07.2007.*

SEVGİ GÖZLƏMƏ

Bir kövrək uşağın dolan gözünü,
Silə bilməyəndən sevgi gözləmə.
Deyə bilinməyən ürək sözünü,
Bilə bilməyəndən sevgi gözləmə.

Bir könül almasa yalvarışıyla,
Yanmasa yolların hər qarışıyla.
Zərrə sevincini dost-tanışıyla,
Bölə bilməyəndən sevgi gözləmə.
Canda təpər yoxsa bir can deməyə,
Səbri də çatışmaz dərd dinləməyə.
Şaqraq gülüşlərdən ağlar nəğməyə,
Gələ bilməyəndən sevgi gözləmə.
Sevənin,gül-çüçək bitər yolunda,
Yanıqlı nəğmələr ötər yanında.
Könlünü verdiyi dilbər yolunda.
Ölə bilməyəndən sevgi gözləmə. *26.07.2003.*

HEÇ OLAR

Yoxdursa arada mehr-məhəbbət,
Qoca məğmun olar,cavan heç olar.
Sariban xəyanət eyləsə xəlvət,
Qızıl yüklənsə də kavan heç olar.
Dünya dünya olmaz heç dərd olmasa,
Fələyin əlində min fənd olmasa.
Bir işıq ucuna heç bənd olmasa,
Ümid puça çıxar,günah heç olar.
Qəlb ölər kədəri,qəmi yoxdusa,
Kədərin nəşəli dəmi yoxdusa,
Dağların dərd udan çəmi yoxdusa,
Itər gözəlliyi,duman heç olar.
Həmişə damarda al qan dəyişməz,
Ürək dəyişməsə,zaman dəyişməz.
Dünya dəyişməklə dövran dəyişməz,
Sifətlər dönəndə dövran heç olar. *26.07.2003.*

QAYIDAR

Sən demə ki,gedən getdi,qayıtmaz,
O, qatışıb küləklərə,qayıdar.
Nakamları heç Araz da soyutmaz,
Dönüb təzə diləklərə qayıdar.
Gedən dönür,biz gedirik qabağa,
Əl uzadır,əli çatmır sabaha.
O,divarda başsız qalan papağa,
Yas saxlayan köynəklərə qayıdar.
Çəmənlərə,qayalara,düzlərə,
Meşələrə,cığırla izlərə.
Şəkillərə,məktublara sözlərə,
Gözsüz qalan eynəklərə qayıdır.
Ölən dönür evindəki ocağa,
Divardakı pərdələrdə saçağa.
Öyrəşdiyi ən mehriban bucağa,
Sütunlara,dirəklərə qayıdır!
Ruhu gəzir o dağda,bu qayada,
Dolanır ki,xatirəsi boy ata.
Dönməsə də gördüyümüz həyata,
Sevgi olub ürəklərə qayıdır. *26.07.2003.*

BE
ŞİN İÇİNDƏ

Bu sirli dünyanın sehrində çimdik,
Bir ömür qazandıq,torpağa gömdük.
Doğulduq,hamımız döşdən süd əmdik,
Süd hardan yarandı döşün içində?
Can içində olur dərdin binası,
Dərdi-sər toxuyur baxtın xanası.
Allah da insanın işindən ası,
Allah özü hələ işin içində!
Demə ki,fanidir heçdir bu dünya,
İçi ömür dolu teştdir bu dünya.
Bəlkə teşt içində beşdir bu dünya,
Tamah eşələnir beşin içində.

Xilqətin böyüyü,kişiyi sirdir,
Irinin,xırdanın qanunu birdir.
Səni öz ağzında dişin yedirdir,
Özünə nə qalır dişin içində.
Taleyimin çarxı daşa ilişib,
Elə bil yollarım tərs-avand düşüb.
Həsrətdən,qubardan ürəyim şişib,
Kim bilir nələr var şişin içində.
Dünyanı ümidlə yeyib babalar,
Dünyanın belini əyib babalar.
Dünyaya beş günlük deyib babalar,
Gör neçə dünya var beşin içində. *08.08.2003.*

CIĞIRLAR

Dağlara dolanan örkən misaldır,
Yolçunu dərədən dağa ucaldır.
Mənzili qısaldır,yolu qısaldır,
Çəmənə, meşəyə gedən cığırlar.
Yamyaşıl otların içində çılpaq,
Nazlanır,tozlanır altında torpaq.
Ən geniş,ən uzun yollardan qalaq,
Gedib arzusuna yetən cığırlar.
Gecə də, gündüz də intizar çəkir,
Könlümü şip-şirin nağıllar çəkir.
Kolu əl eyləyir,gülü car çəkir,
Bu doğma cığırlar,vətən cığırlar.
Hərdənbir böyüyür,hərdən sınıxır,
Hərdən səmti azır,yolundan çıxır.
Yolçusuz darıxır,elsiz darıxır,
Sağını,solunu güdən cığırlar.
Həmdəmi az oldu,dərdi çox artır,
Hər ağac cığırı bir səmtə dardır.
Yolçunu çaparaq yola çıxardır,
Özləri yollarda itən cığırlar.
Cığırdan yapışır tələsən,qaçan,
Səni səndən alır bilmirsən haçan.

Xəyalda uzanır sonsuzluğacan,
Bir qısa mənzildə bitən cığırlar. *08.08.2003*

VALLAH HƏLƏ ÇOX QALMIŞAM DÜNYADA

Bir ömürdən mən nə umum cahanda,
Neçə şərin əli qalıb yaxamda.
Bu dünyanın gərdişinə baxanda,
Vallah, hələ çox qalmışam dünyada.
Təmiz gözdə çox xifətlər görmüşəm,
Düz yolumda müsibətlər görmüşəm.
Bu qədər ki, pis sifətlər görmüşəm,
Vallah, hələ çox qalmışam dünyada.
Hara baxım,bir mehriban ev ki,yox,
Ürəklər var məzar kimi,sevgi yox.
Bir meyar yox,tərəzi yox,çəki yox,
Vallah,hələ çox qalmışam dünyada.
Bilmirsən ki,qoca kimdir,cavan kim,
Bilmirsən ki,qaçan kimdir,qovan kim.
Baş açmıram,axtaran kim,tapan kim,
Vallah, hələ çox qalmışam dünyada.
Daha niyə hesablayım yaşımı,
Xəzan düşüb,gözləyirəm qışımı.
Bir cüt göz var,yaman qatıb başımı,
Vallah,hələ çox qalmışam dünyada. *11.08.2003*

İLLƏR MƏNİ BURAXMIR.

Məndən olsa bu dünyadan gedərdim,
Allı-güllü çöllər məni buraxmır.
Bir məzarda sükut olub itərdim,
Bu çiçəklər,güllər məni buraxmır.
Üzüm gəlmir hər yetənə buyuram,
Uşaq kimi yad mehrinə uyuram.
Bu dünyanın acısını duyuram,
Şirin-şirin dillər məni buraxmır.

Çox borcluyam bu sevdalı xilqətə,
Verdiyini heç vaxt qoymur minnətə.
Necə uyum mən bir nisyə cənnətə,
Gül ətirli tellər məni buraxmır.

Çox arzumu hələ daşa vururam,
Keçən günü sayıb yaşa vururam.
Gün oturub,ayı başa vururam,
Aylar keçir,illər məni buraxmır.

Ömürlər ki, bir bu qədər yaşanır,
Biri sevgi,biri nifrət qazanır.
İki əl var mənə tərəf uzanır,
Görüşürük,əllər məni buraxmır.

Bircə sözüm el dilinə düşəydi,
Bircə sözüm el ağzında bişəydi.
Ölüm gəlsə bilməzdim ki,nə şeydi,
Deyərdim ki,ellər məni buraxmır. *10.08.2003.*

İTİRDİM

Sevinc tapmayanda dərd harayladım,
Hər itən günümlə min dürr itirdim.
Nəyə sərf elədim,kimə payladım,
Min ilə bəs olan ömür itirdim.

Dərdi-sər dəryamdır,arzular gəmim,
Bir qına sığınıb sevincim,qəmim.
İtdi yan-yörəmdən neçə həmdəmim,
Mən cavan itirdim,mən pir itirdim.

Həmişə köz oldu bağrımın başı,
Özüm öz könlümə olmuşam naşı.
Daşı göyərdərdi axan göz yaşı,
Mən Araz itirdim,mən Kür itirdim.

İllər gəlib-geçir,dərd həmən-həmən,
Mənə xar görünür daha çöl-çəmən,
Saldım ürəyimə neçə sirri mən.
Bir dünya qarışıq min sirr itirdim.

Ah çəkmə,baxan yox aha dünyada,
Qəmi sevincindən baha dünyada.

Mən nəyə gərəyəm daha dünyada,
Gərək olanları bir-bir itirdim. *28.03.2003*

GÜLƏNDƏ NOLAR

Bircə gülüşlə ki,yaram sağalır,
Bənövşə gözünlə güləndə nolar?
Əl vursan üzümdə nişanən qalar,
Gəlib göz yaşımı siləndə nolar!
Dərdim divə dönüb,məni dağ bilir,
Əridir,nə axşam, nə sabah bilir.
Mən nələr çəkirəm bir Allah bilir,
Elə sən özün də biləndə nolar!
Gedirəm,başıma sağ,sol dolanır,
O ağac dolanır,bu kol dolanır.
Bu dünya bir gündə min yol dolanır,
Sən də bir dolanıb,gələndə nolar.
Dərdimi daşlara bölüb gedirəm,
Axırım necədir,bilib,gedirəm.
Onsuz da vaxt gəlib,ölüb-gedirəm,
Sənin qabağında öləndə nolar! *12.08.2003.*

ÖMÜR YOLU

Hər torpaq yolun,daş yolun,
Əvvəli var,axırı var.
Dünyadan gedən baş yolun,
Hər gedənçün cığırı var!
Bir yoxluğa varan yolda,
Baxma dərdin bərk-boşuna.
Hamını aparan yolda,
Hamı gedir təkbaşına.
Yatanları ayıldan yox,
Hər bilməyən,bilən gedir.
Gedən yoldan qayıdan yox,
Bir ucdan da gələn gedir.

Ölüm də bu gündən keçir,
Bu gündən necə ötməyim.
Həyatın içindən keçir,
Yoluyla necə getməyim? *14.08.2003*

İNSAN VƏ SÖZ

Hər baxış bir gizli sözə nişanə,
Danışan dil olur,sözü göz deyir.
İnsan baxışında bircə işarə,
Teleqraf telindən fikri tez deyir.
İnsan sözdən yanır,sözü yandırır,
İnsanı ölüncə söz dolandırır.
Kimi söz oynadır,söz bulandırır,
Kimi söz içindən tapıb söz deyir.
Söz var ki,ümidlə səni doydurur,
Söz var ki,dağlarla boya-boy durur.
Rəvan danışanda dil söz uydurur,
Dilimiz çaşanda sözü düz deyir.
Sözdür öz içində saxlayan bizi,
Sözümüz ayırır əyridən düzü.
İnsan, xiridarı olmayan sözü,
Lap qızıl olsa da, könülsüz deyir.
Söz fikir atının yəhər-yüyəni,
Söz tapıb çıxarır sən bilməyəni.
İllərlə dil ilə deyilməyəni,
Bir kağız üstündə o,dilsiz deyir.
Söz var alır səni sənin özündən,
Könüllər bəzənir söz incisindən.
Söz var bu həyatı salır gözündən,
Söz var hələ yaşa,hələ döz deyir. *18.08.2003*

GÖZÜM GÖRƏ-GÖRƏ

Gözüm görə-görə çiçəklər salır,
Yarpaqlar saralır,yarpaqlar düşür.
Baharın özündən xəzan doğulur,
Vaxt ötür,yaş keçir,vədə yetişir.
Alışıb yanıram mən öz tüstümə,
Sabahkı yollarım qaranlıq gedir.
Neçə arzuları atıb üstümə,
Gözüm görə-görə cavanlıq gedir.
Bağrımın başını dərdi-sər yarır,
Əriyib,təzədən əslim oluram.
Gözüm görə-görə saçım ağarır,
Ağlım kəsə-kəsə təslim oluram.
Gah fikrim dolaşır,gah huşum gedir,
Əcəl salar məni bəndə,ölərəm.
Gözüm görə-görə tay-tuşum gedir,
Amma inanmıram mən də ölərəm!
Biz göydən endikcə,arzu ucalır,
Bu günün sevinci sabaha qalmır.
Üzü gülə-gülə insan qocalır,
Ağlaya-ağlaya sevgi qocalmır.
Torpağa döndərir insanı zaman,
Demə bizi udan yer xain olur.
Elə ki,torpağa qovuşur insan,
Doğmaları bir az arxayın olur.
Sən ana torpaqda hikmətə bir bax,
Torpaq milyon-milyon sirrin məbədi!
Əbədi qalırsa dünyada torpaq,
Torpaq olanlar da qalır əbədi! *12.08.2003.*

DİNCLİK İSTƏYİRSƏN BEŞCƏ DƏQİQƏ.

Hanı bu dünyada bütöv həqiqət,
Nə rahat xəyal var,nə rahat güzar.
Dinclik istəyirsən beşcə dəqiqə,
Yarsı qayğı olur,yarsı intizar.

Yollarda sevinci kədər ötürür,
Çatışmır gecənin çırağı sübhə.
Təsadüf sənincün sevinc gətirir,
Yarsı sevinc olur,yarsı da şübhə.
Qırx il gördüyünü sən tanımırsan,
Cahil imza atır alim əliylə.
Durub bir nadandan sevgi umursan,
Yarsı yalan olur,yarsı da hiylə.
Taxtı-tac alınca,baxtın tac olsun,
Ömrün fərəhindən dərdi çox qalır.
Gülmək istəyirsən könlün açılsın,
Gülüşün üzündə yarımçıq qalır.
Gərək məchullara xəyal baş alsın,
Dərdi-sər bir azca səngiyən kimi.
Deyirsən ağlayım,ürək boşalsın,
Ağlaya bilmirsın sən deyən kimi.
Bu həyat hərəyə bir üz göstərir,
Pay verir yarımçıq,alır yarımçıq.
Təkcə ölümdür ki,işi tam görür,
Həyatda hər işin qalır yarımçıq. *05.08.2003.*

NƏSƏ ÇATIŞMIR

Otağa baxıram, hər şey yerində,
Gözümdə,könlümdə nəsə çatışmır.
Kainat yerində,yer,göy yerində,
Elə bilirəm ki,gah içərimdə,
Gah da ki,çölümdə nəsə çatışmır.
Elə bil dağların nəisə azdır,
O yamacda, yolda nəsə çatışmır.
Bu cığırda,yolda nəsə çatışmır.
Narahat qəlbimdə dərdi-sər dolu.
Fikirdə, xəyalda nəsə çatışmır.
Mənim sevincimdə nəsə görünmür.
Mənim kədərimdə nəsə çatışmır.
Mənim axşamım da nəsə tərs düşüb.
Parlaq səhərimdə nəsə çatışmır,

Guya ki,tərs düşür torpağa kölgə.
Guya ki,pozulub zamanda cərgə,
Axır nəsə,nəsə,nəsə çatışmır.
Qırılıb dünyanın ahəhgi bəlkə.
Bu qədər ki,belə çatışmayan var,
Yaşamaq,düşünmək meyli lap artır.
Eə bil dünyada çatışmayanlar,
Bizi sükunətdən çəkib qoparır.
Arzu təkan verir yatan duyğuya,
Arzusuz çəkəmmir quru can bizi.
Çatışanlar bizi verir yuxuya,
Çatışmayanlardır yaşadan bizi! *06.08.2003.*

BAXAN YOX

Qurban olum,için-için ağlama,
İnnən belə göz yaşına baxan yox!
Keçən keçdi, dünya üçün ağlama,
Dünya qalıb özbaşına,baxan yox!
Nimdaş palaz əl dəyməmiş sökülür,
Şələm artır,belim daha bükülür.
Bir ömür-gün şabaş kimi tökülür,
Ömrün-günün şabaşına baxan yox!
Sən gördüyün o meyvələr sovulub,
Şeyda bülbül gülüstandan qovulub.
Tərəzidə daş içndən ovulub,
Tərəzinin heç daşına baxan yox!
Gecikmisən,ötüb keçib karvanın,
İzi itib səni yolda yoranın.
Çox sirr yatır yaddaşında dövranın,
Eşələyib yaddaşına baxan yox! *1997*

BU DÜNYANIN HƏR ÜZÜNÜ GÖRMÜŞƏM

Tar ağlayır,tar inləyir,tar yanır,
Dərdin çoxu sarı simdə gizlənib.
Yazıq könlüm hey sərgərdan dolanır,
Ruhu gedib görən kimdə gizlənib.

Mənim yanğım ürəkdədir, gözdə yox,
Göz yaşımın altındadır,üzdə yox.
Elə söz var,onun sirri sözdə yox,
Bir eyhamda,bir him-cimdə gizlənib.

Dərd gəlib ki,ömür sürüm içində,
Xan Araz var,dəli Kürüm içində.
Əcəlimin sirri ömrüm içində,
Ömrün sirri əcəlimdə gizlənib.

Bu dünyanın yol-izini görmüşəm,
Gecəsini,gündüzünü görmüşəm.
Mən dünyanın hər üzünü görmüşəm,
Bir üzü də içərimdə gizlənib! *1998.*

NOLAR

İndi ki, bir kəlmə ovudur məni,
Bir "hə,, sözü gəlsə,dilinə,nolar.
Bir sınıq könlüm var,o tutur məni,
Al mənim könlümü əlinə,nolar!

Əlini əlimə bir yol toxundur,
Indi ki,başqa bir çarən yoxundur.
Telindən mənimçün bir dənə tor qur,
Tellərin qarışsın telinə,nolar!

Yanmaqçün yaradıb demə haq məni,
Yorub bu şəkildə yaşamaq məni.
Şirin gülüşünlə yandır,yax məni,
Qat şirin ğülüşün gülünə,nolar!

Küsdürüb gülünü sona bülbülüm,
Bu yaman dərdi-sər,bu yaman zülüm.
Bir yandan göz yaşım,bir yandan gülüm,
Batam ikisinin lilinə,nolar!

Bircə demədin ki,qəlbi sınan var,
Bircə demədin ki,qəlbi yanan var.
Gülündən tanınar eşqə yananlar,
Bir bax ürəyimin gülünə,nolar!
Düşmənim hansıdır,pənahım hansı,
Şərabım hansıdır,sürahım hansı.
Savabım hansıdır,günahım hansı,
Elə bu dünyada bilinə,nolar? *1998*

DAĞILIR

Aman könül,dünya qaldı yiyəsiz,
Gur çayların bənd-bərəsi dağılır.
Daha demə torpaq əziz,göy əziz,
Gah qayası,gah dərəsi dağılır.
Halal qazanc ev-eşiyə qoyulmur,
Körpə çağa gül beşiyə qoyulmur.
Yaxşı-yaman tərəziyə qoyulmur,
Sən gördüyün daş-tərəzi dağılır.
O haq dövran yaddan çıxmaz min il də.
Oğul gərək o dövranı dirildə,
O günlərin izi qalıb könüldə,
O dövranın mənzərəsi dağılır.
Mehri çatmır cah-calallı evlərin,
Hər biri qan bahasıdır keflərin.
Aşkar-aşkar evlər yıxan divlərin,
Gizli-gizli qəsd-qərəzi dağılır.
Min dəfinə bir xələfin əlində,
Dörd bir tərəf bir tərəfin əlində.
Beş-on nəfər bişərəfin əlində,
Gözəl dünya göz görəsi dağılır! *31.07.2003*

BU DÜNYA

Dirimiz də,ölümüz də onundur,
Çəkib bizi ağuşuna bu dünya.
Ruhumuz da,könlümüz də onundur,
Ömür verir öz xoşuna bu dünya.
Nə səmt azır,nə yol çaşır,sirrə bax.
Öz-özünə aşıb-daşır,sirrə bax.
Qocaldıqca cavanlaşır,sirrə bax,
Məhəl qoymur öz yaşına bu dünya.
Körpüsünü salmasaydı günəşdən,
Qüvvət alıb dolmasaydı günəşdən,
Min bir dünya almasaydı günəşdən,
Dolanmazdı boş-boşuna bu dünya.
Düz yolunu azanları yaşadır,
Öz canından cəzanları yaşadır.
Miyon-milyon insanları yaşadır,
Ömür sürür tək başına bu dünya.
Min il dönər,elə bilər an keçər,
Sinəsinə məzar-məzar can keçər.
Sənin min-min qarğışından yan keçər,
Uymaz min-min alqışına bu dünya. *31.07.2003.*

DÜŞDÜM QALDIM BU DÜNYADA

Qaranlıq dünyada idim,
Köçdüm qaldım bu dünyada.
Həyat verən ana südü,
İçdim qaldım bu dünyada.
Neçə yerdən dərd oyandı,
O acıdır,bu ziyandı.
Min qayğının odu yandı,
Bişdim qaldım bu dünyada.
Can nə şeydir bilmiş idim,
Bilməsəydim ölmüş idim,
Beş günlüyə gəlmiş idim,
Düşdüm qaldım bu dünyada. *03.08.2003*

SEVİMLİ ƏZİZ NÖQSANIMIZ

Ölüncə bizdən ayrılmaz,
Bizim əkiz nöqsanımız.
Qalar,qınından sıyrılmaz,
Haman bərk üz nöqsanımız.
Düzü düz eyləyən odur,
Sözü söz eyləyən odur.
Bizi biz eyləyən odur,
Doğma,əziz nöqsanımız.
O,əbədi nişan olur,
O,tərəzi,mizan olur.
Əslimizi yozan olur,
Bu əvəzsiz nöqsanımız.
Budaqmı,yoxsa kökmüdür?
Bəxşişmi,yoxsa yükmüdür?
Qanuna baxmır,hökm edir,
Səssiz-səssiz nöqsanımız. *04.08.2003*

AZ DEMƏ!

Bahar gərək səhranı da göyərtsin,
Təkcə dağa gələn yaza yaz demə!
Nəğmə gərək odu suda göyərtsin,
Saz dünyanı yandırmasa,saz demə.
Sevgi yolu dağlar aşır,dolaşmır,
Ağız dolu can deməklə kar aşmır.
Naz tək elə can almağa yaraşmır,
Naz cansıza can verməsə,naz demə.
Yağış olub dağa-daşa səpilsən,
Sevgi göyərt,nə bacarsan,nə bilsən.
Könül görüb,beşcə gün də sevilsən,
Qismətinə düşən ömrə az demə! *04.08.2003*

YAŞADIR

Bu dünyada nə gördük ki, bəs deyək,
Söz yerində susa-susa yaşadıq.
Hansı haqla səsimizə səs deyək,
Səsimizi qısa-qısa yaşadıq.
Macəralar hey dolandı,hey ötdü,
Bizi baxtın dəyirmanı üyütdü.
Torpaq bizə boy da verib böyütdü,
O torpağa sıza-sıza yaşadıq.
Yana-yana bada getdi şamımız,
Şərbət tökdük,zəhər oldu camımız.
Bir qanundan ömür tapdıq hamımız,
O qanunu poza-poza yaşadıq.
Büdrəmişik biz dağda da,düzdə də,
Dolaşmışıq kəlmə də də,sözdə də.
Nabələdik bu həyata yüzdə də,
Bu həyatda aza-aza yaşadıq.
Yol başında hamını bir görmədik,
Kür olanı həmişə Kür görmədim.
Sağ-salamat,bütöv ömür görmədim,
Qırıq-qırıq,qısa-qısa yaşadıq! *04.08.2003.*

ÖLÜM ARZULAYAN İNSAN

Ölüm arzulayan insan,
Elə yapışır həyatdan.
Ölüm qopara bilməsin,
Ölüm arzulayan insan.
Elə həyat yükü yığır,
Ölüm apara bilməsin.
Ölüm arzulayan insan,
İçində elə yanır ki,
Elə məğrur dayanır ki,
Həyat ölümün önündə.
Durub yalvara bilməsin.
Ölüm arzulayan insan,
Keçib ölümün içindən,

Həyata varmaq istəyir,
Ölüm haraylayan insan,
Elə ölümün özündən,
Həyat qoparmaq istəyir! *13.06.2012*

ÖLÜMÜN NƏ GÜNAHI VAR.

Ümid yollardan çəkilib,
Gözüm yollara dikilib.
Külüm odumdan tökülüb,
Külümün nə günahı var?
Arzum arzumu söndürür,
Məni göylərdən endirir.
Dilimi könlüm dindirir,
Dilimin nə günahı var?
Demə dərdin kimdən gəlir,
Həsrət sarı simdən gəlir.
Yanğım içərimdən gəlir,
Çölümün nə günahı var?
Özüm yanıb nur saçıram,
Ölümə gen yol açıram.
Özüm ölümə qaçıram,
Ölümün nə günahı var! *30.03.2003.*

MİR CƏLAL ÖMRÜ

Unudulmaz və bənzərsiz müəllimim
Mir Cəlalın 100 illik yubileyinə.

Bir qığılcım qopdu xatirələrdən,
Yandı, ürəyimdə qaldı xal kimi.
Bir anluq ayağım üzüldü yerdən,
Dolandım dünyanı bir xəyal kimi!
Milyonlar içində bir imiş demə,
Hər sözü seçilmiş dür imiş demə,
Mir Cəlal həqiqi Mir imiş demə,
Gəldi bu dünyaya bir halal oldu.

Bir sözlə ayırdı əyridən düzü,
O, bir Yusif imiş,tox imiş gözü.
Elə cilalandı min illik sözü,
Sözə nə xal düşdü, nə zaval oldu.
Dumandan ayıra bildi tüstünü,
Qəlbində od yandı, örtdü üstünü.
Yazdı bir insanlıq, "Manifesti,, ni,
İnsanlıq öləndə halbahal oldu.
Günəş kimi sakit yandı, alışdı,
Nahaqqa uymadı, haqqa qarışdı.
Elə şirin dindi, elə alışdı,
Sözü dilimizə köçdü, bal oldu.
Heç soyuq ürəklə dərs deməzdi o,
Həqiqət olanı tərs deməzdi o,
Haqdan danışanda bəs deməzdi o,
Söz dedi, düz dedi, ağzı fal oldu.
Ruhunda Fizuli qəmi, möhnəti,
Sabirin, Vurğunun çılğın qeyrəti.
Nə deyək, dünyadır,bəzən şöhrətin,
Vaxtı yetişəndə, baxtı kal oldu.
Dolanbac yollarda çaş olur güman,
Gah günəş görünür, gah da boz duman.
Şöhrət sahibinə çatmır çox zaman,
Kimlərin şöhrəti kimə mal oldu!
Sözü köz eylədi o, boşda-bərkdə,
Yüzünə do gəldi o,təkbətəkdə.
Güzarı pir olub min-min ürəkdə,
Məzarı baxma ki, susub lal oldu.
Bizimşün ürəyi açıq qapıydı,
Mənalı gülüşü nurdan saf idi.
O,söz sehrkarı,söz sərrafıydı,
Ömrü min ömürçün bir amal oldu.
Ustad qəlp sözü yox,qəlb sözü seçdi,
Dupduru çeşmənin gözündən içdi.
Hər sözü,hər fikrin boyuna biçdi,
Fikrində nə şübhə,nə də qal oldu.
Üzdü ümidini barsız xülyadan,
Qaçdı,uzaq oldu min-bir riyadan,

Köçəndə hamı tək köçdü dünyadan,
Həyatda bənzərsiz Mir Cəlal oldu! *08.04.2008.*

YANAN QOCALMIR

Zirvədə kök atmaz dağda bitməyən,
Hər şey kor taleyin gücünə deyil.
Qovaq yarpağıdır mehdən titrəyən,
Palıdın tufan da vecinə deyil.
Gedir ağlayanlar,gəlir gülənlər,
Nə qaya tələsər,nə dağ tələsər.
Tələsməz dünyanı evi bilənlər,
Yad evdə burovuz qonaq tələsər.
Taleyi yağışa-çiskinə atdıq,
Durulmaq istədik, duru çıxmadıq.
Hər şeyi taleyin üstünə atdıq,
Özümüz də sudan quru şıxmadıq.
Aqil öz ömrünü özü qazanar,
Ötüşən hər günün nazını çəkər.
Nadan öz ömrünü ağır yük sanar,
Fənd tapıb, bu yükün azını çəkər.
Gəmi yırğalanmaz ləngər güclüsə,
Dəmirçi kürədən dəmir çıxardar.
Arzular ömürdən əgər güclüsə,
Ölümün ağzından ömür çıxardar.
Zamandan bir azca geri düşəndə,
Zamanın dərdini şişirtmədin heç.
"Uca dağlar,, dedin,yeri düşəndə,
Qoca dağlar deyən eşitmədim heç.
İnsan öz qəlbini kölgələməsə,
Arzular qocalmaz,könül qocalmaz.
İnsan öz-özünə qoca deməsə,
Min il ömür sürər,min il qocalmaz.
Ömrü bölə-bölə çəpərləyirlər,
Daş hasar içində qalır bacarıq.
Deyəndə "cavanliq getdi,, deyirlər,
Heç deyən oldumu "getdi qocalıq,,

Arzunun yükünə dözmür ömür-gün.
Böyüyür tarıma çəkir bədən,
Arzular bədənə sığmadığıüçün,
Dağıdır sındırır,sökür bədəni.

Bir palıd dibçəyə necə sığacaq.
Coşqun arzulara ürək dar gəlir,
Ruhun libasıdır bədənlər ancaq,
Ruh köhnələn deyil köynək köhnəlir.

Qayğıdan narazı,dərddən narazı,
Fikir bizi salır hasara bir gün.
Bizi yaşamağa cağıran arzu,
Aparır çıxarır məzara bir gün

Kiminə əzabdır,kiminə kefdir,
Ömrü bir biçimdə yaşamır hamı.
Ömür boş olmayan yarımçıq evdir,
Məzar daşı ilə örtülür damı.

Torpaqdan başlanır əvvəl ucalıq,
Torpaqdan qalxanın dayağı güclü.
Gəncliyin üstündə durur qocalıq,
Qolları gücsüzdür,ayağı güclü!

Ömür su üstündə yelkən kimidir,
Suyun da seli var,boğanağı var.
Ömür yolları da örkən kimidir,
Onun ölüm adlı doğanağı var.

Torpağın çatları yayda dil açır,
Payız yagışında bitişir ancaq.
Nə olsun ağaclar yazda gül açır,
Meyvəsi payızda yetişir ancaq!

İnsanı yaşadan ürəkdir hələ,
Soyuya-soyuya ömür bərkiyir!
Kürənin içində kövrəkdir hələ,
Kürədən çıxanda dəmir bərkiyir!

Əgər keçən günlər odsa,ocaqsa,
Qalan günlər olur dərdə qalan da.
Bizi quru yerdə qoymayacaqsa,
Elə bəsimizdir yerdə qalan da.

Baxma,qar suyunu su sayan olmur,
Yayda dağ dalında quzey buzu var.

Demə, qocalıqda susayan olmur,
Yox,yox,qocalığın öz yanğısı var.
Tikansız ömür yox bu gen cahanda,
Sünbüldə həm buğda,həm qılçıq olur.
Ömrü ömür kimi yaşamayanda,
Yüz illik ömür də yarımçıq olur!
Nə olsun cavanlıq bir sərçeşmədir,
Bulaq sularının dar yolları var.
Qocalıq işığa daha təşnədir,
Qaranlıqda gedən işıq axtarar.
Pərişan bir könül,pərişan xəyal,
Qocalığa səcdə,vallah savabdır.
Gənclik başdan-başa mürəkkəb sual,
Qocalıq suala asan cavabdır!
Yollar hey burulub zirvəyə çıxır,
Çətini bu yolun döngələrdir.
Elə kölgələr də işıqdan doğur,
Qocalıq gəncliyin kölgələridir.
Yandıq gecəni də, biz gündüzü də,
Baxmadıq qabaqda yağışdı, qardı.
Bir şama bənzəyir ömrün özü də,
Az-az yansa idi gec qurtarardı.
Kiminin əvvəldə gülər arzusu,
Kimi axırında çatar ağ günə.
Bəlkə də həyatın qanunudur bu,
Su səmtinə axar, tale tərsinə.
Yolçular haq deyib,yollara çıxar,
Yolların sonunda məclis qurular.
Sular əvvəl-əvvəl bulanıq axar,
Daşdan-daşa dəyib sonra durular.
Ömür tüstülənib yanan bir ocaq,
Hər baş bu yanğıda ayıq olmayıb.
Hamı xoşbəxtlyə can atıb, ancaq,
Hamı xoşbəxtliyə layiq olmayıb.
Bir eşqin oduyla həyata vardıq,
Yol tutdun,sonuna çatasan gərək.
Elə ki, həyatı yük bildin artıq,
Tullayıb çiynindən atasan gərək!

Ömrümüz həm oda, həm suya şərik,
Demə,keçdiyimiz yollar hədərdir.
Ölümün yolları bir dəqiqəlik,
Həyatın yolları arzu qədərir!
Bir yanı tikandır,bir yanı güldür,
Ömür gecəmizdir,gündüzümüzdür.
Həyatın zirvəsi ölüm deyildir,
Həyatın zirvəsi son sözümüzdür.
Bu qoca dünyanın bilinməz yaşı,
Hər gələn insanla yaşıd olubdur.
İnsan ölüm ilə gedib yanaşı,
Ölüm insan ilə yaşa dolubdur!
Demirəm,gözündə eynək neçindir,
Çoxdur qocalığa yol göstərənlər.
Eynək qara-qura görmək üçündür,
Həyatı eynəksiz görür görənlər.
Qocalıq gətirmir xətir-hörməti,
Təmizlik aparır ucalığa da!
Yusifə qocalıq nur gətirmədi,
Yusif nur gətirdi qocalığa da.
Yandırar zirvəyə gün dikələrsə,
Saralan,soluxan bağa bar gələr.
Bahar-yay dalınca payız gələrsə,
Payız-qış dalınca ilk bahar gələr.
Gün oldun zirvəyə bu çataçatdı,
Zirvədə olmasa,gün ağ görünmür.
Görməyən də olar səni həyatda,
İşıq gur olanda çıraq görünmür.
Çoxdur xain çıxan qardaç-qardaşa,
Çox qəlbi yandırıb-yaxblar hələ!
Yusifi-Kənan tək min illər yaşa,
Çoxdur Züleyxalar,Yaqublar hələ!
Hər namərd adamın sözünə yanma,
Baxma ki, ömür-gün borana düşdü!
Yusifi quyuya atdılar,amma,
O, gəlib müqəddəs Qurana düşdü! *12.01.97*

KÖNÜL

Çöldə yaman darıxıram,
Bir dağlara çıxım,könül.
Sevinc satıb,qəm yığıram,
Sevgi dərdi yığım,könül.
Fikrim bir az havalıdır,
Dərdim bir az qapalıdır.
Dünya məndən vəfalıdır,
Qoy sinəmə sıxım,könül.
İllər gəlib baş olduqca,
"Qazandığım,, yaş olduqca.
Yolum,izim çaş olduqca,
Gerçək olur yuxum,könül.
Kim dünyadan yarıyıb ki?
Yaşamaqdan kim doyub ki?
Ömrə həddi kim qoyub ki?
O sərhəddən qorxum,könül?! *15.01.2010*

DƏLİ-DİVANƏYƏM.

Hələ bir nadana baş əyməmişəm,
Üzə gülməmişəm minnətdən otrü.
Kim deyə bilər ki,mən can demişəm.
Bir quru tərifdən qiymətdən otrü.
Nə qədər sevgi var, hələ mən varam,
Yalnız sevgi ilə soyuyar yaram.
Sevdasız sevinci yaxın qoymaram,
Dəliyəm sevdalı bir dərddən otrü! *15.11.2010*

YELLƏNÇƏK

Yellənə-yellənə zirvəyə qalxar,
İki işarəsiz xətt arasında.
Mərtəbə-mərtəbə neçə pillə var,
Bu iki naməlum hədd arasında.

Boşluğun içindən yaranır külək,
Sürət təkan verir daldalanmağa.
Əvvəl yavaş-yavaş,sonra da bərk-bərk.
Biz belə öyrəşdik hesablanmağa.
Elə bil havanı doğrayıb biçir,
Çan atır qaldırıb, endirməyə o,!
Uçuş nötqəsindən qayıdıb keçir,
Ucalır ikinci bir zirvəyə o,!
Sürət havalanıb,artır get-gedə,
Sürətin özü də qırıq-qırıqdır.
Yelləncək fırlanır iki nöqtəyə,
Nöqtələrin mütləq hüdudu yoxdur.
Dönür öz ilkinə, güc almaq üçün,
Keçdiyi yolları ayıltmalıdır.
Hər dəfə zirvəyə ucalmaq üçün,
İlkin nöqtəsinə qayıtmalıdır.
Həddi var taqətin, həddi var gücün,
Təzədən yanmaqçün sönməliyik biz.
Başqa bir zirvəyə ucalmaq üçün,
Zirvənin birindən enməliyik biz.
Bir dövrə içində bölünür məkan,
Gerçəyə döndərir istəyimizi.
Zirvənin birindən doğulan məkan,
Ikinci zirvəyə qaytarır bizi.
İlkinlik insanın gözü-bəbəyi,
Göylərin qüdrəti demə yerdə yox.
Qüvvənin mənbəyi,gücün mənbəyi,
Ilkin pillədədir, zirvələrdə yox.
Zirvədən-zirvəyə həyat yaşanır,
Amma ilk mərədə bərkiyir qanad.
Həyat zirvəsindən ölüm başlanır,
Ölüm zirvəsindən-təzə bir həyat.
Gah torpaq kimiyik,gah çiçək kimi,
Döyür ömrümüzü dərd qamçısı da.
Ömür qalxır,enir yelləncək kimi,
İnsan özü olur təkançısı da! *16.04.99*

ŞİRİNLƏŞİR

Dağdan dağa yetən yollar,
Başında kol bitən dağlar.
Cığırları itən dağlar,
O baş-bu baş şirinləşir.
Məndən ümid,haqdan kərəm,
Ovunmuram hələm-hələm.
Ürəkdə qəm,kiprikdə nəm,
Gözümdə yaş şirinləşir.
Hər yolda bir gizli talan,
Yada düşmür unudulan.
Yol üstündə düşüb qalan,
O çopur daş şirinləşir.
Vaxt üzümə bozardıqca,
Zaman məndən bac aldıqca.
Yaş ötürüb qocaldıqca,
Qohum-qardaş şirinləşir.
İllər,aylar aşan ölüm,
Hərdən yolu çaşan ölüm.
Mənə yaxınlaşan ölüm,
Yavaş-yavaş şirinləşir. *05.10.2010*

AXŞAMLARIM

Zil qara qanadında nələr, nələr gətirir,
Kiminə sevinc payı,kiminə şər gətirir.
Ürəyə doğma, şirin xatirələr gətirir,
Bu kövrək axşamlarım, bu qərib axşamlarım!
Öz qara çadrasına gizli-gizli söz büküb,
Şirin xatirəsinə atəş büküb,köz büküb.
Gah olub ki, arzumun istəyinə kecikib,
Gah olub ki,arzumdan tez gəlib axşamlarım!
Birinin diləyinə tale kimi kor olub,
Birinin xəyalına ilmə-ilmə tor olub.
Vaxt olub yatağıma yandırıcı qor olub,
Vaxt yatağıma gül sərib axşamlarım!

Dünyanın bir üzündə sir tülü qalmalıymış,
Bir dili dinməliymiş,bir dili qalmalıymış.
Demək nəsə dünyada örtülü qalmalıymış,
Qanadını üstümə tez gərib axşamlarım.
Gah həsrətim alışıb,gah ürəyim əriyib,
Gah gözlərim yol çəkib, gah gözlərim-səriyib.
Çəkdiyim ahlarımdan yavaş-yavaş körüyüb,
Tutaşıb ulduz-ulduz,közərib,axşamlarım! *05.08.2003*

BU QOCA DÜNYANIN YADDAŞI Kİ, VAR

Üzümü yaxşıya tərəf tuturam,
Yüz pisin içində bir yaxşı ki,var.
Mən niyə bürküdə yaxa yırtıram,
Arandan yuxarı dağ başı ki,var.
Demə həyat qısa,demə ömür kəm,
Ürəyin oduyla ömrü ölçürəm.
Gözümün işığı qurtarıb,nə qəm,
Dünyanı əks edən göz yaşı ki, var!
Kim deyir arzular bir yolluq sönür,
Ulduzlar gecələr parlaq görünür.
Nə olsun ömür-gün qüruba dönür,
Min-min arzuların şabaşı ki,var!
Var soyuq həyatda isti bucaqlar,
Var əbədi yanan odlar-ocaqlar.
Nə olsun ki, məni unudacaqlar,
Bu qoca dünyanın yaddaşı ki,var! *25.03.2011*

DÜNYAYA XİTAB

Dünyaya göz açıb,səni görmüşəm,
Məni sənin eşqin isitdi,dünya.
Anamın döşünə barın süd oldu,
Mənə həyat nuru içirtdi, dünya!

Güc elə tək qolda, biləkdə deyil,
Tale bu yerdədir, fələkdə deyil.
Həyat bir çeşiddə, bir rəngdə deyil,
Bu həyat çox çeşid-çeşitdi,dünya!
Ağlayan da səndə,gülən də səndə,
Yolları gedən də,gələn də səndə.
Yaşayan da səndə,ölən də səndə,
Gedənə demə ki,tez getdi dünya!
Üstündə milyonlar şah ömrü sürdü,
Ömrün gör nə qədər dövran ötürdü.
Gözlərin nələri,nələri gördü,
Qulağın nələri eşitdi,dünya?
Bir yanda buz oldun,bir yanda yandın,
Yüyürdün, nə durdun, nə də usandın.
Mərdlərin ömrüylə şöhrət qazandın,
Namərdlər adını kiçiltdi,dünya!
Dünyadan yüz umur beş görməyənlər,
Dünyanı leş bilir leş görməyənlər,
Bir puç saman qədər iş görməyənlər,
Baxtımı puç etdi,heç etdi, dünya!
Dünyanı talamaq bir cürət deyil,
Dünyanı qarğımaq heç qeyrət deyil.
Bizim ölümümüz axirət deyil,
Dünyaya təzədən keçirtdi,dünya! *06.07.2003.*

GÖZƏL GÖRÜNÜR

Payızda bir isti otaq içində,
Yaxın da,uzaq gözəl görünür.
Baharda yamyaşıl yarpaq içində,
Bir quru budaq da gözəl görünür.
Ana bir tərəfdə,ər bir tərəfdə,
Ac uşaq görünür gözünə siftə.
Bir tikə çörəyi olmayan evdə,
Tüstümüz ocaqda gözəl görünür.
Göz yanır,ağızdan eyham çıxanda,
Boğazda ilişir söz xam çıxanda.

Dildən bir qiymətli kəlam çıxanda,
Ağız da,dodaq da gözəl görünür.
Susursan,yanında dəniz olanda,
Başqa cür görünür,səssiz olanda.
Adamın ürəyi dərdsiz olanda,
Bir əsgi yataq da gözəl görünür.
Kol da gül kimidir yaşıl çəməndə,
Lalə də,Nərgiz də,tər Yasəmən də.
Ana döşlərini uşaq əməndə,
Eybəcər uşaq da gözəl görünür.
Sinama,bir gözdən nur tökülürsə,
Axıb,sinəsindən Kür tökülürsə.
Birinin ağzından dür tökülürsə,
Üstündə yamaq da gözəl görünür.
Nə zəhmət, köynəyə tər toxunmasa,
Nə çiçək,qönçəyə zər toxunmasa?
İnsana kənardan şər toxunmasa,
Kasıb yaşamaq da gözəl görünür!
Ağasən,dərd kolu bitsə yaxanda,
Bil ki, səndən betər var bu cahanda.
Sevmədiyin şeyə məcbur baxanda,
Ondan quru taxta gözəl-görünür. *07.02.2012*

UZANAR

Bülbül qonsa lap sonuncu budağa,
Budağacan Qızılgül də uzanar.
Halal əldən bir dən düşsə torpağa,
Adam boyu bir sünbül də uzanar.
Gözdən salma gəl kölgəni bir belə,
Səndən qabaq kölkən çatar mənzilə.
Kölgə salsan iynə boyda bir milə,
Zirvəyəcən kiçik mil də uzanar.
Yaralansam,bir ürəkdi yaram da,
Mərd əlində halallaşar haram da.
Bircə an var ölümlə öz aramda,
Bu yol gəli lap yüz il də uzanar! *07.03.2012*

MƏHƏBBƏT DEYİL

Yanğısız ürəkdə sevgi doğulmaz,
Bu başqa bəladır,aşkar dərd deyil.
Gülüm,məhəbbətin çarəsi olmaz,
Çarəsi vardısa,məhəbbət deyil.
Ürək bizdən gizli bir təbiətdir,
Onda duyğu özgə,onda sir özgə.
Can dediyin ürək bir parça ətdir,
Sevgi yanan ürək tamam bir özgə.
Ürək bir tanrıdır, gözə görünməz,
Bizdən uzaqdadır, bizdən də dönməz! *07.03.2012*

KİŞİLƏR DƏ QADINLAŞIR

Gücümüz var, açıqda yox.
Nə acda yox, nə toxda var.
Mətləbimiz işıqda yox,
Qaranlıqda aydınlaşır.
Varımız var,ancaq yadın,
Adı batıb köhlən atın.
Xanə-xanə gəzən qadın,
Xanımlaşır, xatınlaşır.
Kimlər zamana saz qalıb,
Qanan gedib, qanmaz qalıb.
Kişilərərdən çox az qalıb,
Qalanlar da qadınlaşır. *06.03.2012*

NİYƏ?

Nəyə bel bağlayır,bel bükür insan,
Min işdən bir işi kar aşmır niyə ?
Qismətə kür olur,naşükür insan,
Yar deyir, yarına yaraşmır niyə?
Cəzasız canlardan canım cəzana,
Daha baharımız dönüb xəzana.
Yolundan çıxana,yolu azana,

Yollar buxov olub,dolaşmır niyə?
Canlı cövhəridir məhəbbət canın,
Təksən, nadan ilə dolsa dörd yanın.
Nifrət əvəzinə niyə insanın,
Canına sevgilər daraşmır niyə?
Mey içib havadan meydan umuruq,
İçib ayıqlığı meydən umuruq.
Yer verən ruzini göydən umuruq,
Ayağımız altda, yer qaçmır niyə? *06.03.2012*

NANƏCİB

Könül açan bir sözü yox arada,
Boş hay olar, boş küy olar nanəcib.
Sıra olsa , birincidir sırada,
Axırdasa heç şey olar nanəcib.
Ömür boyu el içində pislənər,
Alışsa da, közə dönməz, hislənər.
Elə bil ki, bağırsaqda gizlənər,
Gah yağ olar, gah piy olar nanəcib.
Suya dönər, öz-özünə bulanar,
Yalan deyər, gecə-gündüz yalanar.
Yerə baxar, fikri göydə dolanar,
Bir yer olar, bir göy olar nanəcib.
Tor qurmaqdır, ev yıxmaqdır peşəsi,
Ürəyi var qaratikan meşəsi.
Nə abrı var,nə dərdi, nə nəşəsi,
İçməmişdən lap key olar nanəcib.
Axşam-sabah dilində bir and-aman,
Nanəciblik nə yamanmış, nə yaman!
Kefdən düşməz,odda bişməz heç zaman,
Yüz yol yansa çox çiy olar nanəcib.
Yalquzaqdır nə yurdu, nə yuvası,
Yox özünün nə səsi, nə avazı.
Nə zurnada,nə sazda yox havası,
Çalanlara bir züy olar nanəcib.

Quru çıxar əgər divan qurulsa,
Him-cimi var əgər dili yorulsa.
Yüz tərəfdən bəzək-düzək vurulsa,
Bir tərəfdən kəsiy olar nanəcib.

Açmaz onu nə çöl-çəmən nə meşə,
Söz deyəndə baxmaz kala, dəymişə.
Mərdi darda əksiy eylər həmişə,
Sonra itdən əksiy olar nanəcib. *18.09.2011.*

BƏSDİR MƏNƏ

Can odumu közərtməkçün,
Bircə ah çək, bəsdir mənə.
Can evini düzəltməkçün,
Qədir bilək, bəsdir mənə.

Ayrılığa yanmaq üçün,
Budaq kimi sınmaq üçün.
Bir həsrəti anmaq üçün,
Bircə leylək bəsdir mənə.

Gül-çiçəyə yar olmaqçın,
Sular kimi durulmaqçün.
Bir çəmənə vurulmaqçün,
Bir çiyələk bəsdir mənə.

Ömür yolumda səs olan,
Mənə təmiz nəfəs olan.
Yüz diləyə əvəz olan,
Bircə dilək bəsdir mənə.

Gözüm dünyaya baxırsa,
Damarımda qan axırsa.
Ürəyə beş dost sığırsa,
Bircə ürək bəsdir mənə. *21.09.2011*

GECƏLƏR

Gündüzlərin dərdkeşidir,dostudur,
Gündüzləri demə danır gecələr.
Gecə, gündüz qayğısını tez tutur,
Dərdi-səri yaxşı qanır gecələr.
Ulduzlar da gecələrə baş əyir,
Yatağına bir od-alov döşəyir.
Gündüzlərin min dərdini gövşəyir,
Keçənləri bir də anır gecələr.
Neçə-neçə ölən duyğu dirilir,
Ürəklərin sarı simi gərilir.
Ta əriyib, ağ gündüzə çevrilir,
Səhərəcən belə yanır gecələr.
Çox gecələr tapıb haqqın izini,
Min bir sözün yalanını, düzünü.
Qanan, yanan insan oğlu özünü,
Duyub əsl insan sanır gecələr.
Nə gündüzdür, göydən min şər yağırsa,
Nə gündüzdür, sənə namərd baxırsa.
Ürəklərdə yaxşı fikir doğursa,
Bu fikirlə işıqlanır gecələr. *28.01.2012*

CEYRAN

Toxundun qəlbimdə inləyən simə,
Mən sənə umudam, gülüm,sən kimə.
Yaxşı duyğu kimi gəl gir qəlbimə,
Qəlbimdən keçəni oxuma,ceyran!
Sən kimsən,mən kiməm, bu məlum oldu,
Arzu çiçək açdı,soldu, tum oldu.
Həsrət kotanıyla sinəm şum oldu,
Ümid toxumu səp bu şuma, ceyran.
Taqəti kəsilib daha qəlbimin,
Çıxdın axırına sən ha qəlbimin.
Zərif tellərindən yuxa qəlbimin,
Baxtıma tor-düyün toxuma,ceyran.

Bir həsrət bağrımla-badaş olubdur,
Sevincimlə qəmim qardaş olubdur.
Ağlım da,duyğum da çaş-baş olubdur,
Ustad ol ağlıma,duyğuma, ceyran!
Sənsiz ömür haram, sənsiz gün haram,
Verdiyin dərdlərə çarə qılmaram.
Ömürlük yuxudan heç ayılmaram,
Bircə yol qonaq gəl, yuxuma, ceyran!
Sən demə kim ölər, demə kim qalar,
Arada sərgardan ümidim qalar.
Qorxuram tez öləm,dərd yetim qala,
Səbəb var, səbəb var qorxuma, ceyran. *22.09.2011*

QARANLIQ GECƏDƏ ULDUZ GUR YANIR

Ölməz qəhramanımız, igid
Mübariz İbrahimovun əziz xatirəsinə!

Min ulduz itəndə bir kəhkaşanda,
Min ulduz təzədən tapılır yenə.
Dağ çayı kükrəyib,aşıb-daşanda,
Daşlar da sel-suda çapılır yenə.
Dəniz tufanları coşur dərində,
Cəngəllik içində pələnglər yatır.
Günün zil qaranlıq gecələrində.
Uzaq ulduzun da işığı artır.
İgidlik oddadır,soyuq qanda yox,
Qazan qaynayanda su daşıb yanır.
Tonqallar çox zaman gen meydanda yox,
Dar meydanda gur-gur tutaşıb yanır.
Qeyrəti olanın cürəti gerçək,
Ürəkdən gələn od yandırıb-yaxır.
Buludsuz havada nə od, nə şimşək,
Bulud toqquşanda ildırım çaxır.
Pələng aza bilməz dumanda çəndə,
Onsuz dərə-təpə oyana bilmir.
Dağdan gələn sellər bəndə düşəndə,

Daş dağ qabağında dayana bilmir.
Gah udur,gah tutur dərd anaları,
Ən güclü zülməti analar böğur.
Torpaq yetişdirir mərd anaları,
Bu mərd analar da igidlər doğur.
Səni də mərd ana doğdu, Mübariz,
Lap mərdi-mərdana doğdu, Mübariz!
Hər doğan qadına ana deməzlər,
Hər evdə mərd ana yoxdu,Mübariz!
Qışqırıb nə vətən, nə millət dedin,
İgid oğul oldun səssiz-səmirsiz.
Sən rahat bir ömür sürə bilərdin,
Amma sən yaşadın rahat ömürsüz.
Daşqın sularında daşa-daş dəyir,
Yer küsür, porsuqlar yeri eşəndə.
Aslanlar boş yerə nərə çəkməyir,
Hayqırır düşmənlə pəncələşəndə.
Gecədə Günəşə döndü vicdanın,
Qəzəbin kükrəyib burulğan oldu.
İntiqam hissiylə qaynayan qanın,
Coşub bir gecədə bir vulkan oldu.
Birdən əvəz oldun bir qoşuna sən,
Can qoyub, vətəni yarıda bildin.
Elə bir gecədə təkbaşına sən,
Vətənin gücünü tanıda bildin.
Demə saydığını fələklər sayır,
Haq bizi sevgiylə qoşa qaldlrlr.
Torpaq borcumuzu başa çaxmayır,
Borcunu qananı başa qaldırır.
Demə ana torpaq çəkmək qəm-qübar,
Vətənin dərdini torpaq hiss edir.
Deyirlər insanın beş cür hissi var,
Altıncı hissi də torpaq hissidir.
İgid oğullarla tanınar vətən,
Can verən can atır Vətənə sarı.
Təzədən oyatdın Babəkləri sən,
Təzədən diriltdin Koroğluları.
Bir Vətən qeyrəti hopdu canına,

O gecə təzədən Mübariz oldun.
Cavanşirin qanı keçdi qanına,
Qaçaq Nəbilərə qoç varis oldun.
Döyüşən bir qılınc sığışmaz qına,
Yiyəsiz bir torpaq dərdi göyərdər.
Torpaq namərdi də çəkər qoynuna,
Namərdi göyərtməz, mərdi göyərdər.
Vətən! "Vətən,, deyib bağırmadın sən,
Sən qeyrət daşıyıb, vətəndaş oldun.
Ad verdin adicə bir daşa birdən,
Torpaqda əbədi bitən daş oldun.
Sən Vətən adını vermədin bada,
Axı miyonlarçün candır bir Vətən.
Vətən min igidə arxa olsa da,
Min igid adına söykənir Vətən.
Dil desə " ay Vətən, mənimdir ağrın,,
"Kəlmə-şəhadətə,, ehtiyacı yox.
Vətənin əzizi olan bir oğlun,
Başqa səadətə ehtiyacı yox! *21.03.2012*

BAHARDIMI, PAYIZDIMI GÖRƏSƏN.

Dərələrdə harayı var, hayı var,
Bahardımı, payızdımı,görəsən?
Çöl-çəmənin gül-çiçəkdən payı var,
Tək qayalar paysızdımı, görəsən?
Bostanımı viran qoyub küləklər,
Yoxdu daha çiçək dolu o ləklər.
Bir sevgiyə tutaş olan ürəklər,
Ömrü boyu yalqızdımı,görəsən.
İnsan oğlu arzularda əriyir,
Bir gül üçün dizin-dizin yeriyir.
Bu sevgilər bu qədər ki, can yeyir,
Bu sevgilər cansızdımı, görəsən?
Nə vaxtdı ki, o gül məndən gen düşüb,
Sevgi ömrü ayrılıqla tən düşüb.

Bu gözəlin saçlarına dən düşüb,
Qara saşlı o qızdımı, görəsən?
Hər arzumun öz rəngi var, öz donu,
Hər diləyi öz əvvəli, öz sonu.
Bu dünyada talelərin yolunu,
Sevgi adlı dərd pozdumu, görəsən?
Bir sevgiylə açılmayan gül olmaz,
Söz odunda alışmayan dil olmaz.
Könlüm deyir, eşqin yanar, kül olmaz,
O, baxtımı düz yozdumu, görəsən? *31.01.2008*

ŞADLIQ DEYƏN YOXDUR

Zəmanə yollara kədər çiləyir,
Yaman çəkilmişik iç dünyamıza.
Hamı bir-birinə sağlıq diləyir,
Sağlıq diləyən yox heç dünyamıza. *01.09.2011*

GİZLƏTMƏK OLMAZ

Can ağrını udmaz, göz giryanlığı,
İp torda balığı gizlətmək olmaz.
Sevgini,nifrəti,pərişanlığı,
Bir də qocalığı gizlətmək olmaz! *19.08.2009*

BAXT

Arzudur möcüzə,əslinə baxsan,
Arzu özü çəkib vaxtı gətirir.
Olmayan baxtından nə umacaqsan,
Baxtı olanların baxtı gətirir! *19.08.2009*

BƏDƏNİMİZ-MƏDƏNİMİZ

Çəpər bədənimiz görünür üzdə,
Gövhər mədənimiz içərimizdə! *19.08.2009*

TƏZAD

İnsanın qüdrəti-əqidəsində,
Şamın canı isə bir iplikdədir.
Dağın gücü onun dağ gövdəsində,
Gülün gücü isə zəriflikdədir. *19.08.2009*

Yaradan qəribə qurub xilqəti,
Hər rəng bir çiçəyin öz qismətidir.
İsitmək-ocağın öz təbiəti,
His etmək tüstünün öz xislətidir! *19.08.2009*

HƏYATDAN BƏRK YAPIŞIRIQ

Bilmirik öz çəkimizi,
Poladdan bərk yapışırıq.
Yad tapdayır kökümüzü,
Biz yaddan bərk yapışırıq.
Haq haray salıb car çəksə,
Yanmarıq min qubar çəksə.
Cəllad bir yol tumar çəksə,
Cəlladdan bərk yapışıq.
El canını oda verib,
Yığdığını yada verib.
Milyonları bada verib,
Manatdan bərk yapışırıq.
Hər arzuda bir dad olur,
Arzu odda rahat olur.
Dəqiqələr saat olur,
Saatdan bərk yapışırıq.

Cana baxmırıq can kimi,
Can dönüb olur şan kimi.
Həyat bizi yıxan kimi,
Həyatdan bərk yapışırıq. *19.08.2009*

HAYIFDIR

Yağır gülüşündən bahar havayı,
Gəl, sonra çən-duman ötər, hayıfdır!
Qızıl mücrusütək açılar ağzın,
Düşər gülüşlərin itər,hayıfdır!
Belə ki, yurd saldın gözdə,könüldə,
"Haqdan yanan ocaq sönməz min il də,,
Yanar arzularım hey piltə-piltə,
Əriyər şamdandan betər, hayıfdır.
Mənə axşam kədər, səhər kədərdir,
Ürəyin içində gövhər kədərdir,
Dünyada ən baha gövhər-kədərdir,
Sevincə çox uyma, kədər hayıfdır!
Endin mələk kimi göydən yenə sən,
Bağladın könlümü təzə dinə sən,
Gülüm, daş bağlama ürəyinə sən,
Eşqim daş üstündə bitər, hayıfdır.
Yananın gözündə od ol, böyü sən,
Yandır tüstülənən bir kösöyü sən.
Yandırma boş yerə yeri-göyü sən,
Sönər pir ocağın, yetər, hayıfdır!
Mənə qol-qanad ver, yollar dar ikən,
Zirvəni neynirəm, zirvə qar ikən.
Ölümə aparma, həyat var ikən,
Keçməsin ömür-gün hədər, hayıfdır! *19.08.2009*

NƏ DEYƏSƏN?!

Bu dünya ulu dünyadır,
Gözəllik dolu dünyadır.
Dünya qurulu dünyadır,
Talanlara nə deyəsən?
Əyrilər düzü azdırır,
O göz bu gözü azdırır.
Küçələr bizi azdırır,
Dalanlara nə deyəsən?
Can alan xəlvət almadı,
Can verən möhlət almadı.
Gedənlər ibrət almadı,
Qalanlara nə deyəsən?
Dövran ki, belə quduzdur,
Hər şeydən insan ucuzdur.
Göyərənlər umudsuzdur,
Solanlara nə deyəsən!
Nadan dediyinə yetər,
Aqillərə dərs öyrədər.
Adam var gürzədən betər,
İlanlara nə deyəsən?
Göz yaşı ucuz meydisə,
Səsin bihudə neydisə.
Olacaqlar boş şeydisə,
Olanlara nə deyəsən?
Göydə bayquşlar süzürsə,
Tale özündən küsürsə.
Doğrular bizi üzürsə,
Yalanlara nə deyəsən? *17.08.2009*

XOŞBƏXTLİK

İnsan xoşbəxtliyi hey verib bada,
Özünü ümidlə doydurub, könül!
Xoşbəxtlik sözünü qoca dünyada,
Xoşbəxt olmayanlar uydurub, könül!

Vardır bu həyatın toyu-düyünü,
Könüllər ağlayıb,könüllər gülüb.
İlk dəfə həyatın şirinliyini,
Həmişə acı gün görənlər bilib. *11.08.2009.*

ŞƏR GÖRÜRƏM MƏN

Bir gizli müşgül var sap içində də,
Qara var bir büllur qab içində də.
Elə bil işığın lap içində də,
Naməlum,qaranlıq yer görürəm mən.
Yollar cığır olub,daralır daha,
Yanan səhranı da qar alır daha.
Gülşən gülləri də saralır daha,
Daha tikanları tər görürəm mən.
Günüm-güzəranım beləymiş demə,
Taleyim başa-baş qarışıb qəmə.
Aşkar yaşadığım gün cəhənnəmə,
Daha yuxumda da şər görürəm mən.
Qəm verib həmişə bar-bəhər mənə,
Zər atsam,şeş düşsə,düşməz zər mənə.
Min zərər versə də, dərdi-sər mənə,
Dərdimi ömrümçün zər görürəm mən. *22.03.2009*

QURBAN OLUM

Sürünərəm yollarında dizin-dizin,
Sərt daşına,kəsəyinə qurban olum.
Sənin o pir ocağından dönməz üzüm,
Ocağına, kösöyünə qurban olum.
Sənsiz tale heçdir mənə,boşdur mənə,
Sənsiz ömrün baharı da qışdır mənə.
Paltarını nədən geysən xoşdur mənə,
Sənin yoxsul bəzəyinə qurban olum!

Taxtın-tacın demə doğma yerin imiş,
Dərə,təpə bir müqəddəs pirin imiş.
Yeyilməyən torpaq necə şirin imiş,
Güneyinə, quzeyinə qurban olum!
Çəmənləri külə dönsə, gül bitirər,
Dağa qismət olmayanı çöl bitirər.
Gözəlliyin lal ağızda dil bitirər,
Min gülünə,çiçəyinə qurban olum.
Uzaqlarda xəyal kimi dağ görünür,
Dağlar varsa,dünya hələ sağ görünür.
Dağ başında cuna kimi ağ görünür,
Onun cuna ləçəyinə qurban olum.
Yol üstəyəm,nə sözün var gör oğluna,
Əsirgəmə beşcə qarış yer oğluna.
Torpağından yorğan, döşək ver oğluna,
Yorğanına, döşəyinə qurban olum! *14.08.2009.*

İLİN BU VAXTI

Saçına dolanan adi ip şirin,
Ayağın altında adi çöp şirin.
Ağzında bəslənən dilin şip-şirin,
Hara çıxım gedim dilin bu vaxtı?
Saçın qara bulud,sinən təzə qar,
O qara buluddan belə qar yağar.
Qar sinən üstündə bənövşə xal var,
Bənövşə çıxarmış ilin bu vaxtı.
Demə bahar getdi,saraldı gülsən,
Gülü çiçəyi var qışın da bilsən.
Başıma dən düşür,ayağıma çən,
Dağın o vaxtıdır,çölün bu vaxtı!
Sinəmdən od qopar, başımdan buxar,
Sevginin ayrıca öz atəşi var.
Külümdən dirilib səməndər çıxar,
Dayan, zəvvarım ol külün bu vaxtı.

Yığılıb dərd olur sinəmdə sirlər,
Arxa bildiklərin ümid üzürlər!
Daha sevgiyə də dodaq büzürlər,
Gör sevgi nə çəkir elin bu vaxtı?! *16.08.2009*

DÜNYANIN BU QƏDƏR İNSAN YÜKÜ VAR

Nə bir dayağı var, nə şəriki var,
Yolunu azıbmı gör bu yaşında?
Dünyanın bu qədər insan yükü var,
O, yenə firlanır öz qaydasında! *28.07.2009.*

Kölə kölə kimi baxıb özünə,
Şah kimi baxsaydı,o, şah olardı.
İnsan bələd deyil öz qüvvəsinə,
O, bələd olsaydı,allah olardı.
Bu boyda dünyanı dərk edən insan,
Hələ xəbərsizdir öz dünyasından! *28.07.2009*

ÖMÜR YOLU

Ən xoşbəxt həyat da hey qayğılıdır,
Ən açıq ürək də sirr ilə dolu.
Dünyada ən qısa yol-ömür yolu,
Ən uzun yol isə fikir yoludur.
Bu dünya ən gözəl,ən xoş mənzərə,
Min cənnət gülünə dəyər çırpısı.
Arzular dünyaya baxan pəncərə,
Sevgi bu dünyanın sirli qapısı!
Bitməz bu dünyanın heç haq-hesabı,
Yalanla həqiqət yanbayan yatır.
Ən maraqlı kitab ömür kitabı,
Ən çətin suallar bu kitabdadır. *12.08.2009*

YER OLMUR

Dünyanın əlində daş-tərəzi var,
İnsan baxtı üçün qurulmur ancaq.
Axır göz yaşımız, axıb durulur,
Könüllər dəryası durulmur ancaq!
Yaşına sığışmır başından keçən,
Gəlib sirli keçir gündüzün-gecən.
Ömür yollarımız gedir qəbrəcən,
Dolanır,talanır qırılmır ancaq!
Nə xeyri,insana mələk deməyin,
Yanmaz qəlbimiztək qəlbi mələyin.
Ölçüsü bir olur min-min ürəyin,
Yanğısı,duyğusu bir olmur ancaq.
Meyvənin dəymişi, kalı sorulur,
Arının yükü yox,balı sorulur.
İnsanın həmişə halı sorulur,
Dərdin gələn yeri sorulmur ancaq.
Arana yetişmir dağın leysanı,
Həmişə dərd olmur ömrün xəzanı.
Zaman əzir, bükür, yorur insanı,
Özüsə qocalmır, yorulmur ancaq.
Beşikdən məzara ömür imtahan,
Sınaqdan çıxana kimdir düz baxan.
Zərif ürəklərçün yaranıb cahan,
Zərif ürəkliyə yer olmur ancaq! *10.08.2009*

QALDI ÜSTƏLİK

Zülm dünyada əvvəlcə az idi, *sonra hər gələn ona bir az da artırdı*. (Sədi Şirazi)

Durmaz getdiyimiz yol bir tarazda,
Dəyişir yolları payız da, yaz da.
Hər gələn artırdı zülmü bir az da,
Gedənin də zülmü qaldı üstəlik1
Itirib meyyarı,ölçünü göz də,
Sədaqət də söz də, sevgi də söz də!
Dünya düzəlmədi min qanun üstdə,

Yolları qarışıq saldı üstəlik!
Insan ömrü boyu tapdı, itirdi,
Öz sirin ömrünü harda bitirdi.
Dünya verdiyini soydu, götürdü,
Artıq qazancı da aldı üstəlik. *27.09.2009.*

ALAQ OTLARI

Bürüyüb yalana haqqı, gerçəyi,
Haqqı uçuruma aparmışıq biz.
Nə qədər ətirli otu, çiçəyi,
Halal yuvasından qopamışıq biz.
Bilmədik xilqətin haq-sübutunu,
Doğma özgə oldu, gəlmə qazandı.
Min rəhmət Eropa, alaq otunu,
Torpağın halalca övladı sandı.
Nə qədər fürsəti biz verdik yelə,
Qovduq arıları bal pətəyindən.
Doğma olanları tullayıb çölə,
Dörd əlli yapışdıq yad ətəyindən.
Qatışdı çirkaba çeşmə suları,
Özgə naxırını otarmışıq biz.
Danıb Babəkləri, Koroğluları,
Qondarma igidlər axtarmışıq biz.
Min cür ad qoyulub Vətənimizə,
Salmışıq tarixə özümüz ləkə.
Qoşulub tarixi düşmənimizə,
Düşmən deyən də var hələ Babəkə.
Yoxdur çörəyimin vallah heç düzü,
Savadsız alimlər yalan kəşf edir.
Biz tarix sanmırıq Koroğlumuzu,
Təbrizli Arakel onu vəsf edir.
Niyə ömür sürür bəs ölməlilər?
Onların bu xalqa nə minnəti var?
Millətin qanını soran zəlilər,
Nəbini bəs necə qəhrəman sayar.

Danıb neçə-neçə doğru yolları,
Yalan imza atıb, qollayacaqlar.
Bir vaxt da gələr ki, nər oğulları,
Alaq otu deyib tullayacaqlar.
Haqqı qoymamışıq öz yerinə biz,
Ən yaxın olanı qıraq bimişik.
Bəli,qarnımızın xatirinə bax,
Ətirli gülü də alaq bilmişik.
Hələ hünər deyil çayın daşması,
Bu, çayın havayı çılğınlığıdır.
Millətin özündən uzaqlaşması,
Düşmən bərəsinə yaxımlığıdır! *28.07.2009*

QORXA-QORXA YAŞAMAQDAN

Quş olmuşuq, sərt dağlara,
Qalxa-qalxa yaşamaqdan.
Bezdik barsız budaqlara,
Çıxa-çıxa yaşamaqdan.
Baxtı düzə, yoza-yoza,
Daş-kəsəklə çıxdıq yaza.
Kor olmuşuq əlçatmaza,
Baxa-baxa yaşamaqdan.
Yerə qoyub dizimizi,
İtirmişik izimizi.
Kiçilmişik, özümüzü,
Sıxa-sıxa yaşamaqdan.
Kimdən-kimə salam olur,
Kimin günü bayram olur.
Yaşamaq da haram olur,
Qorxa-qorxa yaşamaqdan. *27.07.2009.*

MİN CAVAB VERƏR

Qoşulub gedirik fikrə,xəyala,
Ürək tonqal olur,insan tab verir.
İnsan ölənəcən eyni suala,
Yüz tərəfdən baxar,yüz cavab verər. *27.07.2009.*

YAŞAYA-YAŞAYA ÖLÜRÜK HƏR GÜN

İki əks qüvvəni daşıyırıq biz,
Kədərdən yapışıb,gülürük hər gün.
Hər gün ölə-ölə yaşayırıq biz,
Yaşaya-yaşaya ölürük hər gün! *27.09.2009*

İnsan çaşır yolu karıxdığıyçın,
"Mən ki,öz yolumdan çıxmıram,,deyir.
Çoxları ölümdən çox qorxduğuyçün,
"Heç zaman ölümdən qorxmuram,,deyir. *27.07.2009*

Nə qədər həyat var, dərdi kəm deyil,
Yatmış dərdləri də eşsən-faciə!
Bir dünya gözündən düşsə, qəm deyil,
Özün öz gözündən düşsən-faciə! *27.07.2009*

Fikir, xəyalımız qayada,düzdə,
Görəsən dünya da razımı bizdən?
Tufanlar, vulkanlar var içimizdə,
Onunçün qaçırıq öz-özümüzdən! *27.09.2009*

Arzular dolaşır belədən-belə,
Hər arzunun ayrı od-ocağı var.
Həmişə dünyadan ummuşuq elə,
Axı dünyanın da umacağı var. *27.09.2009.*

NİGARAN QALDI

Dünyaya baxıram, hey sızıldayır,
Can çəkən yaralı bədənlər kimi.
Elə bil dəyişib tamam çöl-bayır,
Yad əllərdə qalan Vətənlər kimi.
Karvan köç eləyib, boş qalıb binə,
Çoxları yalandan sarmaşıb dinə.

Dünya özbaşına dolanır yenə,
Bir şirin balası itənlər kimi!
Nə doğma dağ qalıb, nə aram qalıb,
Yenə o qar-yağış, o boran qalıb.
Dünyada qalan da nigaran qalıb,
Dünyadan nigaran gedənlər kimi!
Gecələr narahat, gözlər çimirsiz,
Çay köpüksüz olmaz, ocaq kömürsüz.
Təkcə vaxt ötüşür səssiz-səmirsiz,
Bütün arzusuna yetənlər kimi! *27.06.2009*

VƏTƏN, EŞİT MƏNİ!

Gözümün nurunu verərəm sənə,
Gözümün nə qədər nuru var,Vətən.
Qolumun zorunu verərəm sənə,
Qolumun nə qədər zoru var, Vətən.
Ürək Vətənindir, ruh Vətənindir,
Hayıf, ürəyimdə ağrım qalıbdır.
İdrakım sənindir, ağlım sənindir,
Nə qədər başımda ağlım qalıbdır.
Vətənsiz heç zaman üz gülməyəcək,
Sənə ürək dolu sədaqətim var.
Şirin torpağından üzülməyəcək,
İki ayağımda nə taqətim var!
Verdiyin məzara mən can verərəm,
Nə dərdim yetməsin, nə yaram sənə!
Faydalı ömrümü qurban verərəm,
Faydasız ömrümü qıymaram sənə.
Adım bir xatirə adında qalsa,
Sanki bir xəzinə malım-pulum var.
Bir misram kiminsə yadında qalsa,
Üstündə bir misra boyu yolum var.
Haqdan nə gəlibsə, odur fitrətim,
Sənlə ilahi bir vəhdətim var.
Sənin düşməninə min bir nifrətim,
Dostuna sən boyda məhəbbətim var.

Tək sənsən təsəllim güc,taqətim də,
Boş tərif özü də dərddir Vətənə.
Bir ibrət yoxdusa məhəbbətimdə,
Belə məhəbbəti qıymaram sənə! *17.08.2009*

TORPAQ YEYİLSƏYDİ

Acgöz boğa bilmir vəhşi nəfsini,
Vəhşi bir iştahın öz dəhşəti var.
Torpaq yeyilsəydi, yer kürəsini,
Bəlkə bir nəfəsə yeyərdi qurdlar! *25.07.2009*

QALX YENƏ RUHUMA SƏSİN ÇİLƏNSİN!

Mənimçün misilsiz xanəndə olan
Ramiz Hacıyevin unudulmaz xatirəsinə!

Yaralı həsrətin qəlbimdə çin-çin!
Nə qələm ovunur, nə kağız yenə,
Yaman umsunuram sənin səsinçün,
Gəlib oxuyasan bir ağız yenə!

Yaman tapınmışam o segahına,
Başqa səslərə də mən kar olmuşam.
Mən zəvvar olmuşam səcdəgahına,
Bu yaşda təzədən dindar olmuşam.

"Ay Çiçək,, mahnısı həzindən-həzin,
Qəlbimin əbədi möhrü olubdur.
Ruhumda təsəlli olan nəfəsin,
Elə bil ömrümün sehri olubdur.

Səni unutdular,qaldın dumanda,
Bu da talelərin bir cür naxşıdır.
Nadanlar içində, cahil zamanda,
Bəlkə unudulmaq daha yaxşıdır.

Şöhrət ayaqlarda qalıb sürünmür,
Allah halalların tərəfindədir.
Gözəgirənlər var, qəlbə görünmür,
Görünməyən var ki,qəlb evindədir!

İndi zəriflələrə zərbə vururlar,
Zəriflik şəfəqi tez sönsün deyə.
İndi yaxşıları unutdururlar,
Yamanlar daha çox görünsün deyə.
Ötür məclislərdə çoxları dil-dil,
Yalanşı şöhrəti boynuna yükdür.
Qızıl sərdabədə yatanlar deyil,
Zərif ürəklərdə yatan böyükdür!
Yaxşı ki, namərdlər keçmir izindən,
Yalançı adlar var min niyyət güdür.
Bəzən milyonların kor sevgisindən,
İşıqlı bir qəlbin eşqi güclüdür!
Şirin xatirəm var, şirin uyquda,
Təmiz duyğularım hamısı sənsən.
Nə qədər qəlbimdə kövrək duygu var,
Dərmanı, tilsimi,tanrısı sənsən!
Ruhun səmalarda qalan səsindir,
Demə yarpaq solub, kök quruyubdur.
Adına bir mənim sevgim bəsindir,
Allah bu sevgimə möhür qoyubdur.
Ayrıca hökmü var hər bir dövranın,
Hər gün bir insanın könül taxtıdır.
Başımız üstündən ötən zamanın,
Hər anı kiməsə fürsət vaxtıdır.
İnsan başdan-başa sirdir ziyada,
Kim bilib qəlbimdə nələr,nələr var?
Bütöv xoşbəxt ömür yoxdur dünyada,
Xoşbəxt saatlar var, dəqiqələr var! *27.09.2009.*

HARDAN BİLƏRSƏN

Mən dərd güzgüsündə güzgülənirəm,
Bir gizli atəşə istilənirəm.
Yanıram,sönürəm,tüstülənirəm,
İtən məndən itir,hardan bilərsən?
Hər sağda dayanan dərdli sağ olmur,
Hər dərdli olandan dərd sormaq olmaz.

Dərd bitdi, kökündən çıxarmaq olmur,
Bitən bir də bir də bitir,hardan biləsən?
Sevən ağıllanır,havalanırsa,
Tüstüsü görünmür ürək yanırsa.
Harda bir avara dərd dolanırsa,
Gəlib məndən ötür,hardan bilərsən?
Qəlb bənd-bənd yanmırsa,o bənd olmayıb,
Sevgi bəlasına o,səmt olmayıb.
Dərd calanan dərd peyvənd olmayıb,
Dərd də dərdi güdür,hardan bilərsən?
Zərrə-zərrə gələn bol-bol aparır,
Hər coşu-daşan sel min kol aparır.
Səni də,məni də bir yol aparır,
Sonu hara gedir,hardan bilərsən?
Gözlədiyin paya,gör göz dikən kim?
Boyu çatmayana boyun bükən kim?
Can qoyan kim olur,gör can çəkən kim?
Kimlər cana yetir,hardan bilərsən? *30.07.2012*

SÖZÜN MƏSƏLƏ DÖNMƏMİŞ

Əvvəl xəzəli sal yada,
Gülün xəzələ dönməmiş,
Yetməsin göz yaşın bada,
Dərdin xəzərə dönməmiş!
Sevgi sal könül mülükünə,
Göz yaşın dönsün gülgünə,
Qorxma,gözəl de çirkinə,
Çirkinə gözələ dönməmiş.
Həyata bağla taxtını,
Gözləmə ölüm vaxtını.
Sən özün qoru baxtını,
Baxtın nəs ələ dönməmiş.
Vecsiz duanı dinləmə,
Hər dərdi yığıb çinləmə.
Əcəl var deyib inləmə,
Səmtin əcələ dönməmiş.

Daşa dür deyib ipləmə,
Yanmayan odu üfləmə.
Məx deyib,tərifləmə,
Hələ bez ələ dönməmiş.
Sənə yar deyənə yarı,
Olsa da dərdi,azarı.
Baxma bədnəzərə sarı,
Üz bədnəzərə dönməmiş.
Mən öz könlümə döz dedim,
Əyri yolda da düz dedim.
Ağasən, demə söz dedim,
Sözün məsələ dönməmiş! *28.07.2012*

ÜRƏK GİZLƏNİR

Bir gümanla gedir ölüb-gedən də,
Bir yola qovuşur cığır itəndə.
Ən kobud sinədə, kobud bədəndə,
Çox zaman bu zərif ürək gizlənir!! *17.08.2012*

İNDİNİN DOSTLUĞU

Dostluq ruhu bəzər,könüllər gəzər,
Dostluq bir obalıq,dostluq bir ellik.
İndinin dostlugu siqəyə bənzər,
Beşgünlük,bir aylıq,bir-iki illik. *15.08.2012*

ÜRƏYİMDƏN

Ayrılıq günündən qaralıb günüm,
Elə bil asılıb daş ürəyimdən.
Mənim ürəyimdə yaşayan gülüm,
Bir xəbər tutaydın kaş ürəyimdən.
Könül bir yoldadır geri çəkilməz,
Şam tək can əriyər,uçub tökülməz.

Göz yaşım odumu söndürə bilməz,
Axıb gəlməyirmi yaş ürəyimdən.
Qoyma üzün kimi taleyim dönə,
Nə olsa, adınla bağlıyam yenə.
Qəlbimdə hər nə var-sarmaşıb sənə,
Daha nə istərsən boş ürəyimdən.
Könlüm aslı qalıb sənin telindən,
Canım əlindədir-salma əlindən.
Qorxursan könlümdə eşqin selindən,
Qəmdən bir körpü sal,aş ürəyimdən.
Sənin arxancadır fikrim,yaddaşım,
Əriyən arzumdur,axan göz yaşım.
Sən olan ürəyə əyilir başım,
Deyirdim ucadır baş ürəyimdən.
Sən demə,nə belə kövrək olmusan,
Qəminlə də mənə gərək olmusan.
Ürəyi əridib,ürək olmusan,
Mən necə deyim ki, düş ürəyimdən?! *26.10.1982*

MƏNİM TƏK QIZIM

Düşdün ürəyimə bir nəğmə kimi,
Mənim bircə gülüm,mənim tək qızım.
Böyü arzularla,artır yükümü,
Ancaq öz yolunu özün çək qızım.
Arzudur kim bilir yetə,yetməyə,
Arzular yaranıb can titrətməyə.
Sənin yollarında tikan bitməyə,
Yolunda can qoyam,ay çiçək qızım.
Sözüm qalsın sənə məndən amanat,
Hər ucuz duyğuya açma qol-qanad.
Getdiyin yollara bir nişana at,
Bu yollar təzədən dönəcək qızım.
Sən özün özünü çək imtahana,
Zəhmətsiz bir gülü asma yaxana.
Böyü məni kimi,bax bu cahana,
Ancaq sən yaşama mənimtək qızım. *1983.*

MƏKTƏB İLLƏRİ

Əridi şam kimi dərs otağında,
İşığı sönməyən məktəb illəri.
Qaldı xatirənin lal dodağında,
Geriyə dönməyən məktəb illəri.

Xəyal o günlərə yol salır indi,
Hər günün boynuna qol salır indi.
Fikrimdə üfüqtək qızarır indi,
Könlümə dil deyən məktəb illəri.

Aldı o illəri əlimdən zaman,
Çəkdi aramıza xəyaldan duman.
Dindirsən,deyəcək ayrılığından,
Kövrəlib dinməyən məktəb illəri.

Hərdən axıb dolur söz-söhbətimə,
Uzaqdan göz qoyur məhəbbətimə.
Tapşırıb ömrümü sədaqətimə,
Yox olub, enməyən məktəb illəri. *1979*

AYRILIQ

Ayrılıq belimi elə qırdı ki,
Əlim də gözümün yaşını silmir.
Ayrılıq nə yaman gör ağırdı ki,
Ayrılıq da bizdən ayrıla bilmir. *1986*

BƏSDİR AĞLAMA

Yenə nə dedilər məndən bəs sənə,
Onsuz da taleyim nəsdir ağlama.
Ürəkdən yanaram,görünməz sənə,
Göz yaşın hayıfdır,bəsdir,ağlama. *1982*

YADINA SALMA

Məni hər xəyalın oduna salma,
Nəyəm,öz odumda bişməsəm əgər?
Məni fikirləşib yadına salma,
Mən özüm yadına düşməsəm əgər. *1981*

GÜZGÜ

Güzgünü on yerə parçaladılar,
Hər şeyi göstərdi parçaları da. *1983*

XƏSİS

Xəsis belə dedi çıxarkən canı,
Oğul,qurban olum,az ver ehsanı. *1983*

ANA

İlk övlada qədər elə bil ana,
Yaşayır eşqinin təmiz adıyçın.
Elə ki, övladı gəldi cahana,
Analar yaşayır öz övladıyçın. *1979*

MƏNİ UNUTMA

Hərdən qəzəbini söndürmək üçün,
Xəyalını göydən endirmək üçün.
Köhnə xatirəni dindirmək üçün,
Gərəyin olaram,unutma məni.
Eşqin qiymətini qaldırmaq üçün,
Küskün arzuları güldürmək üçün.
Bəlkə bir boşluğu doldurmaq üçün,
Gərəyin olaram,unutma məni.

Çox sirri qınından sıyırmaq üçün,
Qəlbini söz ilə doyurmaq üçün.
Yaxşını yamandan ayırmaq üçün,
Gərəyin olaram,unutma məni.
Yeni bir həsrətə əl tutmaq üçün,
Təzə göz yaşını qurutmaq üçün.
Eşqimi son dəfə unutmaq üçün,
Gərəyin olaram unutma məni!
Özünü yaxşıca tanıtmaq üçün,
Gərəyin olaram,unutma məni! *1982.*

MƏNƏ NİFRƏT ETSƏN.

Mənə nifrət etsən incimərəm mən,
Təki nifrətinin mənası olsun.
Təki işıq yansın fikirlərindən,
Təki nifrətindən el razı olsun.
Sən bu nifrətinlə bir yol açasan,
Sənin bu yoluna el gedə bilsin,
Təki nifrətinlə işıq saçasan.
Şölən ürəkləri tərpədə bilsin,
Mənasız nifrətdən tez sarsılıram,
Qorxmaram bu nifrət ürəkli olsa.
Sənin nifrətinə səcdə qılaram,
Nifrətin bir elə gərəkli olsa.
Dəniz dalğasını çırpır sahilə,
Bilir ki, sahildən nə umur onda.
Təkcə bir məhəbbət yaşatmır elə,
Nifrət də yaşadır sağlam olanda. *1983.*

MƏNİ UNUTDUN

Qəlbimdə yarımcan bir arzu qaldı,
Başımda bir dərdin havası qaldı.
Üzüm gül üzünə tamarzı qaldı,
Demədim üzünə,məni unutdun.

Kimdən nur alacaq mənsiz gözlərin,
Mənimçün dünyadan əziz gözlərin.
Niyə dumanlandı nərgiz gözlərin,
Çən düşdü gözünə,məni unutdun.
Dilim bağlı qaldı,sözü itirdi,
Ürəyim kül oldu,közü itirdi.
Başqası yan getdi,izi itirdi,
Mən düşdüm izinə,məni unutdun!
Könlümü bir eşqin oduna saldım,
Özümü bu kökə,bu dona saldım.
Mən səni yadın da yadına saldım,
Baxdın yad sözünə,məni unutdun.
Sən əldən gedənə əl tutmalıydın,
Gözümün yaşını qurutmalıydın.
Sən bir başqasını unutmalıydın,
Kimin əvəzinə məni unutdun!
Yolu kəsə getdim,ömrü qısaltdım,
Yolunda mən neçə dərdi qocaltdım.
Mən səni eşqimlə elə ucaltdım,
Uydun öz-özünə məni unutdun! *1985*

ARTIQ VAR YÜKÜNƏ GÜCÜM YOX, MƏNİM

Gərçi zahirdə fəqirəmsə,qənidir təbim,
Bu gədalıqda pəsənd eyləmərəm sultanı (S.Ə.Şirvani)

Elə yük tutmuşam fikir-xəyaldan,
Var-dövlət yükünə gücüm yox mənim.
Kim qaytara bilər məni bu yoldan,
Yolda qəflə-qatar köçüm yox mənim.
Var-dövlət dalında çoxdur qaranlıq,
Nəfsimlə toxamsa,varlı bir şaham.
Mənim ruzim olsun bir güzəranlıq,
Artıq bir çöpə də yoxdur iştaham.
Ağlı yox var üçün fikir çəkənin,
Çox varın bir doğru şənliyi olmur.
Çox var-dövlət üçün boyun bükənin,
Təkəbbürü olur,mənliyi olmur.

Bəsdir haq çörəyin,haq duzun sənin,
Ovcuna sığmayan tez gedir bada.
Yaşada bilirsə öz ruzun səni,
Hamıdan varlısan demək dünyada.
Göylərə baş çəkən çox dağlar ki,var,
Vüqarı ziyadə,var-dövləti kəm,
Çoxlu bar gətirən budaqlar ki,var.
Həmişə yükündən sınan görmüşəm.
Ağır yük çəkəndir,düz yoldan çıxan,
Çox yük götürənlər dolanbac gəzər.
Fizuli demişkən: "çoxlu mal yığan,
Çoxlu yük götürən-hanbala bənzər.
Dişin batmayançın batma sən qəmə,
Fikrimi qoy açım bir el sözüylə:
"Yuxarıya baxıb fikir eyləmə,
Aşağıya baxıb,sən şükür eylə,,!
Yolun hamar olsun,başın xatasız,
Tox nəfis ömürçün möhlətdir sənə.
Yaşada bilirsə dərdsiz-qadasız,
Az payın ən böyük dövlətdir sənə. *16.04.2011*

ANAMIN MƏZARI ÜRƏYİMDƏDİR.

Anam Sədəfin xatirəsinə

Çox gedə bilmirəm ziyarətinə,
Düşər dərdi-sərim mələyin üstə.
Arxayınam torpaq sədaqətinə,
Qarğış yağdırmaram fələyin üstə.
Birdən alışardı,birdən sönərdi,
Bir soyuq kəlmədən qəlbi sınardı.
Hər kiçik loxmada o udqunardı,
Göz yaşı düşərdi çörəyin üstə.
Bir saman çöpüycə yoxdu amanı,
Daşıdı o boyda ağır zamanı.
Tamam üzülmüşdü ümid-gümanı,
Qalmışdı bir ümid dirəyi üstdə.

Desəydilər oğlun dağ başındadır,
Dağların qarında,yağışındadır.
Qəbri lap dünyanın o başındadır,
Uçardı bir qərib küləyin üstə.
Könlümü anamın ruhu bilmişəm,
Həsrətin əlində çox döyülmüşəm.
Mən qəbrin üstünə nə əyilmişəm?
Min yol əyilmişdi bələyim üstə.
Xatirə azarı ürəyimdədir,
Min giley-güzarı ürəyimdədir.
Anamın məzarı ürəyimdədir,
Göz yaşı tökürəm ürəyim üstə. *19.08.2012*

DƏRDİ-SƏR BÖYÜTDÜ BİZİ DÜNYADA

Qardaşım Ağasəfin 70 illiyinə

Ayağım altına qoydum illəri,
Üstündən boylanıb keçmişə baxdım.
Göynədi bir köhnə yaramın yeri,
Sonra yaşındakı yetmişə baxdım.
Dərdlər qalaqlandı ürəyimizdə,
İllər üstələnib pilləkan oldu.
İllərdən düzələn pillələr üstə,
Gah solğun çiçəklər,gah tikan oldu.
Biz qovub illəri haqlamalıydıq,
Haçan üzdə açıq aynamız oldu?
O vaxt biz uşaqlar ağlamalıydıq,
Amma gözü yaşlı anamız oldu.
Atamız papiros tüstülədərdi,
Tüstü yanan qəlbin tüstüsü imiş.
Gedib qayıtmayan cüt bala dərdi,
Hələ dərdlərinin bir üzü imiş.
Aclığın əlindən bala qurtaran,
Analara heykəl qoyulmalıydı.
Bu heykəl yanında zülmətlər yaran,
Ürək adlı məşəl qoyulmalıydı.

O vaxt dərd bütövdü, üstümüz yamaq,
Bizi yarasız da göynətdi dövran.
O ağır illərdə gülməkdən qabaq,
Bizə ağlamağı öyrətdi dövran.
Yoxsul sevinc əksə,dönüb dərd bitər,
Demə bizi ayım,ilim böyütdü.
Adətdi,uşağı xoş gün böyüdər,
Bizi dərd böyütdü,zülüm böyütdü.
De, hansı yaramız tamam sağaldı,
Hara sərf olundu bacarığımız.
O boyda ömürdən bizə nə qaldı?
Bir beli bükülü qocalığımız.
Getdi qorxulara ömrün bir payı,
Getdi yuxulara ömrün bir payı.
Uşaqlıq ömrünün gözəl günləri,
Ehtiyac əlində getdi havayı.
Fikir qanadında böyütdü bizi,
Bizimçün çox sual tapmaca qaldı.
Qayğılar böyütdü,qocaltdı bizi,
Qayğıların özü cavanca qaldı.
İllər üstələndi yaş yetmiş oldu,
Yetmiş pöhrələnsin,bitmiş olmasın.
Yetmiş,qoy göyərib yetsin səksənə,
Arada haqqı-say itmiş olmasın.
Balalar əkdiyin bəhrəni dərsin,
İki tərlan böyüt,iki göyərçin.
Ömrün qışında da arzun göyərsin,
Arzuların vaxtı ötmüş olmasın.
Saçın ağarsa da,başın dikəlsin,
Dərdi yekəlməsin,arzun yekəlsin.
Qoy illər ömrünün üstünə gəlsin,
Sevincin ömründən getmiş olmasın.
Qocalıq bir tacdır,bu da bir məşəl,
Qoca arzusu var,cavandan gözəl.
Arzular çiçəkdir,qocalıq xəzəl,
Xəzəl çiçəkləri örtmüş olmasın!! *20.08.2012*

BƏŞƏR XAM QALIB

Əziz dostum Məmmədəli Qıpçağa

Yerlə Göy arası min əfsanə var,
İndi göydən yerə quru dam qalıb.
Min bir əfsanədə min nişanə var.
Hər bir nişanədən bir eyham qalıb.
Göylərə qalxmışıq,göydən enmişik,
Nahaq alışmışıq,nahaq sönmüşük.
Cəmşidin Camından nə öyrənmişik,
Cəmşidin əlindən düşən cam qalıb.
Suallar dünyaya gələn bir uşaq,
Yeddi min sualdır göydəki qurşaq.
Şərabın sirrini kimdən soruşaq?
Nə Əbu Nəvas var,nə Xəyyam qalıb.
Havada havayı əsmir küləklər,
Gizli xəzinədir min-min ürəklər.
Sığınıb ürəyə arzu-diləklər,
Min-min deyilməmiş,arzu-kam qalıb.
İndi Məcnunların qəm oylağı yox,
Leyli sinəsində sevgi dağı yox.
Füzuli dövründən qalan yanğı yox,
Füzuli dövründən yanan şam qalıb.
İndi çoxlarının balıncı fitnə,
Qalxanı kələkdir,qılıncı fitnə.
Bir ucu yalandır,bir ucu fitnə,
Arada əcaib bir əyyam qalıb.
Dillə qəlb arası çəpər yaranıb,
Allah da bilir ki,nə şər yaranıb.
Milyon illərdi ki,bəşər yaranıb,
Bu qədər yol gəlib, yenə xam qalıb! *26.07.2012*

DOYMAYIB

Şerin-sözün misilsiz xiridarına ilk müəllimim,
mərhum Əllam Cəlilovun xatirəsinə!

Belə görüb dədə-bab min illər,
Torpaq sudan,su torpaqdan doymayıb.
Gözzəlliyə mehr salıb könüllər,
Könül coşub,qabarmaqdan doymayıb.
Dil yalandan usanmayıb de nədən?
Gücü olsa,ürək qopar sinədən.
Xilqətimiz belə gəlib binədən,
Şər nahaqdan,mərd də haqdan doymayıb.
Qırx il birgə bir yastığa baş qoyan,
Bir deyildir,budur bizi çaş qoyan!
Kimdir nəfsin qabağına daş qoyan.
Su axmaqdan,göz baxmaqdan doymayıb.
Muzeylərdə düşüb qalıb sevgilər,
İnanmırsan canın verib sevgilər.
Adam var ki,evsizlərə ev dilər,
Adam var ki,ev yıxmaqdan doymayıb.
Sevgi verib,yaşamaqdır bu həyat,
Məhəbbətsiz bir yamaqdır bu həyat.
Kim deyir ki,kef-damaqdır bu həyat,
Cahillərdir,kef-damaqdan doymayıb.
Bağlar gah az,gah da çoxlu gətirir,
Vaxt gah yalan,gah da doğru gətirir.
Həyat min-min insan oğlu gətirir,
Ölüm min-min aparmaqdan doymayır.
İnsan arzu atəşinə qızındı,
Onun hökmü şah hökmündən füzundu.
Arzu yolu ömrümüzdən uzundu,
Odur ki,can yaşamaqdan doyamyır. *26.07.2012*

HƏR ÜRƏYİN ÖZ GECƏSİ VAR

Folklorşünaş dostum Elxan Məmmədliyə

Ulduzlu bir gecə,aylı bir gecə,
Sakit gecənin də özgə səsi var.
Xəyall,həsrətlə yüklüdür gecə,
Hər sirrin ayrıca bilməcəsi var.

Qəlbin bir üzü var,min min bir tərəfi,
Yüküylə ölçülər dərdin şərəfi.
Hər sevən ürəyin ayrı dərd evi,
Hər dərd evinin də qəm küçəsi var.

Dağın öz daşı var,çayın öz daşı,
Əyrinin yanına çəkmə düz daşı.
Demə itib-batır axan göz yaşı,
Hardasa bir gizli gölməçəsi var.

Milyon ulduz yanır bir kəhkəşanda,
Azdır yanğısıyla aşıb-daşan da!
Sevən Məcnun olub,de bu nişanda,
Alışıb yananın gör neçəsi var?

Gecə zirvəsi var söz ilhamının,
Ayrı şöləsi var gecə şamının.
Gündüzlər hamının,günlər hamının,
Amma hər ürəyin öz gecəsi var? *08.08.2012*

GÖZ YAŞI

Ürəyi yananda ağlayar insan,
Alışa-alışa ömür-gün sürər.
Göz yaşı yaranır can yanğısından,
O can yanğısını necə söndürər. *1990*

NİFRƏTİM,MƏHƏBBƏTİM

Ürəyim dayanmır sakit,arxayın,
Bir ümman çalxanır hər nifrətimdə.
Nifrətim böyüksə,məndən qorxmayın,
Deməli,böyükdür məhəbbətim də. *1989*

M Ü N D Ə R İ C A T

DÜNYANIN İŞİ BELƏDİR.....5
QALMADI.....6
MƏN TƏLƏSMİRƏM.....6
ÇATIŞMIR.....7
HƏYAT VƏ ÖLÜM.....8
KİM DEYİR Kİ,..... 8
KƏBƏ İKİYMİŞ.....9
EHTICAYI VAR.....9
AY BAHAR.....10
ONU BAĞIŞLA.....11
SƏN ÇƏKƏ BİLMƏZSƏN MƏN ÇƏKDİYİMİ.....12
YANIQ KƏRƏMİYƏ.....13
YAZIQ SEVGIM, FAGIR SEVGIM.....14
BIR OLDU.....15
DÜŞMƏNİN DÜŞMƏNƏ XEYRİ..... 15
GÜNAHIM OLSAYDI.....15
QOCALDIQ.....16
DOYMADIQ.....17
ARXADA QALAN ILLƏR.....18
ÖMÜRDƏ NƏ DAŞIMIŞIQ..... 18
TORPAQ ŞİRİNLİYİ.....19
BİZ KEÇMİŞƏ BOYLANIRIQ.....20
SONRAYA QALMASIN PEŞİMANÇILIQ.....21
MƏHƏBBƏT TOXUMU..... 21
BİR SÖZ ÜRƏYİMDƏ DUSTAQ QALIBDIR.....21
QIZ ƏLİNDƏDİR.....21
ÖZ YUVAM,ÖZ YURDUM OLSUN..... 22
BİR DƏ QAYİTSAYDI ƏZƏLİM MƏNİM.....22
YAŞDAN YAMAQ OLMAZ.....22
DAŞDAN GÜL OLMAZ.....22
ARXASI OLMASA 23
NECƏ NUR OLASAN MİLLƏT İÇİNDƏ.....23
GÜVƏN İNSANA.....23
DÜNYA İLƏ OYUN OYNADIM.....23
DODAĞINDA GÜLÜŞ TUMURCAQLANIR.....23
QƏLBİN BİR YERİNİ BOŞ QOYMUŞAM MƏN.....23

OYUB ÜRƏYİMİ DƏRD ADLI ALMAZ.....24
QANSIZIN EYBİNİ VAR-DÖVLƏT ÖRTƏR.....24
MƏN QOCALMARAM.....24
HƏLƏ GÖZLÜ OLMAQ GÖRMƏK DEYİLDİR.....25
GÖZƏLDİR.....25
KƏND YOLLARI.....26
GƏLİN BALAM, XAR EYLƏMƏ ADIMI.....26
GÖRÜŞ.....28
BAKIM 29
SƏBƏBİ BİLİNSƏ.....30
DAMCI-DAMCI.....30
QURBANIN OLARAM.....31
SƏNİN GÖZƏLLİYİN MƏNSİZ HEÇ İMİŞ.....31
ACILIQDAN ŞİRİNDİR.....32
AYAQ ALTDA QALAN DÜNYA.....33
HƏR KƏS ÖZ YERİNİ BOŞ QOYUB GEDİR.....34
HAQQ TAPAMMADIM.....34
ÖMRÜM.....35
DUYULMAQ OLMUR.....36
GÜNƏŞƏ QALSIN.....37
MƏHƏBBƏT.....38
MÖCÜZƏYƏ İNANDIM.....39
DARIXACAQSAN.....40
GEN QAÇIR.....40
ÖMÜR PAYI KƏSİLİR.....41
DÜNYADA BİR YETİM TORPAQ AĞLAYIR.....42
BU DÜNYA DAŞ-TƏRƏZİDİR.....43
ZƏİFLƏRİN GÜCÜ.....43
KÜSMÜŞƏM.....44
İNSAN GƏLİR DÜNYAYA.....44
VƏTƏNDİR.....45
AĞLAYIM.....45
BİLSƏYDİM Kİ, QOCALACAM.....46
ŞİR NƏRƏLİ GİRDİMANIM.....46
ÖMÜR KEÇİR.....47
ELƏ DEYƏCƏYƏM Kİ,.. 48
TANRININ DƏYİŞƏ BİLMƏDİYİNİ.....49
SEVƏ BİLSƏ İDİ.....49

EL DƏ SƏNİ YAD EYLƏYƏR.....49
SAZIN ÜSTÜNDƏ.....50
TƏZADLAR.....51
SƏHV EYLƏYƏRSƏN.....51
UTANDIRDI MƏNİ.....52
PUL.....53
SÖZ QABAGINDA.....54
ŞİRİNLƏŞƏR.....54
ÖZ OCAĞIMDA.....55
ÖLÜM DƏ HƏYATA XİDMƏT EDƏRMİŞ.....56
DOYDURA BİLMƏZ.....56
ZOĞAL TALEYİ.....56
FİLİN ÖLÜMÜ.....57
İŞIQ VƏ GÖLGƏ.....57
QOCALIQ LƏNGİYİR.....58
KEÇƏRƏM.....58
TƏNHALIQ OLUR.....58
DÜNYA,YOXSA Kİ,İNSAN?.....59
İTİRİRİK.....60
KÖLGƏ OLMAYIM.....61
NEYNİR.....61
GÖR NƏLƏR KEÇİR.....62
MƏRD DÜNYASI,DƏRD DÜNYASI. 63
GEC ELƏMİŞƏM.....63
KÜBAR DEYİRİK..... 64
GÖZƏLLİK.....64
KİTAB.....65
UÇURUM.....66
KÖNÜLSÜZ.....67
MİLLƏT CIRLAŞIR.....68
BIR DAMCI GÖZ YAŞI SAXLA MƏNİMÇÜN.....68
ÖLÜM-AYRILIQ.....69
ÖZÜMÜN ÖZÜMƏ YAZIĞIM GƏLİR. 69
MÜQƏDDƏS TORPAQ.....70
MƏN DƏ QƏMƏ KÖKLƏNMİŞƏM. 70
BEYT.....71
DÜNƏN, BU GÜN,SABAH. 71
RUHUNA HOPPUMUŞAM DEMƏ. 72

DEMƏ Kİ, ÖLDÜM QURTARDIM. 72
YERİ GÖRÜNÜR.....73
HƏYATIN ÖZÜNƏ OXŞAYIR İNSAN.....73
QAZANIR.....74
NƏDƏN BİLİRSƏN? 74
MÜƏLLİM ADIMLA FƏXR EDİRƏM MƏN.....75
DAHA GEC QANDIRMAQ OLUR. 76
ÖLÜMLƏR.....76
DOST-DÜŞMƏN.....77
MÜSİQİ.....77
XATİRƏLƏRLƏ.....77
YAŞA.....79
XOŞBƏXTLİK.....80
AY TUT AĞACI. 82
ATƏŞ VAR. 82
HƏQİQƏT İŞIĞI. 83
BAXT.....83
SƏNSƏN.....83
VAXT VƏ İNSAN.....84
BİRCƏ DƏQİQƏ.....84
AZADLIQ.....85
QAYIDAR.....85
İNSANLAR QALIB.....86
QADIN.....87
MƏNİM QOCALIQDAN DAHA NƏ QORXUM. 87
GÜZGÜ.....88
YARIMÇIQ.....88
OLA-OLA.....89
NƏ BİLƏR? 90
GÜLÜŞLƏRİNİ.....90
ƏLİN LOĞMAN İDİ,DİLİN TƏSƏLLİ. 91
PEŞİMANÇILIQ.....92
NƏ GUNAHI VAR.....93
SÖZÜM KƏSİLƏNDƏ.....93
HAMININ MAYASI TORPAQ.....94
ANA DİLİM.....94
TANRININ PAYI.....95
AĞILLI-AXMAQ.....97

MÜMKÜN OLUBDUR. 97
ETİRAF.....98
ÖZÜNÜ TAPIR. 98
OLÜM QƏFİL GƏLMİR.....99
ADLAR.....100
BƏLKƏ DƏ.....101
SƏNƏ GÜVƏNDİYİM DAĞLAR.....101
ÇİÇƏK GÖRÜNÜR.....102
SEVGİYƏ GÜCÜ ÇATMAYIR.....103
QOCALDIQ.....103
TƏSƏLLİ BİR BUDUR Kİ..... 105
GƏNCLİK ÖMRÜN İÇİNDƏYDİ.....106
İLLƏR.....107
EŞQİN GÜNAHINI HƏLƏ BİLƏN YOX.....107
QIZLARIN TALEYİ.....108
EHTİYACI VAR.....108
YAŞAMAQ HAQQINDA ÇOX DÜŞÜNƏNDƏ.....109
MEHRİMİ SALMIŞAM DAHA MƏN SƏNƏ. 109
AYRI GÖRƏNDƏ.....110
HAYIFSILANIR.....110
TƏRCÜMAN OLMUR.....111
SƏNİN KİMİN VAR? 111
YOLLAR.....112
DURNALAR KÖÇÜR.....112
DÜNYANIN GƏRDİŞİ. 113
ORDAN ƏLİN ÇATAR MƏNƏ.....114
DÜŞÜBDÜR. 114
BİR DƏ CAVAN OLMAQ İSTƏMİRƏM MƏN.....115
ÇATMIR.....116
AYRILIQ.....116
NƏSƏ ƏKSİLƏR. 117
DARIXDIM.....117
SÖZÜMDƏ QALDI.....118
QARANLIQ.....119
UTANSIN.....120
ÖMÜR DEDİYİN.....121
HƏRƏYƏ BİR BƏHANƏ VAR. 121
XUMARLANIR.....122

LƏYAQƏT.....123
NƏ DƏRDİ.....123
ƏN ŞÖHRƏTLİ ŞƏHİD OLDU BƏXTİYAR.....124
HAYIF.....125
HƏYAT ÖLÜMÜ GİZLƏYİR. 125
QƏMLİ GÜLÜŞLƏR.....126
NAĞD VƏ NİSYƏ. 127
DEYƏNLƏR.....127
GƏRƏK OLARMIŞ.....128
BEH VERİLİBDİR.....129
KÖNÜL.....129
DƏLİYƏM SEVDALI BİR DƏRDDƏN ÖTRÜ. 130
OCAQ GÖRÜNƏR.....130
BU BOYDA DÜNYANI GÖRƏN GÖZLƏRİM.....130
TƏLƏSMİR.....131
SEVİNC.....131
YAĞIŞLI GÜNDƏ.....131
RAHATLIQ.....132
XƏFƏ- XƏFƏ ÖLÜR GEDİR.....133
KİM MƏNDƏN AŞAĞI.....133
İDRAK OLUNMAYAN BİR QANUN DA VAR.....133
BU DOĞMA KƏNDDƏ. 134
YAĞ, EY YAĞIŞ.....135
DİVANƏSİYƏM.....136
BASQALIM.....136
CAVABDEHƏM MƏN.....137
HƏYAT QƏBUL ETMİR BİZ DEYƏNLƏRİ.....137
BİR SEVİNC GÖSTƏR Kİ, ...138
GECƏLƏR OD TUTUB ƏRİMİR NƏDƏN. 138
YANMAYANIN YAN YERİNƏ.....139
EHTİYACI VAR. 139
DƏRDİN KİMƏ DESİN ŞIR-ŞIR BULAQLAR.....140
YAŞADAN OLMAZ.....140
DE QAŞ HARA,DE GÖZ HARA.....141
YAŞAMAQ YAŞATMAQ.....141
ÖLSƏM DƏ ÖZGƏSİ OLA BİLMƏRƏM.....142
İNSAN MÖCÜZƏDİR.....143
İSMAYILLIDIR.....144

UŞAQLIQ YARAŞIR.....145
YARIMÇIQ QALIB.....145
QORXULUDUR.....146
XIRDA YARPAQLAR.....146
AĞLAMAZ.....147
QARA KİPRİKLƏRİN SIX KÖLGƏSİNDƏ.....148
ZƏRİFLİK.....148
SEVİMLİ ŞAİRİM, ZƏRİF ŞAİRİM.....150
SƏN DÜNYANIN İŞİNƏ BAX.....151
SƏBR.....152
NECƏ QALSIN.....152
DARIXIRAM.....153
GECƏ HA UZANSA.....154
NƏĞMƏLƏR.....154
GÖZƏLLİK.....155
ÖZGƏ AĞLI İLƏ DOLANMAMIŞAM.....155
ÇOX XƏFƏ GƏZMƏ.....156
MƏN QIŞIN DƏRDİNİ YAZDA ÇƏKMİŞƏM.....156
QIFIL- AÇAR.....157
YARPAQ TÖKÜLSƏ DƏ AĞAC YAŞAYIR. 157
ADAM VAR.....157
YAXŞIDIR.....157
QALMIR.....158
MƏHƏBBƏT HƏMİŞƏ DİLSİZ DANIŞAR.....158
YOX İMİŞ.....158
AĞASƏN OLMAZ.....159
FƏRHADIM MƏNİM-HƏYATIM MƏNİM.....160
ÖYRƏDİR.....161
ÖLÜMÜ DÜŞÜNƏNLƏRƏ.....162
İNANDIQ.....162
İNSAN İSTƏR GÜLSÜN, İSTƏR AĞLASIN. 162
YAŞAYA BİLƏRDİ İNSAN MİN İL DƏ.....163
İNSANIN TALEYİ ÜZ DÖNDƏRƏNDƏ. 164
TƏLƏSMƏ. 165
MƏN HƏYATIN XƏTRİNƏ.....165
XOŞBƏXTLİYƏ LAYİQ OLSAM. 166
PAY KİMİDİR.....166
AXTARACAQ.....167

ƏGƏR İNSAN.....167
DAĞLAR.....168
QARANQUŞ YUVASI.....169
ÖMRÜ XƏRCLƏMİŞİK. 169
NAŞÜKÜR OLMUŞUQ.....170
BAĞIŞLA,ÜRƏYİM. 170
MƏN HAQ-ƏDALƏTİN ÖLƏM YERİNƏ. 170
ZƏMANƏ QƏLİBDİR.....171
YALANA ÖYRƏŞDİK.....171
HƏLƏ BİZƏ NABƏLƏDDİR BU DÜNYA. 171
SEVİNC VƏ KƏDƏR.....172
GECƏLƏR.....173
BƏNÖVŞƏ.....173
İNSAN DÜNYASINI DƏYİŞMİR HEÇ VAXT 174
PAYIZIN NƏFƏSİ GƏLİR DEYƏSƏN.....174
CANAVAR QAÇMAYA QUZU DALINCA.....175
QARANLIQ İŞIĞIN YARAŞIĞIDIR.....176
NƏLƏR ÇƏKİRƏM.....176
MƏN ÖLÜM HAQQINDA FİKİRLƏŞMİRƏM. 177
ADAM VAR... 177
DÜNYA NEYNƏSİN.....177
QALMAYIB.....178
SƏN ZALIM, MƏN MƏZLUM. 179
ÜRƏYİMDƏ SEVGİ YARADAN KƏSİ.....179
ÖMRÜN PAYIZINDA.....179
XATİRƏ.....179
EPİTAFİYA.....180
ARZULAR.....180
GÜLLƏR VƏ SEVGİLƏR.....180
SƏN ÖLDÜNSƏ.....180
FƏRQİ VAR.....180
ANA.....181
YOLUN YOLÇUSU OLMUŞAM.....182
SANİYƏNİ YAŞAYAYDIM GƏRƏK MƏN.....182
NƏ ŞİRİN YUXUYA GETMİŞƏM GÜLÜM.....183
YOXSUL NƏDƏN DOYUB? 183
ALDANIR.....184
YERDƏ GEDƏNDƏN İZ QALAR.....184

NƏ TƏLƏSDİRİR? 185
KİMDƏN SORUŞUM.....186
YADIMDA QALMIR.....186
BİLƏN YOX.....187
OLMAZ.....188
BU DÜNYA DÜZƏLSƏ... 188
ƏLİ BOŞ.....189
ÖMÜR YÜZ YAŞDA DA YARIMÇIQ OLUR. 189
CAN AĞRIYANDA.....190
HEYRƏT,EY BÜT.....191
TALEYİN OYUNLARI.....192
HƏR İNSAN ÖMRÜNÜN BİR ƏFSANƏSİ.....192
ÇATMIR.....193
DÜŞMÜŞƏM.....194
NƏ XEYRİ ? 194
DOST AĞACLARIM.....195
HƏR GECƏNİN SƏHƏRİ VAR.....196
QUŞLAR ÖZ VAXTINDA OXUMALIDIR. 196
ÖMÜR-GÜN.....197
YAXŞIDIR.....198
BİRCƏ-BİRCƏ.....198
TALEDƏN QORXURAM.....199
SEVƏNLƏRİN DİLİ.....199
DÜNYA YA YALANDIR,YA DA Kİ, QORXU. 200
GÖZƏL GÖRÜNÜR.....200
MÖCÜZƏYƏ İNANDIM.....201
GÖRƏN NEÇƏ ARZU QALIB. 202
HEÇ BİLMİRƏM CƏZAM NƏDİR? 203
QOCA AĞACIN DA KÖZÜ YANDIRAR.....203
FİKİR VAR.....204
AY ANA.....204
İNSAN QƏRİBƏDİR.....205
TƏNHALAR.....206
SEVGİ GÖZLƏMƏ.....206
HEÇ OLAR.....207
QAYIDAR.....208
BEŞİN İÇİNDƏ.....208
CIĞIRLAR.....209

VALLAH HƏLƏ ÇOX QALMIŞAM DÜNYADA.....210
İLLƏR MƏNİ BURAXMIR. 210
İTİRDİM.....211
GÜLƏNDƏ NOLAR.....212
ÖMÜR YOLU.....212
İNSAN VƏ SÖZ.....213
GÖZÜM GÖRƏ-GÖRƏ.....214
DİNCLİK İSTƏYİRSƏN BEŞCƏ DƏQİQƏ. 214
NƏSƏ ÇATIŞMIR.....215
BAXAN YOX.....216
BU DÜNYANIN HƏR ÜZÜNÜ GÖRMÜŞƏM.....217
NOLAR.....217
DAĞILIR.....218
BU DÜNYA.....219
DÜŞDÜM QALDIM BU DÜNYADA.....219
SEVİMLİ ƏZİZ NÖQSANIMIZ.....220
AZ DEMƏ! 220
YAŞADIR.....221
ÖLÜM ARZULAYAN İNSAN.....221
ÖLÜMÜN NƏ GÜNAHI VAR. 222
MİR CƏLAL ÖMRÜ.....222
YANAN QOCALMIR.....224
KÖNÜL.....228
DƏLİ-DİVANƏYƏM. 228
YELLƏNÇƏK.....228
ŞİRİNLƏŞİR.....230
AXŞAMLARIM.....230
BU QOCA DÜNYANIN YADDAŞI Kİ, VAR.....231
DÜNYAYA XİTAB.....231
GÖZƏL GÖRÜNÜR.....232
UZANAR.....233
MƏHƏBBƏT DEYİL.....234
KİŞİLƏR DƏ QADINLAŞIR.....234
NİYƏ? 234
NANƏCİB.....235
BƏSDİR MƏNƏ.....236
GECƏLƏR.....237
CEYRAN.....237

QARANLIQ GECƏDƏ ULDUZ GUR YANIR.....238
BAHARDIMI, PAYIZDIMI GÖRƏSƏN. 240
ŞADLIQ DEYƏN YOXDUR.....241
GİZLƏTMƏK OLMAZ.....241
BAXT.....241
BƏDƏNİMİZ-MƏDƏNİMİZ.....242
TƏZAD.....242
HƏYATDAN BƏRK YAPIŞIRIQ.....242
HAYIFDIR.....243
NƏ DEYƏSƏN?! 244
XOŞBƏXTLİK.....244
ŞƏR GÖRÜRƏM MƏN.....245
QURBAN OLUM.....245
İLİN BU VAXTI.....246
DÜNYANIN BU QƏDƏR İNSAN YÜKÜ VAR.....247
ÖMÜR YOLU.....247
YER OLMUR.....248
QALDI ÜSTƏLİK.....248
ALAQ OTLARI.....249
QORXA-QORXA YAŞAMAQDAN.....250
MİN CAVAB VERƏR.....250
YAŞAYA-YAŞAYA ÖLÜRÜK HƏR GÜN.....251
NİGARAN QALDI.....251
VƏTƏN, EŞİT MƏNİ! 252
TORPAQ YEYİLSƏYDİ.....253
QALX YENƏ RUHUMA SƏSİN ÇİLƏNSİN! 253
HARDAN BİLƏRSƏN.....254
SÖZÜN MƏSƏLƏ DÖNMƏMİŞ.....255
ÜRƏK GİZLƏNİR.....256
İNDİNİN DOSTLUĞU.....256
ÜRƏYİMDƏN.....256
MƏNİM TƏK QIZIM.....257
MƏKTƏB İLLƏRİ.....258
AYRILIQ.....258
BƏSDİR AĞLAMA.....258
YADINA SALMA.....259
GÜZGÜ.....259
XƏSİS.....259

ANA.....259
MƏNİ UNUTMA.....259
MƏNƏ NİFRƏT ETSƏN. 260
MƏNİ UNUTDUN.....260
ARTIQ VAR YÜKÜNƏ GÜCÜM YOX, MƏNİM.....261
ANAMIN MƏZARI ÜRƏYİMDƏDİR. 262
DƏRDİ-SƏR BÖYÜTDÜ BİZİ DÜNYADA.....263
BƏŞƏR XAM QALIB.....265
DOYMAYIB.....266
HƏR ÜRƏYİN ÖZ GECƏSİ VAR.....267
GÖZ YAŞI.....267
NİFRƏTİM, MƏHƏBBƏTİM.....267